بسم الله الرحمن الرحيم

HARUN YƏHYA

# İSLAM və XRİSTİANLIQ

Çevirən:

**Elşad Miri**

**Bu tərcüməmizdə istifadə edilən ayələr Vasim Məmmədəliyevin və Ziya Bünyadovun birlikdə hazırladığı Qur'anın Azərbaycan dilindəki tərcüməsindən götürülüb**


| | |
|---|---|
| Çevirən | **Elşad Miri** |
| Redaktə | **Məryəm Selcan** |
| Hazırlayan | **Şəlalə Arifqızı** |
| Korrektə | **Sevda Talıbova** |
| | **Sevinc Nəcəfova** |



**Bütün irad və təkliflərinizi**

**elshadmiri@yahoo.com**

**mail ünvanına yaza bilərsiniz**



İSLAM VƏ XRİSTİANLIQ, Harun Yəhya, Çevirən: Elşad Miri, Bakı, «Əbilov, Zeynalov və oğulları», 2004, səh.

sifarişlə

İSBN

HARUN YƏHYA

# İSLAM

# və

# XRİSTİANLIQ

**Çevirən:**

**Elşad Miri**

# İÇİNDƏKİLƏR

Giriş 7
Həzrəti İsa 11
Həzrəti İsanın həyatı 35
Hz.İsa Allahın oğlu deyil, peyğəmbəridir 62
Xristianların üçləmə səhvləri 67
Üçləmə inancı Qur'an tərəfindən rədd edilir 75
Üçləmə etiqadı Hz.İsadan əsrlərlə sonra ortaya çıxıb 81
İncildəki həqiqi xristianlıq 120
İncildə tanıdılan "Allahın peyğəmbəri Hz.İsa" 132
İncil müəllifləri Hz.İsanın həyatına şahid olmayıb 152
Xristianların bu əsassız iddianı ortaya
atmasının səbəbi nə ola bilər? 174
İznik məclisindən bu günə qədərki üçləmə əleyhdarı
olan xristianlar 217
Nəticə 233

## MÜƏLLİF VƏ ONUN
## ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. Orta məktəbi Ankarada oxuyub. Sonra İstanbulda Memar Sinan Universitetinin gözəl sənətlər fakültəsində və İstanbul Universitetinin fəlsəfə bölümündə təhsil alıb. 80-ci illərdən bu günə qədər imani, elmi və siyasi mövzularda xeyli əsər yazıb. Bununla yanaşı müəllifin təkamülçülərin (darvinistlərin) saxtakarlığını, onların iddialarının heç bir elmi həqiqətə əsaslanmadığını göstərən, habelə darvinizmin qanlı ideologiyalarla şübhəli əlaqələrini üzə çıxaran bir çox mühüm əsərləri var.

Müəllifin bu imzası inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət əlaməti olaraq seçilib: onları yad etmək məqsədilə Harun və Yəhya adlarından istifadə edilib. Rəsulullahın möhürünün müəllif tərəfindən kitabların üz qabığına vurulmasının simvolik mənası isə onların içindəkilərlə bağlıdır. Bu möhür Qur'ani-Kərimin Allahın sonuncu Kitabı və sonuncu sözü, Peyğəmbərimizin isə peyğəmbərlərin sonuncusu olmasının rəmzidir. Müəllif bütün yazılarında Qur'anı və Rəsulullahın sünnəsini rəhbər tutur. Bununla da inkarçı düşüncə sistemlərinin bütün əsas iddialarını bir-bir puça çıxarmağı və dinə qarşı yönələn etirazları tamamilə susduracaq sonuncu sözü söyləməyi hədəf seçir. Çox böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu sonuncu sözü söyləmək niyyətinə bir dua kimi istifadə edilib.

Müəllifin əsərlərindəki əsas məqsəd Qur'anı bütün dünyada təbliğ etmək, bununla insanları Allahın varlığı, birliyi və axirət kimi əsas iman məsələləri barədə dərindən düşünməyə sövq etmək, inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqatlarını hər kəsə göstərməkdir.

Harun Yəhyanın əsərləri Hindistandan ABŞ-a, Böyük Britaniyadan İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və MDB ölkələrinə qədər dünyanın əksər ölkələrində maraqla qarşılanır və birnəfəsə oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, İndoneziya, malay, benqal, bolqar, yapon, Çin, Azərbaycan kimi dillərə tərcümə edilən bu əsərlər geniş oxucu kütləsi tərəfindən maraqla izlənir.

Dünyanın dörd bir tərəfində böyük rezonans doğuran bu diqqətəlayiq əsərlər insanların çoxunun iman gətirməsinə, əksər adamların da öz imanını kamilləşdirməsinə səbəb olur. Bu kitabları oxuyan və incələyən hər kəs onlardakı hikməti, habelə yığcam, dolğun, asan başa düşülən səmimi üslubu, həyati həqiqətlərin elmi-məntiqi izahını dərhal görür. Bu əsərlər hər bir kəsə tez bir zamanda təsir etmək, tam nəticə ver-

mək, etirazlara yer qoymamaq və dəlillərin elmiliyi kimi xüsusiyyətlərə malikdir. Bu əsərləri oxuyan və onların üzərində ciddi düşünən adamların materialist fəlsəfəni, ateizmi, başqa batil fikir və fəlsəfələri müdafiə etməsi daha əsla mümkün deyil. Bəziləri müdafiə etsələr belə bunu yalnız inadkarlıq üzündən edəcəklər, çünki onların fikirlərinin əsasları çürükdür.

Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhyanın külliyyatında elmi düşüncə nöqteyi-nəzərindən məğlub ediliblər. Şübhə yoxdur ki, bu xüsusiyyətlər Qur'anın hikmətindən və onun ifadə etdiyi fikirlərin gözəlliklərindən qaynaqlanır.

Müəllifin özü isə bu əsərlərinə görə lovğalanmır, əksinə, Allahın hidayətinə vasitəçi olmağa niyyət edir. Bundan başqa bu əsərlər nəşr edilərkən heç bir maddi qazanc güdülmür.

Bu həqiqətlər nəzərə alınmalıdır. O zaman məlum olar ki, insanları onlara görmədiyini görməkdə kömək edən, onların hidayətə gəlməsinə səbəb olan belə əsərlərin oxunmasına həvəsləndirməyin özü də çox mühüm xidmətdir. Bu dəyərli əsərləri tanıtmaq əvəzinə insanların zehnini qarışdıran, fikirlərinin qarışmasına səbəb olan, şübhə və tərəddüdləri aradan qaldırmağa, imanı xilas etməyə bir təsiri olmadığı təcrübədən keçirilən kitabları yaymaq yalnız və yalnız əmək və vaxt itkisi demək olacaq. İmanı xilas etməkdən daha çox müəllifin ədəbi gücünü göstərməyə yönəlmiş kitablarda bu təsirin olmayacağı aydındır. Bu mövzu ilə bağlı şübhəsi olanlar varsa, onlar Harun Yəhyanın əsərlərinin yeganə məqsədinin dinsizliyi aradan qaldırmaqdan və Qur'an əxlaqını yaymaqdan ibarət olduğunu, bu xidmətdəki təsir gücünün, müvəffəqiyyət və səmimiyyətin aydın göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilər. Bunu qəti şəkildə yəqinləşdirmək və anlamaq lazımdır ki, dünyadakı zülm və iğtişaşların, müsəlmanların çəkdiyi əziyyətlərin əsas səbəbi dinsizliyin ideya hakimiyyətidir.

Bunlardan qurtulmağın yolu isə dinsizliyin ideya cəhətdən məğlub edilməsi, imani həqiqətlərin ortaya çıxarılması və Qur'an əxlaqının insanların dərk edib mənimsəyə biləcəyi şəkildə çatdırılmasıdır. Dünyanı hər gün daha çox zülmə, iğtişaş və fəsadlara məruz qoymaq istəyənlərin niyyətini nəzərə alsaq bəlli olar ki, bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə yerinə yetirilməsi çox vacibdir. Əks təqdirdə çox gec ola bilər. Bu əhəmiyyətli xidmətdə çox böyük bir vəzifəni öz üzərinə götürmüş Harun Yəhyanın külliyyatı Allahın icazəsi ilə XXI əsrdə insanları Qur'anda bildirilən əmin-amanlığa və barışa, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmaqda bir vasitə olacaq.

# GİRİŞ

Dünya tarixi boyunca bir çox xalqlara peyğəmbər və elçilər göndərilib. Rəbbimizin ayrı-ayrı dövrlərdə müxtəlif xalqlara göndərdiyi elçilərin hər biri əsasən eyni dini insanlara çatdırıblar. Onlar göndərildikləri xalqları bir olan Allaha iman gətirməyə, bütlərə sitayiş etməməyə, ancaq Allahı razı etmək üçün yaşamağa, Allaha etibar edib ancaq Allahdan kömək istəməyə, yaxşı işlər görməyə və gözəl əxlaqlı olmağa dəvət etmişdilər. Peyğəmbərlərin insanlara çatdırdığı haqq dinin inanc əsasları həmişə eyni olub, ancaq onların tətbiqində dövrün və şəraitin şərtlərinə görə bəzi dəyişikliklər müşahidə edilib. Məsələn, Həzrəti İsa (ə.s.) fərqli bir din gətirməmişdi. Özündən əvvəlki peyğəmbərlərə göndərilən də, Hz.Musaya, Hz.İsaya vəhy edilən də, sonuncu peyğəmbər olan Hz.Muhəmmədə (s.ə.v.) göndərilən də eyni dindir (Bu bənzərliklə Tövratın və İncilin Hz.Musaya və Hz.İsaya ilk göndərildikləri halı nəzərdə tutulur. Çünki Rəbbimizin insanlara hidayət rəhbəri olaraq göndərdiyi bu iki ilahi kitab nazil olunandan sonra təhrif edilmiş, ilkin ori-Yinal hallarından uzaqlaşmışdır). Allah möminlərin bu dinlər arasında heç bir ayrı-seçkilik salmamasının vacibliyini bir ayədə belə bildirir:

**"Söylə: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun oğullarına nazil edilənə, Rəbbi tərəfindən Musa, İsa və sair peyğəmbərlərə verilənlərə inandıq və onların heç birini bir-birindən ayırmırıq. Biz yalnız Ona təslim oluruq!"" ("Ali-İmran" surəsi, 3/84).**

Başqa bir ayədə isə belə buyrulur:

**"Allah: "Dini doğru tutun, onda ayrılığa düşməyin!" - deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi. Sənin dəvət etdiyin**

**müşriklərə ağır gəldi. Allah istədiyi kimsəni Özünə seçər və tövbə edib Ona tərəf qayıdan kimsəni də doğru yola yönəldər!" ("Şura" surəsi, 42/13).**

Uca Allah da dinini bir çox xalqlara göndərmiş və onları peyğəmbərlik məqamı ilə şərəfləndirdiyi elçiləri vasitəsilə xəbərdar etmişdir. Haqq dinin təbliğ edildiyi insanların üzərinə bu dinə tabe olmaq vəzifəsi qoyulmuşdur.

Allahın seçib nümunəvi insanlar etdiyi elçilərinin həyatları, başlarına gələn hadisələr, qarşılaşdıqları çətinliklər, apardıqları böyük mübarizələr özündə bütün insanlar üçün mühüm olan mesaY və ibrətləri ehtiva edir. Qur'anda həyatı, mübarizəsi, əxlaqı ilə insanlara nümunə göstərilən peyğəmbərlərdən biri də Hz.İsadır.

Hz.İsanın anadan olması, həyatı və Allahın dərgahına yüksəldilməsi möcüzəli şəkildə gerçəkləşib. Onun həyatı Qur'anda müfəssəl şəkildə qeyd edilib. Allah Qur'anda bir neçə peybəmbərin hekayətlərini bizə bildirir. Ancaq Hz.İsa müxtəlif yönləri ilə digər peyğəmbərlərdən fərqlənir. Allahın üstün elmlərlə kömək etdiyi bu dəyərli bəndəsi hələ beşikdə ikən danışmış, dünyada qaldığı müddət ərzində də ətrafındakı insanlara böyük möcüzələr göstərmişdir. Onun bu xüsusi vəziyyətinin başqa bir dəlili də Allahın dərgahına yüksəldilməsi və yenidən dünyaya göndəriləcəyi ilə bağlı Qur'anda mühüm işarələrin olmasıdır.

Bu kitabın məqsədi Həzrəti İsanın həyatını və mübarizəsini, malik olduğu yüksək əxlaq və xarakteri daha yaxından tanımaq, mövzu ilə bağlı Qur'an ayələrinin və Peyğəmbərimizin (s.ə.v.) hədislərinin aydınlığında bu müqəddəs insanın təkrar dünyaya qayıdışının müYdəsini verməkdir. Rəbbimiz Qur'anda Hz.İsa haqqında gələcək dövrlə (Qur'anın göndərilməsindən qiyamətə qədərki dövr) bağlı mühüm işarələr vermiş, Peyğəmbərimiz Həzrəti Muhəmməd (s.ə.v.) isə hədislərində Hz.İsa haqqında çox əhəmiyyətli xəbərləri müYdələmişdir. Böyük İslam alimlərindən

birinin Hz.İsanın ikinci dəfə dünyaya gələndən sonra aparacağı mübarizə haqqında verdiyi məlumatlar isə oxuculara sevinc bəxş etməklə yanaşı, onların şövqünü və həyəcanını artıracaqdır. Bütün bunlar bizə Həzrəti İsanın çox fövqəladə yaradılışını, həyatının da möcüzəli şəkildə davam etdiyini göstərir.

Bu kitabı oxuyarkən, bir tərəfdən Hz.İsanın Qur'an ayələrində və hədislərdə qeyd edilən, möcüzələrlə dolu həyatı haqqında məlumat alarkən, digər tərəfdən də hazırda yaşadığımız dövrün çox xüsusi bir zaman kəsimi olduğunu dərk edəcəyik. Bu çalışmamızın məqsədlərindən biri isə Qur'an ayələrində bəhs edilən mühüm bir möcüzəyə diqqəti cəlb etməklə yanaşı, Qur'anda iüxtəlif səbəblərlə mədh edilən Allahın mübarək elçisinin, Məryəm oğlu İsanın yer üzünə ikinci dəfə göndərilişinə nail olmağın feli duasını yerinə yetirməkdir. Yaddan çıxarmamaq lazımdır ki, Həzrəti İsanın gəlişi bütün dünyaya təsir edəcək fövqəladəliklərə malik olan, möcüzəli və metafizikaya aid bir hadisədir. Buna görə də bütün imanlı insanlar hərəkətə keçməli, birlik və bərabərlik içində Hz.İsanı ən gözəl şəkildə qarşılamaq üçün əllərindəki bütün imkanları səfərbər etməlidir. Həyəcanla, sevgiylə, şövqlə yerinə yetirilən bu hazırlıq feli bir dua olacaq, hazırlaşmayanlar isə Hz.İsa yer üzünə qayıdandan sonra şübhəsiz ki, çox peşman olacaqlar. Bütün əlamətlər bizə göstərir ki, Hz.İsanın gəlişi çox yaxındır və hazırlaşmaq üçün vaxt itirməmək lazımdır.

# HƏZRƏTİ İSA

İnsanları Allahın dininə dəvət etmək üçün göndərilən elçilər Rəbbimizin onlara bəxş etdiyi bu şərəfli məsuliyyəti yerinə yetirərkən müxtəlif çətinliklərlə qarşılaşmışdılar. İnkarçılar onların Allahın dinini təbliğ etməsinə mane olmaq istəmiş, insanların elçilərin ardınca getməsinə cürbəcür hiylələr, böhtanlar və təzyiqlərlə əngəl ola biləcəklərini zənn etmişdilər. Allah yolunda mübarizə aparan bütün elçilərin başına gələnlər Hz.İsanın da başına gəlmiş, o, həm bütpərəst Roma iqtidarının, həm də mövhumatçı din adamlarının cürbəcür hücumlarına məruz qalmışdı. Hz.İsa gerçək dinin düşməni olan bu iki cərəyanla eyni anda mübarizə aparmış, bu mübarizə zamanı isə yanında çox az sayda Allaha iman gətirən insan olmuşdu.

Hz.İsanın möcüzəvi şəkildə anadan olması, haqq dini izah etməsi, həyatı boyu göstərdiyi möcüzələr onun qısa müddət ərzində o zamankı xalq tərəfindən gözlənilən Məsih kimi tanınıb sevilməsinə gətirib çıxarmışdı. Ancaq xalqın bu güclü sevgisi və Hz.İsanın mövhumatçı din adamlarına yönəlik haqlı tənqidləri həmin insanların bu müqəddəs insana təzyiqlərinə və ona cürbəcür tələlər qurmasına səbəb olmuşdu. Onların Hz.İsanı öldürmək üçün hazırladığı bütün tələlər Allahın onu Öz dərgahına yüksəldib qoruması ilə nəticəsiz qalmışdır.

Hz.İsanın həyatını və mübarizəsini müfəssəl şəkildə tədqiq etməmişdən əvvəl mövzu ilə bağlı mənbələrin hansılar olmasını öyrənmək faydalı olardı.

## Hz.İsanın həyatı ilə bağlı mənbələr

Hz.İsanın həyatından bəhs edən müxtəlif mənbələr var. Əlbəttə, bu mənbələrin başında heç bir dəyişikliyə məruz qalmayan və heç bir ziddiyyəti olmayan Qur'ani-Kərim gəlir. Buna görə də tarix boyunca dəyişdirilmə ehtimalı olan digər mənbələrdəki məlumatların təsdiqindən ancaq Qur'anda xəbər verilən məlumatlara uyğun olduğu təqdirdə istifadə edilə bilər. Qur'anla ziddiyyət təşkil etməyən digər bəzi tarixi və arxeoloYi bilgilər üçün isə başda İncil olmaqla o zamanlardan qalma variantlardan istifadə ediləcək.

Hz.İsanın həyatı, təbliği və inkarçılarla apardığı mübarizə ilə bağlı müraciət edə biləcəyimiz başqa bir mənbə isə Peyğəmbərimiz Hz.Muhəmmədin (s.ə.v.) hədisləri və İslam alimlərinin açıqlamaları, təfsirləri və izahlarıdır.

Xristianların müqəddəs kitabı olan və Hz.İsa haqqında ən müfəssəl məlumatlar verən İncil bu məsələdə mühüm mənbələrdən biridir. Ancaq İncil Hz.İsadan sonra müxtəlif təhriflərə məruz qalıb və oriYinallığını itirib. Buna görə də İncilin içində Allahın vəhyinə söykənən doğru məlumatlar ola biləcəyi kimi tamamilə insanların yazdığı hissələr də var. Buna görə də İncilin Hz.İsanın həyatı, mübarizəsi və dini təbliğ etməsi ilə bağlı Qur'ana uyğun olan hissələri mühüm tarixi sənəd kimi qəbul edilə bilər.

İncillərin ən tez Hz.İsadan 30-40 il sonra yazıldığı ehtimal olunur. Ancaq əlimizdə bu İncillərdən heç biri yoxdur. Günümüzə gəlib çatan ən qədim İncil mətnləri III-IV əsrlərə aiddir. Xristianlığa bugünkü formasını verən Pavelin (Pavlusun) məktubları isə İncillərdən əvvəl (bizim eranın 52-63-cü illərində) yazılıb.

Bunlarla yanaşı Flavius, Filon, Tassit kimi antik dövr tarixçilərinin əsərlərində də kiçik bölümlərə rast gəlmək mümkündür. Bu tarixçilər həmçinin Hz.İsanın şəxsiyyəti ilə

də bağlı olmasa hər halda onun yaşadığı dövrlə bağlı müfəssəl məlumatlar vermişlər.

Nəhayət, o dövrlə bağlı aparılan arxeoloYi qazıntılar və bu qazıntılar zamanı əldə edilən tapıntılar da Hz.İsanın yaşadığı dövrün və o dövrdə baş vermiş hadisələrin dərk edilməsi üçün mənbə kimi istifadə ediləcək.

## Hz.İsanın dövründə Fələstin

Hz.İsanın yaşadığı dövrdə Ağ dəniz tamamilə Roma imperatorluğunun hakimiyyəti altında idi. İmperatorluq sərhədlərini böyük hərbi fəthlərlə o qədər genişləndirmişdi ki, Ağ dəniz imperatorluğun bir daxili gölünə çevrilmişdi. İmperatorluq hərbi sahədə olduğu kimi mədəniyyət sahəsində də ən güclü dövrlərindən birini yaşayırdı. Qədim yunan mədəniyyətini öz mirası kimi mənimsəmiş və onu yeniliklərlə daha da inkişaf etdirmişdi. Ellinizm adlanan bu cərəyan din də daxil olmaqla həyatın demək olar ki, bütün sahələrində hakim idi. Memarlıq və sənət çiçəklənmə dövrünü yaşayırdı. Romalılar özlərini başqa xalqlardan üstün sayır və öz həyat tərzlərini işğal etdikləri torpaqlarda yaşayanlara da qəbul etdirməyə çalışırdılar.

Romalıların dini Ağ dəniz ətrafında yaşayan bütün xalqlar kimi çoxtanrılı bir din idi. Yunan mifologiyasının xəyal məhsulu olan tanrılar müxtəlif adlarla Roma mifologiyasında da işlədilirdi. Romalılar ən böyüyü Yupiter adlandırılan və heykəlləri rəmzləşdirilən bir çox bütə sitayiş edirdilər. Bəzi Roma imperatorları isə özlərini də bu saxta tanrılar arasına daxil edən qanunlar çıxarmışdılar. Digər tərəfdən, Romanın hakim olduğu torpaqlarda yunan dini və bu inanca məxsus tanrılar da geniş yayılmışdı. Zevs, Hermes, Venus kimi yunan bütlərinin heykəlləri böyük şəhərlərin meydanlarını bəzəyirdi. Sitayiş edilən bütlər bunlarla məhdudlaşmırdı. Hər şəhərdə, hər məhəllədə, hətta hər ev-

də irili-xırdalı cürbəcür bütlər və onların rəmzi kimi qəbul edilən heykəllər, rəsmlər, xüsusi sitayiş və nəzir yerləri var idi. Romalı hökmdarlar bu çoxtanrılı dinlərdən öz hakimiyyətlərini genişləndirmək məsələsində bir vasitə olaraq istifadə edirdilər. Roma imperatorları onların hakimiyyətini təhdid etməyən dinlərə qarışmır, əksinə, bu inancları təşviq edir, hər tərəfdə məbədlər, heykəllər düzəltdirərək həmin bütpərəst inancların yayılmasına çalışırdılar. Din onlar üçün kütləyə sədaqət hissi aşılamağın və onları nəzarət altında saxlamağın bir yolu, bu dünya ilə, daha doğrusu, onların hakimiyyətinə heç bir zərəri olmayan bir sahə idi.

Romalılar başqa bir mədəniyyətlə qarşılaşanda həmin cəmiyyətdə öz saxta tanrılarının oxşarını axtarar və beləliklə də öz üstünlüklərini təmin edə biləcək bir əlaqə yaratmağa çalışardılar. Buna görə də romalılar xüsusilə də IV Antiyokus Epifanes dövründə bir olan Allaha iman gətirən yəhudilərə Zevs adlı baş tanrılarını qəbul etdirməyə çalışmış, amma bu vəziyyət onların arasında böyük mübarizəyə səbəb olmuşdu. Dindar yəhudilər müqəddəs torpaqları mənəvi baxımdan ləkələyən bu Roma bütlərinə etiraz etmiş və romalıların öz bütpərəst inanclarını yaymasına şiddətlə qarşı çıxiışdılar.

Romalılar yəhudilərin dininin özlərinin batil dinindən çox fərqli olduğunu və onların öz dininə olan bağlılığını gördükləri üçün yəhudilərin işlərinə, xüsusilə də dini məsələlərinə çox qarışmamaq qərarına gəldilər və Fələstinin hakimi olduqları dövr ərzində yəhudilərin dini inancının əsaslarını yerinə yetirməsinə icazə verdilər. Yəhudi xalqının dini mərkəzi sayılan məbəd əvvəllər olduğu kimi vəzifəli rahiblər tərəfindən idarə edilirdi. Roma iqtidarı yəhudi rahiblərdən təşkil edilən və ən böyük dini məhkəmə olan Sanhedrin təşkilatının fəaliyyətini davam etdirməsinə də icazə verdi.

Sanhedrin Romanın hakimiyyəti altında da bir yəhudini məhkum edə bilər və yəhudi şəriətində olan cəzaları tətbiq edə bilərdi. Romanın həmin bölgəyə təyin etdiyi idarəçilər xalq arasında ola biləcək üsyanlara qarşı sərt tədbirlər görür, vergi yığmaq məsələsində də heç bir güzəştə getmirdilər. Onların hakim dairələri ilə əməkdaşlıq edən yəhudi iqtidarına buna görə xoş münasibət göstərir, onlara qarşı yönələn üsyanları amansızlıqla cəzalandırırdılar.

Hz.İsa dövründəki kiçik yəhudi milləti qədim dünyanın bir-biri ilə davamlı şəkildə müharibə aparan Misir, Assuriya, Babilistan, Pers və Suriya kimi böyük imperatorluqlarının təhlükəli sərhədlərində yerləşirdi. Yəhudilər buna görə də müstəqil bir dövlət kimi uzun müddət tab gətirə bilməmiş, Babil sürgünündən (b.e.ə. 586-538) etibarən əcnəbi qüvvələrin hakimiyyəti altında qalmışdılar. Onlar ellinizm dövründə əvvəlcə misirlilərin, sonra suriyalıların və sonuncu dəfə də romalıların hakimiyyəti altında qaldılar. Sadəcə qısa bir dövr davam edən bir yəhudi krallığı qurulmuşdu. Onlar rahib əsilli bir ailə olan makabilərin başladığı üsyandan sonra (b.e.ə. 167-142) bir müddət hakimiyyət qurmağa nail olmuşdular. Təxminən 80 il davam edən bu hakimiyyətləri boyunca Haşmonay ailəsi geniş bir ərazidə hakim olmuşdu. Amma öz aralarındakı dəhşətli liderlik mübarizəsi nəticəsində bu hakimiyyət süqut etdi. Əvvəlcə rəqib partiyaların dəstəyini alan romalı general Pompey b.e.ə. 63-cü ildə Qüdsü işğal edərək Fələstinə daxil oldu və yəhudilərə məxsus olan torpaqları Yəhudiyyə (Yudea) bölgəsi ilə məhdudlaşdırdı.

Haşmonay kralı II Hirkanos isə romalıların vassalına çevrilərək məhdud sərbəstliyə malik oldu. Bu tarixdən etibarən yəhudi xalqının içində bu bütpərəst hakimiyyətə qarşı narazılıqlar başlandı. Romalılar b.e.ə. 37-ci ildə bu krallığa son qoydular. II Hirkanosun kürəkəni Herod romalılar tərəfindən Yəhudiyyə kralı təyin edildi.

## Kral Hirodun dövrü

Roma hakimiyyətinin Fələstindəki əsas məqsədi vergi yığmaq idi. Yəhudilərin üzərinə ağır vergilər qoyulmuşdu. Roma bu yolla özünə bağlı bir dövlət mexanizmi qurdu. Bu dövrdə romalıların zəifliklərini bilən, Sezarın öldürülməsindən sonra dəyişən qüvvələr nisbətindən öz mənfəətləri üçün istifadə etməyi bacara bilən və Ellin mədəniyyətinə heyranlığı ilə tanınan I Hirod (b.e.ə. 37-4) romalıların köməyi ilə "Yəhudilərin kralı" olmağa nail olmuş və dövlətin sərhədlərini yenidən Fələstinə qədər genişləndirmişdi. Hirod romalıların xoşuna gəlmək üçün Ellin mədəniyyətinin yayılmasına böyük səy göstərirdi. O bu mədəniyyətin təkcə sənət, memarlıq kimi yönlərini deyil, dünyəvi-maddiyyatçı xüsusiyyətinin də xalq içində yayılmasına çalışırdı. Bu dövrdə yəhudi xalqının dəstəyini ala bilmək üçün Hz.Süleyman məbədini yenidən inşa etdirən kral Hirod bütün ölkəni memarlıq abidələri ilə, heykəllərlə doldurdu. Bu fəaliyyəti nəticəsində ona "Böyük Hirod" (Nerod the Great) ləqəbi verilmişdi. Bütün bu nümayişkaranə işlərinə baxmayaraq dindar yəhudilər Hiroda nifrət edirdi. Çünki o, həm bütpərəst Roma ilə birlikdə iş görən, həm də xalqına zülm edən bir lider olmuşdu.

Hirod Romanın dəstəyi ilə ölkəsini b.e.ə. 37-ci ildən eramızın 4-cü ilinə qədər idarə etdi. Yəhudilər Hirodun ölümündən sonra romalılardan onun hakimiyyətini ləğv etməyi nə qədər istəsələr də romalılar ölkəni Hirodun oğlanları arasında bölüşdürdü. Onun oğlanlarından biri olan Hirod (Nerodes) Antipas romalılar tərəfindən Qaliley bölgəsinin idarəçisi təyin edildi. Tarixi mənbələrə görə, Hz.İsanın təbliği ən azı atası kimi qəddar olan Hirod Antipasın hakimiyyəti illərində gerçəkləşib. Bu bölgədə yaşanan siyasi və sosial həyat bu yöndən çox əhəmiyyət kəsb edir. Qaliley

bölgəsinin sosial quruluşu burada yerləşən əcnəbi koloniyalar üzündən tamamilə dəyişmişdi. Bölgə yəhudiyyəlilər tərəfindən alçaldılmış kimi qəbul edilirdi. Bölgənin mədəniyyəti başda Antipasın saraydakı əyan-əşrəfi və yaxın ətrafı, böyük malikanələr və bəzi məhəllələr olmaqla əsasən Ellin mədəniyyətinin təsiri altında idi. Arami dilində danışan, öz halında yaşayan yəhudi xalqının dini ənənələri isə Ellin mədəniyyətindən kənarda qalmışdı.

Yuxarıda da qeyd etdiyimiz kimi, romalılar yəhudilərin dini işlərinə qarışmazdılar. Ancaq bəzi romalı valilər bu prinsipə uyğunlaşmamışdı. Xüsusilə də Hz.İsanın dövründəki vali Pontius Pilatus (b.e. 26-36) bu prinsipə riayət etməmiş, qəddarlığın və zülmün hakim olduğu bir idarə üsulu nümayiş etdirmişdi. Bu cür davranışına görə də hakimiyyətdən uzaqlaşdırılmışdı.

## Hz.İsanın dövründə yəhudi məzhəbləri

Yəhudilərin üzləşdiyi başqa bir problem isə qövmü içindən parçalayan məzhəb ayrılıqları idi. Miladdan öncə II əsrə qədər yəhudilər arasında bir-biri ilə münaqişədə olan məzhəblərin olduğu məlum deyil. Lakin miladdan əvvəlki son əsrdə yəhudi cəmiyyəti arasında böyük bir parçalanma baş vermiş, yəhudiliyin təməli və həqiqi mənası mövzusunda bir çox müxtəlif baxışlar ortaya çıxmışdı. Bu məzhəblərin inkişaf etməsində Əhdi-Ətiq kitablarının və dini qaydaların müxtəlif şəkildə izah edilməsindən savayı siyasi faktorlor, xüsusilə də Roma üsul-idarəsinin böyük rolu vardı. O dövrün yazılarına baxanda, xüsusilə də dövrün məşhur yəhudi tarixçisi Cozefus Flaviusun qeydlərinə diqqətlə nəzər yetirəndə yəhudi cəmiyyəti arasında çoxlu cərəyanların inkişaf etdiyini söyləmək olar. Müxtəlif cərəyanlar arasında cəmi dördü irəli çıxmışdı. Bunlardan biri Roma hakimiyyəti ilə uzlaşan və bu dövrün dəstəyi ilə hakim sinfi təşkil edə-

rək yüksək səviyyədə yaşayan Saddukilərin yaratdığı cərəyandır.

Bu görüş daha çox varlı yəhudilər arasında geniş yayılmış və bir siyasi partiya görüşü kimi qəbul edilmişdi. **Saddukilər** dini qaydaları yalnız Əhdi-Ətiqin ilk beş kitabına görə müəyyən edir, bu kitabları yalnız texniki baxımdan izah edir, buna görə də ölümdən sonrakı həyat, cənnət və cəhənnəm kimi dinin əsas ünsürlərini qəbul etmirdilər. Saddukilərin qarşısında isə onların bu səhv görüşləri ilə mübarizə aparan, dini mövzularda saddukilərdən fərqlənən və daha sadə bir həyat tərzi keçirən "mühafizəkar" olan **fəriseylər** dayanırdı. İlk dəfə dindar yəhudilər tərəfindən yaradılan fəriseylər yəhudi dininin qorunmasında və müdafiəsində böyük rol oynamışdılar. Sonrakı dövrlərdə fəriseylər arasında da müxtəlif parçalanmalar baş vermişdi.

Başqa bir qrup isə Roma üsul-idarəsinə və sıx əlaqədə olan yəhudilərə qarşı silahlı mübarizə aparan **zilotlardır**. Bu siyasi cərəyanın tərəfdarları Allahın hakimiyyətinə zidd hərəkət etdiyini hesab edən əsas Roma və yəhudi idarəçilərə qarşı terror əməllərinə başlamış, sui-qəsd hadisələri törətmişdilər. Lakin bir müddət sonra onların başladığı bu üsyan hərəkatı qanlı şəkildə yatırılmışdı. Digər bir qrup isə **1947-ci ildə** Ölü dənizdə tapılan Kumran kitabələri ilə məşhur olan, o dövrdə özlərini mağaralarda ibadətə və zikrə həsr edən **essənilərdir**. Bəzi tədqiqatçılara görə, essənilər dindar fəriseylərin bir qoludur. Sonrakı bölümlərdə də bəhs edəcəyimiz kimi, tədqiqatçıların çoxu essənilərin Hz.İsa ilə yaxından bağlı olması qənaətindədir. Bu fikirdə olan tədqiqatçılar xristianlığın təməlinin essənilərə əsaslandığını iddia edirlər.

Tarixi mənbələrə və İncildə olan izahatlara görə, Hz.İsa bu inkarçı və müşrik qruplarla çox böyük bir mübarizə aparmış, onlara hikmətli nümunələrlə Allahın dinini izah etmişdir. Buna görə də haqqında danışılan qrupların

görüşlərini dəqiq şəkildə izah etmək o dövrün qarışıq şəraitini anlamaq baxımından əhəmiyyətli olacaq.

## Saddukilər

Dini qrupları tədqiq edəndə onların sosial status baxımından ən dəyərlisinin saddukilər olduğunu görürük. Bunlar adları Hz.İsa ilə eyniləşdirilməyən yeganə məzhəbdir. Çünki həqiqətən də saddukilər Hz.İsanın gətirdiyi bütün xəbərlərə zidd olan bir dünyagörüşünə malik idilər. Əldəki mənbələrdə müfəssəl şəkildə qeyd olunmamasına baxmayaraq Hz.İsanın bu yanlış cərəyana qarşı mübarizə aparması da ehtimal olunan bir hadisədir. "Matta İncili"ndə Hz.İsa möminləri saddukilərin fikirlərindən xəbərdar etmişdi:

"İsa onlara dedi: "Diqqətli olun! **Fərisey və saddukilərin** mayasından özünüzü qoruyun" ("Matta", 16/6). Roma üsul-idarəsi ilə sıx qarşılıqlı əlaqədə olan və böyük rahiblərin nəslindən olduqlarını iddia edən bu qrup Qüds məbədindəki nizam-intizama görə məsuliyyət daşıyırdı. Bu məbəddəki qurban sistemini bütün təfsilatı ilə tətbiq edən onlar idi (Qüdsdəki Məbəddə icra edilən qurban sistemi Tövratın «Sayılar» və xüsusilə «Levililər» kitablarında ətraflı şəkildə qeyd edilir. Buna görə, Məbəddə qurban kəsilən heyvanların daxili orqanlarının ayrılması və müəyyən qaydalara görə odda yandırılması vacib idi. Allah Quranda yəhudilərin **«Allah bizə əmr etmişdir ki, onun yandıracağı bir qurban gətirməyincə heç bir peyğəmbərə inanmayaq!»** («Ali-İmran» surəsi, 183), - dediklərini bildirərək bu sistemə nə dərəcə əhəmiyyət verdiklərini bildirir. «Bəqərə» surəsinin 67-71-ci ayələrində isə yəhudilərin onlara qurban əmri veriləndə bu məsələdə davamlı olaraq təfərruat axtardıqları və Allahın da onlara bu incəlikləri bildirdiyi xəbər verilir).

Onlar çox mühüm iş kimi qəbul edilən məbəd fəaliyyətini davam etdirdikləri üçün də başqa heç bir işlə maraqlanmır və özlərini yüksək bir sinif kimi görürdülər. Yerinə yetirdikləri bu iş sayəsində böyük bir qazanc, siyasi üstünlüklər və etibar əldə etmişdilər.

Sayı təxminən 7-8 min olan bu rahiblərin vəzifələri atadan oğula keçirdi. Saddukilər bir tərəfdən, hakimiyyətlərinə zəmanət verən ənənəni davam etdirmək istəyir, digər tərəfdən də Ellin mədəniyyətini qəbul edir və bunu təbliğ etməyə çalışırdılar.

Başqa bir tərəfdən də onların "materialist" sayıla bilən özünəməxsus bir inancı var idi. Ölümlə birlikdə ruhun da öldüyünə, yəni ölümdən sonra həyatın mövcud olmadığına inanırdılar. Mələklərin, cənnət və cəhənnəmin, alın yazısının varlığını da qəbul etmir, dünyadakı işlərin dini inanclardan tamamilə ayrı olduğuna inanırdılar. Bunun da səbəbi onların Roma mədəniyyətinin təsiri altına düşmələri idi. Bu yanlış düşüncələri sayəsində də dünya həyatı və iqtidar həvəsi onlar üçün mümkün hala gəlirdi. Saddukilər uzun müddət iqtidarda qalmış, bu müddət ərzində fəriseylərlə və başqa dini cərəyanlarla toqquşmuşdular. Ən sonda miladi tarixlə 70-ci ildə yəhudi dövlətinin süquta uğraması ilə aradan qalxmışdı.

## Fəriseylər

Fəriseylər isə saddukilərdən bir çox mövzularda fərqlənən, onlarla ziddiyyət təşkil edən bir məzhəb idi. Onlar başda Tövrat olmaqla müqəddəs yazılarla maraqlanır, xalq arasında dini nüfuz sahibi kimi qəbul edilir və hörmət görürdülər. Saddukilərin məbədi idarə etməsinə qarşı çıxır, onların bütün dindənkənar davranışlarını tənqid edirdilər. Saddukilərin əksinə olaraq ruhun varlığına, ölümdən sonrakı həyata, cənnət və cəhənnəmə inanırdılar. Saddukilər

kimi Roma üsul-idarəsi ilə sıx əlaqədə deyildilər. Romalıların gətirdiyi Ellin mədəniyyətini əsla qəbul etmirdilər. Lakin Pax Romana adlandırılan və Romanın hakim olduğu torpaqlarda bir sülh şəraitinin mühafizəsini irəli sürmək kimi tətbiqat üsulu onlar üçün də sərfəli idi.

Fəriseylər əslində dini hissiyyatı güclü olan və dinsizliyə qarşı çıxan bir qrupdur. Onlar "şifahi (sözlü) ənənə" adı altında dini mühafizə etməyə və onu yəhudi cəmiyyətinin arasında təbliğ etməyə çalışmışdılar. Hz.Musanın şəriətinin hakim şəriət olması üçün çalışmış, hətta bu məqsədlə döyüşmüşdülər. Bəzi tarixçilər Hz.İsanın təbliğinin ən çox fəriseylərin görüşünə yaxın olduğunu deyərək Hz.İsanın da bu dindar insanlarla birlikdə olduğu fikrini müdafiə edirlər. Lakin İncildə Hz.İsanın fəriseylərlə bağlı müxtəlif xatırlatmaları, xəbərdarlıqları var. Bununla yanaşı İncildə Hz.İsanın fəriseylərlə dostluq etməsi, birlikdə yemək yeməsi barədə xəbərlər də yer alır ("Luka İncili", 7/36; "Luka İncili", 11/37; "Luka İncili ", 14/1).

## Zilotlar

Saddukilər və fəriseylərdən sonrakı ən aktiv qrup zilotlardır. Bu insanların çoxu fərisey mənşəli idi. Lakin onlar Roma işğalına qarşı hiss etdikləri müqavimət səbəbilə radikallaşaraq haqqında danışılan yeni qrupu təşkil etmişdilər. Zilotlar Romaya qarşı silahlı mübarizənin zəruriliyinə inanırdılar. Buna görə də bir müqavimət təşkilatı kimi hərəkət etmiş və partizan taktikası ilə həm romalılara, həm də onlarla sıx əlaqədə olan yəhudilərə qarşı sui-qəsdlər hazırlamış, bəzən də böyük üsyanlar etmişdilər. Zilotların bir qolu bıçaqla silahlanaraq həyata keçirdikləri sui-qəsdlər nəticəsində Hz.İsa dövründə "sicariyi" ("xəncərlilər") kimi xatırlanırdılar.

Bu qrup Böyük Herod dövründə tamamilə fərqli bir siyasi görüşü müdafiə edərək ortaya çıxmışdı. Miladi tarixlə 6-cı ildə Yəhudiyyə birbaşa Roma hakimiyyətinə keçib rəsmi hakimlər vergiyığma məsələsində yeni tənzimləmələr həyata keçirəndə yəhudiyyəli Cudasın rəhbərlik etdiyi zilotlar üsyan etmək istədilər. Bütpərəst Roma imperatorunun hakimiyyətini qəbul etmək onlar üçün Allahın hakimiyyətini rədd etmək və köləliyi qəbul etmək demək idi.

Bu ilk üsyan qısa müddətdə yatırılmış, onların böyük bir hissəsi öldürülmüş, lakin yerdə qalanlar müqavimət göstərməyə davam etmişdilər. Daha sonra bu üsyan silahlı mübarizə halını alaraq I Yəhudi üsyanı (miladi tarixlə 66-70) ilə nəticələnmiş və Masada qalasında baş verən qətllə sona çatmışdı. Hz.İsa dövründə Məsihi gözləyən müəyyən fanatik cərəyanlar ortaya çıxmış və çoxlu sayda tərəfdar toplaya bilmişdi. Romalılar bu hərəkətlərə qarşı dərhal ciddi tədbirlər görmüş, hər bir təzyiq və nəzarəti gücləndirmiş, xalqı narahat edən hər hansı bir hərəkət baş verərsə, dərhal sərt və amansız rəftar etmişdilər. Sonra isə yəhudilər romalıların bu həssaslığından Hz.İsaya qarşı istifadə etmişdilər. Məsihi gözləyən zilotlar Hz.İsanın təbliğinə böyük maraq göstərmişdilər.

## Essənilər və Ölü dəniz kitabələri

Dördüncü qrup olan essənilər isə əvvəlki üç qrupun əksinə olaraq Qüdsdə və ya başqa şəhər və qəsəbələrdə deyil, İordaniya vadisinin ucqar bölgələrində yaşayırdılar. Onlar digər üç qrupa nisbətən dinlərinə daha çox bağlı, batini (daxili) yöndən qüvvətli bir təriqət idilər. O dövrdə çox məşhur olan bir inanc onlarda da hakim idi: **onlar Məsihin yaxınlarda gələcəyinə, İsrail oğulları arasında azğınlıqları, sapmaları və fikir ayrılıqlarını aradan qaldıracağına, ölkəni işğaldan xilas edəcəyinə inanırdılar.** Ellin mədəniy-

yətinə və Roma üsul-idarəsinə tamamilə qarşı olan bu qrup Hz.Musanın gətirdiyi şəriəti ən ideal şəkildə tətbiq etməyə çalışırdı. Vəd edilən Məsih gələnə qədər özlərini bu dünyadan təcrid edib ibadətə həsr etmişdilər. Onlar İordaniya vadisindəki mağaralarda yaşayır və bütün vaxtlarını dini mətnlər üzərində çalışmaqla keçirirdilər.

Flavius öz kitabında bu qrup haqqında müxtəlif şərhlər vermişdir. Lakin 1947-ci ildə Kumranda tapılan çoxlu əlyazmanın essənilər adlandırılan bu təriqətə aid olduğu ortaya çıxdığı zaman bunlar haqqında ən çox məlumat bilinən bir qrupa çevrilmiş, əlyazmaların əhatə etdiyi mövzulara aid şərhlər bu təriqətin əhəmiyyətini daha da artırmışdı.

1947-ci ildə Ölü dənizin şimal-şərqində Kirbet Kurman adlı yerdəki mağaralarda **Ölü dəniz kitabələri** adlı mətnlər tapıldı. Sonrakı illərdə aparılan araşdırmalar nəticəsində 600-ə yaxın ibrani-arami dilində əlyazma və çoxlu sayda parçalar tapıldı. Bu tapıntıların arasında o dövrə aid olan Tövrat mətnləri və əvvəllər məlum olmayan yəhudi dini mətnləri, bu yazıların sahibi olan təriqətin gündəlik həyatından və qaydalarından bəhs edən mətnlər, çoxlu müxtəlif mətnlər var.

Uzun müddət aparılan tədqiqatlardan sonra bu mətnləri yazanların bir yəhudi təriqəti olduğu dəqiqləşdirilmiş və bunların tarixçi Cozefusun bəhs etdiyi essəni təriqəti olduğu ümumi şəkildə qəbul edilmişdir. Roma yazıçısı kiçik Plinusun Kirbet Kumranı essənilərin yaşadığı yer kimi göstərməsi bu qənaəti daha da qüvvətləndirmişdir. Bu mətnlərin ən köhnəsinin miladdan öncə 200-cü ilə, ən yenisinin isə miladdan sonra 68-ci ilə aid olduğu müəyyən edilmişdir. Bu tarix həmçinin romalı general Vepassianusun yəhudi üsyanını yatırmaq üçün başladığı hücumlarla eyni vaxta təsadüf edir.

Mətnlər tədqiq ediləndə essənilərin həyatına və inanclarına aid məlumatların olduğu ortaya çıxmışdır. Yaxın za-

manlarda gələcək xilaskar peyğəmbəri gözləyən bu təriqət müqəddəs mətnlərə, qanunlara nizam-intizam içində və ciddi şəkildə riayət edir, saddukilər cərəyanının əksinə olaraq axirətə, alın yazısına, mələklərə, cənnət və cəhənnəmə inanırdı. Bundan əlavə, bu təriqətin üzvləri özlərini Tanrının xidmətindəki "işığın uşaqları" kimi görür və "qaranlığın uşaqları" ilə aparacaqları döyüşə hazırlaşırdılar. "İşığın uşaqları" ifadəsi İncildə də var. Bu təriqətin üzvləri təmizliyə çox üstünlük verir, gündə bir neçə dəfə yuyunub təmizlənir, bir-birinə qardaş kimi münasibət göstərir və qardaş sevgisinə əhəmiyyət verirdilər. Məsihi gözləmək bu topluluğun inancının əsasını təşkil edir. Nəticə olaraq demək olar ki, bu topluluqda gözləmə və zamanın sonunun yaxınlaşdığı düşüncəsi çox qüvvətlidir. Bu topluluğun yazılarında gəlməsi gözlənən və ya üstün xüsusiyyətləri ilə bəhs edilən birdən artıq insan var. Lakin bunların həqiqi mahiyyəti hələ tam məlum deyil. Bu insanlar məsih-rahib, məsih-kral və ədalət ustadı ifadələri ilə bildirilir.

Aparılan tədqiqatların nəticəsi kimi söyləmək olar ki, essənilər fəriseylərlə davam edən ənənənin bir qolu və eyni dini görüşə bağlı olan topluluqdur. Onlar da fəriseylər kimi saddukilərin rəsmi yəhudilik və Tövrat görüşündən ayrılmış və zahidlik həyatı keçirərək dini yaymağa çalışmışdılar. Bu dindar qrup əlində olan mətnlərə əsaslanaraq yaxında bir xilaskarın, Məsihin gələcəyini də bilir və buna hazırlaşırdı. Bu isə o dövrdə bütün maneələrə baxmayaraq həqiqi dinin mövcud olduğunu göstərən mühüm dəlillərdən birini təşkil edir. Burada qeyd edilməli olan başqa bir mühüm cəhət isə Hz.İsanın dövründə yəhudi cəmiyyətində olan parçalanmadır. Bu millət həm bütpərəst işğalçı hökumət tərəfindən idarə edilir, həm də öz dininə aid müxtəlif fikir ayrılıqları ilə üzləşirdi. Bir-birindən çox fərqli düşüncələrə malik olan məzhəblər əsl yəhudiliyi yalnız özlərinin təmsil etdiklərini iddia edirdi. Bir çox yəhudi də dünyadan ümidini

kəsmiş və yaxın zamanlarda baş verəcək qiyaməti gözləməyə başlamışdı.

## Yəhudilərin "xilaskar" gözləməsi

Əhdi-Ətiqdə Məsihin gəlişi ilə bağlı müxtəlif açıqlamalar var. Sonrakı bölümlərdə bir qismini verəcəyimiz bu açıqlamalar o dərəcədə təsirli olmuşdu ki, yəhudilər üçün Məsih ən böyük qurtuluş mənasını qazanmışdı. Sonrakı əsrlərdə yaşayan məşhur yəhudi ilahiyyatçısı Maimonides yəhudilərin inanc sistemini hazırlayarkən 13 qaydanın ilk ikisini Məsihin gəlişinə ayırmışdı. Bu qaydalar "**Məsihin gəlişinə qəti bir imanla inanıram. Geciksə də onun gələcəyini gözləyirəm**" şəklindədir.

Yəhudilərin etiqadına görə, İsrail oğullarının həm siyasi, həm də dini yöndən zəiflədiyi bir dövrdə Allah onları hər iki yöndən xilas edəcək bir lider göndərəcəkdi. Bu lider həm İsrail oğullarının əvvəllər olduğu kimi Allaha iman gətirməsini təmin edəcək, həm də bir "Məsih" kimi düşmənlərinə qalib gələcəkdi.

Əhdi-Ətiqin bəzi bölümlərində bu xilaskardan tez-tez bəhs edilmiş və onun dövründə ədalətin, əmin-amanlığını və doğruluğun yayılacağı, insanlar arasında xoşbəxtlik və rifahın çoxalacığı xəbər verilmişdi. Məsələn, "İşaya" kitabında Məsihin necə böyük ədalət, "Rəbb qorxusu" və bəsirətlə dolu olacağı və İsrailə necə xoşbəxtlik gətirəcəyi belə müYdələnirdi:

> *"Yəssənin gövdəsindən bir toxum çıxacaq və onun köklərindən bir körpə ağac meydana gələcəkdir. Rəbbin ruhu, hikmət və xoş münasibət ruhu, nəsihət və ürəklilik ruhu, məlumat və Rəbb qorxusu ruhu onun üzərində dayanacaq. O, Rəbb qorxusundan zövq alacaqdır. O, gözlərini gördüyü üçün mühakimə etməyəcək, qulaqları eşitdiyi üçün qərar verməyəcək. Zəifləri ədalətlə mühakimə edəcək, yer üzünün yox-*

*sullarına haqlarını verəcək. Bir dəyənəklə vururmuş kimi yer üzünə sözü ilə vuracaq və dodaqlarının nəfəsi ilə pisliyi yox edəcək. Ədalət onun belinin kəməri... olacaq. Qurd quzu ilə birlikdə oturacaq. Qaplan oğlaqla bir yerdə yatacaq, buzov, aslan və böyük baş heyvanlar birlikdə yaşayacaq və onları balaca bir uşaq güdəcək. İnək ayı ilə birlikdə otlayacaq, balaları bir yerdə olacaqlar və şir öküz kimi saman yeyəcək. Südəmər körpə qara ilanın yuvasının yanında oynayacaq və süddən təzə kəsilən uşaq qara ilanın deşiyinə əlini uzadacaq. Mənim müqəddəs dağımın üstündə heç vaxt pislik edilməyəcək, artıq heç bir zərər verilməyəcəkdir. Çünki dənizin dibi necə onu örtən sularla doludursa, yer üzü də Rəbb məlumatı ilə eynilə dolu olacaqdır" ("İşaya", 11/1-9).*

Məsihin gəlişini gözləmək Hirodun zülmkar hakimiyyəti dövründə daha da güclənmişdi. Yəhudi torpaqlarının hər tərəfində Məsihi gözləyən, onun gəlişi üçün hazırlıq işləri görən və insanları xəbərdar edən hərəkatlar ortaya çıxmışdı. Məsihin gəlişinin bu gözləntisi həm Roma, həm də Hirodun hakimiyyəti üçün bir təhlükə təşkil edirdi. Çünki bu hərəkətlər ümumiyyətlə Romanı və ona bağlı olan yəhudi hakimiyyətini hədəfə alırdı. Belə güclü bir hərəkat bütün xalqı bütpərəst idarə sisteminə qarşı üsyan etməyə təşviq edə bilərdi. Bu məqsədlə də hər iki hakimiyyət özlərinə uyğun tədbirlər görmüşdü. İncildə qeyd edildiyinə görə, Hirod bu məqsədlə Hz.İsanın anadan olması ilə bağlı xəbərləri eşidəndə Məsihi hələ beşikdə olarkən öldürmək istəmiş və bu iş üçün bir qətliam törətməkdən çəkinməmişdi. Hadisə Matta İncilində belə xəbər verilir:

*"İsa hökmdar Hirodun dövründə Yəhudiyyə Beytlehemində anadan olan zaman şərqdən Yerusəlimə münəccimlər gəlib dedilər: "Anadan olmuş yəhudi hökmdarı haradadır? Çünki onun ulduzunu şərqdə gördük..." Hökmdar Hirod bunu eşitdikdə bütün Yerusəlimlə birlikdə təşvişə düşdü. Hirod xalqın bütün baş kahinlərini və din alimlərini toplayaraq*

*onlardan Məsihin harada doğulacağını soruşdu. Onlar da ona dedilər: "Yəhudiyyə Beytlehemində, çünki peyğəmbər vasitəsilə belə yazılmışdır: "Və sən, ey Beytlehem, Yəhuda diyarı, Yəhuda rəislərinin nəzərində heç də əhəmiyyətsiz deyilsən, çünki xalqım İsrailə çoban olacaq Rəhbər səndən çıxacaqdır"". O zaman Hirod münəccimləri gizlicə çağırdı və onlardan ulduzun nə vaxt çıxdığını dəqiq öyrəndi. Və: "Gedin, körpə haqqında əsaslı surətdə məlumat toplayın. Onu tapdığınız zaman mənə xəbər verin...", - deyərək onları Beytlehimə göndərdi" ("Matta İncili", 2/1-7).*

*"...Hirod münəccimlər tərəfindən aldadıldığını gördükdə çox qəzəbləndi və münəccimlərdən öyrəndiyi vaxta görə, Beytlehem və onun bütün civarında olan iki və daha aşağı yaşlı oğlan uşaqlarının hamısını öldürtdü. O zaman Yeremya peyğəmbər vasitəsilə söylənən bu söz yerinə yetirildi: "Ramahda bir səs eşidildi, ağlaşma və böyük şivən; Rahilə körpələri üçün ağlayır və təsəlli tapmaq istəmir, çünki onlar yox oldular"" ("Matta İncili", 2/16-18).*

Gözlənilən Məsihin əsas xüsusiyyətlərindən biri onun Hz.Davud peyğəmbərin nəslindən gəlməsidir. İncildə də Hz.İsanın nəslinin Hz.Davuddan gəldiyi bildirilir.

Yəhudi təriqətlər içində Məsih inancı müxtəlifliklər göstərirdi. Bütövlükdə Məsihi böyük bir peyğəmbər və xilaskar kimi gözləyən bəzi yəhudilər onu əsla fövqəlbəşər bir varlıq kimi görmürdülər. Məsih də Hz.Davud kimi, Hz.Süleyman kimi, Hz.Musa kimi bir insan olacaqdı. Yəni Allahın sadiq bir bəndəsi, Tövratda bildirildiyi kimi, "Rəbb qorxusundan zövq alan" bir insan olacaqdı. Yəhudi məzhəblərindən biri olan essənilər bu Məsih gözləyişi ilə yanaşı Məsihin möcüzələrini də əvvəlcədən xəbər vermişdilər. Onlara görə, Məsih "yıxılanı ayağa qaldıracaq, xəstəni yaxşılaşdıracaq, əsirləri azad edəcək, tozun içində yatanı diriləcəkdir".

Nəticə olaraq deyə bilərik ki, yəhudilər əllərindəki məlumatlara əsaslanaraq Məsihin çox yaxın bir dövrdə gələcəyinə inanırdılar. Çöldə, şəhərlərdə gəzərək Məsihin gəlişini gözləyən və buna hazırlaşan çoxlu insanlar və qruplar var idi.

## Çətinlik və ehtiyac içindəki qövmlərin Allahdan "xilaskar" istəməsi

Çətin vəziyyətdə yaşayan, zülmə və təzyiqlərə məruz qalan xalqların onları bu vəziyyətdən xilas edəcək bir xilaskar gözlədikləri Qur'an ayələrində də bildirilir. Allah "Nisa" surəsində bununla bağlı belə buyurur:

**"Sizə nə olub ki, Allah yolunda: "Ey Rəbbimiz, bizi əhalisi zalim olan bu şəhərdən kənara çıxart, bizə Öz tərəfindən mühafizəçi (xilaskar) göndər, yardımçı yolla!" - deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?" ("Nisa" surəsi, 4/75).**

Ayələrdə Allahın elçi göndərdiyi yerlərdə elçinin gəlişindən əvvəl böyük bir sosial və əxlaqi tənəzzülün yaşandığı xəbər verilir. Elçinin gəlişindən sonra onun ardınca gedən insanlar dinin gətirdiyi bolluq, bərəkət və səadəti yaşadıqları halda elçidən sonrakı dövrlərdə insanların bir qismi nəfslərinə əsir olmuş, getdikcə din əxlaqından uzaqlaşaraq inkarçılığa yönəlmiş, Allahdan başqa bəzi saxta tanrılar hazırlayaraq özlərinə zülm etmişdi. Allah "Məryəm" surəsində elçilərin Allaha olan bağlılığından, səmimiyyətindən və ixlasından bəhs edəndən sonra onlardan sonra gələn cəmiyyətlərin bu inanclarını tamamilə itirdiklərini xəbər verir. Ayələrdə bu insanlarla bağlı belə buyrulur:

**"Bunlar Adəmin və Nuhla gəmiyə mindirdiyimiz adamların nəslindən, İbrahimin, İsrailin (Yəqubun) nəslindən seçib haqq yola yönəltdiyimiz və Allahın nemət bəxş etdiyi peyğəmbərlərdəndir. Onlar Rəh-**

**manın ayələri özlərinə oxunduğu zaman ağlayaraq səcdəyə qapanırdılar. Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar da öz əməllərinin cəzasını alacaqlar" ("Məryəm" surəsi, 19/58-59).**

Allah dinindən uzaqlaşan, niyə yaradıldıqlarını və Yaradan qarşısındakı cavabdehliklərini heç düşünməyən bu insanları müxtəlif müsibətlərlə xəbərdar etmişdir. Bu etdiklərinin əvəzində onlara verdiyi nemətini dəyişdirmiş, "**Hər kəs Mənim öyüd-nəsihətimdən üz döndərsə, güzəranı daralar...**" ("Taha" surəsi, 20/124) ayəsi ilə də bu həqiqəti bildirmişdir.

Tarix boyunca iqtisadi və sosial problemlərin yaşandığı, ədalətsiz bir idarəçilik sisteminin hakim olduğu sıxıntılı dövrlərdə insanlar həmişə bir xilaskara ehtiyac hiss etmişlər. Bu xilaskar içində yaşadıqları mövcud sistemin mənfi yönlərini düzəldəcək, ədaləti, barışı, əmin-amanlığı bərqərar edəcək və onları düzgün yola çıxaracaq. Günümüzdəki cəmiyyətlərdə də çox sürətli bir pozulma, kobudluq, ədalətsizlik və əxlaqi tənəzzül yaşanır. Kasıblıq, səfalət və zülm içində yaşayan insanlar gözəl əxlaqın yaşandığı xoşbəxt bir həyatın həsrətindədir. Allah əvvəlki xalqlara da eyni sosial tənəzzüldən sonra xilaskarlar göndərmiş və sıxıntıdan sonra çox böyük bolluq, bərəkət və zənginlik vermişdir. Allah qorxub çəkinən cəmiyyətlərə bolluq və bərəkət verəcəyini bir ayəsində belə xəbər verir:

**"Əgər o məmləkətlərin əhalisi iman gətirib çəkinsəydilər, sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq. Lakin onlar yalançı hesab etdilər, Biz də onları qazandıqlarına görə məhv etdik" ("Əraf" surəsi, 7/96).**

Rəbbimiz yuxarıdakı ayələrlə bizə çox mühüm bir həqiqəti xatırladır: barışın, xoşbəxtliyin, bolluğun və bərəkətin yeganə yolu din əxlaqının yaşanmasıdır. Bu, keçmiş xalq-

larda bu cür gerçəkləşdiyi kimi bundan sonrakı xalqlarda da eyni şəkildə həyata keçəcək. İslam əxlaqının olmadığı yerdə ədalətin, təhlükəsizliyin, istiqrarın hakim olması mümkün deyil. Bu, Allahın bir qanunudur. "Fatir" surəsində bizə bu müYdə verilir:

**"...Sən Allahın qoyduğu qayda-qanunda heç bir dəyişiklik tapmazsan!" ("Fatir" surəsi, 43).**

Hazırda yaşadığımız dövr maddi və mənəvi tənəzzülün hakim olduğu, müxtəlif azğınlıqların baş alıb getdiyi, böyük bir siyasi və iqtisadi qeyri-sabitliyin hökm sürdüyü, varlı ilə kasıb arasında çox böyük uçurumların meydana gəldiyi bir dövrdür. Bizim Qur'andan öyrəndiyimiz həqiqət isə belə bir vəziyyətdən sonra Allahın bir qurtuluş yolu göstərəcəyi və bu səbəblə İslam əxlaqının bütün dünyada mütləq yaşanacağı, haqq dinin digər batil dinlərə üstün gələcəyi həqiqətidir. Allah "Tövbə" surəsində inanan bəndələrini bu həqiqətlə belə müYdələyir:

**"Onlar Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də ancaq Öz nurunu tamamlamaq istər. Müşriklərin xoşuna gəlməsə də onu bütün dinlərin fövqündə etmək üçün Öz peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!" ("Tövbə" surəsi, 9/32-33).**

Allah hər imanlı xalqa kömək etdiyi kimi bundan sonra da yer üzündəki inananlara yardım edəcək. Allah səmimiyyətlə Ona yönələn bəndələrinə bunu vəd etmişdir. Ayələrdə belə buyrulur:

**"O kəslər ki, haqsız yerə, ancaq "Rəbbimiz Allahdır" dediklərinə görə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan soməələr (rahiblərin yaşadığı monastırlar), kilsələr, məbədlər (yəhudi məbədləri) və məscidlər uçulub dağılmışdı. Allah Ona yardım edənlərə şüb-**

**həsiz ki, yardım edər. Həqiqətən Allah yenilməz qüvvət, qüdrət sahibidir! O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək, namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu Allaha aiddir" ("Həcc" surəsi, 22/40-41).**

## Yəhya peyğəmbər

Əhdi-Cədidə görə, təbliğinə Hz.İsadan bir müddət əvvəl başlayan Hz.Yəhya ətrafındakı insanları Məsihin gəlişi məsələsində müYdələmiş və Məsihin ən çox dəstəkləyən şəxs olmuşdur.

Hz.Yəhyanın anadan olması möcüzəli şəkildə baş verib. Bu hadisənin həqiqi xəbəri "Məryəm" surəsinin əvvəlində bu cür verilir:

**"Kaf, Ha, Ya, Eyn, Sad! Bu, sənin Rəbbinin öz qulu Zəkəriyyəyə olan mərhəmətinin xatırlanmasıdır! Zəkəriyyə Rəbbinə gizlicə dua edib yalvardığı zaman belə demişdi: "Ey Rəbbim! Artıq sümüyüm sustalmış, başım ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə dua etməklə heç vaxt naümid olmamışam. Mən özümdən sonra gələn qohum-əqrəbamdan qorxuram. Zövcəm də ki, sonsuzdur. Buna görə də mənə Öz dərgahından bir oğul bəxş et ki, o, həm mənə, həm də Yəqub nəslinə varis olsun. Ey Rəbbim! Həm də elə et ki, o, riza qazanmış olsun!" "Ey Zəkəriyyə! Sənə bir oğulla müYdə veririk ki, adı Yəhyadır. Biz bu adı əvvəllər heç kəsə verməmişik!" Zəkəriyyə dedi: "Ey Rəbbim! Zövcəm doğmayan bir qadın, mən də qocalıb əldən düşmüş ikən mənim necə oğlum ola bilər?" "Dediyin kimidir, lakin Rəbbin buyurdu ki, bu işi görmək Mənim üçün asandır. Necə ki, ilk**

**əvvəl səni heç bir şey deyilkən yaratmışdım!"" ("Məryəm" surəsi, 19/1-9).**

Luka İncilində Hz.Yəhyanın anadan olması ilə bağlı olaraq Qur'an ayələrinə uyğun gələn məqamlar var. Hz.Yəhyanın atası Hz.Zəkəriyyədir. Hz.Zəkəriyyə və xanımı Lukaya görə, *"Hər ikisi Allah qarşısında saleh olub Rəbbin bütün əmr və ehkamlarına qüsursuz əməl edirdi"* ("Luka", 1/6). Hər ikisi qocalmışdı. Uşaqları olmurdu. Buna baxmayaraq Allah Hz.Zəkəriyyəni oğlunun olacağı ilə müYdələmişdi. Luka İncilində bu hadisə belə xəbər verilir:

"Rəbbin bir mələyi Zəkəriyyəyə göründü və büxur qurbangahının sağında durdu. Zəkəriyyə onu gördükdə çaşdı və onu qorxu bürüdü. Mələk isə ona dedi: "Qorxma, Zəkəriyyə, çünki sənin duan eşidildi. Arvadın Elizabet sənə bir oğul doğacaq və onun adını Yəhya qoyacaqsan. Sevinc və səfa tapacaqsan və onun doğulmasına bir çoxları da sevinəcəklər. Çünki o, Rəbbin qarşısında böyük olacaq, şərab və başqa içki içməyəcək və hələ anasının bətnində ikən Müqəddəs Ruhla dolacaqdır. Və İsrail oğullarından bir çoxunu onların Allahı olan Rəbbə tərəf döndərəcəkdir"" ("Luka İncili", 1/11-16).

Hz.Yəhya təqva sahibi olan saleh bir bəndə və xalqı üçün də bir hidayət rəhbəri olub. Allah bu səmimi bəndəsini Qur'an ayələrində belə tərifləyir:

**"Ey Yəhya! Kitabdan bərk yapış! Biz uşaq ikən ona hikmət verdik. Biz həm də ona Öz dərgahımızdan bir mərhəmət və paklıq bəxş etdik. O, müttəqi idi. Yəhya ata-anasına qarşı da olduqca itaətkar idi: zalim, asi deyildi. Ona doğulduğu gündə, öləcəyi gündə, diriləcəyi gündə salam olsun!" ("Məryəm" surəsi, 19/12-15).**

Hz.Yəhya Əhdi-Cədidə görə də Allahın sadiq bir bəndəsi və təqva sahibi bir mömin idi. O, yəhudiləri təkəbbür göstərdikləri üçün xəbərdar etmiş və onları Allahın hökm-

lərini qorumağa, günahdan çəkinməyə dəvət etmişdi. Luka İncili Yəhya ilə ona qulaq asmağa gələn yəhudilər arasındakı dialoqdan belə bəhs edir:

*"Yəhya vəftiz olunmaq üçün onun yanına gələn xalqa deyirdi: "Ey gürzələr nəsli! Gələcək qəzəbdən qaçmağı sizə kim təlqin etdi? İndi tövbəyə layiq səmərə yaradın. Və içinizdə: "Atamız İbrahimdir", - deməyə cəhd etməyin; çünki sizə deyirəm ki, Allah bu daşlardan İbrahimə övlad yaratmağa qadirdir. Artıq balta da ağacların kökü dibində yatır; beləliklə, yaxşı bar verməyən hər ağac kəsilir və oda atılır". Xalq ondan soruşurdu: "Bəs biz nə edək?" O, onlara cavab verib dedi: "İki köynəyi olan birini köynəksiz olana versin; yeməyi olan adam da belə etsin". Vergi yığanlar da vəftiz olunmaq məqsədi ilə Onun yanına gəlib dedilər: "Müəllimimiz! Biz nə edək?" Yəhya onlara dedi: "Sizə müəyyən ediləndən artıq heç şey tələb etməyin". Əsgərlər də: "Bəs biz nə etməliyik?" - deyə ondan soruşdular. Onlara da dedi: "Heç kimi qarət etməyin, böhtan atmayın, aldığınız maaşla kifayətlənin"" ("Luka İncili", 3/7-14).*

Əhdi-Cədidə görə, Hz.Yəhya bu təbliği əsnasında ona qulaq asanlara həmişə "vaxtın tamam olduğunu" deyirdi. "Gəlməli olan" artıq gəlmək üzrə idi.

## HƏZRƏTİ İSANIN HƏYATI

Tarixi mənbələrə görə, Hz.Məryəm xaosun baş alıb getdiyi, Roma imperatorluğunda zülmün davam etdiyi və yəhudilərin Məsihin gəlişini səbirsizliklə gözlədiyi bir dövrdə dünyaya gəlib. Hz.Məryəm Allahın aləmlər üzərinə seçib üstün etdiyi bir nəsildən - İmran ailəsindən gəlir ("Ali-İmran" surəsi, 3/33).

Allah İmran ailəsini aləmlərə üstün etdiyi kimi bu ailəyə mənsub olan Hz.Məryəmi də seçmiş, təmizləmiş və onu aləmlərin qadınlarına üstün etmişdir. Qur'anda belə buyrulur:

> **"Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: "Ya Məryəm, həqiqətən Allah səni seçmiş, təmizləmiş, aləmlərin qadınlarından üstün tutmuşdur. Ya Məryəm, öz Rəbbinə itaət et, səcdəyə qapan və namaz qılanlarla bir yerdə namaz qıl!"" ("Ali-İmran" surəsi, 3/42-43).**

İmran ailəsi Allaha iman gətirən, hər işində Onun razılığını qazanmağa çalışan və Onun cızdığı sərhədlərə tabe olan, ətrafındakı insanların da bu cür tanıdığı insanlar idi. İmranın xanımı Hz.Məryəmə hamilə qaldığını öyrənəndə dərhal Allaha dua etmiş və dünyaya gətirəcəyi körpəni Allaha nəzir demişdi. Anadan olan qız uşağına Məryəm adını verməsi də onun könüldən Allaha təslimiyyətinin bir işarəsidir. "Məryəm" sözü "abidə", yəni "həmişə Allaha ibadət edən" mənasına gələn bir kəlmədir. Bu məsələ Qur'anda belə xəbər verilir:

> **"İmranın zövcəsinin: "Ey Rəbbim, bətnimdəkini sənə xidmətkar olmaq üçün nəzir edirəm. Məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən!" - dediyini xatırla! Onu doğduğu zaman: "Ey Rəbbim! Mən qız doğdum", - söylədi. Halbuki Allah onun nə doğduğunu və oğlanın qız kimi olmadığını yaxşı bilirdi.**

**"Mən onun adını Məryəm qoydum, onu və onun nəslini məlun şeytandan Sənə tapşırıram" - dedi" ("Ali-İmran" surəsi, 3/35-36).**

Allah "Hz.Məryəmin anasının onu "hər cür bağlılıqdan azadlığa qovuşdurulmuş olaraq Allaha nəzir etdiyini" bildirir. Bu ifadənin ərəb dilindəki mətnində qeyd edilən "muharrərən" kəlməsi "ancaq axirət işləri ilə məşğul olan, dünya ilə əlaqəsi olmayan, həmişə Allaha ibadət edən, Allahın məbədinə xidmət edən, səmimi ibadət edən, ibadətində dünya mənfəəti güdməyən insan" mənalarına gəlir. Həqiqi mənada azadlıq insanın ancaq Allaha qulluq edib Ona təslim olması, varlıqlara və ya bəzi dəyərlərə qulluq etməkdən tamamilə uzaqlaşması ilə əldə edilə bilər. İmranın xanımı da Hz.Məryəmi ancaq Allaha qulluq edən, insanların razılığından tamamilə uzaqlaşmış bir insan olmasını Allahdan istəmişdi.

Hz.Məryəm dünyaya gələndə İmranın xanımı həm Hz.Məryəmi, həm də ondan dünyaya gələcək nəslini şeytanın şərindən qoruması üçün Allaha dua etmişdi. Allah İmranın xanımının bu səmimi yönəlişini qəbul etmiş və duasının əvəzində də dünyaya gətirdiyi uşağa üstün əxlaq vermişdir. Qur'anda Hz.Məryəmin Allahın mühafizəsi altında necə diqqətlə və həssaslıqla yetişdirildiyinə **"Belə olduqda Rəbbi yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyəyə tapşırdı..."** ("Ali-İmran" surəsi, 3/37) ayəsi ilə xüsusi olaraq diqqət yetirilir.

Allah Hz.Zəkəriyyanın saleh bir bəndə olduğunu, hidayət verdiyi, aləmlərə üstün etdiyini və doğru yola yönəldib çatdırdığını bildirdiyi peyğəmbərlərdəndir. Allah Qur'anda bu müqəddəs insandan fəxrlə bəhs etmiş, gözəl əxlaqına diqqət çəkmişdir ("Ənam" surəsi, 6/85-87). Hz.Məryəmin cavabdehliyini öz üzərinə götürən Hz.Zəkəriyyə onun həyatındakı möcüzəli hadisələrə şəxsən tanış olmuş, Allahın Hz.Məryəmi xüsusi olaraq seçdiyini başa düş-

müşdü. Məsələn, təkbaşına davamlı ibadət edən Hz.Məryəmin yanına gedən Hz.Zəkəriyyə onun ərzağının həmişə yanında hazır görmüşdü. Bu məsələ Qur'anda belə xəbər verilir:

**"...Zəkəriyyə hər dəfə ibadət etdiyi mehraba girdikdə onun yanında bir ruzi olduğunu görərdi. Zəkəriyyə: "Ya Məryəm, bunlar sənin üçün haradandır?" dedikdə o: "Allah tərəfindəndir!" deyə cavab verərdi. Həqiqətən Allah istədiyi şəxsə hədsiz ruzi verər!" ("Ali-İmran" surəsi, 3/37).**

Hz.Məryəm yaşadığı cəmiyyətdə həm ailəsinin, həm də özünün Allaha olan bağlılığı və səmimiyyəti ilə tanınan bir insan olub. Onun Qur'anda açıq şəkildə bildirilən xüsusiyyəti isə iffətidir. Bu məsələ "Təhrim" surəsində belə bildirilir:

**"Həmçinin namusunu möhkəm qoruyub saxlamış İmranın qızı Məryəmi də misal çəkdi. Biz libasının yaxasından ona Öz ruhumuzdan üfürdük. Məryəm Rəbbinin sözlərini, kitablarını təsdiq etdi və itaət edənlərdən oldu" ("Təhrim" surəsi, 12).**

## Hz.Məryəmin Cəbraillə görüşməsi

Allah Hz.Məryəmin həyatının müxtəlif dövrlərində çox möcüzəli hadisələr yaratmışdır. Bunlardan biri də onun Cəbraillə görüşməsidir. Hz.Məryəm həyatının müəyyən bir dövründən sonra yaşadığı cəmiyyətdən və ailəsindən uzaqlaşaraq şərq tərəfdə bir yerə çəkilmişdi. Burada Cəbrail Hz.Məryəmə "kamil bir insan" şəklində görünmüşdü. Bu möcüzəli hadisə Qur'anda belə xəbər verilir:

**"Kitabda Məryəmi də yad et. O zaman o, ailəsindən ayrılıb şərq tərəfində bir yerə çəkilmişdi. Və ailə**

**üzvlərindən gizlənmək üçün pərdə tutmuşdu. Biz Öz ruhumuzu yanına göndərdik. Ona kamil bir insan qiyafəsində göründü. Məryəm dedi: "Mən səndən Rəhmana pənah aparıram. Əgər müttəqi isənsə, mənə toxunma!"" ("Məryəm" surəsi, 19/16-18).**

Hz.Məryəm qarşısındakı insanın Cəbrail olduğunu əvvəlcə bilmirdi. Buna görə də tanımadığı bir insanla qarşılaşdığını fikirləşdiyi üçün tez Allaha sığınmış və özünün Allahdan qorxan, iman gətirən bir mömin olduğunu bildirmişdi. Bu sözləri Hz.Məryəmin Allah qorxusunu, namusuna münasibətdə həssaslığını və təqva sahibi bir bəndə olduğunu açıq şəkildə ortaya qoyur. Bundan sonra Cəbrail özünü tanıtmış, Allahın vəzifələndirdiyi bir elçi olduğunu və ona Allahdan bir müYdə ilə gəldiyini bildirmişdi:

**"Mən sənə ancaq təmiz bir oğlan bağışlamaq üçün Rəbbinin elçisiyəm!" - dedi" ("Məryəm" surəsi, 19/19).**

**"Mələklər dedilər: "Ya Məryəm! Həqiqətən Allah Öz tərəfindən bir kəlmə ilə sənə müYdə verir. Onun adı Məryəm oğlu İsa əl-Məsihdir ki, dünyada və axirətdə şanı uca və yaxın olanlardandır" ("Ali-İmran" surəsi, 3/45).**

Bu əhəmiyyətli müYdəni eşidən Hz.Məryəm ona heç bir kişi əlinin dəymədiyi halda necə uşağı ola biləcəyini başa düşmək üçün Cəbrailə bu sualı vermişdi:

**"O, dedi: "Mənim necə oğlum ola bilər ki, mənə indiyədək bir insan əli belə toxunmamışdır. Mən zinakar da deyiləm!" Dedi: "Elədir, lakin Rəbbin buyurdu ki, bu, Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə, dərgahımızdan olan bir mərhəmət kimi edəcəyik. Bu, əzəldən təqdir olunmuş bir hökmdür!" Artıq hamilə oldu və onunla birlikdə uzaq bir yerə çəkildi" ("Məryəm" surəsi, 19/20-22).**

**"Ey Rəbbim! Mənə bir insan əli toxunmadığı halda necə uşağım ola bilər?" - dedikdə buyurdu: "Elədir, Allah istədiyini yaradır. O, bir işin əmələ gəlməsini qərara aldıqda ona ancaq "Ol!" deyər, o da olar" ("Ali-İmran" surəsi, 3/47).**

Cəbrail isə onun bu sualının əvəzində Allahın gücünün hər şeyə çatacağını, bir işə ancaq "Ol!" deməsi ilə onun dərhal olacağını söyləmişdi. Beləliklə, Hz.Məryəm ona heç bir insan əli dəymədiyi halda Allahın istəyi ilə Hz.İsaya hamilə qalmışdı. Onun hamiləliyi dünyadakı bütün səbəblərdən fərqli və uzaq olaraq möcüzəli şəkildə baş vermişdir. Rəbbimizin bildirdiyi kimi, Cəbrailin müYdəsinin sonra Hz.Məryəm heç kimin olmadığı bir yerə çəkilmişdi. Allah bu dövrdə də Hz.Məryəmə hər cəhətdən kömək etmiş, bir qadının hamiləlik dövrü boyunca psixi və fiziki cəhətdən ehtiyac duyduğu hər cür dəstəyi və imkanı onun üçün yaratmışdı. Onu kimsəsiz bir yerə yerləşdirərkən bu vəziyyəti dərk edə bilməyəcək insanların maddi və mənəvi yöndən yarada biləcəkləri hər cür narahatlıqların da qarşısını almışdı.

## Hz.İsanın anadan olması

Allah Qur'anda Hz.İsanın anadan olmasından ölümünə kimi hər məsələdə başqa insanlardan çox fərqləndiyinə diqqət çəkir. Hər şeydən əvvəl Hz.İsa məlum olan səbəblərdən fərqli bir yaradılışla doğulmuş, yəni dünyaya atasız gəlmişdir. Allah o, anadan olmamışdan əvvəl əksər xüsusiyyətini və onu insanlar üçün bir Məsih olaraq göndərdiyini mələkləri vasitəsilə anası Hz.Məryəmə bildirmişdi. Hz.İsanın bu əsas xüsusiyyətlərindən biri onun "Allahın kəlməsi" kimi səciyyələndirilməsidir:

**"...Həqiqətən Məryəm oğlu İsa Məsih ancaq Allahın peyğəmbəri, Məryəmə çatdırdığı bir söz və Onun tərəfindən olan bir ruhdur..." ("Nisa" surəsi, 4/171).**

**"Mələklər dedilər: "Ya Məryəm! Həqiqətən Allah Öz tərəfindən bir kəlmə ilə sənə müYdə verir. Onun adı Məryəm oğlu İsa Məsihdir ki, dünyada və axirətdə şanı uca və yaxın olanlardandır..." ("Ali-İmran" surəsi, 3/45).**

Qur'anda "Allahın kəlməsi" ifadəsi ancaq Hz.İsa üçün işlədilib. Allah Hz.İsa hələ dünyaya gəlməmişdən əvvəl onun adını bildirib. Allah Özündən bir kəlmə olaraq Hz.İsaya "İsa Məsih" adını verib. Bu, Hz.İsanın digər insanlardan fərqli bir yaradılışla yaradılmasının ifadələrindən biridir.

Allah hamiləliyi və Hz.İsanın anadan olması mərhələsində Hz.Məryəmi hər cəhətdən ən gözəl şəkildə dəstəkləmiş, ona yol göstərmişdi. Allah qövmündən uzaqda təkbaşına gerçəkləşən bu həyati hadisədə heç bir təcrübəsi və köməkçisi olmayan Hz.Məryəm üçün şəraiti uyğun hala gətirmiş, doğuş problemsiz şəkildə həyata keçmişdi. Hz.Məryəm Allahın köməyi ilə bu çətin işi təkbaşına gerçəkləşdirmişdi. Allah Hz.Məryəmə olan bu nemətini Qur'anda belə bildirir:

**"Doğuş sancısı onu bir xurma ağacının gövdəsinə söykənməyə məcbur etdi. Dedi: "Kaş ki, mən bundan əvvəl ölüb qurtaraydım və ya tamamilə unudulub getmiş olaydım!" Dərhal alt tərəfindən ona belə bir nida gəldi: "Kədərlənmə, Rəbbin sənin üçün altından bir irmaq axıtdı. Xurma ağacını özünə tərəf silkələ, üstünə təzə yetişmiş tökülsün! Ye-iç, gözün aydın olsun. Əgər bir adam görəcək olsan, belə de: "Mən Rəhman yolunda oruc tutmağı nəzir eləmişəm, ona görə də bu gün heç kəslə danışmayacağam!"" ("Məryəm" surəsi, 19/23-26).**

Ayələrdən də göründüyü kimi, Allah vəhyi ilə Hz.Məryəmə köməyini çatdırmış, kədərlənməməsini, alt yanında onun üçün bir su arxı çıxardığını bildirmişdir. Eh-

tiyacı olduğu hər məsələdə yerinə yetirməli olduğu hər şeyi bildirərək ona kömək etmiş və doğuşun ən yaxşı şəkildə həyata keçməsini təmin etmişdir. Allahın Hz.Məryəmin üzərindəki mərhəməti və mühafizəsi doğum hadisəsində bütün açıqlığı ilə görünür (*Ətraflı məlumat üçün Harun Yəhyanın Elşad Miri tərəfindən Azərbaycan dilinə tərcümə edilən "**Nümunəvi müsəlman qadın: Həzrəti Məryəm**" adlı kitabına müraciət edə bilərlər*).

Hz.Məryəm qaldığı kimsəsiz yerdən Hz.İsa ilə birlikdə qövmünün yanına gələndə onlar ancaq zənnə qapılaraq Hz.Məryəmə çirkin böhtanlar atdılar. Halbuki iftira atan bu qövmün fərdləri Hz.Məryəmi tanıyır, həm onun, həm də İmran ailəsinin nə dərəcədə Allaha bağlı, dindar və namuslarına bağlı insanlar olduqlarını çox yaxşı bilirdilər. Həqiqətdə Hz.İsanın dünyaya gəlməsi forması Allahın Hz.Məryəmin qövmünə göstərdiyi böyük bir möcüzə, Allahın varlığı ilə bağlı mühüm bir dəlildir. Ancaq Hz.Məryəmin ətrafındakılar bu vəziyyəti başa düşməmiş, onun haqqında həqiqətə uyğun olmayan ittihamlarla ona çirkin böhtan atmağa çalışmışdılar:

> **"Uşağı götürüb öz adamlarının yanına gəldi. Onlar dedilər: "Ey Məryəm! Sən çox əcaib bir şeylə gəldin! Ey Harunun bacısı! Atan pis kişi, anan da zinakar deyildi!" ("Məryəm" surəsi, 19/27-28).**

Hz.Məryəm isə əslində bu çirkin böhtan və ittihamlarla imtahan edilirdi. Allaha çox bağlı olan namuslu bir insana bu cür böhtan atılması Allahın onun üçün yaratdığı bir imtahandır. Bu vəziyyət qarşısında Hz.Məryəm tez Allaha sığınmış və onların bu böhtanlarının müqabilində Allahın ona kömək edəcəyini bilərək təvəkkül etmişdi. O, köməyi və dəstəyi ancaq Allahdan gözləmiş və hər dəfə də Allahın geniş rəhməti və mərhəməti ilə əvəz görmüşdü.

Allah çətin vəziyyətdə olan bu seçilmiş bəndəsinə yenə bir möcüzə ilə kömək göstərmiş və qövmü onunla danış-

maq istəyəndə susmasını və böhtançılara Hz.İsaya işarə etməsini bildirmişdi. Allahın Hz.Məryəmə bildirdiyi bu əmr Qur'anda bu cür xəbər verilir:

**"...Əgər bir adam görəcək olsan, belə de: "Mən Rəhman yolunda oruc tutmağı nəzir eləmişəm, ona görə də bu gün heç kəslə danışmayacağam"" ("Məryəm" surəsi, 19/26).**

Allah Hz.Məryəmə Hz.İsanın anadan olacağını müYdələdiyi vaxt onun hələ beşikdəki körpə ikən danışacağını da xəbər vermişdi. Həmin möcüzə belə bir çətin vəziyyətdə Hz.Məryəmə Rəbbimizdən böyük dəstək olmuşdu:

**"O, beşikdə ikən də, yaşa dolduqdan sonra da insanlarla danışacaq və salehlərdən olacaqdır" ("Ali-İmran" surəsi, 3/46).**

Allah Hz.Məryəmin verəcəyi açıqlamanı möcüzəli bir şəkildə Hz.İsaya etdirmişdir. Beləliklə, həm Hz.Məryəmə atılan böhtanlardan təmizləmiş, həm də bir möcüzə ilə Hz.İsanın elçiliyini İsrail oğullarına müYdələmişdi:

**"Ona işarə etdi. Onlar: "Beşikdə olan uşaqla necə danışaq?" - dedilər. İsa dedi: "Mən həqiqətən Allahın quluyam. O, mənə kitab verdi, özümü də peyğəmbər etdi. O, harada oluramsa olum, məni mübarək etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu. O, həmçinin məni anama qarşı olduqca itaətkar etdi, zülmkar, asi eləmədi! Doğulduğum gün də, öləcəyim gün də, diriləcəyim gün də mənə salam olsun!"" ("Məryəm" surəsi, 19/29-33).**

Hz.İsa Allahın qulu olduğunu, ona kitab verildiyini və yetkin olanda insanlara təbliğ etmək vəzifəsi daşıyacaq bir peyğəmbər olduğunu, Allah üçün namaz qılıb zəkat verməli olduğunu, anası Hz.Məryəmə hörmət edib sözünə qulaq asmalı olduğunu, öləcəyi və qiyamət günü dirildiləcəyini də bilir.

Bu vəziyyət İsrail oğullarına fövqəladə bir həqiqətlə qarşı-qarşıya olduqlarını, gözlədikləri Məsihin dünyaya gəldiyini sübut etmişdi. Allah belə buyurur:

**"İsmətini qoruyanı da yad et! Biz Öz ruhumuzdan ona üfürdük, onu və oğlunu aləmlərə bir möcüzə etdik" ("Ənbiya" surəsi, 21/91).**

Ayələrdə İsrail oğullarına bir xəbər də verilir: onlara göstərilən bütün möcüzəli hadisələrə baxmayaraq Hz.Məryəmə böhtan atmağa davam edənlər üçün böyük bir əzab var ("Nisa" surəsi, 4/156-157).

## Hz.İsanın həyatı

Tarixi mənbələrə görə, Hz.İsa bundan təxminən 2000 il əvvəl yaşayıb. O, Allahın dünyada və axirətdə seçdiyi bir elçisidir. Matta İncilində Hz.İsanın I Herod və reYim dəyişikliyi dövründə (b.e.ə. 4-cü il), Luka İncilində isə imperator Avqustun dövründə (eramızın 6-cı ili), Yəhudiyyədə əhalinin sayılması dövründə anadan olduğu bildirilir. Bu məlumatları təsdiq etmək mümkün deyil. Ancaq müxtəlif mənbələri araşdıran tədqiqatçılar Hz.İsanın b.e.ə. 7-6-cı illər arasında anadan olduğunu güman edirlər.

Allahın üstün xüsusiyyətlərlə nemətlər bəxş etdiyi, sonsuz cənnət yurdu ilə müYdələdəyi bu dəyərli elçisinin gətirdiyi haqq dinin adı bu gün yer üzündə qalsa da o, əsl həqiqətdə təhriflərə məruz qalmış və əslindən uzaqlaşdırılmışdır. Allahın Hz.İsaya vəhy etdiyi İncilin də eynilə təkcə adı qalır, əsli isə mövcud deyil. Xristian mənbələri müxtəlif dəyişikliklərə məruz qalıb və təhrif edilib. Dolayısı ilə bu gün Hz.İsa ilə bağlı həqiqi məlumatları bu mənbələrdən əldə etməyimiz mümkün deyil. Hz.İsa haqqında doğru məlumat əldə edə biləcəyimiz yeganə mənbə Allahın qiyamətə kimi qoruyacağını vəd etdiyi Qur'andır. Qur'anda Hz.İsanın anadan olması, həyatı, bu müddət ərzində qarşısına çı-

xan hadisələrdən nümunələr, ətrafındakı insanların vəziyyəti və daha bir çox məsələlərdən bəhs edilir. Hz.İsanın yəhudilər arasında necə təbliğat aparması da bir çox nümunə ilə xəbər verilir. "Ali-İmran" surəsində Rəbbimiz belə buyurur:

**"Məndən əvvəl göndərilmiş Tövratı təsdiq edərək sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün gəldim və sizə Rəbbiniz tərəfindən bir möcüzə gətirdim. İndi Allahdan qorxun və mənə itaət edin! Şübhə yoxdur ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur doğru yol!" ("Ali-İmran" surəsi, 3/50-51).**

Yəhudilərin əksəriyyəti Hz.İsanın bu dəvətinə cavab verməmiş, ancaq az saydakı həvari ona tabe olmuşdu. Qur'anda bu səmimi inananların varlığı belə bildirilir:

**"İsa onların küfrünü hiss etdikdə: "Allah yolunda kim mənimköməkçim olacaqdır?!" - deyə soruşdu. Həvarilər dedilər: "Bizik Allahın köməkçiləri! Biz Allaha inandıq. Sən də təslim olduğumuza şahid ol!" "Ey Rəbbimiz, nazil etdiyinə iman gətirdik və peyğəmbərinə tabe olduq. Artıq bizləri şahid olanlarla bir yerdə yaz!"" ("Ali-İmran" surəsi, 3/52-53).**

Əhdi-Cədidə görə, Hz.İsa yanında bu 12 tələbəsi olduğu halda Fələstinin hər tərəfini gəzib dolaşmışdı. İnsanları Allaha iman gətirməyə dəvət etmək üçün etdiyi bu səyahət zamanı Allahın icazəsi ilə müxtəlif möcüzələr göstərmişdi. Xəstə və şikəst insanları, cüzam xəstəliyinə tutulanları sağaltmış, anadangəlmə korların gözlərini açmış və ölüləri diriltmişdi. Bu möcüzələr Qur'an ayələrində belə xəbər verilir:

**"...Mən həqiqətən Rəbbiniz tərəfindən möcüzə ilə sizə gəlmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın iznilə quş olar. Anadangəlmə korları, cüzam xəstəliyinə tutu-**

**lanları sağaldar və Allahın iznilə ölüləri dirildərəm. Mən evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri də sizə xəbər verərəm. Əgər möminsinizsə, bunda bir dəlil vardır" ("Ali-İmran" surəsi, 3/49).**

**"Xatırla ki, o gün Allah belə buyuracaq: "Ya Məryəm oğlu İsa! Sənə və anana nemətimi yadına sal. O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən beşikdə olanda da, yetkin çağında da adamlarla danışdırdım. Sənə kitabı, hikməti, Tövratı və İncili öyrətmişdim. O zaman sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verir və Mənim iznimlə ölüləri dirildirdin. Sən İsrailoğullarının yanına açıq möcüzələrlə gəldiyin zaman Mən səndən dəf etmişdim. Onlardan küfrə batanlar isə belə demişdilər: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir!"" ("Maidə" surəsi, 5/110).**

Hz.İsa böyük möcüzələr göstərmiş, insanlar onun göstərdiyi bu möcüzələrdən çox təsirlənmişdilər. Ancaq Hz.İsa həmişə bu möcüzələrin Allahın icazəsi ilə gerçəkləşdiyini bildirmiş, İncil açıqlamalarında isə sağaltdığı insanlara tez-tez "imanın səni xilas etdi" demişdi. Matta İncilinə görə, xalq da Hz.İsanın möcüzələri qarşısında Allahı ucaltmışdı:

*"İsa oradan çıxıb Qalileya gölü yaxınlığına gəldi və dağın başına çıxıb orada oturdu. Onun yanına böyük bir izdiham gəldi və aralarında topallar, korlar, dilsizlər, çolaqlar və daha başqa bir çoxları var idi. Onları İsanın ayaqlarının yanına qoydular və İsa onları sağaltdı. Dilsizi danışan, çolağı sağlam, koru görən və topalı yeriyən gördüyü zaman xalq təəccübləndi və İsrailin Allahına həmd etdi" ("Matta", 15/29-31).*

Getdikcə çoxalan maneələrə baxmayaraq xüsusilə də təzyiq və zülm altında yaşayan xalqın arasında Hz.İsaya

inananların sayı artmağa başlamışdı. Bu dövrdə Hz.İsa və həvariləri bütün ətraf qəsəbə və şəhərləri gəzmişdi. Bu arada rahiblər və mirzələr (katiblər) illərdir davam etdirdikləri ənənələrinin batil yönlərini onlara bildirən, qurduqları sistemdəki səhvlərini deyən, onları ancaq Allaha iman gətirib Allah üçün yaşamağa dəvət edən Hz.İsaya qarşı tələlər qurmağa başlamışdılar ("Luka" İncili, 22/1-2; "Yəhya" İncili, 11/48).

Qur'anda Hz.İsanın Allahın dərgahına qaldırıldığı və ona oxşar bir nəfərin İsa zənn edilərək öldürüldüyü xəbər verilir. Hz.İsa bütün peyğəmbərlərin etdiyi kimi xalqını Allaha iman gətirməyə, könüldən təslim olub Allahın razılığını qazanmaq üçün yaşamağa, günahlardan və pisliklərdən çəkinməyə, yaxşı işlər görməyə dəvət etmişdi. Onlara dünya həyatının müvəqqəti olduğunu və ölümün yaxınlığını xatırlatmış, axirət günündə hər insanın bütün etdikləri ilə sorğu-suala çəkiləcəyini bildirmişdi. İnsanları ancaq Allaha ibadət etməyə və ancaq Allahdan qorxub çəkinməyə çağırmışdı. İncildə də bu məsələ ilə bağlı çoxsaylı nəsihətlərə və ibrətamiz hekayələrə rast gəlmək mümkündür. Hz.İsa İncildə qeyd edilən ifadə ilə desək, "imanı qıt olanlara" nəsihətlər verir, insanlara "Allahın hakimiyyətinin" yaxın olduğunu müYdələyir və onları Allahdan bağışlanma istəməyə dəvət edir. Bu hakimiyyət yəhudilərin Məsihin gəlməsi ilə birlikdə xilas olacaqlarına ümid etdikləri və İsrail oğullarının imanına və qurtuluşuna səbəb olmasını gözlədikləri hakimiyyətdir.

Hz.İsa Hz.Musa şəriətinə, yəni həqiqi Tövratın hökmlərinə bağlı qalmış və yəhudiləri də bu hökmlərdən uzaqlaşdıqları və ya bu hökmləri qeyri-səmimi şəkildə, özünü göstərmək məqsədi ilə tətbiq etdikləri üçün tənbeh etmişdi. Əhdi-Cədidə görə, ona qarşı gələn yəhudilərə *"Musaya iman gətirsəydiniz, mənə də iman gətirərdiniz. Çünki o, mənim haqqımda yazmışdır"* ("Yəhya" İncili, 5/46) demişdi. Hz.İsa in-

sanları Tövrata qayıtmağa dəvət etmişdi. Matta İncilində Hz.İsanın "Müqəddəs Qanun"a, yəni Hz.Musanın şəriətinə tabe olmaq üçün verdiyi bir əmr belə qeyd edilir:

*"...Mən pozmaq üçün yox, icra etmək üçün gəldim..." ("Matta" İncili, 5/17).*

"Beləliklə, bu ən kiçik əmrlərdən birini kim pozarsa və belə etməyi insanlara öyrədərsə, Səmavi Səltənətdə o, ən kiçik adlanacaqdır və onlara kim əməl edər və öyrədərsə, Səmavi Səltənətdə böyük adlanacaqdır" ("Matta" İncili, 5/19).

Qur'anda da Hz.İsa üçün belə xəbər verilir:

**"Məndən əvvəl göndərilmiş Tövratı təsdiq edərək sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün gəldim və sizə Rəbbiniz tərəfindən bir möcüzə gətirdim. İndi Allahdan qorxun və mənə itaət edin!" ("Ali-İmran" surəsi, 3/50).**

## Hz.İsanın mübarizəsi

Hz.İsanın gəldiyi dövrdə yəhudi cəmiyyətində dini insanlara fərqli şəkillərdə çatdıran çox sayda məzhəb var idi. Allahın Hz.Musaya vəhy etdiyi haqq dindən uzaqlaşılmış, batil ənənələr və azğın inanclar meydana çıxarılmışdı. Bunlara əlavə olaraq da bütpərəst Ellin mədəniyyəti insanlar arasında yayılır və onun rəğbətlə qarşılanmasına səy edilirdi. Bu mədəniyyətin təsiri altındakı bəzi yəhudi məzhəbləri isə sahib olduqları tövhid inancının yerinə bu azğın anlayışın rəmzlərini, heykəllərini qoymağa başlamışdılar.

Xaos və qarmaqarışıqlıq içindəki cəmiyyətə hidayət rəhbəri olaraq göndərilən Hz.İsa onların aralarında olduğu müddət ərzində çox müxtəlif cəmiyyətlərlə mübarizə aparmışdı. Qur'an ayələrindən Hz.İsanın dinləri məsələsində ixtilaf edənlərə yol göstərdiyi aydın olur. İncildə qeyd edilən bəzi ifadələrdən də Hz.İsanın xüsusilə saxta din adamlarını, Allaha şərik qoşan müşrik qrupları, dindar kimi görünərək

xalqı aldadanları əməllərindən əl çəkməyə, səmimi şəkildə Allaha iman gətirməyə dəvət etdiyi aydın olur. İncildə tez-tez bəhs edilən iki qrupu - fəriseyləri və saddukiləri buna misal göstərə bilərik. Müxtəlif məsələlərdə dərin ixtilafda olan bu iki qrupun bəzi mənsublarının müştərək cəhətləri isə Allahın Hz.İsanın vasiləsilə insanlara göndərdiyi vəhy-dən möhkəmcə narahat olmalarıdır. Çünki Hz.İsanın təbliğ etdiyi haqq dinə görə, həm maddiyyatçı bir dünyagörüşünə sahib olan saddukilər, həm də səmimiyyətini itirərək üzdə görünənlərə və xurafatlara yönələn fəriseylər səhv yolda idi. Bu qruplar içində olduqları vəziyyəti başa düşəndə Hz.İsaya qarşı cəbhə açmışdılar. Allah Qur'anda belə bildi-rir:

> **"İsa aşkar möcüzələrlə gəldiyi zaman dedi: "Həqiqə-tən mən sizə hikmətlə, həm də ixtilafda olduğunuz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin!" ("Zuxruf" surəsi, 63).**

Həm fəriseylər, həm də saddukilər mövcud sistemdən mənfəət götürür, buna görə də Hz.İsaya itaət etmirdilər. Onlar yəhudi cəmiyyətində böyük bir nüfuz sahibi sayılır, din adamı kimi hər kəsdən böyük hörmət görürdülər. Ya-ratdıqları saxta din onlara status, hətta pul qazandıran bir qurum halına gəlmişdi. Ölkəni idarə edən Roma valisi ilə də sıx əməkdaşlıq edirdilər. Xüsusilə də saddukilər Roma ilə İsrail xalqı arasındakı mənfi münasibətləri aradan qaldı-rır və bunun əvəzində Romanın onlara göstərdiyi ayrı-seç-kilikdən istifadə edirdilər. Bu şərtlər nəzərə alınanda Hz.İsanın təbliğinin bu din adamlarını niyə narahat etdiyini başa düşmək çox asandır. Çünki Hz.İsa bütün peyğəmbər-lər kimi pozulan, hər cür əxlaqsızlığı halal qəbul edən "mövcud sistem"i hədəf seçmişdi. Hz.İsa onların yol verdiyi bütün ədalətsizliklərdən, haqsızlıqlardan, əxlaqsızlıqlardan və bütpərəst dinlərindən əl çəkməsini, ancaq Allah üçün yaşamasını istəyirdi. O, insanlara Allah qorxusunu, Allahı

sevməyi, Allaha təslim olmağı nəsihət edirdi. Düzgün olmayan qaydalardan, mənfi əməllərdən uzaqlaşmalarının, ancaq Allaha ibadət edib hər işdə Allaha yönəlmələrinin vacibliyini bildirirdi. Göstərdiyi möcüzələr onun Allahın seçib bəyəndiyi, elm və qüvvət kimi dəstəklədiyi çox qiymətli bir peyğəmbər olduğunu açıq şəkildə ortaya qoyurdu. Onun iman dərinliyi, yüksək əxlaqı, üstün qavrayışı və hikmətli açıqlamaları insanlarda böyük heyranlıq yaradırdı.

Əhdi-Cədidə görə, Hz.İsa təbliğat apararkən bir tərəfdən də ağır zülmə məruz qalan xalqa qurtuluşun yaxınlaşdığını, yaxında Allahın hakimiyyətinin qurulacağını söyləyərək onların içindəki inancı canlandırmışdı. Bu zaman Hz.İsanın Hz.Davudun nəslindən gəldiyi xəbəri də xalq arasında geniş yayılmış və onun gözlənilən Məsih olduğu inancı dalğa-dalğa yayılmışdı (Matta İncili, 9/28-35). Bütün bunlar da mövcud sistemdən mənfəət götürən saxtakar din adamlarını və Romanın gətirdiyi bütpərəst mədəniyyəti qəbul edənləri narahat edirdi.

Əhdi-Cədidə görə, bu dairələr Hz.İsanın təbliğini təsirsiz hala gətirə bilmək üçün hər fürsəti dəyərləndirmiş, ancaq hər dəfə məğlub olmuşdular. Hz.İsanın onların iddialarını tamamilə darmadağın edən cavablar və hikmətli izahlar verməsi din adamlarını çox narahat etmişdi. Onları tələ qurmağa vadar edən səbəblərdən biri də Hz.İsanın onlar haqqında bəhs etdikləri olmuşdu. Luka İncilinə görə, Hz.İsa xalqın qarşısında onların saxtakarlıqlarını bu cür açıqlamışdı:

> *"Din alimlərindən özünüzü gözləyin! Onlar uzun paltarlarda gəzməyi, meydanlarda salam almağı, sinaqoqlarda baş kürsüləri və ziyafətlərdə yuxarı yerləri tutmağı sevirlər. Onlar dul qadınların evlərini talayar və riyakarcasına uzun-uzadı dualar edərlər. Bunlar daha ağır məhkumiyyətə uğrayacaqlar" ("Luka" İncili, 20/46-47).*

Bəzi yəhudi din adamları Tövrat hökmlərini dəyişdirmiş, şəxsi mənfəətlərinə uyğun yeni hökmlər əlavə etmişdilər. Hz.İsa yəhudi xalqına verdiyi nəsihətlərlə bu saxta hökmləri aradan qaldırırdı. Hz.İsanın təmizləməyə çalışdığı şey Hz.Musanın gətirdiyi qadağaların üstünü örtən batil ənənələr, xurafatlar, insanların ortaya atdığı qadağalar idi. Mark İncilinə görə, Hz.İsa fəriseylərlə danışarkən onları xüsusilə bu yöndən tənbeh etmişdi:

*"İsa onlara (fəriseylərə və din adamlarına) belə cavab verdi: ...Siz Allahın əmrini atıb insan ənənəsinə riayət edirsiniz... Beləliklə, siz nəsildən-nəslə keçən öz ənənənizlə Allahın sözünü təsirsiz edir və buna oxşar çox şeylər edirsiniz" ("Mark" İncili, 7/6-13).*

Fəriseylər qazanclarının onda bir hissəsini Allaha nəzir verməli olduqlarına inanır və bu qaydaya da tabe olurdular. Ancaq bunu bir ibadətdən daha çox ənənə halına gətirmişdilər. Luka İncilinə görə, Hz.İsa onlara belə xəbərdarlıq etmişdi:

*"Amma vay halınıza, fəriseylər! Çünki nanə, sədəfotu və hər cür göyərtinin onda birini verirsiniz, amma ədalətə və Allahın məhəbbətinə qayğısızlıq göstərirsiniz. Onda bir hissəni verməyi ehmal etmədən əsas bunları tətbiq etməli idiniz. Vay halınıza, fəriseylər! Çünki sinaqoqlarda baş kürsüdə oturmağı və bazar meydanlarında salam almağı sevirsiniz. Vay halınıza! Çünki itmiş qəbirlər kimisiniz ki, insanlar bilmədən üstünüzdən keçərlər" ("Luka" İncili, 11/42-44).*

*"Vay sizin də halınıza, Qanun alimləri! Çünki siz adamların boynuna çətin daşına bilən yüklər qoyur, özünüz isə bir barmağınız ilə də olsa, o yüklərə toxunmursunuz" ("Luka" İncili, 11/46).*

*"Vay halınıza, Qanun alimləri! Çünki elm qapısının açarını siz götürdünüz; nə özünüz girdiniz, nə də girmək istəyənlərə imkan verdiniz" ("Luka" İncili, 11/52).*

Bu cür xəbərdarlıqlar və etdikləri əxlaqsızlıqların bir-bir ortaya çıxarılması din adamlarının Hz.İsaya olan düşmənçiliklərini daha da artırmışdı. Həmçinin Luka İncilinə görə, Hz.İsanın yuxarıdakı sözlərindən sonra saxta din alimləri ilə fəriseylər onu tələyə salmaq üçün fürsət axtarmağa başlamışdılar ("Luka" İncili, 11/53-54).

Qur'anda bildirildiyi kimi, Hz.İsa İsrail oğullarını Allaha könüldən iman gətirməyə və Hz.Musanın gətirdiyi şəriətə geri qayıtmağa dəvət etmişdi. Hz.İsanın yəhudilər haqqında Tövratın "İşaya" kitabından götürərək dediyi aşağıdakı sözlər də Qur'anda inkarçılar üçün bildirdiyi "**...Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər...**" ("Əraf" surəsi, 7/179) ayəsi ilə böyük bir bənzərlik göstərir:

*"Qulaqlarınızla eşidəcəksiniz, amma başa düşməyəcəksiniz. Gözlərinizlə baxacaqsınız, lakin görməyəcəksiniz. Çünki bu xalqın ürəyi kobudlaşıb, qulaqları ilə ağır eşidirlər. Gözlərini yummuşlar ki, gözləri ilə görməsinlər, qulaqları ilə eşitməsinlər. Ürəkləri ilə anlamasınlar və müraciət etməsinlər ki, onlara şəfa verim" ("Matta" İncili, 13/14-15).*

Peyğəmbərlər Allahın onlara verdiyi vəzifələri ən gözəl şəkildə yerinə yetirmiş, insanları hidayət yoluna dəvət etmək üçün əllərindəki imkanlardan və bütün güclərindən axıra kimi istifadə etmişdilər. Hz.İsa da ona qurulan bütün tələləri, atılan böhtanları və təşkil edilən hücumları çox böyük bir səbrlə qarşılamış və Allaha təvəkkül edib təbliğat aparmaqda davam etmişdi. O, yanında köməkçilərinin sayının az olmasına baxmayaraq həmişə qalib gələn tərəf olmuşdu. Bu təbliğ zamanı dini əslinə qaytara bilmək, onu xurafatlardan və batil qaydalardan təmizləmək üçün müxtəlif üsullardan istifadə etmişdi. Rəbbimizin ona bəxş etdiyi üstün qavrayış və hikmət sayəsində İsrail oğullarına qarşı çox təsirli çıxışlar etmiş, hikmətli nümunələr vermişdi.

Nəticə olaraq deyə bilərik ki, Hz.İsa insanları ancaq Allaha iman gətirməyə dəvət etmiş, din əxlaqının hakim olacağını müYdələmiş, batil inanclarla, xurafatlarla və bütpərəstlərlə mübarizə aparmış, dünyanın bir imtahan yeri olduğunu misallarla açıqlamış, xalqın yanlış əxlaq anlayışını düzəltmək üçün böyük səy göstərmiş, üstün əxlaqı ilə də ətrafındakı insanlara ən gözəl nümunə olmuşdu. Ancaq bütün bu fəaliyyəti düşmənlərinin daha qəti hərəkətlərə əl atmasına, onu öldürmək üçün böyük tələ qumasına səbəb olmuşdu.

## Hz.İsanın üstün əxlaqi xüsusiyyətləri

Peyğəmbərimizin (s.ə.v.) hədislərində Hz.İsa ilə bağlı çox mühüm xəbərlər verilmişdir. Hədislərdə bu mübarək insanın zahiri görünüşü haqqında da bəzi məlumatlar var. Hədislərə görə, Hz.İsa orta boylu, qırmızıya çalan ağ bədənli, düz saçlı, fövqəladə gözəlliyə malik bir insan idi. Uzatdığı saçları kürəklərinin arasına çatardı. Yun paltar və ağac qabığından hazırlanmış sandal geyinərdi. Hz.İsa dünyadan üz döndərər, axirəti istəyər və vaxtını Allaha ibadət etməklə keçirərdi (M.Asım Köksal, «Peyğəmbərlər Tarixi», səh. 334, 335).

Onu görən hər bir insanın heyran qalacağı gözəllikdə olan bu mübarək insan bəzi hədislərdə belə tərif edilir:

> "Mən bu gecə yuxuda Kəbədə olduğumu gördüm. Qəfildən əsmər bir insan gördüm. Elə bil o əsmər insanlardan görünənlərin ən gözəli, başının saçı iki kürəyinin arasına tökülürdü. Daranmış və təmizlənmişdi, başından su axırdı. İki əlini iki insanın kürəyinə qoyaraq Beyti təvaf edirdi. "Bu kimdir" - deyə soruşdum. Onlar: "Bu, Məryəmin oğlu Məsihdir" - dedilər. "...Elə isə onu görəndə tanıyacaqsınız. O, orta boylu, ağ və pəmbə bədənli bir insan olub sarı rəngli paltarda ola-

caqdır..." (*Məvdudi, «Tarix boyunca tövhid mübarizəsi və Hz.Peyğəmbər», I cild, səh. 377-383*).

Allahın seçib göndərdiyi bir peyğəmbər olan Hz.İsada da bütün üstün əxlaqi xüsusiyyətlər ən gözəl şəkildə təzahür etmişdir. Onu başqa insanlardan fərqləndirən əsas xüsusiyyətlərdən biri insanların görən kimi təsirlənəcəyi yüksək əxlaqı və şəxsiyyətidir. Hz.İsa Allaha olan güvəni, təvəkkülü və imanı ilə çox iradəli, cəsarətli, cəmiyyətin təsirinə düşməyən, əksinə, başqalarına təsir edən güclü bir insandır. Həmçinin bütün peyğəmbərlərin malik olduğu bu üstünlük ayələrdə belə bildirilir:

**"Bu, bizim İbrahimə öz tayfasına qarşı verdiyimiz dəlildir. Biz istədiyimiz şəxsi dərəcə-dərəcə yüksəldərik... Biz İshaqı və Yəqubu ona əta etdik. Onların hər birini hidayətə çatdırdıq. Bundan əvvəl Nuhu və onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da hidayətə qovuşdurmuşduq. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Zəkəriyyəni, Yəhyanı, İsanı, İlyası da hidayətə çatdırdıq. Onların hamısı əməlisalehlərdən idi. Biz həmçinin İsmaili, Əlyəsəi, Yunisi və Lutu da aləmlərdən üstün tutduq. Biz onların atalarından, nəsillərindən və qardaşlarından da onları seçdik və düz yola yönəltdik. Bu, Allahın haqq yoludur. Bəndələrindən istədiyini ona yönəldir..." ("Ənam" surəsi, 6/83-88).**

Bütün peyğəmbərlər kimi Hz.İsa da ədalətdən ayrılmayan, təvazökar, şəfqətli, səmimi, dürüst, fədakar bir insan kimi Allahın seçdiyi peyğəmbərlərdən idi. Bir ayədə Allah Hz.İsa üçün belə buyurur:

**"Bu peyğəmbərlərin bəzisini digərindən üstün etdik. Allah bunlardan bəzisi ilə danışmış, bəzisinin isə dərəcələrini yüksəltmişdir. Məryəm oğlu İsaya açıq**

**möcüzələr verdik və onu müqəddəs ruhla qüvvətləndirdik..." ("Bəqərə" surəsi, 2/253).**

Hz.İsanın həyatına nəzər salanda onun bu üstün əxlaqi xüsusiyyətlərini görmək olar. Hz.İsa hər şeydən əvvəl dini insanlara çatdıran bir hidayət rəhbəri idi. O, həm Allahın bütün əmr və tövsiyələrinə ən çox riayət edən, həm də ən düzgününü anladaraq xalqı xurafatlardan uzaqlaşdıran bir yolgöstərəndir. Hz.İsanın Allahın göstərdiyi ibadətləri və digər əxlaqi xüsusiyyətləri həssaslıqla tətbiq etməsi Qur'anda belə bildirilir:

**"Dedi: "Mən həqiqətən Allahın quluyam. O, mənə kitab verdi, özümü də peyğəmbər etdi. O, harada oluramsa olum, məni mübarək etdi və mənə diri olduqca - namaz qılıb zəkat verməyi tövsiyə buyurdu. Anama itaət etməyi də..." ("Məryəm" surəsi, 19/30-32).**

Hz.İsa yer üzündə olduğu müddət ərzində düzgünü səhvdən ayırmaq, hikmətli və təsirli söz söyləmək kimi xüsusiyyətləri ən gözəl nümunələrlə ortaya qoymuşdu. Düşmənlərinin onu alçaltmaq üçün mənfi məqsədlə soruşduqları suallara ən hikmətli və ən məntiqli cavablar vermiş, bir nümunə ilə düşmənlərinin bütün səylərini puça çıxarmışdı. Hz.İsa xalqının ona qarşı rəftarının müqabilində həmişə təvəkküllü olmuş, Allaha olan güclü imanı və səmimiyyəti ona güc vermiş, Allahın varlığını ən təsirli yollarla izah etmişdi.

Hz.İsa başqa peyğəmbərlər kimi təbliğində dini insanlara açıq, səlis və xalqın başa düşəcəyi şəkildə çatdırmışdı. Verdiyi hikmətli tövsiyə və nümunələr insanların vicdanına təsir etmiş, onları fikirləşməyə, Allahın razı olacağı kimi davranmağa təşviq etmişdi. Hz.İsanın təbliğindən onun Allaha olan sevgisi, coşğulu imanı və Allahın əmrlərini yerinə yetirmək işindəki təbliğ üsulu onun Allahın seçib bəyəndiyi

və insanlardan üstün etdiyi müqəddəs bir insan olduğunu bizə ən gözəl şəkildə göstərir.

## Hz.İsanın təbliği

Dünyaya gələndən Allahın yanına yüksəldilənə kimi bütün həyatı möcüzələrlə dolu olan Hz.İsanın yaşadığı və Allahın icazəsi ilə göstərdiyi möcüzələr Qur'anda belə xəbər verilir:

> **"Xatırla ki, o gün Allah belə buyuracaq: "Ya Məryəm oğlu İsa! Sənə və anana nemətimi yadına sal. O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən beşikdə olanda da, yetkin çağında da adamlarla danışdırdım. Sənə kitabı, hikməti, Tövratı və İncili öyrətdim..."" ("Maidə" surəsi, 5/110).**
>
> **"Və onu İsrail övladına peyğəmbər göndərəcək: "Mən həqiqətən Rəbbiniz tərəfindən möcüzə ilə sizə gəlmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın iznilə quş olar. Anadangəlmə korları, cüzam xəstəliyinə tutulanları sağaldar və Allahın iznilə ölüləri diriltdərəm. Mən evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri də sizə xəbər verərəm. Əgər möminsinizsə, bunda bir dəlil vardır" ("Ali-İmran" surəsi, 3/49).**

Atasız anadan olması, beşikdə ikən danışması, Allahın müqəddəs kitablarını - Tövratı, İncili və Qur'anı bilməsi, palçıqdan quşa bənzər bir nəsnə hazırlayıb nəfəsi ilə canlandırıb uçurması, anadangəlmə koru, cüzamlı xəstələri sağaltması, ölünü diriltməsi, insanların yediklərini və gizləyib yığdıqlarını xəbər verməsi, özündən sonra gələcək müqəddəs insanı - Peyğəmbərimiz Hz.Muhəmmədi (s.ə.v.) "Əhməd" adı ilə xəbər verməsi Hz.İsanın ayələrdə bildirilən möcüzələri sayıla bilər.

Hz.İsanın göstərdiyi bütün bu möcüzələrə və Allahın vəhyi ilə etdiyi təbliğə baxmayaraq xalqın böyük bir hissəsi inkar etməkdə davam etmişdi. Qur'anda nümunələri verilən digər xalqlar kimi həmin dövrün inkarçıları da Hz.İsanın əməllərinin sehrdən başqa bir şey olmadığını söyləyərək onu sehrbazlıqda ittiham etmişdilər.

**"Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: "Ey İsrailoğulları! Həqiqətən mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə müYdə verən Allahın elçisiyəm!" Sonra onlara aşkar möcüzələrlə gəldikdə onlar: "Bu, açıq-aydın sehrdir!" - dedilər" ("Səff" surəsi, 6).**

Yenə Qur'anda bildirildiyi kimi, Hz.İsa yəhudiliyi aradan qaldırmaq üçün deyil, bu şəriətin əslində düzgün olduğunu vurğulamaq və əlavə edilmiş xurafatları təmizləyərək dini əslinə qaytarmaq üçün göndərilmişdi. Bundan başqa, Allah onun üzərinə müxtəlif yəhudi məzhəbləri arasındakı ixtilafları yoluna qoymaq vəzifəsini qoymuşdu. Bu məsələ Qur'anda belə bildirilir:

**"<u>Məndən əvvəl göndərilmiş Tövratı təsdiq edərək</u> sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün gəldim və sizə Rəbbiniz tərəfindən bir möcüzə gətirdim. İndi Allahdan qorxun və mənə itaət edin!" ("Ali-İmran" surəsi, 3/50).**

**"İsa aşkar möcüzələrlə gəldiyi zaman dedi: "Həqiqətən mən sizə hikmətlə, həm də ixtilafda olduğunuz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin!" ("Zuxruf" surəsi, 63).**

Hz.İsa Tövratda mövcud olan imani məsələləri təsdiq etmiş, ancaq Allahın insanlara bir yolgöstərən və nəsihət kimi göndərdiyi yeni kitabını - İncili gətirmişdi:

**"Onların ardınca Məryəm oğlu İsanı özündən qabaqkı Tövratı təsdiq edən kimi göndərdik. Ona için-**

**də haqq yol və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol və nəsihət olan İncili verdik. İncil əhli Allahın onda nazil etdiyi ilə hökm etsin. Allahın nazil etdiyi ilə hökm etməyənlər əlbəttə, günahkarlardır" ("Maidə" surəsi, 5/46-47).**

Hz.İsanın dəvətinə qoşulanları sayı ilk əvvəl çox az olmuşdu. Çünki bu dəvət uzun illərdir ənənə halına gətirərək dinə qarışdırdıqları mövhumatlarla şəxsi mənfəətlərini təmin edən rahiblərin və Allahın hakimiyyətini qəbul etməyən idarəçi sinfin ayrı-seçkiliyini aradan qaldırırdı. Onların tətbiq etdiyi təzyiq və zülm xalqın təhdid altında yaşamasına və Hz.İsadan uzaqlaşmasına səbəb olurdu. Hz.İsanın apardığı təbliğ yayılanda, onun ardınca gedənləri sayı artmağa başlayanda həmin qrupların hazırladığı xain tələlər və Hz.İsaya mane olmaq üçün qurduğu planlar da artmışdı. Tarix boyunca bütün peyğəmbərlər belə tələlərə məruz qalıblar. Müşriklərin elçilərə göstərdiyi bu qeyri-insani vəziyyət Qur'anda belə bildirilir:

**"...Hər dəfə ürəyinizə yatmayan bir əmrlə gələn peyğəmbərə təkəbbürlük göstərmirdinizmi? Məhz buna görə də onların bir qismini təkzib etdiniz, bir qismini isə öldürdünüz" ("Bəqərə" surəsi, 2/87).**

Xalq arasında Hz.İsaya qulaq asıb inananlarla inkarçılar ayrılmağa başlamış, iki qrup arasındakı fərq artıq aydın şəkildə görünməyə başlamışdı. Bir tərəfdə həqiqi dini anladan və insanları bir olan Allaha iman gətirməyə çağıran Allahın elçisi, digər tərəfdə isə hər hansı möcüzəni, dəlili görməyinə baxmayaraq inanmamağa qərar vermiş bir qrup var. Hz.İsanın qarşısındakı düşmənlər özlərini açıq şəkildə göstərməyə başlamışdılar. Ona qulaq asan, yanında olan insanlardan də sonradan onu inkar edənlərin çıxması ehtimalı da var. Həmçinin Allah "**Amma onların içərisindən çıxan firqələr arasında ixtilaf düşdü...**" ("Zuxruf" surəsi, 65) ayəsi

ilə bunu bizə xəbər verir. Buna görə də Hz.İsa xalqın arasında iman gətirən, həqiqətən etimad göstərib güvənə biləcəyi insanları müəyyən etmişdi. Bu məsələ Qur’anda belə bildirilir:

**"İsa onların küfrünü hiss etdikdə: "Allah yolunda kim mənim köməkçim olacaqdır?!" - deyə soruşdu. Həvarilər dedilər: "Bizik Allahın köməkçiləri! Biz Allaha inandıq. Sən də təslim olduğumuza şahid ol!"" ("Ali-İmran" surəsi, 3/52).**

Qur’anda inkarçıların Hz.İsanı öldürmək məqsədi ilə bir tələ qurduqları xəbər verilir. Rəvayətlərə görə, Hz.İsanın yanındakılardan bir nəfəri xəyanət etməyə məcbur etmiş bir dəstə saxtakar din adamı Allahın elçisini tutub romalılara təslim etmək istəmişdi. Yenə rəvayətlərə görə, ölüm cəzasını tətbiq etmək səlahiyyəti olmayan rahiblər Roma idarəçilərini ayağa qaldırmaq üçün bir hiylə qurmuş və Hz.İsanı romalılara qarşı çıxan bir insan kimi təqdim etmişdilər. Çünki onlar romalıların bu məsələdə çox həssas və rəhmsiz olduqlarını yaxşı bilirdilər. Bu tələnin nəticəsi isə Qur’anda belə xəbər verilir:

**"Onlar (inanmayanlar) hiyləyə əl atdılar. Allah da onların hiyləsinə əvəz verdi. Allah hiyləgərlərdən tədbirlidir (hiyləgərlərə ən yaxşı cəza verəndir)" ("Ali-İmran" surəsi, 3/54).**

Ayələrdən də aydın olduğu kimi, Hz.İsanı öldürmək üçün hərəkətə başlanmış və ona tələ qurulmuşdu. Ancaq onlar Hz.İsanı öldürməyə nail ola bilməmiş, onun oxşarını Hz.İsa zənn edərək öldürmüşdülər. Allah Hz.İsanı Öz dərgahına yüksəldərək hazırlanan hiyləni puç etmişdi:

**"Və:"Biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük", - deməléridir. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqlı ixtilafda olanlar onun barəsində əlbəttə, şəkk-şübhə içərisindədirlər.**

**Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu öldürməmişlər. Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır. Şübhəsiz, Allah qüvvət, hikmət sahibidir!" ("Nisa" surəsi, 4/157-158).**

Romalıların Hz.İsanı çarmıxa çəkərək öldürmələri iddiası dünyada çox geniş yayılmış bir səhvdir. Bu iddiaya görə, Hz.İsanı tutan romalılar və yəhudi din adamları onu çarmıxa çəkərək öldürmüşlər. Xristianların əksəriyyəti də hadisəni bu cür qəbul edir və onun öləndən sonra dirilərək göyə yüksəldiyinə inanır. Ancaq Qur'an ayələrinə nəzər yetirəndə hadisənin əslinin belə olmadığını görürük:

"**Və: "Biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük**" (qatəlnə)**, - demələridir. Halbuki onlar İsanı nə öldürdülər** (ma qatələhu)**, nə də çarmıxa çəkdilər** (ma saləbə)**. Onlarda yalnız belə bir təsəvvür yarandı** (şubbihə)**. Bu haqlı ixtilafda olanlar onun barəsində əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu öldürməmişlər** (ma qatələhu)" **("Nisa" surəsi, 157).**

Eyni surənin yuxarıda qeyd edilən ayəsindən sonra gələn ayədə Hz.İsanın ölümü ilə bağlı belə buyrulur:

**"Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır (rafaə). Şübhəsiz, Allah qüvvət, hikmət sahibidir!" ("Nisa" surəsi, 4/158).**

Ayədə bildirilən məsələ çox aydındır. Yəhudilərin aldatmaları ilə Hz.İsanı öldürməyə çalışan romalılar buna nail ola bilməmişdilər. Ayədə qeyd edilən "**...Onlarda yalnız belə bir təsəvvür yarandı...**" ifadəsi bunu çox aşkar şəkildə göstərir.

Allah insanlara Hz.İsanın oxşarını göstərmiş və onu Öz dərgahına yüksəltmişdir. Bundan başqa, Allah bu iddia-

da olanların həqiqətlə bağlı bir məlumatlarının olmadığını da bildirir.

Hz.İsanın çarmıxa çəkilməsi ilə bağlı ilk dövrlərdə müxtəlif fikirlər səslənmişdi. Sonrakı əsrlərdə konsulluğun qərarı ilə xristianlığın dini əsasları (imanın şərtləri) müəyyən edilənə kimi bu fikir ayrılıqları davam etmiş və Hz.İsanın çarmıxa çəkilmədiyini iddia edən cərəyanlar yolunu azmış azğınlar elan edilmişdilər.

# HZ.İSA ALLAHIN OĞLU DEYİL, PEYĞƏMBƏRİDİR

Dünyanın iki ən böyük səmavi dini olan İslamın və xristianlığın bir çox müştərək inancları var. Xristianlar da müsəlmanlar kimi Allahın mütləq varlığına, Onun əzəli və əbədi olmasına, bütün kainatı yoxdan yaratdığına və bütün maddəyə sonsuz qüdrəti ilə hakim olmasına inanırlar. Müsəlmanların və xristianların rədd etdikləri təfəkkür yanlışlıqları da eynidir: onların ateizmə, dinsizliyə, irqçiliyə, faşizmə və əxlaqi aşınmaya qarşı apardıqları məfkurə mübarizəsində və yaxud Allahın mövcudluğunu təbliğ etmək məsələsindəki səylərində çox böyük oxşarlıqlar var. Bu dinlərin ikisinin də ortaq məqsədi bütün insanların Allahı tanıyacaqları, sülh, əmin-amanlıq və dinclik içində yaşayacaqları ədalətli bir dünya qurmaqdan ibarətdir. Hər iki dinə mənsub olan möminlər Allah qorxusu və Allah sevgisi ilə hərəkət edir, Allahın elçilərinin yolu ilə gedir və Onun vəhyinə tabe olurlar.

Xristianlarla müsəlmanlar əxlaqi dəyərlər baxımından da çox böyük harmoniya içindədirlər. Yalnız öz şəxsi mənfəətini güdən, sevgisiz, mərhəmətsiz, eqoist, mənfəətpərəst, dürüstlükdən uzaq olan insan modeli müsəlmanlar kimi xristianların da əsas götürdüyü din əxlaqına ziddir. Xristianlar da sevginin, dürüstlüyün, mərhəmətin, fədakarlığın, ədalətin, təvazökarlığın və qardaşlığın hakim olduğu bir dünyanın həsrətindədirlər və belə bir dünya qura bilmək üçün səy göstərirlər. Xristianlar da Rəbbimizin haram buyurduğu pozğunluq, fahişəlik, homoseksualizm, narkomaniya, vəhşilik, zorakılıq kimi əxlaqsızlıqların qarşısını almaq üçün mübarizə aparırlar.

Xristianlar və müsəlmanlar Allahın seçilmiş bəndəsi olan Hz.İsaya dərin bir sevgi bəsləyir və ona hörmət edirlər. Hz.İsa Allahın bizə Qur'an ayələri ilə tanıtdığı və aləmlərə üstün etdiyi mübarək bir elçidir. Qur'anda Hz.İsanın "**...Dünyada və axirətdə şanı uca və (Allaha) yaxın olanlardan**" ("Ali-İmran" surəsi, 45) olduğu bildirilir. O, Allahın müxtəlif möcüzələrlə və üstün əxlaqla şərəfləndirdiyi qiymətli bir bəndəsidir.

Bu kitabın yazılmasında məqsəd xristianlıqda (həqiqi xristianlıq ifadəsi ilə xristianlığın Hz.İsaya ilk vəhy edildiyi halı nəzərdə tutulur) olmayan, ancaq Hz.İsanın Allah dərgahına yüksəldilməsindən çox-çox sonralar ortaya çıxan "üçləmə" ("təslis") etiqadının yanlışlığı məsələsi üzərində dayanmaqdır. Kitabda həm xristian mənbələrinin, həm də Qur'an ayələrinin işığında həqiqi xristianlığın tövhid inancını əsas götürən, muvahhid (Allahın təkliyinə iman gətirən) bir din olduğunu göstərəcəyik. Bundan başqa, Hz.İsanın "Allahın oğlu" (Allah bundan uzaqdır) olması fikri üzərində qurulan üçləmə etiqadının hansı səbəblərdən təşəkkül tapmasını araşdıracağıq. Sözügedən etiqad araşdırılarkən üçləməni müdafiə edən müxtəlif fikirlərə və əsas iddialara da bu kitabda yer veriləcəkdir. Ancaq bu etiqadın təfərrüatları üzərində dayanmazdan öncə sonsuz güc və qüdrət sahibi olan Rəbbimizin üçləmə inancını başa salmaq məqsədilə istifadə edəcəyimiz bütün ifadələrdən uzaq olduğunu bildirir və Onun müqəddəs peyğəmbəri olan Hz.İsanın bu cür dəyərləndirmədən uzaq olduğunu bildirmək istəyirik.

**Qeyd:** *Müqəddəs Kitabın bu kitabda yer alan cümlələrindəki bəzi ifadələrdə dəyişikliklər edilmiş, "Ata" ifadəsi "Allah-Rəbb", "Oğul" ifadəsi isə "peyğəmbər-elçi" şəklində yazılmışdır. İstifadə edilən əsərlərdə Allahın elçisi Hz.İsanın adının çəkildiyi hər yerə bu müqəddəs insana hörmət əlaməti olaraq "Həzrəti" sözü əlavə edilmişdir.*

Burada xüsusi vurğulanmalı olan digər vacib cəhət isə Allahın göndərdiyi bütün elçilərə və kitablara iman gətirən müsəlmanların həm xristianların, həm də yəhudilərin etiqad və dəyərlərinə hörmət bəsləməsi məsələsidir. Yəhudilərin müqəddəs kitabı olan Əhdi-Ətiqə daxil olan Tövrat və Zəburla xristianlığın müqəddəs kitabı olan Əhdi-Cədid (İncil) İslam dinində səmavi kitablar kimi qəbul edilir, bu dinlərə mənsub olanlar isə "**Kitab əhli**" **("Əhli-kitab")** adlandırılırlar. Rəbbimiz "Bəqərə" surəsində müsəlmanlara belə tərif verir:

> **"Onlar sənə göndəriləne və səndən əvvəl göndərilənlərə iman gətirirlər..." ("Bəqərə" surəsi, 4).**

Ayələrdə bildirilən bu kitablar Hz.İbrahimin səhifələri, Hz.Musaya göndərilən Tövrat, Hz.Davuda verilən Zəbur və Hz.İsaya göndərilən İncildir. Allahın Hz.İbrahimə verdiyi səhifələr bu günə qədər gəlib çatmayıb. Digər kitablar isə zaman ötdükcə ilk vəhy edildikləri şəkildə qalmamış, bəzi adamlar tərəfindən müxtəlif səbəblərdən təhrif edilmişlər. Dolayısı ilə onların bəzi hissələrində Allahın haqq dinindən uzaq şərh və açıqlamalar var. Bununla belə Allaha və elçilərə iman, Allah sevgisi və Allah qorxusu, gözəl əxlaq və s. bu kimi Qur'an ayələrinə uyğun olan fəsillər də günümüzə qədər gəlib çatmışdır (ən doğrusunu Allah bilir). Allah bu kitabların onların göndərildiyi cəmiyyətlər və xalqlar üçün bir yolgöstərən və rəhbər olduqlarını bildirir. Rəbbimiz **"Ali-İmran" surəsində "Sənə özündən əvvəlkiləri təsdiq edən Kitabı haqq olaraq O nazil etdi. Tövratı da, İncili də O endirdi. Daha öncə insanları hidayət etmək üçün..."** ("Ali-İmran" surəsi, 3-4) şəklində buyurur. Allah başqa bir ayədə isə Tövrat haqqında bunları bildirir:

> **"Şübhəsiz ki, Tövratı Biz nazil etdik. Onda haqq yol və nur vardır. (Allaha) təslim olan peyğəmbərlər yəhudilər arasında onunla, din alimləri və fəqihlər isə**

**kitabdan qorunub saxlanılanlarla hökm edərdilər. Onlar ona şahiddirlər..." ("Maidə" surəsi, 44).**

Qur'anda bəzi yəhudi din adamları haqqında belə buyrulur: "**Onlar sözlərin yerini sonradan dəyişib təhrif edirlər...**" ("Maidə" surəsi, 41). Allah başqa bir ayədə isə bəzi yəhudilərin "**Onlar kitabı öz əlləri ilə yazıb, sonra bir az pul almaqdan ötrü: "Bu, Allah tərəfindəndir!"**" ("Bəqərə" surəsi, 79) dediklərini bildirir. Yəni onlar Rəbbimizin Hz.Musaya vəhy etdiyi müqəddəs kitabı təhrif ediblər. Xristianlar isə üçləmə (təslis) inancı ilə çox böyük yanlışlığa düşüblər ("Nisa" surəsi, 171).

Allah Qur'anda Kitab əhli haqqında çox əhəmiyyətli məlumatlar verir. Bunlardan bir qismi Kitab əhlindən olan bəzi adamların etiqadi və ya əxlaqi səhvləridir. Amma bunlar bütün Kitab əhlinin qəflətdə olması və səhv etməsi mənasına gəlmir. Ayələrdə yəhudilərlə xristianlar arasında səmimi dindar adamların olduğu da xəbər verilir:

> **"Onların hamısı eyni deyil. Kitab əhli içərisində düzgün bir camaat vardır ki, onlar gecə vaxtları səcdə edərək Allahın ayələrini oxuyurlar. Onlar Allaha, axirət gününə inanır, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və xeyirli işlər görməyi tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər. Onların yaxşılıq naminə etdikləri işlərdən heç biri inkar edilməz (mükafatsız qalmaz). Şübhəsiz ki, Allah müttəqi olanları tanıyır!" ("Ali-İmran" surəsi, 113-115).**
>
> **"Həqiqətən, kitab əhli içərisində elələri də vardır ki, onlar Allaha boyun əyərək Allaha, sizə və özlərinə nazil olanlara inanır, Allahın ayələrini ucuz qiymətə satmırlar. Onların Rəbbi yanında mükafatları vardır. Doğrudan da, Allah tezliklə haqq-hesab çəkəndir" ("Ali-İmran" surəsi, 199).**

Nümunəvi müsəlmanlar bütün həyatları boyunca Qur'an ayələrinə əsasən yaşayırlar. Onların dəyər ölçüləri, əxlaqi xüsusiyyətləri, həyata və insanlara münasibəti tamamilə Allahın Qur'an ayələri ilə müəyyən etdiyi şəkildədir. Müsəlmanların Kitab əhlinə münasibəti də eyni şəkildədir, yəni onlara həmişə xoş niyyətlə, ədalətlə, sevgi ilə yanaşmağı əsas məqsəd sayırlar. Buna görə də onları "qarşı tərəf" kimi deyil, Allaha bağlı olan etiqadlı insanlar kimi qəbul edirlər. Bunun əksi Qur'an əxlaqına zidd bir davranış olacaq. Kitab əhli arasında da Allaha səmimi şəkildə iman gətirən və dolayısı ilə qurtulacağı güman edilən çoxlu sayda insanın ola biləcəyi yaddan çıxarılmamalıdır. Dolayısı ilə bu kitabda verəcəyimiz bütün xatırlatmalar həmin məqsədlə yazılmış və Allahın əksər Qur'an ayələrində bildirdiyi "**yaxşılığı əmr edər, pisliklərdən çəkindirər**" əmrinin tələblərini yerinə yetirmək əsas məqsəd kimi qəbul edilmişdir. Məqsədimiz üçləmə inancının yanlışlığını göstərmək və sağlam düşüncəli xristianların həqiqəti anlamasına yardımçı olmaqdır. Niyyətimiz budur ki, vicdanlı xristianlar bu səhvi dərk etsin və tövhid etiqadına uyğun olmayan bütün səhv inanclardan tamamilə əl çəksinlər.

# XRİSTİANLARIN ÜÇLƏMƏ SƏHVLƏRİ

Allah bəşər tarixi boyunca insanlara düzgün yol göstərmək və yanlış həyat tərzlərini onlara bildirmək üçün peyğəmbərlər göndərmişdir. Hər peyğəmbər göndərildiyi cəmiyyəti hidayət yoluna dəvət etmiş, Rəbbimizdən aldığı vəhyi öz camaatına, xalqına çatdırmışdır. Hər dinin hökmlərində, ibadətlərində və onların tətbiq olunma formalarında bəzi fərqlər olsa da bütün peyğəmbərlərin həyata keçirdiyi təbliğin əsası eyni tövhid inancıdır. Tövhid "**Allaha bir və tək tanrı olaraq iman gətirmək**" deməkdir. Tövhid etiqadına inanan bir adam yeganə güc və qüdrət sahibinin aləmlərin Rəbbi olan Allah olduğunu bilir, bütün insanların Allaha möhtac olan aciz bəndələr olduğunu və bütün varlıqların Allaha boyun əydiklərini dərk edir. Başqa sözlə, İslam dinindən başqa iki böyük haqq din olan yəhudilik və xristianlıq özlərinin təhrif olunmamış halları ilə heç bir varlığı Allaha şərik qoşmamaq əsası üzərində qurulmuşdur.

Allahın varlığına və birliyinə inanan hər üç səmavi dinin mənsubları da əslində Rəbbimizin Hz.İbrahimə göndərdiyi haqq dinə tabe olurlar. Qur’anda Hz.İbrahimin dininin "hənif" din olduğu bildirilmiş və Peyğəmbərimizə (s.ə.v.) bu dinə tabe olması əmr edilmişdir:

> **"Sonra sənə: "Hənif (muvahhid) olaraq müşriklərdən olmayan İbrahimin dininə tabe ol!" - deyə vəhy etdik" ("Nəhl" surəsi, 123).**

"Hənif" kəlməsi "yalnız Allaha inanıb yalnız Ona qulluq edən adam" mənasına gəlir. Hz.İbrahimin hənif kimi qeyd edilən xüsusiyyəti onun yalnız Allaha bir və tək tanrı olaraq iman gətirməsi və Ona təslim olmasıdır. O, bütpərəst olan tayfasının batil etiqadlarından uzaqlaşmış, yalnız Alla-

ha üz tutmuş hənif bir bəndə idi. Qövmünə də bütpərəst inanclarından əl çəkmələri, bütlərə ibadət etməkdən uzaqlaşmaları ilə bağlı xəbərdarlıq etmişdi (ətraflı məlumat üçün Harun Yəhyanın *"Hz.İbrahim və Hz.Lut"* adlı kitabına müraciət edə bilərsiniz).

Allahın Hz.İbrahimə vəhy etdiyi haqq din onun nəslindən gələn saleh möminlər tərəfindən qüvvədə saxlanılmışdır:

**"Özünü səfehliyə qoyanlardan başqa kim İbrahimin dinindən üz çevirər? Həqiqətən, Biz onu dünyada seçdik. Şübhə yoxdur ki, o, axirətdə də əməlisaleh olanlardandır. Rəbbi İbrahimə: "Təslim ol!" - dedikdə, o: "Aləmlərin Rəbbinə təslim oldum!" - deyə cavab vermişdi. İbrahim və Yəqub bunu öz oğlanlarına vəsiyyət edib dedi: "Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün din seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz!" Yoxsa Yəqubun ölümü yetişdikdə siz onun yanında idiniz?! O: "Məndən sonra nəyə ibadət edəcəksiniz?" - deyə oğlanlarından soruşduğu zaman, onlar: "Sənin Allahına və ataların - İbrahimin, İsmailin və İshaqın Allahı olan tək Allaha təslim olacağıq (Ona ibadət edəcəyik)" -dedilər" ("Bəqərə" surəsi, 130-133).**

Buradan da aydın olduğu kimi, Hz.İbrahimin hənif dini yəhudilər, xristianlar və müsəlmanlar arasında müştərək bir dindir. Yəhudilər Hz.İbrahimi bütün yəhudilərin peyğəmbəri kimi qəbul edir və Hz.İbrahimin yolunu davam etdirdiklərini söyləyirlər. Xristianlar da Hz.İbrahimin yəhudilərin olduğu kimi özlərinin də peyğəmbəri olduğunu qəbul edirlər. Hz.İbrahimə iman gətirmək, ona sevgi bəsləmək və hörmət etmək yəhudilər və xristianlar kimi müsəlmanlar üçün də əhəmiyyətlidir. Rəbbimiz "Nisa" surəsində belə buyurur:

**"Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən, hənif olan İbrahimin dininə tabe olan şəxsdən din etibarilə daha gözəl kim ola bilər? Həqiqətən, Allah İbrahimi dost tutmuşdur!" ("Nisa" surəsi, 125).**

Rəbbimizin Qur'anda əmr etdiyi kimi, müsəlmanlar bütün peyğəmbərlərə "göndərilənlərə heç birini digərindən ayırmadan" iman gətirərlər:

**"Belə deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən peyğəmbərlərə verilən şeylərə inanmışıq. Onların heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha olanlarıq!"" ("Bəqərə" surəsi, 136).**

Ancaq unutmaq olmaz ki, Allaha olan coşğulu imanı, dərin sevgisi, Rəbbimizin bütün əmrlərinə könüldən boyun əyməsi, itaəti və üstün əxlaqı ilə bütün möminlərə nümunə olan Hz.İbrahimə ən yaxın olanlar əlbəttə ki, onun əxlaqını yaşayanlar və tövhid yolunu davam etdirənlərdir. Rəbbimiz Qur'anda belə buyurur:

**"Şübhəsiz ki, insanların İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər və ona iman gətirənlərdir. Allah möminlərin dostudur!" ("Ali-İmran" surəsi, 68).**

Dolayısı ilə Allaha könüldən iman gətirən xristian və yəhudilərin də Hz.İbrahim və ona tabe olan möminlər kimi yalnız Allaha üz tutmaları, Hz.İbrahimin göstərdiyi gözəl əxlaqı, səmimiyyəti və dərin imanı nümunə götürmələri lazım gəlir. Onlar da Hz.İbrahimin hənif dininə tabe olan muvahhidlər kimi Allahın birliyinə iman gətirən və Ona heç bir şeyi şərik qoşmayan səmimi bəndələr olmalıdırlar. Amma xristianlıq hal-hazırda üçləmə inancı ucbatından bu tərifdən uzaqlaşmışdır. Xristianlıq Hz.İsanın Allahın dərgahına yüksəldilməsindən sonra ortaya atılan üçləmə inancı sə-

bəbi ilə səhv yola girib və tövhid inancı dəyişdirilərək fərqli bir inam meydana gətirilib.

## Üçləmə yanlışlığı xristianlar üçün nə deməkdir?

Xristianlıq Fələstində yaşayan yəhudilərin arasında ortaya çıxdı. Hz.İsanın ətrafındakı adamların və ona inanan insanların böyük əksəriyyəti yəhudi idi. Onlar Hz.Musanın şəriətinə görə yaşayırdılar. Yəhudiliyin əsas xüsusiyyəti isə bir və tək olan Allaha iman gətirmək idi.

Amma sonrakı fəsillərdən daha müfəssəl görəcəyimiz kimi, xristianlıq Hz.İsanın Allah dərgahına yüksəldilməsindən və yəhudilərin dünyasından çıxıb bütpərəst dünyaya tərəf yayılmasından sonra dəyişməyə başladı. Hz.Musanın şəriətinin əsası olan tövhid etiqadı böyük bir dəyişikliyə məruz qaldı. Hz.İsa üçləmə etiqadı ucbatından bir tanrı kimi qəbul edilməyə başlandı.

**Qeyd:** *Bu fəsildə üçləmə inancını tərif etmək məqsədilə istifadə edəcəyimiz bütün batil ifadələrdən Allaha sığınırıq.*

Üçləmə inancı bundan sonra ortaya çıxdı. Bu anlayışdan "Ata, Oğul və Müqəddəs Ruh"dan törəmiş üçlü tanrı inancı mənasında istifadə edilir. Üçləmə ənənəvi xristianlığın əsas imani şərtlərindən biridir. Sonsuz güc və qüdrət sahibi olan Rəbbimizə bir və tək olaraq iman gətirməyi əsas götürən tövhid inancı ilə kəskin ziddiyyət təşkil edən bu yanlış etiqadı aşağıdakı şəkillərdə tərif etmək mümkündür:

- Təslis etiqadına görə, Allah "üçlü birlik" anlayışı ilə Özünü üç formada göstərmişdir və "Ata, Oğul və Müqəddəs Ruh" eyni şeydir. Bu inanc bu cümlələrlə xülasə edilir: "Ata, Oğul, Müqəddəs Ruh elə tək olan tanrının Özüdür", "Tanrı "Ata, Oğul, və Müqəddəs Ruh" şəklindədir"... Ağıla və məntiqə zidd olan bu

səhv etiqada görə, üçləmədəki üç şəxsin hər biri Allahdır, dolayısı ilə onların hər biri eyni gücə və səlahiyyətə malikdir (bu fikirdən Allaha sığınırıq).

- Hz.İsanın sözdə "Allahın oğlu" olduğuna inanırlar. Bu yanlış inanca görə, Hz.İsa Allahla eyni xüsusiyyətə malikdir. Bu etiqadı "homoousnius" adlandırır və onu "Ata ilə Oğul eyni əsasdan, cövhərdən ibarətdir" şəklində xülasə edirlər.
- Hz.İsanın yaradılmadığına, "Allahın oğlu" kimi sonsuzluqdan gəldiyinə inanırlar. Bu yanlış inama görə, Hz.İsa insanların xilası üçün göydən yerə enmiş, ətə-qana dolub, yəni bədən (cism) şəklinə düşüb insan olmuşdur. Bu inanca da **inkarnasiya** deyilir.

Üçləmə inancı sonsuz güc və qüdrət sahibi olan Rəbbimizə batil bir anlayışla baxan, Allahın insanlara peyğəmbər kimi göndərdiyi Hz.İsaya tanrılıq statusu verən yanlış bir inancdır. Amma üçləmə özündə bir çox ziddiyyətləri daşımasına və tövhidə tamamilə zidd olmasına baxmayaraq xristianlıqda çox böyük və əhəmiyyətli bir yer tutur. Üçləməyə, yəni Hz.İsanın Allahın oğlu olduğuna inanmayan bir adam üçləmə tərəfdarları tərəfindən həqiqi xristian kimi qəbul edilmir.

Burada qəribə və diqqətçəkici bir məsələ də tarix boyunca üçləməyə qarşı çıxıb Hz.İsanın Allahın yalnız bir peyğəmbəri olan bir bəşər olması fikrini müdafiə edən müxtəlif şəxs və icmaların şiddətli təzyiq və basqılara məruz qalmalarıdır. Bu adamların İncildən və Hz.İsanın həyatından gətirdikləri dəlillər həmişə qulaqardına vurulmuş və bu məsələ haqqında danışmaq qadağan edilmişdi. Sonrakı fəsillərdə daha ətraflı şəkildə araşdıracağımız həmin tövhid etiqadında olanlar Hz.İsanın "Allahın oğlu" olduğunu söyləyənlərə şiddətlə qarşı çıxmış, bunun açıq-aşkar "Allaha şirk qoşmaq" olduğunu söyləmişlər. Buna görə də həmin adamlar əsrlər boyunca "kafir", "azğın", hətta "din düşməni"

kimi tanıdılmış, onlara dəstək verənlər də eyni aqibət və təzyiqlərlə üzləşmişlər. Onların bəziləri yaşadıqları yerlərdən sürgün edilmiş, bəziləri də inkvizisiya məhkəmələri tərəfindən yandırılaraq öldürülmüş və ya edam edilmişlər. Bu cür şiddətli təzyiqlər üçləmə əleyhdarlarının sayının artmasının və onların öz fikirlərini yaymasının qarşısını ala bilməmişdir. Ancaq üçləmə tərəfdarları həmişə əksəriyyət təşkil etmişlər.

Məsələni bitərəf mövqedən araşdıranlar da həqiqi xristianlığın tarix boyunca təzyiqlərə məruz qalan muvahhid (tövhidə inanan) xristianlıq olduğunu müəyyən və təsbit edirlər. Xüsusilə də XVIII əsrdə başlayan bitərəf Müqəddəs Kitab araşdırmalarının əksəriyyətində üçləmə, kəffarə və buna oxşar etiqadların xristianlığın müqəddəs kitablarında mövcud olmaması nəticəsi əldə edilib.

Bu tarixi dəlillərin də təsiri ucbatındandır ki, hazırda bəzi xristian məzhəbləri üçləməni rədd edirlər. Məsələn, **dünyanın hər bir tərəfində kilsələri olan Uniteryen kilsəsi üçləmə inancını qəbul etməyən çox böyük xristian icmasıdır.** Bu cür icmalar, -onların öz aralarında müxtəlif fikir ayrılıqları olsa da- Hz.İsanın "Allahın oğlu" olduğunu qəbul etmir, həqiqi xristianlığın bir və tək olaraq Allaha iman gətirməyi əmr etdiyini söyləyirlər. Onların əksəriyyəti Hz.İsanın bütün insanların günahlarına kəffarə kimi çarmıxa çəkildiyinə dair iddianın yanlışlığını vurğulayır. Hal-hazırda üçləmə əleyhdarı olan xristianlara fərqli adlar altında və fərqli kilsələr şəklində rast gəlmək mümkündür. Xüsusilə də **Amerikada üçləmə əleyhdarları gündən-günə daha da güclənir və xristian dünyasında həqiqətləri aydın şəkildə dilə gətirənlərin sayı daha da çoxalır.** Bunların arasında "The Worldwide Church of God" diqqəti xüsusilə cəlb edir. Bu kilsənin qurucusu Herbert U.Armstronq üçləmə inancının bütpərəst mədəniyyətlərin təsiri ilə ortaya çıxan batil bir etiqad olması fikrini müdafiə edir.

Digər tərəfdən, bəzi xristian kilsələri arasında üçləmə əleyhinə bir sıra fikirlərin ortaya çıxması, ancaq onların səsinin batırılması faktı da bir həqiqətdir. Məsələn, Şimali Amerikada XIX əsrdə ortaya çıxan və Hz.İsanın qayıdışının çox yaxın olduğuna diqqət çəkən "Seventh Day Adventist" ("Yeddinci günün adventistləri") hərəkatının qurucuları "ariusçu" əsasda fəaliyyət göstərib və üçləməni rədd ediblər (Sonrakı səhifələrdə də qeyd edəcəyimiz kimi, Arius üçləmə inancını və Hz.İsanın adına çıxılmış tanrılıq iddiasını rədd edən, III əsrdə yaşamış əhəmiyyətli bir xristian din adamıdır). Ancaq başqa xristian kilsələrinin "Seventh Day Adventist" məzhəbini "xristianlıqdan kənara çıxmaqda" günahlandırması "ariusçu inancın" tərk edilməsinə və bunun yerinə üçləmə etiqadının qəbul edilməsinə səbəb olub. Bu inanc haqqında bəhs edilən kilsənin mənsubları tərəfindən də qəbul edilir.[1]

Bu məsələdə ən çox diqqət yetirilməli olan məqamlardan biri üçləmə inancına Müqəddəs Kitabın heç bir yerində rast gəlinməməsidir. **Bu inanc nə yəhudilərin müqəddəs kitabları olan Əhdi-Ətiqdə, nə də xristianların müqəddəs kitabları olan İncildə mövcud deyil.** Üçləmə inancı İncildəki bəzi ifadələrin yanlış şərhinə əsaslanır. Bu ifadə ilk dəfə II əsrin axırlarında Antakyalı Teofilus (Theophilus) tərəfindən istifadə edilib. Bu inancın qəbul edilməsi isə daha sonralar baş verib. Buna görə də Müqəddəs Kitabın tədqiqatçıları və üçləməyə qarşı çıxanlar xüsusilə "**Əgər bu inanc həqiqətən də düz olsaydı, Hz.İsanın bu məsələni bütün təfərrüatı ilə insanlara çatdırması lazım gəlməzdimi? Üçləmə inancının Müqəddəs Kitabda aydın şəkildə, açıq ifadələrlə yer alması lazım gəlməzdimi?**" sualları üzərində dayanırlar. Onların bu suallara cavabları isə aydındır: **İncildə bütün açıqlığı ilə mövcud olmayan, dolayısı ilə ilk xristianlar üçün naməlum olan bir inanc xristianlığın**

**əsası ola bilməz. Bu, Hz.İsadan sonra yunan mədəniyyətinin təsiri ilə ortaya çıxan bir səhvdir.**

# ÜÇLƏMƏ İNANCI QUR’AN TƏRƏFİNDƏN RƏDD EDİLİR

İncil bütövlükdə araşdırılanda Allahın sonsuz güc və qüdrətinin orada tez-tez qeyd edildiyini, Hz.İsanın bəşəri xüsusiyyətlərə malik olan mübarək bir elçi kimi tərif edildiyini görmək olar. Üçləmə etiqadını dəstəklədiyi iddia edilən bir neçə ifadənin isə İncilin bütün mətni ilə çox aydın şəkildə ziddiyyət təşkil etdiyi aydın olur. Kitabın sonrakı fəsillərində müfəssəl şəkildə araşdıracağımız bütün bu dəlillər üçləmə etiqadının Hz.İsanın Allah dərgahına yüksəldilməsindən çox-çox sonralar ortaya çıxdığını bütün aydınlığı ilə göstərir. Ancaq həmin fəsillərə keçməzdən əvvəl üçləmə etiqadının insanlara xristianlıq və Hz.İsa haqqında ən doğru məlumatları verə biləcək yeganə mənbə olan Qur’anda necə izah edilməsinin üzərində dayanmaq lazım gəlir.

Qur’anda İncilin Tövratı təsdiqləyən kitab kimi göndərildiyi xəbər verilir:

**"Onların ardınca Məryəm Oğlu İsanı özündən qabaqkı Tövratı təsdiq edən kimi göndərdik. Ona içində haqq yol və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol və nəsihət olan İncili verdik" ("Maidə" surəsi, 46).**

Hz.İsa təhrif edilmiş Tövratın inanclarını ona vəhy edilən İncilin hökmləri ilə düzəldib. Allahın Peyğəmbərimiz Hz.Muhəmmədə (s.ə.v.) vəhy etdiyi Qur’anda isə həm İncil, həm də Tövrat təsdiq edilir, ancaq bu iki səmavi kitabın sonralar təhriflərə məruz qalan tərəfləri də insanlara xəbər verilir. Ayədə Qur’anın "təsdiq edən və onu qoruyan" olduğu bildirilir:

**"Biz sənə də (ey Muhəmməd) haqq olaraq, özündən əvvəlki kitabı (bütün ilahi kitabları) təsdiq edən və**

**onu qoruyan kimi kitabı (Qur'anı) endirdik. Sən onların arasında Allahın nazil etdiyi ilə hökm et. Sənə gələn haqdan ayrılıb onların nəfslərinin istədiyinə uyma! Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi vahid bir ümmət edərdi. Lakin bu Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür. Elə isə yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın axır dönüşü Allahadır. Aranızda ixtilaf doğuran məsələlər barəsində sizə xəbər verəcəkdir!" ("Maidə" surəsi, 48).**

Qur'anın yuxarıdakı ayədə bildirilən xüsusiyyəti çox əhəmiyyətlidir. Qur'an ayələri İncilin və Tövratın Allahdan göndərilən ilk vəziyyətlərini təsdiq etdiyi kimi həm də onlara şahiddir, onları qoruyandır. Hz.Musaya və Hz.İsaya vəhy edildikləri ilk vəziyyətlərindən uzaqlaşan bu səmavi kitablardakı təhrifləri göstərmək, yəhudiləri və xristianları haqq yola dəvət etmək də bu xüsusiyyətin bir təzahürüdür. Bu mərhələdə xristianlığın yeri çox fərqlidir. Çünki Rəbbimiz Qur'anda müsəlmanlara ən yaxın olanların "biz xaçpərəstlərik (xristianlarıq)" deyənlər olduğunu bildirir:

**"Yəhudiləri və müşrikləri iman gətirənlərin ən pis düşməni, "Biz xaçpərəstik", - deyənləri isə onların ən yaxın dostu görəcəksən. Bu onların içində keşiş və rahiblərin olması və onların özlərini yuxarı tutmalarına görədir" ("Maidə" surəsi, 82).**

İslam tarixi boyunca bu ayənin təzahürləri görünüb. Xristianlarla müsəlmanlar arasında yaxın əlaqə İslamın ilk dövrlərində başlayıb, Həbəşistandakı xristian hakimiyyətinin bütpərəstlərin zülmündən qaçan müsəlmanlara sığınacaq verməsi bu əlaqələri daha da gücləndirib. İslam torpaqlarında yaşayan xristianlar həmişə ədalətli, rahat, rifahlı və dinc bir həyat yaşayıblar (ətraflı məlumat üçün Harun Yəhyanın "Gəlin bir olaq" kitabına müraciət edə bilərsiniz).

Rəbbimiz Qur'anda İncilin "haqq yol, nur, müttəqilər üçün doğru yol və nəsihət" ("Maidə" surəsi, 46) və Hz.İsanın dövründəki insanlara "bir hidayət" ("Ali-İmran" surəsi, 3-4) olaraq göndərildiyini xəbər verir. Xristianları İncildəki haqqa tabe olmağa dəvət edən bəzi Qur'an ayələri isə bu şəkildədir:

**"İncil əhli Allahın onda nazil etdiyi (ehkam) ilə hökm etsin. Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, günahkarlardır" ("Maidə" surəsi, 47).**

**"De: "Ey kitab əhli! Tövrata, İncil və Rəbbiniz tərəfindən sizə nazil edilmiş olana düzgün əməl etmədikcə siz heç bir şey üzərində deyilsiniz..." ("Maidə" surəsi, 68).**

Ayələrdən də göründüyü kimi, İslam dininin həqiqi xristianlara çox isti münasibəti var. Qur'anda xristianların əxlaqı təriflənir və onlar daha da dindar olmağa dəvət edilir. Bir çox Qur'an ayələrində isə üçləmə etiqadının yanlışlığı xəbər verilir. Məsələn, "Nisa" surəsində Rəbbimiz belə buyurur:

**"Ey kitab əhli! Öz dininizdə həddi aşmayın! Allah barəsində yalnız haqqı deyin. Həqiqətən, Məryəm oğlu İsa Məsih ancaq Allahın peyğəmbəri, Məryəmə çatdırdığı bir söz və Onun tərəfindən olan bir ruhdur. Allaha və peyğəmbərlərinə iman gətirin. (Allah barəsində) "üçdür" deməyin. (Belə sözlərə) son qoyun ki, bu sizin üçün daha yaxşı olar. Həqiqətən, Allah tək bir tanrıdır. Övladı olmaqdan kənardır. Göylərdə və yerdə nə varsa, hamısı Onundur. Allahın vəkil olması bəs edər! İsa Məsih də, yaxın mələklər də Allahın qulu olmağı əsla özlərinə ar bilməzlər. Allah Ona ibadət etməyi özünə ar bilənlərin və lovğalıq edənlərin hamısını Öz hüzuruna toplayacaqdır!" ("Nisa" surəsi, 171-172).**

Yuxarıdakı ayələrdən də göründüyü kimi, Rəbbimiz üçləmə etiqadının nə qədər böyük bir yanlışlıq olduğunu bildirir və bu inancı müdafiə edənlərə hesab günü ilə bağlı xəbərdarlıq edir.

Ayələrdə Hz.İsanın "tanrı" olması (Allaha sığınırıq) ilə bağlı səhv inanclar da açıq-aşkar rədd edilir. Rəbbimiz bu əsassız iddiaları Hz.İsanın adına çıxan insanların aşkar küfrə qapıldıqlarını bildirir:

**"Şübhəsiz ki: "Allah Məryəm oğlu Məsihdir!" - deyənlər kafir oldular. Halbuki Məsih belə demişdi: "Ey İsrail oğulları! Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin! Allaha şərik qoşana Allah, şübhəsiz ki, cənnəti haram edər. Onun düşəcəyi yer cəhənnəmdir. Zalımların heç bir köməkçisi yoxdur!"" ("Maidə" surəsi, 72).**

Ayədə də bildirildiyi kimi, Hz.İsa onların bu iddialarından uzaqdır. O, Allahın yaratdığı bir bəşər, Rəbbimizə təslim olmuş, yüksək əxlaqlı, aləmlərə üstün edilmiş çox mübarək bir peyğəmbərdir. Hz.İsa insanlara haqq dini çatdırarkən də həmişə Rəbbimizin üstün gücünü və qüdrətini ifadə edib, özünün də Allahın bir bəndəsi olduğunu bildirib. Ayədə Hz.İsanın "tanrı" olduğunu iddia edərək küfrə düşənlərin Allahı da lazımınca təqdir edə bilməməsi xəbər verilir:

**""Allah Məryəm oğlu Məsihdir", - deyənlər, şübhəsiz ki, kafir oldular. De: "Əgər Allah Məryəm oğlu Məsihi, anasını və yer üzündə olanların hamısını məhv etmək istəsə, (bu işdə) kim ona bir şeylə mane ola bilər? Göylərin, yerlərin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir. O, istədiyini yaradar, Allah hər şeyə qadirdir!" ("Maidə" surəsi, 17).**

Ayədə xəbər verildiyi kimi, bütün insanlar Rəbbimizin hüzurunda aciz və möhtacdır. Allah bütün kainatı yoxdan yaradan, bütün yaradılanların üzərində mütləq güc və

hakimiyyət sahibi olandır. Canlı-cansız hər şeyə nəzarət yalnız Allaha məxsusdur. Hz.İsa da Allahın yaratdığı və Ona boyun əyən bir bəndə və Allahın elçisidir.

Hz.İsanın onun haqqında ortaya atılan əsassız iddiaları rədd etməsi "Maidə" surəsində belə bildirilir:

**"Allah: "Ya Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahla yanaşı, məni və anamı da özünüzə tanrı bilin!" - demişdin?", - buyuranda (İsa) deyəcək: "Sən pak və müqəddəssən! Haqqım çatmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu mən demiş olsaydım, Sən onu mütləq bilərdin. Sən mənim ürəyimdə olan hər şeyi bilirsən, mən isə Sənin zatında olanı bilmirəm. Şübhəsiz ki, qeybləri bilən ancaq Sənsən!" ("Maidə" surəsi, 116).**

Hz.İsanın insanlara göndərdiyi həqiqi ismarıc digər ayələrdə belə bildirilir:

**"İsa dedi: "Mən, həqiqətən, Allahın quluyam. O mənə kitab verdi, özümü də peyğəmbər etdi. O, harada oluramsa olum, məni mübarək etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu" ("Məryəm" surəsi, 30-31).**

**"Məndən əvvəl göndərilmiş Tövratı təsdiq edərək sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün gəldim və sizə Rəbbiniz tərəfindən bir möcüzə gətirdim. İndi Allahdan qorxun və mənə itaət edin! Şübhə yoxdur ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur doğru yol!" ("Ali-İmran" surəsi, 50-51).**

Allahın Qur'an ayələrində xəbər verdiyi başqa həqiqət isə peyğəmbərlərin apardığı təbliğatın təməli ilə bağlıdır. "Ali-İmran" surəsində belə buyrulur:

**"Heç bir kəsə yaraşmaz ki, Allah ona kitab, hikmət və peyğəmbərlik bəxş etdikdən sonra o, insanlara: "Allahı buraxıb mənə qul olun!" - desin. Əksinə, o:**

**"Öyrətdiyiniz kitabın və öyrəndiyiniz şeyin sayəsində rəbbani olun!" -deyər" ("Ali-İmran" surəsi, 79).**

Rəbbimiz bu səhv inanclardan uzaqdır. "İxlas" surəsində Allahın sifətləri belə bildirilir:

**"De: "O Allah birdir. Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! O nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!"" ("İxlas" surəsi, 1-4).**

Həqiqət budur. Allah təkdir və Hz.İsa Onun qulu və peyğəmbəridir. Eynilə Hz.İbrahim, Hz.Musa, Hz.Muhəmməd və başqa peyğəmbərlər kimi...

Üçləmə etiqadının bütün yanlış tərəfləri Qur'an ayələrinin işığında xristianların öz mənbələrindən də istifadə edilməklə kitabın sonrakı fəsillərində ətraflı şəkildə açıqlanacaqdır.

# ÜÇLƏMƏ ETİQADI HZ.İSADAN ƏSRLƏRLƏ SONRA ORTAYA ÇIXIB

Xristianlar Əhdi-Cədidə, yəni İncilə inandıqları kimi Əhdi-Ətiqə də iman gətirirlər. Yəni xristianların müqəddəs kitabı özündə həm Əhdi-Ətiqi, həm də Əhdi-Cədidi ehtiva edən Kitabi-Müqəddəsdir (Müqəddəs Kitab). Qeyd etdiyimiz kimi, bu kitablar təhrif edilib. Bununla birlikdə xristianlığın əsaslarını, bir xristianın həyatı boyunca tabe olmalı olduğu əmr və qadağaları, göstərməli olduğu gözəl əxlaqi xüsusiyyətləri Kitabi-Müqəddəsdə tapmaq mümkündür. Ancaq **üçləmə etiqadını, bu və buna oxşar bir kəlməni İncildə tapmaq mümkün deyil.** "Yeni Katolik Ensiklopediyası" (The New Catholic Encycloredia) da üçləmənin ilk xristianlara bəlli olmadığını, onun yalnız IV əsrdə bu formaya salındığını bildirir:

> "XX əsrin içində olduğumuz bu ikinci yarısında **üçləmə sirrinin açıq, obyektiv və doğru, həmçinin teoloYi izahını vermək həqiqətən də çox çətindir.** Roma Katolik kilsəsinin və xristianlığın müxtəlif qollarının üçləmə məsələsi ətrafındakı mübahisələri ortaya xəyali görüntüdən başqa bir şey qoymur. Ortaya iki məsələ çıxıb: bir tərəfdə aralarında çoxlu sayda Roma katolikinin də olduğu İncil təfsirçilərinin Əhdi-Cədiddəki üçləmə anlayışından - bu mövzuda kifayət qədər dəlil olmadığı üçün - bəhs etməmələrinin lazım olmasının etiraf və qəbul edilməsi, digər tərəfdə isə tarixçi və xristian ilahiyyatçılarının üçləmədən bəhs edən bir adamın ancaq **Hz.İsadan sonrakı dördüncü əsrin son rübünə aid ola biləcəyinə dair etirafı. Həqiqətən də "üçşəxsiyyətli bir tanrı" etiqadı xristian inanc və dü-**

**şüncəsinə dördüncü əsrin son rübündə daxil olmuşdur".[2]**

Üçləmə inancı kilsənin gündəminə IV əsrdə gəlib, ancaq bu mərhələyə gələnə kimi üçləməni müdafiə edənlərlə tövhid inancına sahib olan xristianlar arasında çox uzun mübahisələr baş verib. Bu mübahisələrin kulminasiya nöqtəsi İznik məclisi idi.

Bizim eranın 325-ci ilində təşkil edilən İznik məclisi həmin dövrə kimi xristian kilsəsi tarixində həyata keçirilən ən böyük belə məclis idi. Romadan, Anadoludan, Suriyadan, Finikiyadan, Fələstindən və Misirdən 300-dən çox din adamını bir yerə yığan həmin məclis Roma imperatoru I Konstantinin dəvəti ilə toplanmışdı. Konstantinin məqsədi imperiyanın gələcəyini və təhlükəsizliyini nəzərə alaraq bu mübahisələri aradan qaldırmaq idi. **Bu məclisdə xristianlığın əsaslarını təşkil edən etiqad "imperiyanın təhlükəsizliyi üçün" və "insanların verəcəyi bir qərara görə" müəyyən və qəbul ediləcəkdi.** Nissalı Saint Gregory (Müqəddəs Qreqor) bu məclis zamanı xristianlar arasında baş vermiş mübahisələri belə qeyd edir (burada yer alan bütün ifadələrdən Allaha sığınırıq):

> "Konstantinopolun hər tərəfi onların mübahisələri ilə dolu idi: küçələr, bazar yerləri, zərgərlərin dükanları... Bir tacirdən dükanındakı bəzi əşyalara görə neçə gümüş sikkə istədiyini soruşun. Sizə doğulmuş və doğulmamış varlıq haqqında ətraflı araşdırma ilə cavab verəcəkdir. Bu gün çörəyin qiymətini soruşanda çörəksatandan "Oğul Atanın buyruğu altındadır" cavabını eşidərsiniz. Evdəki xidmətçidən hamamın hazır olub-olmadığını soruşun. Cavabı "Oğul yoxdan ortaya çıxmışdır" olacaqdır... Katoliklər "tək övlad qəbul edilən ucadır" dedilər, ariusçular isə "Yaradan hər şeydən ulu olandır" dedilər".[3]

Konstantin imperatorluq torpaqlarında yaşayan xristianlara geniş bir etiqad və ibadət azadlığı vermişdi. Amma özü xristian deyildi və Romanın ənənəvi bütpərəst etiqadlarını qorumaqda davam edirdi. O, öz mənafelərini qoruyan bir dövlət başçısı idi. Onun arzusu imperiyanın sərhədləri daxilində yaşayan bütün dinlərin mənsubları, xüsusilə də Günəşə sitayiş etməyə əsaslanan batil Sol Invictus (Sol İnviktus) dini ilə xristianlıq arasında bir uzlaşmanı, hətta çulğaşmanı, qaynayıb-qarışmanı təmin etmək idi. Konstantin bu çulğaşmanı təmin etməyə çalışdığı bir vaxtda xristianların öz aralarında dini mübahisələrin başlamasından çox narahat olmuş və buna görə də adıçəkilən məclisi təşkil edərək imperatorluğun sərhədləri daxilindəki bütün nüfuzlu və sözükeçən rahibləri İznikə çağırtdırmışdı. İznik məclisində iki tərəf vardı. Bunlardan biri Hz.İsanın Allahın yer üzündəki vücudlaşmış (cismə, bədənə çevrilmiş) şəkli olmasına inanan batil inkarnasiya inancı idi (Allaha sığınırıq). Bu etiqadda olanların başçısı İsgəndəriyyə yepiskopu Atanasius (Athanasius) idi. Atanasiusun qarşısında isə məşhur misirli rahib Arius dayanırdı.

Liviya əsilli misirli bir ailənin oğlu olan Arius dövrünün mühüm şəhəri olan İsgəndəriyyədə böyümüş və 312-ci ildə kilsəyə gedərək rahib olmuşdu. **Arius Allahın birliyinə iman gətirir və həmin vaxtlar Roma kilsəsi tərəfindən qəbul olunaraq Hz.İsanı "tanrı" hesab edən təlimin səhv olduğunu insanlara çatdırırdı. O, Hz.İsa barədə işlədilən "Allahın oğlu" sifətinin tamamilə məcazi məna daşıdığını və onu tanrılaşdırmaq kimi bir məna kəsb etmədiyini söyləyirdi.** Bunu sübut etmək üçün Matta İncilindəki *"Sülhsevərlər nə bəxtiyardırlar! Çünki onlara Allahın oğulları deyiləcək"* ("Matta", 5/9) sözlərini göstərir və Allahın istəyinə uyğun hərəkət edən hər bir adamın bu sifətə layiq olduğunu, bunun Hz.İsaya aid edilən xüsusi bir ifadə olmadığını vurğulayırdı. Arius bir əsərində "Əslində biz də Tanrının oğul-

ları halına gələ bilərik" deyə yazmışdı.[4] Arius bu fikrini müdafiə etmək üçün Hz.İsanın İncildə qeyd edilən və "Tanrım" deyə başlayan dualarını misal göstərirdi. Bu duaların Hz.İsanın Allaha bağlı və başqa insanlar kimi aciz bir bəndə olduğunu göstərdiyini söyləyirdi. Arius Hz.İsanın Əhdi-Cədiddə özü haqqında tez-tez "insan oğlu" deyə bəhs etməsinə də diqqəti cəlb edir və bunun Hz.İsanın bəşəri təbiətini göstərdiyini vurğulayırdı.

Arius İsgəndəriyyənin bir qəsəbəsi olan Banealisin rəsmi rahibi kimi bu fikirlərini geniş və çoxsaylı insan kütləsinə çatdırdı. Ariusa qulaq asan camaat onun həm danışdıqlarının məntiqli və ağlabatan olmasına, həm də təvazökar və riyadan uzaq həyat sürdüyünə görə fikirlərini asanlıqla qəbul etdi. Ancaq İsgəndəriyyənin yepiskopu Aleksandr "ariusçuluq" cərəyanından çox narahat olmağa başladı. Aleksandr Hz.İsanı məcazi mənada deyil, ləfzi, yəni kəlmənin zahiri mənasında "Allahın oğlu" sayan və tanrı qəbul edən Roma kilsəsinə bağlı idi (Allaha sığınırıq). O, əvvəlcə Ariusu öz fikirlərini dəyişməyə razı salmağa çalışdı. Buna nail ola bilməyəndə isə ariusçuluğun üzərinə güclü hücuma keçdi. O, bunu öz yazılarında belə qeyd edirdi:

> "Bu cərəyan getdikcə hər yerə, bütün Misirə, Liviyaya və Yuxarı Tebesə yayıldı. Bundan sonra biz də Misir və Liviyanın yepiskopları ilə bir yerə yığışdıq və təxminən yüz nəfərlik bir məclisdə bu cərəyanı və onun bütün ardıcıllarını lənətlədik".[5]

Bu lənətlər yalnız söz olaraq qalmadı. Arius və davamçıları 318-ci ildə kilsədən kənarlaşdırıldılar. Arius və onun ən yaxın köməkçiləri olan yepiskop Teonas (Theonas) və Sekundusla (Secundus) birlikdə on iki rahib sürgünə göndərildi. Arius sürgünə getməmişdən əvvəl öz fikirlərini "Talia" (Thalia) adlı lirik kitabda topladı. Onun sürgün edildiyi yer isə Fələstin idi.

Amma Arius bu bölgədə də ona rəğbət bəsləyən insanlar tapdı. Beləliklə, Roma kilsəsinin bəzi etiqadlarına güclü şəkildə müxalifətdə dayanan bir hərəkat hər cür maneəyə baxmayaraq yayılmaqda davam etdi. Bu xəbərlər Roma kilsəsini himayə edən imperator Konstantinə çatdırılanda o, böyük bir problemlə qarşı-qarşıya olduğunu başa düşdü. İmperator Romada dini birliyi təmin etmək üçün səy göstərmiş, bu məqsədinə nail ola bilmək üçün kilsəni öz himayəsi altına almışdı. Lakin indi kilsə daxildən parçalanmaq təhlükəsi ilə üzləşmişdi. Buna görə də Konstantin vaxt itirmədən bu məsələni həll etməyə və dini birliyi yenidən təmin etməyə qərar verdi. Xristianlıq tarixinin ən mühüm hadisələrindən biri olan İznik məclisi bu məqsədlə toplandı.

## İznik məclisi

İmperator Konstantin ariusçuluqla onun müxalifləri arasındakı qarşıdurmanı əvvəlcə hər iki tərəfə məktub göndərərək və "birliyin hər şeydən daha əhəmiyyətli" olduğunu izah edərək həll etməyə çalışmışdı. Ancaq bu səylərinin heç bir xeyrinin olmadığını görəndən sonra yepiskop Hosiusun tövsiyəsi ilə böyük "Dünya Kilsə Məclisi" və ya başqa adı ilə desək, bir "Sinod" toplamağa qərar verdi. İznikdə yığışan bu məclisdə üçləmə etiqadına günümüzə qədər gəlib çıxmış bir tərif verildi. **Bu etiqadı qəbul etməyənlərin isə "azğın" (eretik, heretik) olduqları elan edildi.**

"Demokratik" bir forum kimi göstərilməyə çalışılan İznik məclisinə imperator Konstantinin əslində böyük təsiri vardı və burada çıxarılan qərar da onun müdafiə etdiyi tərəfin lehinə oldu. Konstantinin dəstəklədiyi tərəf isə təbii ki,

onun himayəsi altına girmiş Roma kilsəsi idi. Məclisdə iştirak edən 300-dən çox rahibin yalnız 20-si Ariusa yaxın olanlar idi. Burada Konstantinin ilk öncə Ankarada təşkil edilməsi planlaşdırılan məclisi sonradan şimal-şərqdə yerləşən İznikə təyin etməsi və bununla da ariusçuluğun daha güclü və təsirli olduğu Şərq kilsələrinə bağlı olan rahiblərin məclisdə iştirakını çətinləşdirməsinin də rolu vardı.[6] İznikin başqa bir xüsusiyyəti isə imperatorun burada yayda istirahət etmək üçün tikilən bir sarayının olması və məclis təşkil edilən vaxt da onun özünün şəhərdə olması idi. Buna görə də imperator məclisin bütün iclaslarında iştirak etdi və onun nüfuzu verilən qərarlara da təbii olaraq öz təsirini göstərdi.

Hz.İsanın "tanrılaşdırılması"nın o vaxta qədər ən açıq və ən konkret ifadəsi olan İznik Əhdnaməsində belə deyilirdi (aşağıdakı bütün ifadələrdən Allaha sığınırıq):

> "İnanırıq ki..., Rəbb İsa Məsih Tanrının oğludur, Ata Tanrıdan ortaya çıxmışdır. Ata Tanrı ilə eyni əsasdandır. Tanrıdan Tanrıdır, İşıqdan İşıqdır. Tanrı ilə eyni əsasdan olub Tanrıdan ortaya çıxmışdır, yaradılmamışdır. Onun (Hz.İsanın) vasitəsilə göylərdə və yerdə mövcud olan hər şey yaradılmışdır. O ki biz insanlar üçün və xilasımız üçün aşağı enmiş və bədən olmuş və insana çevrilmişdir. Əziyyət çəkmiş, üçüncü gün dirilmiş və göyə yüksəlmişdir. Və ölüləri və diriləri mühakimə etmək üçün yenidən gələcəkdir. Və inanırıq ki, Müqəddəs Ruh (da Tanrıdandır).
>
> Və əgər kim "Tanrının Oğlunun mövcud olmadığı bir dövr vardı" desə yaxud da "ortaya çıxmamışdan əvvəl yoxdu" desə və ya "əvvəllər mövcud olmayan şeylərdən düzəldildi" deyəsi olsa yaxud "Atadan fərqli bir əsasdandır" söyləsə yaxud da onun yaradıldığını və ya nəyəsə çevrilməyə açıq olduğunu bildirsə, Katolik kilsəsi bütün bu sözləri deyənləri lənətləyər".[7]

Göründüyü kimi, ilk paraqrafda ariusçuların qarşı çıxdığı təlimlər qeyd edilib. İkinci paraqrafda hədəfə götürülən və özünə **Katolik (Universal) kilsə** sifətini vermiş Roma kilsəsi tərəfindən lənətlənən adamlar isə Hz.İsanın Allahın elçisi və yaratdığı bir bəndə olduğunu söyləyən adamlardır, yəni ariusçular və bu düşüncəyə sahib olan başqalarıdır...

İznik Əhdnaməsi yayıldığı tarixdən sonra xristian etiqadının əsas sənədinə çevrildi və bu əhdə bağlı olmayan hər bir kəs yolunu azmış sayıldı. **Roma Katolik kilsəsi "Tanrının iradəsinin bu məclisdə təcəlla etdiyini" elan etdi. Dolayısı ilə İznik Əhdnaməsi də sanki vəhy kimi müqəddəs və qüsursuz bir mətn sayıldı.** Halbuki təcəlla edən iradə əslində Roma imperatorluğunun iradəsi idi.

Ariusçular isə məclisdən sonra daha böyük təzyiqlərə məruz qaldılar. İznik məclisinə imza atmaq təklifini rədd edən Arius tərəfdarları qovuldular. Buna baxmayaraq təxminən yarım əsr boyunca müqavimət göstərməkdə davam etdilər. Amma kilsənin davamlı təzyiqləri qarşısında IV əsrin axırlarında yavaş-yavaş tarix səhnəsindən silindilər. Ancaq üçləmənin kilsə tərəfindən rəsmən qəbul edilməsi də ixtilafları aradan qaldırmadı. Yeni məclislər təşkil edildi, yeni fikirlər ortaya atıldı, mübahisələr oldu. Amma bütün mübahisələrə baxmayaraq "Üçdə Bir, Birdə Üç" şəklində ifadə edilən batil etiqad həmişə qorundu.

> ***Qeyd:*** *Bu batil etiqad Allahın üç müxtəlif şəxsdə olması və bu üç şəxsin də bərabər, sonsuz və müştərək dəyərdə olmaları mənasını daşıyırdı.*

Konstantinin dövründə həm İznik Əhdnaməsi kimi etiqadlar inkişaf etdirildi, həm də bu gün əlimizdə mövcud olan Əhdi-Cədidə (İncilə) sonuncu forması verildi. **Bu gün əlimizdə olan heç bir Əhdi-Cədid nüsxəsi Konstantin dövründəkindən daha qədim deyil.**[8]

İznik məclisindən sonrakı yarım əsr boyunca Atanasius İznik düsturunu müdafiə etdi və onu getdikcə daha da

təkmilləşdirdi. Çünki İznik məclisində üçləmə etiqadı hələ son şəklini almamış, onun sadəcə olaraq əsası qoyulmuşdu. Üçləmənin üçüncü elementi olan Müqəddəs Ruh məsələsi qeyri-müəyyən qalmışdı. IV əsrdə İstanbul patriarxı olan Makedoniusun (Makedonius) rəhbərliyi altında ikinci baş məclis Konstantinopolda (İstanbulda) toplandı və orada "Müqəddəs Ruhun üçləmə etiqadının üçüncü hissəsinin olduğu, üçünün də uluhiyyət baxımından eyni səviyyədə olması" elan edildi (Allaha sığınırıq).[9] Beləliklə, üçləmə etiqadı Hz.İsanın Allah dərgahına yüksəldilməsindən təxminən dörd əsr sonra özünün son şəklini aldı. Bu məclisdə Kitabi-Müqəddəsdə olmayan bir etiqad da ortaya atıldı: homoousios (Nomoousios). Bu kəlmə ilə üçləməni təşkil edən hər üç şəxsin eyni cövhərə və bərabər səlahiyyətlərə malik olduqları ifadə edilirdi (bundan Allaha sığınırıq).

Burada vurğulanmalı olan başqa bir mühüm məsələ isə üçləmə inancının insanlara təqdim edilmə şəklidir. **Üçləmə etiqadı xristianlar arasında bütövlükdə "başa düşülməsi çətin, dərk edilməsi mümkün olmayan, ancaq mütləq qəbul edilməli olan" bir etiqad kimi qəbul edilir.** Bunun səbəbi üçləməni müdafiə edənlərin bir tərəfdən də tövhid inancının qəbul etdiklərini söyləmələridir. Halbuki üçləmə etiqadı ilə tövhid inancının bir yerdə mövcud ola bilməyəcəyi gün kimi aydın olan məsələdir. İnsanların beynindəki sual işarələrinə məqbul və başadüşülən şəkildə cavab verilə bilməyib. Buna cavab verə bilmələri də mümkün deyil. Buna görə də **üçləmənin bir iman mövzusu olması, bu haqda düşünməyə və ya onu başa düşməyə ehtiyacın olmaması, sadəcə onun olduğu kimi inanılması lazım gələn bir etiqad olduğu fikri müdafiə edilir.**[10] Bu vəziyyət üçləmə etiqadının yanlışlığı və ziddiyyətləri haqqında danışmağa əsrlərdir ki, mane olur. Söylənənləri xülasə edəsi olsaq deyək ki, **üçləmə etiqadı barəsində danışmağın və mübahisə etməyin qadağan olunduğu bir etiqaddır.**

Hz.İsanın Allahın dərgahına yüksəldilməsindən sonra Kadıköy məclisində üçləmə inancının bugünkü halı ilə ortaya çıxması arasındakı mərhələ hazırda bir çox tədqiqatçılar tərəfindən "Allahın elçisi olan Hz.İsanın tanrılaşdırılması" dövrü kimi təqdim edilir. Bu dövr müəyyən mərhələlərdən keçmiş, ən axırda da Hz.İsanın özünün də bir tanrı olması istiqamətindəki yanlış bir etiqad şəklini almışdır (Allaha sığınırıq). Bu məsələ sonrakı fəsillərdə ətraflı şəkildə incələnəcək.

# HZ.İSA ALLAHIN OĞLU DEYİL, ALLAHIN PEYĞƏMBƏRİDİR

Tövhid etiqadını insanlara təbliğ edən bütün peyğəmbərlər özlərinin üstün əxlaqı və səmimi imanları ilə çox mübarək şəxslər olub. Allah "Nəhl" surəsində Öz elçilərini yaşadıqları cəmiyyətlərdə tövhid etiqadını təbliğ etmək üçün vəzifələndirdiyini belə bildirir:

**"Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin! - deyə elçi göndərdik..." ("Nəhl" surəsi, 36).**

Amma tövhid etiqadı peyğəmbərlərdən sonra zaman ötdükcə insanlar tərəfindən təhrif edilərək dəyişdirildi. Hər təhrifdən və əxlaqi tənəzzüldən sonra Allah həmin cəmiyyətlərə Onun ayələrini oxuyacaq və insanlara axirət gününü xatırladacaq yeni bir elçi göndərmiş, insanları yenidən tövhiddə birləşdirmişdir. Hz.İsa da Hz.Musanın gətirdiyi vəhyin təhrif edilməsindən sonra insanları Allahın birliyinə çağırmaq, Ondan başqa tanrı olmadığını təbliğ etmək üçün göndərilmişdi. O, Hz.Musanın gətirdiyi haqq dini aşındırıb dəyişdirən İsrail oğullarını öz lovğa ənənələrindən uzaqlaşaraq batil etiqadlarından əl çəkməyə və yalnız Allaha təslim olmağa çağırmışdı. Hz.İsanın İsrail oğullarına təbliği ayələrdə belə xəbər verilir:

**"İsa aşkar möcüzələrlə gəldiyi zaman dedi: "Həqiqətən, mən sizə hikmətlə, həm də ixtilafda olduğunuz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin! Şübhəsiz ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Yalnız Ona ibadət edin. Bu, doğru yoldur"" ("Zuxruf" surəsi, 63-64).**

**"Məndən əvvəl göndərilmiş Tövratı təsdiq edərək sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün gəl-**

**dim və sizə Rəbbiniz tərəfindən bir möcüzə gətirdim. İndi Allahdan qorxun və mənə itaət edin! Şübhə yoxdur ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur doğru yol!" ("Ali-İmran" surəsi, 50-51).**

Hz.İsa özünün təbliğat aparmaq vəzifəsini yerinə yetirməyə başlayanda Hz.Musanın hökmlərindən uzaqlaşan yəhudi din adamları öz şərhləri ilə yeni haramlar və halallar müəyyənləşdirib ortaya atmışdılar. Onlar formal, yalançı, lovğa, batil və maddiyyatçı bir din meydana gətirmişdilər. Belə ki, Allahın Rəsulu Hz.İsa insanları iman gətirməyə və batil ənənələrini tərk etməyə çağıranda ona təhqiramiz sözlərlə və düşməncəsinə cavab verdilər:

**"Məryəm oğlu misal çəkilincə sənin qövmün sevincdən güldü. Onlar dedilər: "Bizim tanrılarımız yaxşıdır, yoxsa o?!" Onlar bunu sənə yalnız mübahisə etmək xatirinə dedilər. Şübhəsiz ki, onlar höcətləşən bir qövmdürlər!" ("Zuxruf" surəsi, 57-58).**

Amma əngəllərin artmasına baxmayaraq xüsusilə də kasıb camaat arasında Hz.İsaya inananların sayı sürətlə çoxalmağa başlamışdı. Roma imperatorluğunun qəddar və zülmkar rəhbərləri ilə bəzi yəhudi din adamları Hz.İsanın və onun apardığı təbliğatın qarşısını almaq məqsədilə hiylə qurdular və axırda Hz.İsanı çarmıxa çəkərək öldürməyə qərar verdilər. Rəbbimizin onların bu səylərinə verdiyi cavab Qur'anda belə bildirilir:

**"Onlar hiyləyə əl atdılar. Allah da onların hiyləsinə əvəz verdi. Allah hiyləgərlərdən tədbirlidir" ("Ali-İmran" surəsi, 54).**

Rəbbimiz Hz.İbrahimi atəşdən xilas etdiyi kimi Hz.İsanı da düşmənlərinin hiyləsindən qurtardı. Onu öldürmək istəyənlərin planlarını pozdu və onların bu müqəddəs insana zərər verməsinə mane oldu. Bu həqiqət ayələrdə belə qeyd edilir:

**""Biz, Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük", - dediklərinə görə, onlara belə cəza verdik. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqlı ixtilafda olanlar onun barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu öldürməyiblər" ("Nisa" surəsi, 157).**

Ayələrdə bildirilən həqiqət çox aşkardır. Yəhudilərin qızışdırması ilə Hz.İsanı öldürmək istəyənlər buna nail ola bilmədilər. Qur'anın digər ayələrində də xəbər verildiyi kimi, Hz.İsa ölməyib və o, Allah dərgahında diridir. Allahın Qur'anda Hz.İsaya qurulan hiylələrin pozulduğunu bildirməsi də Hz.İsanın Allahın dərgahında diri olduğunu göstərən mühüm dəlillərdən biridir. Tələ quraraq Hz.İsanı öldürmək istəyənlərin hiyləsini Rəbbimiz pozdu. Allahın peyğəmbərini öldürdükləri iddiasını ortaya atanların bu iddiaları sadəcə olaraq bir zənndən ibarətdir. **Onlar Hz.İsanı çarmıxa çəkdiklərini güman edirlər, lakin onlar əslində başqa bir adamı çarmıxa çəkərək öldürüblər.**

Ancaq Hz.İsanın Allah dərgahına yüksəldilməsindən sonra xristianlıq zaman keçdikcə üçləmə etiqadı ilə dəyişikliyə məruz qaldı. Hz.İsanın gətirdiyi muvahhid dinin xüsusiyyətlərini, onun dünyada olduğu müddət ərzində yaşadıqlarının bir qismini və Allah dərgahına yüksəldilməsini Peyğəmbərimiz Hz.Muhəmməd (s.ə.v.) vasitəsilə bütün insanlara göndərilən və qiyamətə kimi öz qüvvəsində qalacaq Qur'andan öyrənə bilərik. Unutmaq olmaz ki, Qur'an buradakı sözlərin dəyişdirilməsinin mümkün olmadığı haqq bir Kitabdır. Allah Qur'anın bu xüsusiyyətini "**Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamamdır. <u>Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur.</u> O, eşidəndir, biləndir!**" ("Ənam" surəsi, 115) ayəsi ilə bildirir.

Qur’anda Hz.İsanın Allahın oğlu (bu ifadədən Allaha sığınırıq) deyil, peyğəmbəri, bəndəsi olması ilə bağlı bir çox açıqlamalar var. Bu açıqlamaların bəziləri bunlardır.

## Uca Rəbbimizin övladı yoxdur

Üçləmə etiqadının ən əsas məntiqi Hz.İsanın "Allahın oğlu" olması ilə bağlı iddiadır. Allahın sifətləri isə onların bu iddialarını tamamilə alt-üst edir. Aləmlərin Rəbbi olan Allah insanların heç nəyi bilmədən, cahilcəsinə və qeyri-ciddi şəkildə ortaya atdığı bu cür bənzətmələrdən, hər cür qüsur və nöqsanlardan uzaqdır. Bu həqiqət Qur’an ayələrində belə bildirilir:

> **"Allaha övlad götürmək yaraşmaz. O, pak və müqəddəsdir. O, hər hansı bir şeyi yaratmaq istədikdə ona yalnız: "Ol!" -deyər, o da dərhal olar" ("Məryəm" surəsi, 35).**
>
> **""Allah Özünə övlad götürdü!" - dedilər. Allah pak və müqəddəsdir. O, möhtac deyildir. Göylərdə və yerdə nə varsa, hamısı Onundur. Bu haqda sizin əlinizdə heç bir dəlil yoxdur. Allaha qarşı bilmədiyiniz şeyimi deyirsiniz?" ("Yunus" surəsi, 68).**

Rəbbimizin hər hansı bir şeyi yaratmaq istədikdə ona yalnız "Ol!" deməsi kifayətdir. Göylərdə və yerdə nə varsa Onundur. Bütün varlıqlar Onun mülkü, Onun yaratdıqlarıdır. Hər şey Onun əmrinə boyun əyib, Onun sonsuz güc və qüdrətinə təslim olub:

> **"...Halbuki, göylərdə və yerdə olanlar istər-istəməz Ona təslim olmuşlar və Onun hüzuruna qayıdacaqlar" ("Ali-İmran" surəsi, 83).**

Allah bütün bu səbəblərin fövqündədir, çünki meydana gələn bütün hadisələri və bu hadisələrin baş vermə səbəblərini də yaradan Onun Özüdür. Dünyadakı hər şey müəyyən səbəblərə bağlı olaraq inkişaf edir. Doğulmaq, bö-

yümək, öyrənmək və ya qocalmaq zaman və məkan kimi müəyyən səbəblərə bağlı şəkildə həyata keçir. İnsanlar zamana və məkana bağlı olaraq yaşayırlar. Halbuki Rəbbimiz zamanın və məkanın fövqündə dayanır, zamanı da, məkanı da O, yaradıb. Ata, oğul, övlad sahibi olmaq kimi insan həyatına xas məsələləri də Rəbbimiz var edib. Dolayısı ilə "**Allah Özünə övlad götürdü!**" (bu ifadədən Allaha sığınırıq) deyənlər Rəbbimizin bənzərsiz sifətlərini unudur və öz məhdud anlayışlarına uyğun olaraq düşünürlər. Halbuki bu dedikləri Allah dərgahında çox böyük yalandır. "Kəhf" surəsində belə bildirilir:

> **"O, həm də (Qur'anı) : "Allah Özünə övlad götürdü!" -deyənləri qorxutmaq üçün nazil etdi. Bu barədə nə onların özlərinin, nə də atalarının heç bir biliyi yoxdur. Onlar çox böyük-böyük danışırlar. Onlar ancaq yalan deyirlər!" ("Kəhf" surəsi, 4-5).**

Rəbbimiz başqa bir ayədə isə belə buyurur: "**Əgər Allah Özünə övlad götürmək istəsəydi, yaratdıqlarından istədiyini seçərdi. O, pak və müqəddəsdir! O, bir olan, qəhr edən (hər şeyə gücü yetən) Allahdır!**" ("Zumər" surəsi, 4). Sonsuz güc və qüdrət sahibi olan Rəbbimizin bu ayədə hər şeyi Öz istədiyi kimi yarada biləcəyi xəbər verilir. Allahın üçləmə etiqadını müdafiə edərək əsassız iddialarla çıxış edən adamlara verdiyi cavab başqa ayələrdə belə vurğulanır:

> **"Dedilər: <u>"Allah övlad götürmüşdür".</u> Allah pak və müqəddəsdir. Bəli, göylərdə və yerdə nə varsa, hamısı Ona məxsusdur, hamısı Onun itaətindədir! Göyləri və yeri yoxdan yaradan Odur. Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: "Ol!" - deyər, o da dərhal olar" ("Bəqərə" surəsi, 116-117).**
>
> **""<u>Rəhman Özünə övlad götürmüşdür" - dedilər. Siz, doğrudan da, olduqca pis bir şey etdiniz!</u> Buna görə az qaldı ki, göylər parçalansın, yer yarılsın və dağlar**

**yerindən qopub uçsun! Rəhmana övlad isnad etdiklərinə görə! Halbuki Rəhmana Özünə övlad götürmək yaraşmaz. Çünki göylərdə və yerdə olan bütün məxluqatdan eləsi yoxdur ki, Rəhmanın hüzuruna bir qul kimi gəlməsin. And olsun ki, onları hesablamış və təkrar-təkrar saymışdır. Onların hamısı qiyamət günü onun hüzuruna gələcək" ("Məryəm" surəsi, 88-95).**

Ayələrdə də bildirildiyi kimi, bu, "olduqca pis bir şey"dir. Göylərdə və yerdə olan hər şeyin sahibi olan Rəbbimiz bütün bu cür pis bənzətmələrdən uzaqdır.

Üçləmə etiqadını müdafiə edənlər Hz.İsanın Allahla eyni səlahiyyətlərə malik olması ilə bağlı çox azğın iddia da irəli sürürlər. Halbuki Rəbbimiz Qur'anda "**...Mülkündə heç bir şəriki yoxdur. O, hər şeyi yaratmış və onu təqdir etmişdir**" ("Furqan" surəsi, 2) ayəsi ilə bu iddiaların mənasızlığını açıqlayır. Çünki O, bütün kainatın mütləq hakimidir, Onun heç bir şəriki və ya köməkçiyə ehtiyacı yoxdur. "İsra" surəsində belə buyrulur:

**"Və de: "Özünə heç bir övlad götürməyən, mülkündə heç bir şəriki olmayan, zəif olmadığı üçün heç bir köməkçiyə ehtiyacı olmayan Allaha həmd olsun!" Və Allahı bütün eyb və nöqsanlardan uzaq bilib təqdis et şəninə təriflər de!" ("İsra" surəsi, 111).**

Allah Peyğəmbərimiz Hz.Muhəmmədə (s.ə.v.) bu iddia ilə ortaya çıxanlara belə deməsini vəhy edib:

**"De: "Əgər Rəhmanın bir övladı olsa, ona ibadət edənlərin birincisi mən olardım!" ("Zuxruf" surəsi, 81).**

Ayədə xəbər verilən bu cavab üçləmə etiqadını müdafiə edənlərin böyük bir yanlışlıq içində olduqlarını göstərir. Allah yuxarıdakı ayənin davamında bunları bildirir:

**"Göylərin və yerin Rəbbi, ərşin Rəbbi olan Allah Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır! Qoy**

**onlar vəd olunduqları günə qovuşana qədər qurşanaraq oynayıb əylənsinlər! Göydə də tanrı, yerdə də tanrı Odur. O, hikmət sahibidir, biləndir!" ("Zuxruf" surəsi, 82-84).**

Ayənin açıq ifadəsindən də aydın olduğu kimi, Allah bu çirkin iddiaları ortaya atan adamların Onun qədrini lazımınca təqdir etmək qabiliyyətində olmadığına diqqəti cəlb edir, onları axirətin mövcudluğundan bixəbər olan və vaxtlarını qəflətdə keçirən insanlar kimi tanıdır.

## Göydə və yerdə nə varsa hamısı Allahındır, bütün varlıqlar Ona möhtacdır

Əvvəl də qeyd etdiyimiz kimi, üçləmə etiqadında Hz.İsanın yaradıldığı qəbul edilmir, əksinə, onun Allahla eyni səlahiyyətlərə malik bir güc olduğu bildirilir. Halbuki bu düşüncə şəkli Rəbbimizin peyğəmbərlərə vəhy etdiyi tövhid etiqadının tamamilə əks tərəfində dayanan çirkin bir böhtandır. "Bəqərə" surəsində belə qeyd edilir:

**"Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə vermişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!" ("Bəqərə" surəsi, 255).**

Rəbbimiz yeganə haqq və hökm sahibidir. Bütün kainat, göylərdə və yerdə olan canlı-cansız hər şey: bütün insanlar, heyvanlar, bitkilər, əşyalar Allaha məxsusdur. Hamısını yaradan aləmlərin Rəbbi olan Uca Allahdır. Hər şey Onun əmri ilə hərəkət edir və öz mövcuduluğunu Onun is-

tədiyi vaxta kimi davam etdirə bilər. Bütün canlı varlıqları yedirib-içirən, onlara göydən və yerdən ruzi verən, yeri yaşıllaşdıran, gecəni qaraldan, Günəşi parlaq bir işığa çevirən, fəsilləri yaradan Allahdır. Dünyanın yaradılışından etibarən yaşamış olan, dünyalarını dəyişən, hazırda yaşayan və dünyaya gələcək bütün insanları yaradan da Allahdır. Hər insan öz varlığına görə Allaha borcludur və hər şeyi ilə Ona möhtacdır. Allahın seçərək insanların Ona iman gətirməsi üçün elçilik vəzifəsi verdiyi peyğəmbərləri də Allahın yaratdığı bəndələrdir. Bütün peyğəmbərlər Onun əmri ilə hərəkət edən mübarək insanlardır. Hz.İsa da həmin elçilər kimi Allahın yaratdığı bir bəndədir. Şanı uca, seçilmiş, şərəfli, hörmətə layiq ("Ali-İmran" surəsi, 45) etdiyi dəyərli peyğəmbəridir. Belə ki, Allah Hz.İsa haqqında belə buyurur:

**"İsa əl-Məsih də, yaxın mələklər də Allahın qulu olmağı əsla özlərinə ar bilməzlər. Allah Ona ibadət etməyi özünə ar bilənlərin və lovğalıq edənlərin hamısını Öz hüzuruna toplayacaqdır!" ("Nisa" surəsi, 172).**

Ayədə də bildirildiyi kimi, Hz.İsa Allaha qulluq etmək vəzifəsini yerinə yetirməkdən ləzzət alan, Rəbbimizə təslim olan çox səmimi bir insandır. Onun tanrılıq iddiasında olması ilə bağlı bütün açıqlamalar sonradan "istehsal" edilən hədyan və sayıqlamalardır. Uca Rəbbimiz bütün yaradılanlar üzərində mütləq hakimiyyətə sahibdir. Ondan başqa hər şey yaradılmaq və öz varlığını davam etdirmək üçün yalnız Rəbbimizə möhtacdır.

Allah kainatı yoxdan yaradıb. Dünyadakı bütün canlılar doğulur və ölür. Hər şeyin müəyyən bir ömrü var. Kainatda yox olmayacaq heç bir əşya və ya ölümsüz olacaq heç bir canlı mövcud deyil. Halbuki Qur'anda bildirildiyi kimi, Allah əvvəldir, axırdır ("Hədid" surəsi, 3). Yəni Onun başlanğıcı olmadığı kimi sonu da yoxdur. Allah sonsuzluğun sahibi, zamanın və məkanın üstündə olandır. O, hər şeydən əvvəl də vardır, sonra da olacaqdır. Kainatın, canlıların,

planetlərin, qalaktikaların və kainatın hələ yaradılmadığı anda da yalnız Allah var idi. Hər şey yox olandan sonra yenə də təkcə O, qalacaqdır. Ömrü və zamanı yaradan Allah maddəyə xas olan bütün xüsusiyyətlərdən uzaqdır.

Allah bu məfhum və anlayışları yaradıb və insanların zamana və məkana tabe olaraq yaşamasını məsləhət bilib. İnsan başına bir gün sonra, hətta bir saat sonra nələrin gələcəyini heç vaxt bilə bilməz. Allah isə bir işin olmasını hökm edəndə bir gün sonra, illər sonra və qiyamətə qədər həmin işin necə nəticələnəcəyini bilir və bu nəticələrin özünə də hakimdir. Dolayısı ilə Onun verdiyi hökm həmişə ən doğru, ən yaxşı və ən hikmətli olandır.

Kainatdakı bütün varlıqların bir sonu, bir axırı var. Bir insan anadan olur, yaşayır və bu dünyadakı məhdud ömrünün axırında qaçılmaz bir həqiqət olan ölümlə qarşılaşır. İnsanlar kimi bitkilər və heyvanlar aləminin yox olması da qaçılmazdır. Onlar da dünyaya gələndən bir müddət sonra bir-bir ölürlər. Canlı olan hər şey həyatını başa vurub axırda torpağın altına girəcək. Baqi olan Rəbbimiz isə Öz mütləq varlığını həmişə davam etdirəcək. Sonsuzluq yalnız Ona məxsusdur.

İnsan acizdir, o, həyatı boyunca müxtəlif qayğıya və köməyə möhtacdır. İnsanın həyatının böyük hissəsi onun öz bədəninə baxması, onu təmizləməsi, qidalanmasını və yuxusunu tənzimləməsi ilə keçir. Canlı-cansız bütün varlıqların və bütün kainatın yaradanı olan Allah isə Hayydır. O, həmişə diridir, hər an hər şeyə hakimdir, hər şeyi bilir, hər şeyə gücü çatandır, O, mürgüləməz və yatmaz, hər cür acizlikdən uzaqdır. Allah yaratdıqlarına müxtəlif acizliklər verib və yaradılanların özlərinin bu qüsurlarını dərk edib ancaq Ona üz tutaraq qulluq etmələrini, hər şeyi Ondan istəmələrini əmr edib. İnsanın üzərinə düşən vəzifə isə Allah istəmədiyi təqdirdə onun heç bir şeyə gücünün çatmayacağını, həyatını bircə saniyə də olsa davam etdirə bilməyəcə-

yini dərk edərək Rəbbimizə tərəf üz tutmasıdır. Allah Ondan başqa heç bir tanrının olmadığını Qur'an ayələrindəki hikmətli misallarla belə xəbər verir:

**"Göylərdə və yerdə olan məxluqat Onundur. Onun dərgahında olanlar Ona ibadət etməyə təkəbbür göstərməz və yorulmaq bilməzlər. Onlar gecə-gündüz, yorulub-usanmadan Rəbbini təqdis edib şəninə təriflər deyərlər. Yoxsa yerdən tanrılar qəbul etdilər ki, onlar ölüləri dirildəcəklər? Əgər yerdə və göydə Allahdan başqa tanrılar olsa idi, onların ikisi də fəsada uğrayardı. Ərşin sahibi olan Allah ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır! Allah gördüyü işlər barəsində sorğu-sual olunmaz; onlar isə sorğu-sual ediləcəklər. Yoxsa Ondan başqa tanrılar qəbul etdilər? De: "Dəlilinizi gətirin. Bu mənimlə olanların Kitabı, bu da məndən əvvəlkilərin kitabı! Xeyr, onların əksəriyyəti haqqı bilməz və buna görə də üz döndərər!"" ("Ənbiya" surəsi, 19-24).**

**"Xeyr, Biz onlara haqqı gətirdik. Onlar isə, şübhəsiz ki, yalançıdırlar! Allah heç bir övlad gətirməmişdir. Onunla yanaşı heç bir tanrı yoxdur. Əgər belə olsaydı, onda hər bir tanrı əlahiddə öz yaratdıqları ilə gedər və onların bir qismi digərinə üstün olmaqa çalışardı. Allah müşriklərin Ona aid etdikləri sifətlərdən tamamilə kənardır! O qeybi də, aşkarı da bilir. Allah onların Ona qoşduğu şəriklərdən çox ucadır!" ("Muminun" surəsi, 90-92).**

Hz.İsa Rəbbimizə Onun bütün bu sifətləri ilə könüldən iman gətirən səmimi bir insandır. O, Allahın sonsuz güc sahibi olmasına iman gətirmiş, Ona heç bir şeyi şərik qoşmamışdı. Qur'anda Hz.İsanın Allahın qulu, bəndəsi olduğu belə bildirilir:

**"İsa dedi: "Mən, həqiqətən, Allahın quluyam. O mənə kitab verdi, özümü də peyğəmbər etdi" ("Məryəm" surəsi, 30).**

Başqa bir ayədə isə Hz.İsanın da ölümlü olduğu, hər bir insan kimi onun da öldükdən sonra axirət günü yenidən dirildiləcəyi bildirilir:

**"Doğulduğum gün də, öləcəyim gün də, diriləcəyim gün də mənə salam olsun!" ("Məryəm" surəsi, 33).**

Başqa insanlar və peyğəmbərlər kimi Hz.İsanı da Allah yaradıb, dünyada tövhid inamını çatdırmaq üçün ona möhlət verib. Sonra isə Hz.İsaya hiylə Qur'anların məkrli planlarını puça çıxararaq onu Öz dərgahına yüksəldib. Hz.İsa Allahın onun üçün müəyyən etdiyi vaxt gəlib çatanda təkrarən dünyaya gələcək və Allahın əmr etdiyi kimi elçilik vəzifəsini tamamlayacaq. Onun bütün taleyini - həyatı boyunca qarşısına çıxan hər şeyi, başına gələn hər bir hadisəni müəyyən edən və vaxtı gələndə bütün bunları həyata keçirən yeganə güc Allahdır. Hz.İsanın göstərdiyi bütün möcüzələri də yaradan məhz Allahdır. O, bunları özü deyil, Allahın mərhəməti ilə gerçəkləşdirib. Hz.İsa dünyadakı həyatı boyunca Allaha olan güclü imanını ifadə edib və insanları Allahın doğru yoluna çağırıb. Hz.İsanın insanları Allaha iman gətirməyə dəvət etməsi "Məryəm" surəsində belə bildirilir:

**"Allah mənim də, sizin də Rəbbinizdir. Yalnız Ona ibadət edin. Bu, doğru yoldur!" ("Məryəm" surəsi, 36).**

## Hz.Yəhyanın anadan olması da Allahın bir möcüzəsidir

Üçləmə etiqadının əsaslarından biri də Hz.İsanın həyatındakı möcüzələrdir. Həqiqətən də Rəbbimiz Hz.İsaya fövqəladə möcüzələr verərək ona böyük lütf göstərib. Bu

müqəddəs şəxsin anadan olmasından Allah dərgahına yüksəldilməsinə qədər keçən həyatı möcüzələrlə doludur. Bunlardan biri də Hz.İsanın atasız dünyaya gəlməsidir. Hz.İsanın anadan olması həqiqətən də Rəbbimizdən gələn çox böyük möcüzədir. Cəbrailin Hz.Məryəmə insan şəklində görünməsi və ona Allahdan bir möcüzə göstərməsi Qur'an ayələrində müfəssəl şəkildə qeyd edilir. Hz.Məryəm ona heç bir insan toxunmadığı halda Allahın istəyinə uyğun olaraq Hz.İsaya hamilə qalıb. Onun hamiləliyi dünyadakı bütün səbəblərdən asılı olmadan, yəni möcüzəvi şəkildə baş verib:

**"Məryəm dedi: "Mənim necə oğlum ola bilər ki, mənə indiyədək bir insan əli belə toxunmamışdır. Mən zinakar da deyiləm!" Cəbrail dedi: "Elədir, lakin Rəbbin buyurdu ki, bu Mənim üçün asandır. Biz onu insanlar üçün bir möcüzə, dərgahımızdan olan bir mərhəmət kimi edəcəyik. Bu, əzəldən təqdir olunmuş bir hökmdür!" Məryəm artıq hamilə oldu və onunla birlikdə uzaq bir yerə çəkildi" ("Məryəm" surəsi, 20-22).**

Ayədən də göründüyü kimi, Hz.İsa bizə məlum olan yaradılışdan fərqli şəkildə - atasız dünyaya gəlib. O, anadan olmamışdan əvvəl Allah bir çox xüsusiyyətlərini və onu insanlar üçün bir rəhmət şəklində göndərdiyini mələkləri vasitəsilə anası Hz.Məryəmə bildirib:

**"Mən sənə ancaq təmiz bir oğlan bağışlamaq üçün Rəbbinin göndərdiyi elçisiyəm! Biz onu insanlar üçün bir möcüzə, dərgahımızdan olan bir mərhəmət kimi edəcəyik..." ("Məryəm" surəsi, 18-21).**

Bu möcüzəvi yaradılış üçləməni müdafiə edənlər üçün onların dəlillərindən birini təşkil edir. Hz.İsanın anadan olmasındakı fövqəladəlik aşkar bir həqiqətdir. Ancaq Qur'anda Hz.Yəhyanın da yenə möcüzəvi bir şəkildə ana-

dan olması xəbər verilir. Ona bir varis verməsi üçün Allaha dua edən Hz.Zəkəriyyanın duaları ayələrdə belə bildirilir:

**"Bu sənin Rəbbinin öz qulu Zəkəriyyaya olan mərhəmətinin xatırlanmasıdır! Rəbbinə gizlicə dua edib yalvarıb belə demişdi: "Ey Rəbbim! Artıq sümüyüm sustalmış, başım ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə dua etməklə heç vaxt naümid olmamışam. Mən özümdən sonra gələn qohum-əqrəbamdan qorxuram. Zövcəm də ki, qısırdır, Buna görə də mənə Öz dərgahından bir oğul (vəli) bəxş et ki, o həm mənə, həm də Yəqub nəslinə varis olsun. Ey Rəbbim! Həm də elə et ki, o razı qalınanlardan olsun!" ("Məryəm" surəsi, 2-6).**

**"Zəkəriyya Rəbbinə dua edərək dedi: "Ey Rəbbim! Mənə də Öz tərəfindən pak bir övlad bəxş et! Sən, həqiqətən, duaları eşidənsən!"" ("Ali-İmran" surəsi, 38).**

Ayələrdə də qeyd edildiyi kimi, Hz.Zəkəriyyanın təbii şərtlər daxilində övlad sahibi olması mümkün deyil. Amma o, ona bir köməkçi və varis verməsi üçün Rəbbimizə səmimi qəlbdən dua edib. Rəbbimizin bu qiymətli insanın duasına verdiyi cavab ayələrdə belə xəbər verilir:

**"Allah buyurdu: "Ey Zəkəriyya! Biz səni adı Yəhya olan bir oğlun olacağı ilə müYdə veririk. Biz bu adı əvvəllər heç kəsə verməmişik!"" ("Məryəm" surəsi, 7).**

**"O mehrabda namaz qılarkən mələklər ona müraciət edib dedilər: "Allah sənə Özü tərəfindən gələn kəlməni (İsanı) təsdiq edən, rəhbər, nəfsinə hakim və əməli salehlər zümrəsindən bir peyğəmbər olacaq Yəhyanın xəbərini müYdə verir"" ("Ali-İmran" surəsi, 39).**

Rəbbimiz Hz.Zəkəriyyəni adı Yəhya olan bir oğlan övladının olacağı ilə müYdələyib. Bu da Hz.İsanın anadan ol-

ması kimi möcüzəvi bir vəziyyətdir. Çünki həm yaşları etibarilə, həm də səhhətləri baxımından Hz.Zəkəriyyanın və onun həyat yoldaşının övladlarının olması qeyri-mümkün görünür. Hz.Zəkəriyyə də bu müYdəni eşidəndə: "**Ey Rəbbim! Zövcəm doğmayan bir qadın, mən də qocalıb əldən düşmüş ikən mənim necə oğlum ola bilər?**" ("Məryəm" surəsi, 8) deyib. Ancaq bütün kainatı yoxdan yaradan Rəbbimiz hər şeyə gücü çatandır. O, sonsuz qüdrəti ilə istədiyi hər şeyə "Ol!" deyir və istədiyi hər şey dərhal olur. Allah belə bir yaratmaq gücünə sahibdir. Ayələrdə belə bildirilir:

> **"Onun yanına gələn mələk: "Dediyin kimidir, lakin Rəbbin buyurdu ki, bu işi görmək Mənim üçün asandır. Necə ki, ilk əvvəl səni heç bir şey deyilkən yaratmışdım!"" ("Məryəm" surəsi, 9).**
>
> **"Zəkəriyya: "Ey Rəbbim, üzərimə qocalıq çökdüyü və zövcəm qısır olduğu halda, mənim necə oğlum ola bilər?" - söylədi. Allah: "Dediyin kimidir, lakin Allah nə istəsə, onu da edər", - deyə buyurdu" ("Ali-İmran" surəsi, 40).**

İncildə də Hz.Yəhyanın anadan olması ilə bağlı oxşar ifadələr mövcuddur:

> "Rəbbin bir mələyi Zəkəriyyaya göründü və buxur qurbangahının sağında durdu. Zəkəriyya onu gördükdə çaşdı və onu qoxu bürüdü. Mələk isə ona dedi: "Qorxmu, Zəkəriyya, çünki sənin duan eşidildi. **Arvadın Elizavet sənə bir oğul doğacaq və onun adını Yəhya qoyacaqsan.** Sevinc və səfa tapacaqsan. Və onun doğulmasına bir çoxları da sevinəcəklər. Çünki o, Rəbbin qarşısında böyük olacaq, şərab və başqa içki içməyəcək və hələ anasının bətnində ikən Müqəddəs Ruhla dolacaqdır. Və İsrail oğullarından bir çoxunu, onların Allahın olan Rəbbə tərəf döndərəcəkdir. Ataların ürəklərini uşaqlara, itaətsizləri salehlərin hikmətinə döndərmək və Rəbbə hazırlanmış bir xalq təşkil et-

mək üzrə İlyasın ruhu və qüdrətilə Rəbbin önündə yeriyəcəkdir". Və Zəkəriyya mələyə dedi: "Mən bunu nədən bilim? Çünki mən qocayam, arvadım da çox yaşlıdır"" ("Luka İncili", 1/11-18).

Rəbbimiz Öz dərgahından bir möcüzəsi ilə Hz. Zəkəriyyaya Hz.Yəhyanı bağışladı. Bu müqəddəs insana uşaq yaşlarından etibarən itaət etməyi sevdirdi, ona hikmət, sevgi və təmizlik bəxş etdi. Ayələrdə Hz.Yəhya haqqında bunlar bildirilir:

**"...O, çox müttəqi idi. Ata-anasına qarşı da olduqca itaətkar idi: zalim, asi deyildi. Ona doğulduğu gündə, öləcəyi gündə, diriləcəyi gündə salam olsun!" ("Məryəm" surəsi, 13-15).**

Ayələrdən də göründüyü kimi, Hz.Yəhyanın anadan olması böyük möcüzədir. Allah dünyəvi səbəblərdən asılı olmadan Hz.Zəkəriyyaya bir övlad hədiyyə etdi, duasını qəbul edərək ona Hz.Yəhyanın varis etdi. Bu müYdəni Hz.Məryəmə olduğu kimi Hz.Zəkəriyyaya də bir mələk vasitəsilə bildirdi. Hz.Zəkəriyyanın xanımının hamilə qalması üçün lazım olan şərtlər də mövcud deyildi. Dolayısı ilə Hz.Məryəmin Hz.İsanı dünyaya gətirməsi ilə Hz.Yəhyanın dünyaya gəlməsi arasında çox böyük oxşarlıqlar var. Bu isə üçləmə etiqadının əsaslarından daha birinin etibarsızlığını göstərir.

## Hz.Adəmin torpaqdan yaradılması

Hz.Yəhyanın və Hz.Adəmin anadan olmasının fövqəladəliyi Hz.İsanın möcüzəvi şəkildə dünyaya gəlməsindən üçləmə etiqadının əsaslarından biri kimi istifadə olunmasını qeyri-mümkün edən dəlillərdən biridir. Qur'an ayələrində Hz.Adəmin də möcüzəvi şəkildə yaradıldığı xəbər verilir. "Hicr" surəsində belə bildirilir:

**"Xatırla ki, bir zaman Rəbbin mələklərə belə demişdi: "Mən quru və dəyişib başqa şəklə düşmüş palçıqdan insan yaradacağam! Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!"" ("Hicr" surəsi, 28-29).**

Ayədə bildirilən həqiqət çox fövqəladə yaradılışa işarə edir. Hz.Adəm anası və atası olmadığı halda "quru və dəyişib başqa şəklə düşmüş palçıqdan" yaradılıb. Torpaqdan yaradılışla bağlı başqa ayələrdə belə bildirilir:

**"Ey insanlar! Öləndən sonra yenidən diriləcəyinizə şübhəniz varsa, yada salın ki, həqiqətən, Biz sizi torpaqdan, sonra mənidən (nütfədən), sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə düşmüş və düşməmiş bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə göstərək..." ("Həcc" surəsi, 5).**

**"Sizi torpaqdan yaratması, sonra da sizin bir insan olub yer üzünə yayılmağınız Onun qüdrət əlamətlərindəndir" ("Rum" surəsi, 20).**

**"Allah sizi torpaqdan, sonra bir damcı sudan (nütfədən) xəlq etmiş, sonra da sizi cüt-cüt yaratmışdır. O bilmədən heç bir qadın hamilə olmaz və doğmaz. Ömür sahibi olan birinin uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq kitabda yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır" ("Fatir" surəsi, 11).**

Qur'anda Hz.Adəm haqqında verilən başqa əhəmiyyətli məlumat isə Hz.İsanın yaradılışı ilə olan oxşarlıqdır:

**"Allah yanında İsa da Adəm kimidir. Allah onu torpaqdan yaratdı. Sonra ona: "Ol!" - dedi, o da oldu. Şübhəsiz ki, bunlar Rəbbin tərəfindən olan həqiqətdir. Ona görə də şübhə edənlərdən olma!" ("Ali-İmran" surəsi, 59-60).**

Yuxarıdakı ayədə Allah Hz.Adəmlə Hz.İsanın oxşar şəkildə yaradıldıqlarını bildirir. Əvvəl də qeyd etdiyimiz

kimi, Hz.Adəm hər hansı bir atası olmadığı halda, yalnız Allahın "Ol" deməsi ilə torpaqdan yaradılıb. Hz.İsa da atası olmadığı halda Allahın "Ol!" əmri ilə yaradılıb. Eyni ayənin axırında isə insanlara bu həqiqətin Rəbbimizdən gəldiyi xəbər verilir və bu məsələdə şübhəyə qapılmamağın zəruriliyi vurğulanır. Dolayısı ilə bu böyük həqiqət dərk edilməli və Hz.İsanın da eynilə Hz.Adəm kimi Allahın yaratdığı bir bəndə, Allaha möhtac bir insan olduğu qəbul edilməlidir.

## Qur'anda da bildirildiyi kimi, Hz.İsa bir bəşərdir

Rəbbimiz Qur'anın "Qəsəs" surəsində Peyğəmbərimizə (s.ə.v.) özündən əvvəlki peyğəmbərlərin də bir bəşər olduqlarını bildirir:

**"<u>Səndən əvvəl göndərdiyimiz peyğəmbərlər də, şübhəsiz ki, yemək yeyər, bazarları gəzib dolaşardılar.</u> Sizin bir qisminizi digərinizə sınaq vasitəsi etdik ki, görək dözə biləcəksinizmi? Sənin Rəbbin görəndir! Bizimlə qarşılacaqlarına inanmayanlar: "Bizə mələklər endirilməli, yaxud biz Rəbbimizi görməli idik!" - dedilər. Həqiqətən, onlar özləri barəsində təkəbbürə qapıldılar və azğınlaşıb həddi çox aşdılar" ("Furqan" surəsi, 20-21).**

Başqa ayələrdə də Rəbbimiz belə buyurur:

**"Biz səndən əvvəl də onlara vəhy etdiyimiz kişilərdən başqa elçi göndərmədik. Əgər bilmirsinizsə, kitab əhlindən soruşun! Biz onları yeməz-içməz bir bədən yaratmadıq. Onlar əbədi də deyillər. Sonra onlara verdiyimiz vədi yerinə yetirdik. Və istədiyimiz kəslərə nicat verdik, həddi aşanları isə məhv etdik" ("Ənbiya" surəsi, 7-9).**

Qur'an ayələrində peyğəmbərlərin və Hz.İsanın bəşəri xüsusiyyətləri çoxsaylı misallarla bildirilib. Hz. Məryəm Hz.İsaya möcüzəvi şəkildə hamilə qalıb. Ancaq Hz.İsanın

dünyaya gəlməsi mərhələləri, doğuş əsnasında anası Hz.Məryəmin yaşadıqları Hz.İsanın hər bir insan kimi eyni çətin mərhələlərdən keçərək dünyaya gəldiyini açıq şəkildə ortaya qoyur. Bu müddət ərzində baş verənlərin fərqli şəkildə şərh olunması və ya bundan fərqli mənası çıxarılması Allahın izni ilə mümkün deyil:

**"Beləliklə hamilə oldu və onunla birlikdə uzaq bir yerə çəkildi. Doğuş sancısı onu bir xurma ağacının gövdəsinə söykənməyə məcbur etdi. Dedi: "Kaş ki, mən bundan əvvəl ölüb qurtaraydım və ya tamamilə unudulub getmiş olaydım!" Dərhal alt tərəfindən ona belə bir nida gəldi: "Kədərlənmə, Rəbbin sənin üçün altından bir irmaq axıtdı. Xurma ağacını özünə tərəf silkələ, üstünə təzə yetişmiş xurma tökülsün! Ye-iç, gözün aydın olsun. Əgər bir adam görəcək olsan, belə de: "Mən Rəhman yolunda oruc tutmağı nəzir eləmişəm, ona görə də bu gün heç kəslə danışmayacağam!" Uşağı götürüb öz adamlarının yanına gəldi. Onlar dedilər: "Ey Məryəm! Sən çox əcaib bir şeylə gəldin! Ey Harunun bacısı! Atan pis kişi, anan da utanmaz deyildi!"" ("Məryəm" surəsi, 22-28).**

Hz.İsanı Allah yaradıb və ona müxtəlif möcüzələrlə yardım edib. Onun ölüləri diriltmək, palçıqdan quş düzəldib ona can vermək, anadangəlmə koru və cüzamlı xəstəni sağaltmaq kimi göstərdiyi bəzi möcüzələr, həmçinin atasız dünyaya gəlməsi kimi özünün yaradılışı ilə bağlı fövqəladəliklər isə bizim dünya həyatında yaşadığımız və bağlı olduğumuz qaydalardan kənar hadisələrdir. Rəbbimiz Qur'anın bir çox ayələrində peyğəmbərlərin göndərildikləri xalqlara göstərdiyi möcüzələrdən bəhs edib. Məsələn, Hz.Adəmin torpaqdan və atasız yaradılmasını, Hz.Saleh, Hz.İbrahim və Hz.Musa kimi peyğəmbərlər tərəfindən də insanlara çoxlu möcüzələr göstərildiyini xəbər verib. Hz.Musa sehrbazlarla rastlaşanda Rəbbimiz onun əsasını

ilana döndərərək ona çox böyük möcüzə ilə kömək edib ("Taha" surəsi, 69). Həmçinin Fironun və onun əsgərlərinin təqib etməsi nəticəsində dəniz kənarına gələn Hz.Musa və İsrail oğulları dənizdə yol açılması ilə qarşı tərəfə keçə biliblər. Firon və ordusu isə suların altında qalıb ("Taha" surəsi, 77-78). Qur'an ayələrində də Peyğəmbərimizin (s.ə.v.) çoxlu möcüzələri, qeybdən verdikləri xəbərlər bildirilir. Allah "İsra" surəsində Peyğəmbərimizi (s.ə.v.) bir gecə Məscidi-Əqsaya apardığını və oranı göstərdiyini bildirir. Bu isə Rəbbimizdən çox böyük bir möcüzədir ("İsra" surəsi, 1). Haqqında bəhs edilən möcüzələrin baş verməsini təmin edən güc sahibi isə aləmlərin Rəbbi olan Allahdır. Bu möcüzələrin meydana gəlməsi Peyğəmbərimizə (s.ə.v.), Hz.Musaya və başqa peyğəmbərlərə tanrılıq məqamı verilməsi mənasına gəlmir (bu ifadədən Allaha sığınırıq). Çünki bu mübarək insanlar göstərdikləri möcüzələrin həmişə Allahın istəyi ilə həyata keçdiyini həmişə biliblər. "Maidə" surəsində də Hz.İsanın bu möcüzələri "Allahın icazəsi ilə" həyata keçirdiyi xəbər verilir:

> **"Xatırla ki, o gün Allah belə buyuracaq: "Ya Məryəm oğlu İsa! Sənə və anana nemətimi yadına sal. O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən beşikdə olanda da, yetkin çağında da adamlarla danışdırdım. Sənə kitabı, hikməti, Tövratı və İncili öyrətmişdim. O zaman sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verir və Mənim iznimlə ölüləri dirildirdin. Sən İsrail oğullarının yanına açıq möcüzələrlə gəldiyin zaman Mən onların bəlasını səndən dəf etmişdim. Onlardan küfrə batanlar isə belə demişdilər: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir!"" ("Maidə" surəsi, 110).**

Hz.Məryəmə və Hz.İsaya tanrılıq məqamı "verən" bütün iddialar Qur'an ayələri ilə aradan qaldırılıb. Bunlardan biri də "Maidə" surəsindədir:

**"Məryəm oğlu Məsih ancaq bir peyğəmbərdir. Ondan əvvəl də peyğəmbərlər gəlib getmişdir. Onun anası isə çox pak bir qadın idi. Onların hər ikisi yemək yeyirdi. Gör Biz ayələri onlara necə başa salırıq, onlar gör necə üz çevirirlər?" ("Maidə" surəsi, 75).**

Ayədə onların xüsusilə də yemək yemələrindən bəhs edilməsi çox hikmətlidir. Çünki yemək, acmaq, susamaq, yatmaq ehtiyacı hiss etmək canlılara xas olan xüsusiyyətlərdir və onların acizliyini ifadə edir. Haqqında bəhs edilən bütün bəşəri xüsusiyyətlərə malik olan Hz.İsa üçün "uluhiyyət" ("tanrılıq") iddiasında olmaq isə son dərəcə böyük səhvdir. Mülkün sahibi olan Rəbbimiz Özünün Rəzzaq sifəti ilə bütün canlıları ruziləndirir, onlara nemətlər bağışlayır. O, heç bir şeyə və heç kimə möhtac olmayandır. Ancaq bütün canlılar var olmaq və öz varlıqlarını davam etdirə bilmək üçün Rəbbimizə möhtacdırlar.

Hz.Məryəmin və Hz.İsanın yemək yemələrinə diqqət çəkilməsinin başqa bir hikməti də ayələrdə Hz.İbrahimə insan surətində gələn mələk elçilər haqqında verilmiş məlumat ola bilər (ən doğrusunu Allah bilir). Ayələrdə həmin elçilərin "yemək yeməməsinə" diqqət cəlb edilib:

**"İbrahimin möhtərəm qonaqlarının söhbəti sənə gəlib çatdımı? Onlar İbrahimin yanına gəlib salam verdikdə o, salamı alıb: "Bunlar tanımadığın kimsələrdir!" - dedi. O ailəsinin yanına getdi və bir buzov gətirdi. Onu qabaqlarına qoyub: "Bəlkə, yeyəsiniz!" - dedi. Qonaqların yeməyə əl uzatmadıqlarını gördükdə qorxuya düşdü. Onlar: "Qorxma!" - dedilər və ona çox bilikli bir oğlan uşağı ilə müYdə verdilər" ("Zariyat" surəsi, 24-28).**

**"Həqiqətən, elçilərimiz İbrahimin yanına müYdə ilə gəlib: "Salam!" - dedilər. İbrahim də: "Salam!" - deyə cavab verdi və dərhal qızarmış bir buzov gətirdi. Qonaqların əllərinin yeməyə uzanmadıqlarını gördükdə onların bu hərəkəti xoşuna gəlmədi və qorxuya düşdü. Onlar dedilər: "Qorxma, biz Lut tayfasına göndərilmişik!"" ("Hud" surəsi, 69-70).**

Allah Hz.İsanı tanrı hesab edən üçləmə iddiası tərəfdarlarına ayələrdə çox fərqli şəkillərdə xəbərdarlıq edir. Bu ayələrdən bəziləri belədir:

**""Allah Məryəm oğlu Məsihdir", - deyənlər, şübhəsiz ki, kafir oldular. Onlara de: "Əgər Allah Məryəm oğlu Məsihi, anasını və yer üzündə olanların hamısını məhv etmək istəsə, kim ona bir şeylə mane ola bilər? Göylərin, yerlərin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir. O, istədiyini yaradar, Allah hər şeyə qadirdir!" ("Maidə" surəsi, 17).**

Hz.İsa da Allahın yaratdığı aciz və möhtac bəndələrdən biridir, Allahın çox sevdiyi, şərəfləndirdiyi, seçdiyi bir insandır, amma son nəticədə yenə də Allahın bir quludur, bəndəsidir. Hz.İsanı tanrılaşdıranlar üçün Qur'anda belə bir buyruq var:

**"Şübhəsiz ki: "Allah Məryəm oğlu Məsihdir!" - deyənlər kafir oldular. Halbuki Məsih belə demişdi: "Ey İsrail oğulları! Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin! Allaha şərik qoşana Allah, şübhəsiz ki, cəənnəti haram edər. Onun düşəcəyi yer cəhənnəmdir. Zalimlərin heç bir köməkçisi yoxdur!" "Allah üçün (üç ilahinin) üçüncüsüdür!" - deyənlər, əlbəttə, kafir olmuşlar. Halbuki bir olan Allahdan başqa heç bir tanrı yoxdur. Əgər onlar dediklərinə son qoymasalar, onlardan kafir olanlara, şübhəsiz ki, şiddətli bir əzab üz verəcəkdir. Məgər onlar Allaha tövbə edib Ondan bağışlanmalarını istəməyəcəklər?**

**Axı Allah bağışlayandır, rəhm edəndir!" ("Maidə" surəsi, 72-74).**

Ayədə də bildirildiyi kimi, Rəbbimiz bütün varlıqlar üzərində yeganə hökm sahibidir. O, bir şey istəyəndə bunu təxirə sala və ya rədd edə biləcək başqa bir güc yoxdur. Allahdan başqa tanrıların olduğunu söyləyən "Allah Özünə övlad götürdü" deyənlər üçün Qur'anda belə buyrulur:

**"Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: "Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!" - deyə vəhy etməyək. Onlar: "Rəhman övlad götürdü!" -dedilər. O, pak və müqəddəsdir! Xeyr, (mələklər) möhtərəm qullardır. Ondan qabaq söz danışmaz, yalnız Onun əmri ilə iş görərlər. Allah onların öndəkilərini də, arxalarındakını da bilir. Onlar yalnız Allahın razı olduğu kəslərdən ötrü şəfaət edə bilər və Onun heybətindən qorxarlar. Onlardan hər kəs; "Mən Ondan başqa bir tanrıyam!" - desə, onu cəhənnəmlə cəzalandırarıq. Biz zalimlərə belə cəza veririk" ("Ənbiya" surəsi, 25-29).**

## Hz.İsa Allahın oğlu deyil, Onun peyğəmbəridir

Qur'anda Hz.İsanın anadan olması, həyatı boyunca onun başına gələn hadisələr, ailəsi, ətrafındakı insanların vəziyyəti və s. bu kimi çoxlu sayda məsələdən bəhs edilib. Qur'anda Hz.İsa bizə "Allahın peyğəmbəri Məryəm oğlu İsa Məsih" kimi tanıdılır. Məsələn, "Ali-İmran" surəsində Hz.İsanın özünün göndərilməsinin səbəbini İsrail oğullarına belə izah etdiyi bildirilir:

**"Məndən əvvəl göndərilmiş Tövratı təsdiq edərək sizə haram edilmiş bəzi şeyləri halal etmək üçün gəldim və sizə Rəbbiniz tərəfindən bir möcüzə gətir-**

**dim. İndi Allahdan qorxun və mənə itaət edin! Şübhə yoxdur ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur doğru yol!" ("Ali-İmran" surəsi, 50-51).**

Hz.İsanın bu dəvətinə az sayda həvari tabe olub. Qur'anda bu səmimi insanlardan belə bəhs edilir:

**"...Həvarilər dedilər: "Bizik Allahın köməkçiləri! Biz Allaha inandıq. Sən də təslim olduğumuza şahid ol! Ey Rəbbimiz, nazil etdiyinə iman gətirdik və peyğəmbərinə tabe olduq. Artıq bizləri şahid olanlarla bir yerdə yaz!"" ("Ali-İmran" surəsi, 52-53).**

Qarışıqlıq və ixtilaf içində olan bir xalqa hidayət rəhbəri olaraq göndərilən Hz.İsa həyatı boyunca ətrafındakı insanları Allaha səmimi şəkildə iman gətirməyə və təslim olmağa çağırıb. Bununla yanaşı, Qur'an ayələrindən aydın olur ki, Hz.İsa öz dinləri məsələsində ixtilaf içində olanlara yol göstərib. İncildə qeyd edilən bəzi ifadələrdən Hz.İsanın ilk öncə ikiüzlü, qeyri-səmimi din adamlarını, dindar cildinə girib xalqı aldadanları özlərinin bu əməllərindən əl çəkməyə, Allaha iman gətirməyə dəvət etdiyi aydın olur. Allah Qur'anda belə bildirir:

**"İsa aşkar möcüzələrlə gəldiyi zaman dedi: "Həqiqətən, mən sizə hikmətlə, həm də ixtilafda olduğunuz bəzi şeyləri izah etmək üçün gəlmişəm. Allahdan qorxun və mənə itaət edin!" ("Zuxruf" surəsi, 63).**

Hz.İsa da bütün peyğəmbərlər kimi əxlaqi tənəzzülü və dinsizliyi hədəf seçdi, insanların yol verdiyi bütün ədalətsizlikləri, haqsızlıqları, əxlaqsızlıqları və batil dinlərini tərk etmələrini, Allahın istədiyi əxlaqla və ancaq Allahın razılığını qazanmaq üçün yaşamalarını istədi.

Hz.İsa insanlara Allah qorxusunu, Allahı sevməyi, Allaha təslim olmağı nəsihət edir, onların batil qaydalardan, mənasız ənənələrdən uzaqlaşmalarını, yalnız Allaha ibadət edib etdikləri hər işdə Allaha üz tutmalarını əmr edirdi.

Göstərdiyi möcüzələr isə onun Allahın seçib bəyəndiyi, elm və qüdrəti ilə dəstəklədiyi çox qiymətli bir elçisi olduğunu açıq şəkildə göstərir. Onun iman dərinliyi, yüksək əxlaqı, üstün idrak qabiliyyəti və hikmətli açıqlamaları insanlarda böyük heyranlığa səbəb olurdu.

Hz.İsa ona qarşı qurulan bütün hiylələrə, ona atılan böhtanlara və ona edilən hücumlara qarşı çox üstün səbr göstərdi, Allaha təvəkkül edib təbliğinə davam etdi. Bu vaxt isə yanında çox az köməkçisi var idi. O, dini öz əslinə qaytarmaq, onu xurafatlardan və batil metodlardan təmizləmək üçün böyük səylər göstərdi. Rəbbimizin ona bəxş etdiyi üstün qavrayış və hikmət sayəsində İsrail oğullarına çox təsirli sözlər dedi və hikmətli misallar verdi.

Hz.İsa Tövratı təsdiq etmiş, Allahın insanlara bir rəhbər və nəsihət üçün göndərdiyi İncillə hökm etmişdi:

> **"Onların ardınca Məryəm oğlu İsanı özündən qabaqkı Tövratı təsdiq edən kimi göndərdik. Ona içində haqq yol və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol və nəsihət olan İncili verdik. İncil əhli Allahın onda nazil etdiyi (ehkam) ilə hökm etsin. Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, günahkarlardır" ("Maidə" surəsi, 46-47).**

Hz.İsanın bu dəvətinə cavab verənlərin sayı ilk öncə çox az idi. Çünki bu çağırış həm güzəranını mövhumat, xurafatlar və ənənələr hesabına təmin edən rahib təbəqəsinin, həm də Allahın hakimiyyətini qəbul etməyən dövlət adamlarının imtiyazlarını aradan qaldırırdı. Hz.İsanın təbliği yayılmağa, onun ardınca gedənlərin sayı çoxalmağa başlayanda onların qurduqları tələlər də, Hz.İsaya mane olmaq üçün hazırladıqları planlar da çoxaldı. Tarix boyunca bütün peyğəmbərlər bu cür tələlərə məruz qalıblar. Müşriklərin elçilərə münasibətdə göstərdiyi bu qeyri-insani davranışlar Qur'anda belə bildirilir:

**"...Hər dəfə ürəyinizə yatmayan bir əmrlə gələn peyğəmbərə təkəbbür göstərmirdinizmi? Məhz buna görə də onların bir qismini təkzib etdiniz, bir qismini isə öldürdünüz" ("Bəqərə" surəsi, 87).**

Cəmiyyətdə Hz.İsaya qulaq asıb ona inananlarla onu inkar edənlər ayrılmağa başlamış, iki qrup arasındakı fərqlər aydın şəkildə ortaya çıxmışdı. Bir tərəfdə həqiqi dinə dəvət edən və insanları Allaha iman gətirməyə çağıran Allahın elçisi, digər tərəfdə isə hansı möcüzəni, hansı dəlili görsə də inanmamağa qərar verən bir qrup var idi. Hz.İsanın düşmənləri özlərini açıq şəkildə büruzə verirdilər. Ona tabe olan, yanından ayrılmayan insanlardan da sonralar onu inkar edənlər olub. Allah bu vəziyyəti bizə "Onların içərisindən çıxan firqələr arasında ixtilaf düşdü..." ("Zuxruf" surəsi, 65) ayəsi ilə xəbər verir. Buna görə də Hz.İsa öz qövmünün arasından iman gətirən və etibar edə biləcəyi adamları seçib müəyyənləşdirmişdi. Bu məsələ Qur'anda belə bildirilir:

**"İsa onların küfrünü hiss etdikdə: "Allah yolunda kim mənim köməkçim olacaqdır?!" - deyə soruşdu. Həvarilər dedilər: "Bizik Allahın köməkçiləri! Biz Allaha inandıq. Sən də təslim olduğumuza şahid ol!"" ("Ali-İmran" surəsi, 52).**

Qur'anda inkarçıların Hz.İsanı öldürmək məqsədilə tələ qurduqları xəbər verilir. İncilə görə, Hz.İsanın yanındakı adamlardan birinin xəyanət etməsinə nail olan bəzi qudurğan din adamları Allahın elçisini tutdurub romalılara vermək istəyirdilər. Yenə eyni mənbəyə görə, ölüm cəzasını tətbiq etməyə səlahiyyətləri çatmayan rahiblər Romanın dövlət adamlarını qızışdırmaq üçün bir plan hazırlamışdılar. Onlar romalıların bu məsələdə çox həssas və mərhəmətsiz olduğunu bildikləri üçün Hz.İsanı romalı idarəçilərə qarşı çıxan bir şəxs kimi tanıtmışdılar. Bu məkrli planın nəticəsi Qur'anda belə bildirilir:

**"Onlar hiyləyə əl atdılar. Allah da onların hiyləsinə əvəz verdi. Allah hiyləgərlərdən tədbirlidir" ("Ali-İmran" surəsi, 54).**

Ayələrdə də bildirildiyi kimi, inkarçılar Hz.İsanı öldürmək üçün fəaliyyətə başlamış və hər cür hiyləyə əl atmışdılar. Ancaq bu adamlar Hz.İsanı öldürə bilmədilər, onun bir oxşarını Hz.İsa zənn edərək öldürdülər. Allah Hz.İsanı Öz dərgahına yüksəldərək hazırlanan məkrli planları alt-üst etdi. Halbuki romalıların Hz.İsanı çarmıxa çəkərək öldürdükləri inamı xristianlığın əsasını təşkil edir. Bu səhv inanca görə, Hz.İsanı tutan romalılar və yəhudi din adamları ona çarmıxa çəkib və beləliklə, onu öldürüblər. Xristianların əksəriyyəti hadisənin bu cür baş verdiyini qəbul edir, ancaq onlar çarmıxa çəkilərək öldürülən Hz.İsanın yenidən dirilərək göyə yüksəldiyinə inanırlar. Ancaq Qur'ana nəzər yetirəndə hadisənin əslinin belə olmadığını görürük:

**"Və: "Biz, Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük", - dediklərinə görə onlara belə cəza verdik. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara yalnız oxşarı göstərildi. Bu haqlı ixtilafda olanlar onun barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu öldürməmişlər" ("Nisa" surəsi, 157).**

Həmin ayənin axırında Hz.İsanın vəziyyəti belə bildirilir:

**"Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır (rəfəa). Şübhəsiz, Allah qüvvət, hikmət sahibidir!" ("Nisa" surəsi, 158).**

Ayədə bildirilən həqiqət birmənalıdır. Yəhudilərin qızışdırması nəticəsində Hz.İsanı öldürməyə çalışan romalılar buna nail ola bilməyiblər. Ayədə qeyd edilən "**...Onlara yalnız oxşarı göstərildi...**" ifadəsi bu məsələni açıq-aşkar xəbər

verir. Allah insanlara Hz.İsanın oxşarını göstərmiş və Hz.İsanı da Öz dərgahına yüksəltmişdir. Bundan başqa, Rəbbimiz bu iddiada olanların həqiqətlə bağlı bir məlumatlarının olmadığını da bildirir (Daha müfəssəl məlumat almaq üçün Harun Yəhyanın *"Hz.İsa ölməyib"* adlı kitabına baxa bilərsiniz).

Hz.İsanın çarmıxa çəkilməsi məsələsi ilə bağlı ilk dövrlərdə müxtəlif fikirlər ortaya atılmışdı. Bəzi xristian məzhəblərinin eynilə Qur'anda bildirildiyi kimi, Hz.İsanın çarmıxa çəkilmədiyinə inandıqları məlumdur.

Hz.İsanın Qur'an ayələrində bəhs edilən həyatından, təbliğindən, dualarından onun Allahın peyğəmbəri olduğu bütün aydınlığı ilə görünür. Hz.İsa Allahın insanları xəbərdar etmək üçün göndərdiyi hidayət rəhbəridir. Həmçinin "Məryəm" surəsində qeyd edilən **"İsa dedi: "Mən həqiqətən Allahın quluyam. O, mənə kitab verdi, özümü də peyğəmbər etdi""** ("Məryəm" surəsi, 30) şəklindəki ayə bu məsələni də açıq-aşkar göstərir. "Səff" surəsində belə bildirilir:

> **"Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: "Ey İsrail oğulları! Həqiqətən, mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə (sizə) müYdə verən Allahın elçisiyəm!" Lakin o, aşkar möcüzələrlə gəldikdə onlar: "Bu, açıq-aydın sehrdir!" - dedilər" ("Səff" surəsi, 6).**

Başqa bir Qur'an ayəsində isə belə deyilir:

> **"Heç bir kəsə yaraşmaz ki, Allah ona kitab, hikmət və peyğəmbərlik bəxş etdikdən sonra o, insanlara: "Allahı buraxıb mənə qul olun!" - desin. Əksinə, o: "Öyrətdiyiniz kitabın və öyrəndiyiniz şeyin sayəsində rəbbani (mükəmməl elm və əməl, gözəl əxlaq və itaət sahibi) olun!" - deyər" ("Ali-İmran" surəsi, 79).**

Hz.İsanın ölmədiyi və öldürülmədiyi, Allahın dərgahına yüksəldildiyi və yer üzünə ikinci dəfə gələcəyi Qur'an

ayələrində və Peyğəmbərimizin (s.ə.v.) hədislərində çox açıq şəkildə bildirilib. Allah Rəsulunun (s.ə.v.) hədislərində Hz.İsanın gəlişi ilə bağlı çoxlu əlamət bildirib.

# İNCİLDƏKİ HƏQİQİ XRİSTİANLIQ

İncildə üçləmə (təslis) etiqadına əsaslanmayan, əksinə, Allaha bir və tək olaraq iman gətirməyi əsas götürən tövhid inamını müdafiə edən çoxlu açıqlamalar var. Həmçinin üçləmə inamını qəbul etməyən qruplar da tarix boyunca bu məsələyə diqqəti cəlb edərək üçləməni müdafiə edənlərin dəlilsiz olduqlarını ifadə ediblər.

Üçləmə etiqadı Hz.İsaya Allahla eyni status verdiyi halda (bundan Allaha sığınırıq) İncil açıqlamalarında Allahın birliyi, Onun hər şeyin üzərində sonsuz hakimiyyətinin olması çox ətraflı şəkildə tərif edilir. Həm Hz.İsanın xalqı və tələbələri arasında apardığı təbliğdə, həm də həvarilərin sözlərində insanlar həmişə tövhid inamına çağırılırlar. **Hz.İsa hər etdiyini həqiqətən Allahın sonsuz güc və qüdrəti ilə etdiyini, hər söylədiyinin Allahın ona söylətdiyini, möcüzələri Allahın istəyi ilə həyata keçirdiyini davamlı olaraq dilə gətirir**, özünü öyüb yüksəldən insanları Allahı öyüb yüksəltməyə, Allahın sonsuz gücünü xatırlamağa və Ona təslim olmağa dəvət edir. Bu mövzudan sonrakı səhifələrdə ətraflı bəhs edəcəyik.

Hz.İsanın necə təbliğat apardığını göstərən çoxlu Qur'an ayəsi var. "Maidə" surəsində bu məsələ ilə bağlı belə buyrulur:

> **"Xatırla ki, o zaman Allah belə buyuracaq: "Ya Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahla yanaşı, məni və anamı da özünüzə tanrı bilin!" - demişdin?" (İsa cavabında) deyəcək: "Sən pak və müqəddəssən! Haqqım çatmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu mən demiş olsaydım, Sən onu mütləq bilərdin. Sən mənim ürəyimdə olan hər şeyi bilirsən,**

**mən isə Sənin zatında olanı bilmirəm. Şübhəsiz ki, qeybləri bilən ancaq Sənsən! Mən onlara yalnız Sənin mənə etdiyin əmri çatdırıb belə demişəm: "Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin!" Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim. Sən məni qəbul etdikdən sonra onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahid sən! Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət, hikmət sahibisən!"" ("Maidə" surəsi, 116-118).**

Ayələrdə də bildirildiyi kimi, Hz.İsa insanları yalnız Allaha iman gətirib Onun üçün yaşamağa dəvət etmişdir. Tövhid inamı eynilə İslam dinində olduğu kimi "həqiqi xristianlığ"ın da əsasını təşkil edir (Buradakı hissədə İncildən sitat verəcəyimiz ifadələrdə "ata" sözü "Allah" və ya "Rəbb", "oğul" ifadəsi "peyğəmbər-elçi", Hz.İsa üçün işlədilən "Rəbb" sifəti isə "müəllim" şəklində dəyişdirilib).

## Əhdi-Ətiqdə tövhid etiqadı

Hz.İsanın Allah dərgahına yüksəldilməsindən 30-40 il sonra ortaya çıxan batil "Allahın oğlu" ifadəsi zaman ötdükcə insanlar arasında geniş yayıldı. Ancaq bu məfhumun nəyi ifadə etməsi uzun müddət qeyri-müəyyən olaraq qaldı. Bəziləri bu ifadəni Hz.İsanın sadəcə Allah dərgahındakı mötəbər yerini ifadə edən məcazi ifadə kimi izah etdilər və Allahın birliyinə inanmağa çağırdılar. Digərləri isə bu ifadəyə əsaslanaraq Hz.İsanı "tanrılaşdırdılar" və onu özlərinə "Oğul Tanrı" saydılar.

Məlum olduğu kimi, Hz.İsa İsrail oğulları nəslindəndir və təbliğini də İsrail oğullarına çatdırdı. İsrail oğulları, yəni yəhudilər Hz.İsa gələndə iki min il idi ki, bir və tək olan Allaha iman gətirən bir xalq idi. Rəbbimiz Öz vəhyini

yəhudilərə Hz.İbrahimlə başlayan və sonra da bir-birinin ardınca gələn çox sayda peyğəmbərlər vasitəsilə çatdırmışdı. Elçiləri onları bu vəhyə qüsursuz şəkildə tabe olmaları üçün xəbərdar etmişdilər. Yəhudilər Allahın Qur'anda bildirilən ifadə ilə desək, "**Onda haqq yol və nur vardır**" deyə göndərdiyi Tövratı ("Maidə" surəsi, 44) Hz.Musadan bu yana tanıyıb bilirdilər.

Hz.İsa isə xristianların da qəbul etdiyi kimi, Tövratı təsdiq edən peyğəmbər olaraq gəlmişdi. Tövratda və Əhdi-Ətiqin başqa kitablarında Hz.İsanın gələcəyinə işarə edən müYdəli xəbərlər vardı.

Bu həqiqət İznik məclisində səs çoxluğu ilə qəbul edilən üçləmə etiqadının nə qədər böyük bir səhv olduğunu ortaya qoyurdu. Çünki **haqqında danışılan üçləmə inancından nə Tövratın, nə də Əhdi-Ətiqi təşkil edən başqa kitabların hər hansı bir yerində bəhs edilmirdi. İsrail peyğəmbərləri xalqlarını iki min il boyunca bir və tək olan Allaha iman gətirməyə dəvət etmişlər, amma onların üçləmə etiqadına işarə edən çox kiçik bir açıqlamaları da olmayıb.** Nə Hz.İbrahimdən, nə Hz.Musadan, nə də başqa peyğəmbərdən belə bir açıqlama eşidilməyib. Onların hamısının öyrətdiyi dinin bir əsası vardı: Allahı bir olaraq tanımaq və Ondan başqa Tanrı qəbul etməmək. Yəhudilərin ən çox təkrar etdikləri Tövrat cümlələrində belə deyilirdi: "**Qulaq as, ey İsrail! Allahımız Rəbb bir olan Rəbbdir**" ("Təsniyə", 6/4).

Əhdi-Ətiqin başqa ayələrində də eyni həqiqət vurğulanır: "**Rəbb Özü Allahdır, Ondan başqası yoxdur...** Bu gün bil və ürəyinə qoy ki, yuxarıda göylərdə və aşağıda yerdə Rəbb O Allahdır, başqa yoxdur" ("Təsniyə", 4/35-39).

"**...Məndən əvvəl Allah olmadı və Məndən sonra da olmayacaq. Mən Rəbbəm və Məndən başqa xilaskar yoxdur...**" ("İşaya", 43/10-11).

"Çünki göyləri yaradan Rəbb dünyaya şəkil verən və onu yaradan, onu gücləndirən və onu əbəs yerə yaratmayan, üstündə yaşamağı əlverişli hala gətirən Allah belə deyir: "**Rəbb Mənəm və başqası yoxdur**"" ("İşaya", 45/18).

"Və Məndən başqa Allah, haqq Allah və Xilaskar yoxdur. Məndən başqası yoxdur" ("İşaya", 45/22).

"**...Allahımız Rəbb bir olan Rəbbdir** və Allahın Rəbbi bütün ürəyinlə, bütün canınla və bütün gücünlə sevəcəksən" ("Təsniyə", 6/4-5).

Yuxarıdakı Tövrat cümlələrindən də göründüyü kimi, Rəbbimizin sonsuz gücü və qüdrəti, Onun bütün kainatın yeganə sahibi olması yəhudiliyini təməl həqiqətidir.

Əhdi-Ətiqi oxuyan hər bir adam oradakı bütün kitablarda bir olan Tanrıdan, aləmlərin Rəbbi olan Allahdan bəhs edildiyini aydın şəkildə görür. Əhdi-Ətiqdə üçləmədən bircə dəfə də olsa bəhs edilməməsi çox böyük mənaya malikdir. Bu mənanın aşkar nəticəsi üçləmənin səmavi dinə sonradan daxil olmuş batil bir etiqad olmasıdır.

## İncildə "Allaha bir və tək olaraq iman gətirmək" əsasdır

Qur'anda Hz.İsanın yəhudilərə bu cür təbliğat apardığı bildirilir:

**"...Ey İsrail oğulları! Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin..." ("Maidə" surəsi, 72).**

Hz.İsanın insanları tövhidə çağıran ifadələri təhrifə məruz qalan Əhdi-Cədidin İncillərində hazırda da mövcuddur. Məsələn, Mark İncilinə görə, Hz.İsa onun yanına gələrək "Bütün əmrlərin ən əhəmiyyətlisi hansıdır?" deyə soruşan yəhudi din aliminə belə cavab verib:

"Əmrlərin ən birincisi: "**Dinlə, ey İsrail! Allahımız Rəbb bir olan Rəbdir.** Və Allahın olan Rəbbi bütün

ürəyinlə, bütün canınla, bütün düşüncənlə və bütün qüvvətinlə sev"" ("Mark İncili", 12/29-30).

Yenə Mark İncilində yer alan aşağıdakı ayədə isə Hz.İsanın onun tanrılaşdırılması hələ bir tərəfə dursun, hətta tariflənməsinə də mane olduğunu göstərir:

"İsa yola çıxarkən bir nəfər onun yanına qaçdı və qarşısında diz çöküb Ondan soruşdu: "Yaxşı müəllim, əbədi həyatı miras almaq üçün nə etməliyəm?" İsa da ona dedi: "Nə üçün məni yaxşı adlandırırsan? **Allahdan başqa kimsə yaxşı deyildir**"" ("Mark İncili", 10/17-18).

Əslində təkcə bu ayə üçləmənin həqiqi xristianlığa zidd bir inam olduğunu göstərməyə kifayət edir. Hz.İsa özünün təriflənməsini qəbul etməyərək tərifə layiq olanın yalnız Allah olduğunu vurğulayır və özünün Allahın bir bəndəsi olduğunu çox aydın şəkildə ifadə edir.

Hz.İsanın İsrail oğullarına çatdırdığı həqiqət bəşər tarixinin başlanğıcından etibarən bütün peyğəmbərlərin izah etdiyi həqiqətdir: Rəbbimiz hər şeyi yoxdan ərsəyə gətirən, onları ən gözəl şəkildə və qüsursuz surətdə yaradan, çox böyük və üstün olan, hər şeyin daxilində olanları və gizli tərəflərini bilən, əzəli və əbədi olan, doğmayan və doğulmayan, hər cür qüsurlardan uzaq, şanı böyük olan, hökm edən, kərəmi bol olan, mərhəmətli və bağışlayan Uca Allahdır. Göylərdə və yerdə olanların hamısı yalnız Allaha təslim olub.

Həmçinin **Əhdi-Cədiddə də "Allahın bir olması" imanın çox vacib şərti kimi qeyd edilib. Hər cür çoxtanrılı, üçtanrılı etiqadlar yaxud da hər cür bütpərəstlik Tövratda olduğu kimi İncildə də - həm dörd İncildə, həm də elçilərin yazı və məktublarında - sərt şəkildə tənqid edilib qınanır.** Əksər Allahdan başqa tanrıları qəbul edənlər bir çox İncil ayələrində tövhid inamına dəvət edilirlər. Bu açıqlamalardan bəziləri belədir:

"İsa ona dedi: "**Allahımız Rəbb bir olan Rəbdir"...** Din alimi ona dedi: "Lap yaxşı, Müəllim! Doğru dedin ki, Allah birdir, Ondan başqası yoxdur"" ("Mark İncili", 12/29-32).

"**...Allah birdir**" ("Qalatiyalılara məktub", 3/20).

"Və fani olmayan Allahın izzətini, fani olan insana, quşlara, dördayaqlılara və yerdə sürünənlərə bənzəyən bütlərlə əvəz etdilər... **Onlar Allahın həqiqətini yalanla dəyişdirdilər və Yaradanın əvəzinə yaradılana pərəstiş və ibadət etdilər.** Halbuki Allah sonsuza kimi təriflənməyə layiqdir" ("Pavelin romalılara məktubu", 1/23-25).

"**...Bizim tək bir Allahımız vardır. Hər şey Ondandır və biz Onun üçün yaşayırıq...**" ("Korinflilərə I məktub", 8/6).

"**...Bilirik ki, büt dünyada əslində heç bir şeydir və bir olan Allahdan başqası yoxdur**" ("Korinflilərə I məktub", 8/4).

"Sonsuz əsrlərin hökmdarı, ölməz, görünməz və bir olan Allaha əbədi olaraq hörmət və izzət olsun" ("Timoteyə I məktub", 1/17).

"**Tək bir Allah var...**" ("Timoteyə I məktub", 2/5).

"**İman edirsənmi ki, Allah birdir?** Yaxşı edirsən..." ("Yaqubun məktubu", 2/19).

"**Xilaskarımız tək bir Allaha izzət olsun...**" ("Yəhudanın məktubu", 24).

"Siz bir-birinizdən izzət qəbul edib **bir olan Allahdan** gələn izzəti axtarmadığınız bir halda, necə iman edə bilərsiniz?" ("Yəhya İncili", 5/44).

"**Allahın yanında qeyri-mümkün bir şey yoxdur**" ("Luka İncili", 1/37).

Burada İncildən qısaca şəkildə qeyd etdiyimiz ayələrdən başqa da Allahı bir və tək olaraq tərif edən çoxsaylı açıqlamalar mövcuddur. Bu məsələ ilə bağlı başqa bir nü-

munə isə Hz.İsanın tələbələrinin apardığı təbliğatdır. Hz.İsanın Allah dərgahına yüksədilməsindən sonra xristianlar kəndbəkənd, qəsəbə-qəsəbə gəzərək insanlara Hz.İsanın sözlərini çatdırıb və onları Allaha təslim olmağa dəvət etmişlər. Onların təbliğat apardıqları insanları Allaha bir və tək olaraq iman gətirən xristianlar olmağa çağırmaları İncildə belə bildirilir:

> "Lakin həvarilər Barnaba və Pavel bunu eşitdikdə paltarlarını cırdılar və xalqın ortasına atılıb qışqıraraq dedilər: "Ərlər! Bunları niyə edirsiniz? **Biz də, fitrətləri sizə bənzəyən insanlarıq və sizə müYdə gətirdik ki, siz bu boş şeylərdən...göyü, yeri, dənizi və onların içindəki hər şeyi yaradan Allaha tərəf dönəsiniz. Bununla bərabər göydən bizə yağmurlar və səmərəli mövsümlər verərək, ürəklərimizi qida və sevinclə doldurub, yaxşılıq edərək Özünü şahidsiz qoymamışdır""** ("Həvarilərin işləri", 14/14-17).
>
> "Dünyanı və onun içində olan bütün şeyləri yaradan Allah, göy və yerin Rəbbi olduğundan, əl ilə tikilmiş məbədlərdə yaşamaz. **Madam ki, hamıya həyat, nəfəs və hər şeyi verən Özüdür, bir şeyə möhtac imiş kimi, insanların əlləri ilə Ona xidmət oluna bilməz. O, bütün xalqlardan olan insanları bir insandan yaratdı ki, bütün yer üzündə yaşasınlar.** Onların qabaqcadan müəyyən edilmiş vaxtlarını və yaşadıqları yerlərin sərhədlərini təyin etdi ki, Allahı axtarsınlar... O heç birimizdən uzaq deyil. Çünki biz Onunla yaşayırıq, hərəkət edirik və varıq..." ("Həvarilərin işləri", 17/24-28).

## Allah sonsuz güc və qüdrət sahibidir

Təslis inancına görə, Hz.İsa yaradılmayıb, o, əzəldən bəri mövcuddur və Allahla eyni gücə, səlahiyyətə malikdir (bu ifadədən Allaha sığınırıq). Halbuki bu, çox böyük bir

səhvdir. Hal-hazırda üçləməyə inananlar Hz.İsanın onları xilas edib qurtaracağına, dualarını qəbul edəcəyinə, onun sayəsində bütün günahlarından xilas olduqlarına inanırlar (Kəffarə məsələsi ilə bağlı yanlışlıq sonrakı səhifələrdə ətraflı şəkildə araşdırılacaq). Bu səhv inam Qur'an ayələrində bildirilən çox böyük yanlışlıqdır. Həmçinin İncildə də bu inam heç cürə dəstəklənmir, əksinə, təkzib edilir.

Ancaq İncildən bəzi ayələr bu səhv inanca dəlil kimi təqdim edilir. Bu dəlillərin başında isə Hz.İsanın göstərdiyi möcüzələr gəlir. Halbuki Hz.İsanın insanlara çoxlu möcüzə göstərməsi onu tanrılaşdıran etiqada dəlil ola bilməz. Bu möcüzələr Qur'anda da bildirilən aşkar bir həqiqətdir. Hz.İsanın dünyaya atasız gəlməsi, beşikdə olarkən danışması, korları, cüzam xəstələrini sağaltması kimi həyatı boyunca göstərdiyi çoxlu möcüzəsi olub. Ancaq bu möcüzələr sonsuz güc və qüdrət sahibi olan, bütün kainatın hakimi olan Rəbbimizin mərhəməti ilə həyata keçib. Allah Hz.İsadan başqa Hz.Musaya, Hz.Süleymana, Hz.İbrahimə, Hz.Zəkəriyyaya, Peyğəmbərimiz Hz.Muhəmmədə (s.ə.v.) və daha bir çox peyğəmbərə də möcüzələrlə kömək edib. Ancaq üçləmə etiqadının tərəfdarları bu möcüzələri dəlil kimi göstərərək Hz.İsanın "tanrı" olduğunu iddia edirlər. Halbuki digərləri kimi bu fikir də İncildə mövcud olan fikirlərlə ziddiyyət təşkil edən iddiadır.

Sonrakı hissələrdə daha ətraflı şəkildə qeyd edəcəyimiz kimi, Hz.İsa öz çıxışlarında Allahın şanını həmişə ucaldıb, ***"Allah mənə necə əmr edirsə, elə də icra edirəm"*** ("Yəhya", 14/31); ***"Mən sizə söylədiyim sözləri özümdən söyləmirəm"*** ("Yəhya", 14/10) və ***"Sizə doğrusunu, doğrusunu deyirəm: elçi özündən bir şey edə bilməz"*** ("Yəhya", 5/19) kimi ifadələrlə bütün gücün Allaha məxsus olduğunu bildirib.

Allahın sonsuz güc və qüdrətinin ifadə edildiyi bəzi İncil ayələri isə belədir:

"**Çünki hər şey Ondan, Onun vasitəsi ilə və Onun üçün davam edir.** Ona əbədi izzət olsun!" ("Pavelin romalılara məktubu", 11/36).
"Məgər beş sərçə iki assariyə satılmırmı? **Və Allahın yanında onların heç biri unudulmamışdır? Sizin başınızdakı saçların hamısı da belə sayılmışdır...**" ("Luka İncili", 12/6-7).
"İsa onlara baxıb, dedi: "**İnsanlar üçün bu qeyri-mümkündür, Allah üçün isə hər şey mümkündür**"" ("Matta İncili", 19/26).
"**...O hər şeyin üzərində əbədi olaraq təriflənəcək mübarək Allahdır**" ("Pavelin romalılara məktubu", 9/5).
"**Allahın zənginliyi, hikməti və elmi nə dərindir...**" ("Pavelin romalılara məktubu", 11/33).
"**Allahdan qorxun! Ona izzət verin! Çünki Onun hökmünün vaxtı gəldi. Göyü, yeri, dənizi və su bulaqlarını Yaradana səcdə edin**" ("Vəhy", 14/7).
"**...Gücü hər şeyə çatan Rəbb Allah, Sənin məllərin böyük və xariqüladədir. Ey millətlərin Hökmdarı. Sənin yolların doğru və həqiqidir. Ya Rəbb! Kim Səndən qorxmayacaq və Sənin adını izzətləndirməyəcəkdir? Çünki yalnız Sən müqəddəssən. Bütün xalqlar gələcək və Sənin önündə səcdə edəcəklər. Çünki Sənin adil işlərin izhar olundu**" ("Vəhy", 15/3-4).
"**...Hər şey Allahdandır**" ("Pavelin korinflilərə I məktub", 11/12).
"**...Xilas, izzət, hörmət və qüdrət Allahımızındır! Çünki Onun hökmləri həqiqi və adildir... Çünki gücü hər şeyə çatan Rəbb Tanrımız səltənət sürür**" ("Vəhy", 19/1-6).

"**...Allah tərəfindən olmayan hakimiyyət yoxdur, mövcud olanlar da Allah tərəfindən qurulmuşdur**" ("Pavelin romalılara məktubu", 13/1).

"**Mübarək və tək Hökmdar, şahların Şahı və rəblərin Rəbbi, ölməzliyə yeganə malik olan, əlçatmaz nurda yaşayan, insanlardan kimsənin görmədiyi və görməyə qadir olmadığı Allah Məsihin zühurunu vaxtında gerrçəkləşdirəcəkdir. Allaha hörmət və əbədi qüdrət olsun**" ("Pavelin Timoteyə I məktubu", 6/15-16).

"Ehtiyatlı olun, insanlara özünüzü göstərmək üçün yaxşılıq etməyin; yoxsa göylərdəki Rəbbinizdən mükafat almazsınız. ...Sən isə dua etdiyin zaman öz otağına gir və qapını bağlayaraq, gizlində olan Rəbbinə dua et, gizlini görən Rəbbiniz sizi mükafatlandıracaqdır. Dua etdiyiniz zaman bütpərəstlər kimi boş sözlər söyləməyin; zira onlar sanırlar ki, çox danışmaqla eşidiləcəklər. Onlara bənzəməyin; **çünki Rəbbiniz sizin nələrə ehtiyacınız olduğunu siz Ondan diləməzdən əvvəl bilir.** ...Və bizi imtahana çəkmə. Lakin bizi şərdən (yaxud, şeytandan) xilas et. **Çünki səltənət, qüdrət və izzət əbədi olaraq Sənindir**" ("Matta İncili", 6/5-8, 13).

İncildə bildirilən bu həqiqətlər Qur'anda bəhs edilənlərlə uzlaşır. Bunlar bəşər tarixindən etibarən bütün peyğəmbərlərin öyrətdiyi mütləq həqiqətlərdir: zamanı, məkanı, insanı, bütün aləmləri və varlıqları Allah yaradıb. Rəbbimiz hər cür qüsur və nöqsandan uzaqdır. O, Uca və Üstün olandır. Hər bir hadisə Rəbbimizin icazəsi və təqdiri ilə həyata keçir. Qur'anda bildirilən ifadə ilə desək, Allah istəməsə yer üzündə bircə yarpaq da budaqdan düşməz, heç bir dişi canlı hamilə qalmaz və heç bir canlı Ondan xəbərsiz doğa bilməz. Allah gizli olanı da, aşkar olanı da biləndir və hər şeyə gücü çatandır. Allah istədiyini etməyə qadirdir, sonsuz güc və qüdrət sahibidir. Bir şeyin olmasını istəyən-

də ona ancaq "Ol!" deməsi kifayət edir. Onun dərgahında heç bir şey imkansız deyil. Kainatdakı bütün iqtidar və qüdrətin yeganə sahibi Allahdır.

Allahın bütün kainatdakı mütləq hakimiyyəti İncildə çox aydın ifadələrlə qeyd edilib. İnsanlara bütün güc və səlahiyyətləri verən gücün aləmlərin Rəbbi olan Allah olduğu müxtəlif nümunələrlə açıqlanıb. Yer üzündəki bütün hadisələri meydana gətirən, bütün varlıqlara həyat verən güc sahibi də Uca Rəbbimizdir.

**"Bədəni öldürüb canı öldürə bilməyənlərdən də qorxmayın; ancaq daha artıq cəhənnəmdə həm bədəni, həm canı həlak etməyə qadir Olandan (yəni, Allahdan) qorxun. Məgər iki sərçə bir assariyə (xırda pul) satılmırmı? Və Rəbbinizin hökmü olmadıqda, onlardan heç biri yerə düşməz" ("Matta İncili", 10/28-29)**

**"İnsan özünə göydən verilmədiyi halda, heç bir şey ala bilməz"** ("Yəhya İncili", 3/27).

"...Sizə göydən çörəyi Musa vermədi, **sizə göydən həqiqi çörəyi verən Rəbbimdir"** ("Yəhya İncili", 6/32).

"Onlar sizi ələ verdikləri zaman, necə və ya nə deyəcəyinizin qayğısına qalmayın; çünki nə söyləyəcəyiniz o anda sizə bildiriləcəkdir. **Çünki söyləyən siz olmayacaqsınız, Rəbbinizin Ruhu sizin vasitənizlə danışacaqdır"** ("Matta İncili", 10/19-20).

**"Xilaskarımız Allah sizi büdrəməkdən qorumağa, Öz izzətinin hüzuruna böyük sevinclə ləkəsiz çıxarmağa qadirdir..."** ("Yəhudanın məktubu", 24-25).

"Həmin günü və saatı, nə göydəki mələklər, nə də elçi bilir. **Allahdan başqa heç kim bilməz"** ("Matta İncili", 24/36).

**"Ölməzliyə yeganə malik olan Odur... İnsanlardan kimsə nə Onu görən olmuşdur, nə də görə bilər..."** ("Timoteyə I məktub", 6/16).

"Biz daxilən ölüm hökmünü hiss etdik ki, özümüzə deyil, **ölüləri dirildən Allaha** bel bağlayaq" ("Korinflilərə II məktub", 1/9).

Bütün bu Əhdi-Cədid ayələri həqiqi xristianlıqda Allaha səmimi və daxildən gələn bir imanın olmasını aydın şəkildə göstərir. Ancaq bu doğru inancların yanına üçləmə kimi batil bir etiqad əlavə edilib və bu da xristianlığın təhrif olunmasına gətirib çıxarıb.

# İNCİLDƏ TANIDILAN
# "ALLAHIN PEYĞƏMBƏRİ HZ.İSA"

Xristianlıq müxtəlif məzhəblərə, bu məzhəblər də öz aralarında müxtəlif qollara ayrılır. İncili fərqli şəkillərdə izah edən, müxtəlif tətbiq metodlarına malik olan cürbəcür dini cərəyanlar, kilsələr mövcuddur. Ancaq bu fərqli qolların əksəriyyətinin yekdilliklə qəbul etdiyi iman əsası "üçləmə"dir.

Tarix boyunca üçləmə inancını rədd edən müxtəlif cərəyanlar ortaya çıxıb. Lakin bu cərəyanların böyüyüb güclənməsi çoxluq təşkil edən üçləmə müdafiəçiləri tərəfindən əngəllənib. Bu cərəyanlar dərhal "azğın" və "batil" adlandırılıb, təzyiqlərə məruz qalıblar və onların qarşısı hər vasitə ilə alınıb. Kitabın sonrakı hissələrində də oxuyacağınız kimi, azlıq təşkil edən bəzi qruplar istisna olmaqla üçləmə inancı xristian dünyasında ümumən qəbul olunub və ya zorla qəbul etdirilib.

Kitabın əvvəlindən etibarən qeyd etdiyimiz kimi, **üçləmə inancı Qur'ana tamamilə zidd bir inancdır və İncildə də mövcud olan açıqlamalar Hz.İsanın həyatının heç bir anında belə bir iddiasının olmadığını, belə bir şeyə dolayısı ilə də olsa işarə etmədiyini, hətta bu kimi səylərin qarşısını şəxsən aldığını, hər sözündə Allahı təriflədiyini və ucaltdığını göstərir.** Müasir dövrdə üçləmə inancına əks tərəfdə olan qrupların üstündə dayandıqları məsələlərdən biri də əslində budur: Hz.İsanın bəşər olması.

## Hz.İsanın həyatı üçləmə iddiasını təkzib edir

İncildə Hz.İsanın həyatı və bu qiymətli elçinin təbliği ilə bağlı qeyd edilən məlumatlar və Hz.İsanın hikmətli nəsihətləri üçləmə etiqadı səbəbi ilə əsrlərdir ki, qulaqardına vurulur. Üçləmə inancı beyinləri o qədər qarışdırıb ki, bunun nəticəsində Hz.İsa tanrılaşdırılır və o, ondan kömək umulacaq səviyyəyə qaldırılır.

Qur'ana görə, Hz.İsa Allahın insanlara xəbərdarlıq edən və onları qorxudan kimi göndərdiyi, anadan olmasından Öz dərgahına yüksədilməsinə kimi həyatının hər anında bənzərsiz möcüzələr yaradaraq kömək etdiyi mübarək bir peyğəmbərdir. Onun anadan olması Allahdan çox böyük möcüzədir. Ancaq anadan olmasından sonra o da bütün insanlar kimi bir həyat yaşayıb. Hz.İsa da başqa insanlar kimi Allahın "Ol" deməsi ilə yaradılıb və o, Allah qarşısında acizliyini bilən, Allaha möhtac olan bir bəşərdir. Həm Qur'an ayələrində, həm də İncildə Hz.İsanın bəşəri xüsusiyyətləri çox müxtəlif misallarla tərif edilir. Məsələn, əvvəlki fəsillərdə də qeyd etdiyimiz kimi, Rəbbimiz "Maidə" surəsinin 75-ci ayəsində Hz.İsa və Hz.Məryəm barədə "**...Onların hər ikisi yemək yeyirdi...**" şəklində buyuraraq onların mələk olmadıqlarını, başqa insanlar kimi bir bəşər olduqlarını bildirib.

İncildə mövcud olan bir çox nümunədə Hz.İsanın bəşəri xüsusiyyətlərindən bəhs edilir. Bunlardan bir neçəsi aşağıdakı kimidir.

## Hz.İsanın anadan olması, nəsli və yaxınları

Hz.İsanın əcdadı və dünyaya gəlməsi ilə bağlı müxtəlif açıqlamalar var. Bu məlumatlara görə, Hz.İsa Hz.Davudun nəslindən gəlir. Hz.İsa xalq arasında tanınan bir şəxsdir. İnsanlar onun kimin nəslindən gəldiyini, harada anadan olduğunu, harada böyüdüyünü bilir. Hz.İsanın ailəsi camaat tərəfindən yaxşı tanınırdı.

"O, bizlərə qulu **Davudun sülaləsindən** qüdrətli bir Xilaskar meydana gətirdi. Əzəldən bəri Öz müqəddəs peyğəmbərlərinin vasitəsilə xəbər göndərdi ki, bizi düşmənlərimizin və bizə nifrət edənlərin hamısının əlindən xilas edəcək" ("Luka İncili", 1/69-71).

"İbrahim oğlu, **Davud oğlu İsa Məsihin nəsil şəcərəsi** belədir..." ("Matta İncili", 1/1-2).

"Onun anası və qardaşları gəldilər, evin bayırında durub, Onun yanına adam göndərərək, Onu çağırdılar" ("Mark İncili", 3/31).

"İsanın önündə gedən və ardınca gələn xalq: **"Davud oğluna** hosana! ("bizi xilas et" deməkdir) Rəbbin adı ilə gələnə həmd olsun! Ən yüksəklərdə hosana", - deyə qışqırırdılar. İsa Yerusəlimə çatdığı zaman, bütün şəhər: "Bu kimdir?", - deyərək sarsıldı. Xalq isə deyirdi: "Bu, **Qalileyanın Nazaret şəhərindən olan İsa peyğəmbərdir""** ("Matta İncili", 21/9-11).

**"Məryəmin oğlu, Yaqub, Yusif, Yəhuda və Şimonun qardaşı dülgər bu deyilmi? Bacıları burada aramızda deyillərmi..."** ("Mark İncili", 6/3).

## Hz.İsanın bəşəri xüsusiyyətləri

Üçləmə inancının əsasında Hz.İsanın bəşəri xüsusiyyətlərini qulaqardına vurmaq anlayışı var. Halbuki İncildə Hz.İsa ilə bağlı verilən məlumatlardan bu qiymətli insanın "Allahın oğlu deyil, Allahın mübarək bir elçisi olaraq bəhs edildiyi" açıq-aşkar aydın olur. Onun da bütün insanlar kimi bir həyat yaşadığını görürük. O da başqa insanlar kimi anadan olub, həyatının körpəlik, uşaqlıq və gənclik mərhələlərini yaşayıb. Acanda yanındakı həvariləri ilə birlikdə Allaha şükr edərək yemək yeyib, uzun bir günün ardınca hər bir insan kimi o da yorulub və yatmağa ehtiyac hiss edib. Bununla yanaşı, ətrafdakı insanlar Hz.İsanın yuyunmaq, təmizlənmək kimi hər cür fiziki ehtiyaclarının olması-

na da şahid olublar. Bunlar hər bir adamın qarşılaşdığı təbii ehtiyaclardır. Bundan başqa, həmin ehtiyaclar üçləmə inancında Hz.İsanın adına qoşulmasına çalışılan tanrılıq iddiası ilə də tam şəkildə ziddiyyət təşkil edir.

**"İsa isə hikmətdə və boy-buxunda, Allah və insanlar qarşısında lütfdə tərəqqi edirdi"** ("Luka İncili", 2/52).

"Onlarla süfrə başında oturarkən, **çörək götürüb şükr etdi, parçaladı və onlara verdi"** ("Luka İncili", 24/30).

"Onlar hələ sevincdən inanmayıb təəccüblənərkən, İsa onlara dedi: **"Burada bir yeməyə bir şey varmı?"** Ona bir tikə bişmiş balıq və bir parça bal pətəyi verdilər. O da götürüb onların qabağında yedi" ("Luka İncili", 24/41-43).

**"Mayasız çörək bayramının birinci günündə şagirdlər İsanın yanına gəlib dedilər: "Pasxa yeməyi üçün harada hazırlıq görməyimizi istəyirsən?""** ("Matta İncili", 26/17).

**"İsa Levinin evində yemək yeyərkən..."** ("Mark İncili", 2/15).

**"Onlar evə gəldilər və yenə izdiham toplaşdı, belə ki, çörək yeməyə belə imkanları yox idi"** ("Mark İncili", 3/20).

**"Onlar süfrədə oturub yemək yeyərkən İsa dedi: "Sizə doğrusunu deyirəm: Mənimlə bərabər çörək başında yemək yeyən sizlərdən biri Məni ələ verəcəkdir""** ("Mark İncili", 14/18).

"Fəriseylərdən biri **İsadan xahiş etdi ki, onunla bərabər çörək yesin. O da fəriseyin evinə girdi və süfrə başında oturdu"** ("Luka İncili", 7/36).

"...İsa **yol getməkdən yorulmuşdu.** O quyunun yanında oturdu. Altıncı saata az qalmışdı. Samariyalı bir qadın su çəkməyə gəldi. **İsa ona dedi: "Mənə su ver içim", - dedi"** ("Yəhya İncili", 4/6-7).

"İsa qayığın arxa tərəfində **yastığın üstündə yatırdı...**" ("Mark İncili", 4/38).

"İsa onlara dedi: "Sakit bir yerə gedək və **bir az dincələk".** Çünki gəlib-gedən o qədər çox idi ki, **qidalanmağa belə vaxtları yox idi"** ("Mark İncili", 6/31).

**"...Gəzməkdən yorulan İsa quyunun yanında oturdu..."** ("Yəhya İncili", 4/4).

Yuxarıda sitat gətirdiyimiz İncil cümlələri Hz.İsanın başqa insanlar kimi Rəbbimizin mərhəmətinə möhtac bir bəşər olduğunu göstərir. O, Allahın bütün aləmlərə üstün etdiyi, peyğəmbərlik vəzifəsi ilə şərəfləndirdiyi və möcüzələr bəxş etdiyi çox üstün əxlaqlı bir bəndəsidir. O, xüsusi özəlliklərə malik olan bir bəşərdir, həmçinin digər canlılar kimi Allahın mərhəmətinə möhtac, aciz bir bəndədir. Halbuki canlı-cansız bütün kainatın yaradanı olan Allah həmişə diridir, hər an hər şeyə hakimdir və hər şeyə hökm edəndir, hər şeyi bilir, hər şeyə gücü çatır. O, mürgüləmir və Onu yuxu da tutmur, O, hər cür qüsurlardan da uzaqdır, O, yaratdıqlarına müxtəlif acizliklər verib və malik olduqları bu qüsurları dərk edərək ancaq Ona qulluq etmələrini, hər şeyi Ondan istəmələrini əmr edib.

## Hz.İsa da bütün insanlar kimi Allahın mərhəmətinə möhtac bir bəndədir

Hz.İsanın Allahın sonsuz mərhəməti ilə müxtəlif möcüzələr göstərməsindən həm Qur'an ayələrində, həm də İncildə bəhs edilir. Ancaq Hz.İsa hər sözündə, apardığı təbliğatda və həvarilərlə olan söhbətlərində bu möcüzələri Allahın istəyi ilə yerinə yetirdiyini bildirib. Danışanın özü deyil, Allah olduğunu, bütün edilən işləri Allahın yerinə yetirdiyini, Allahın bütün canlılar üzərində tək hakim olduğunu tez-tez vurğulayıb. Onun Allahın dəvətini insanlara çatdıran bir bəndə olduğunu, bu etdiklərini Allahın istəyi ilə hə-

yata keçirdiyini, hər etdiyinin Allahın nəzarətində olduğunu bildirib. Onun bu sözlərindən bəziləri aşağıdakı kimidir:

"**Hər şey Rəbbim tərəfindən mənə verildi...**" ("Matta İncili", 11/27).

"**...Allah mənə necə əmr etmişsə, elə də icra edirəm...**" ("Yəhya İncili", 14/31).

"**...Mən sizə söylədiyim sözləri Özümdən söyləmirəm...**" ("Yəhya İncili", 14/10).

"**...Sizə doğrusunu, doğrusunu deyirəm: elçi özündən bir şey edə bilməz...**" ("Yəhya İncili", 5/19).

"**...Verdiyim təlim mənim deyil, məni göndərənindir**" ("Yəhya İncili", 7/16).

"**Onları mənə verən Rəbbim hamıdan böyükdür...**" ("Yəhya İncili", 10/29).

"**Çünki mən özümdən söyləmədim, məni göndərən Allah Özü nə deyəcəyimi və nə söyləyəcəyimi mənə əmr etdi.** Və bilirəm ki, Onun əmri əbədi həyat deməkdir. **Söylədiyim şeyləri Allah mənə necə dedisə, eləcə də söyləyirəm**" ("Yəhya İncili", 12/49-50).

"**İsa Allahın hər şeyi Özünə əmanət etdiyini və Allahdan çıxıb gəlib, Allaha qayıdacağını bilirdi**" ("Yəhya İncili", 13/3).

"Məni göndərən mənimlədir. O məni tək buraxmayıb, çünki **mən daim Onun xoşuna gələn işləri görürəm**" ("Yəhya İncili", 8/29).

"**Mən öz-özümdən bir şey edə bilmərəm; eşitdiyim kimi hökm edirəm və mənim hökmüm doğrudur, ona görə ki, məqsədim öz iradəmi deyil, məni göndərənin iradəsini yerinə yetirməkdir**" ("Yəhya İncili", 5/30).

"**...Əgər Rəbbim ona imkan verməsə, heç kimsə mənim yanıma gələ bilməz**" ("Yəhya İncili", 6/65).

İncildə yer alan yuxarıdakı açıqlamalar üçləmə inancı baxımından çox əhəmiyyətlidir. Çünki bu ifadələrdə

**Hz.İsanın bir tanrı deyil, Allaha möhtac, Allahın istədiyi kimi hərəkət edən, Allahın əmrinə uyğun şəkildə qərar verən, Allahın ilhamı ilə danışan, Allahın xoşlayacağı işləri görən bir bəndə olması şəxsən Hz.İsanın özü tərəfindən** ifadə edilib. Ancaq bütün bu hikmətli və səmimi sözlər üçləmə inancında qulaqardına vurulur, Hz.İsanın isə mövcud olmaq üçün heç bir şeyə ehtiyac duymayan üstün varlıq kimi tanıdılmasına səy göstərilir. Halbuki bunlar həqiqəti əks etdirmədiyi kimi həm Rəbbimizin uca Şəxsinə, həm də Onun mübarək elçisi Hz.İsaya qarşı hörmətsizlikdir. Rəbbimiz bütün bu bənzətmə və müqayisələrdən uzaqdır. O, heç bir şeyə ehtiyacı olmayan, bütün qüsur və nöqsanlardan uzaq, sonsuz və tək güc sahibi olan Allahdır. Ona bərabər və oxşar heç bir varlıq yoxdur.

Buradakı ifadələrdə Hz.İsanın ancaq Allaha qulluq etməklə bağlı hökmlərə tabe olduğu aydın şəkildə görünür. Yalnız Allaha qulluq edən Hz.İsanı Allahla "eyniləşdirən" üçləmənin nə qədər batil bir etiqad olması buradan da aydın olur.

## Hz.İsanın Allaha dua etməsi

Üçləmə inancını təkzib edən başqa bir dəlil isə bu mübarək insanın Rəbbimizə olan səmimi dualarıdır. Dua edən insan Allahın varlığını və birliyini, Onun qarşısındakı acizliyini, ona yeganə kömək edənin Allah olduğunu və Ondan başqa ibadət ediləcək heç bir gücün olmadığını qəbul etmiş adam mənasına gəlir. Dua Allaha olan dərin təslimiyyətin, insanın öz şəxsi acizliyinin fərqində olmasının ən gözəl ifadə formalarından biridir. Rəbbimiz bütün qüsurlu sifətlərdən uzaq olandır və sonsuz qüdrət sahibidir. Kainatda bütün qüdrət yalnız Ona məxsusdur. Kömək və bağışlanma yalnız və yalnız bütün insanların möhtac olduğu, Özünün isə heç kimə ehtiyacı olmayan Allahdan istənilir. Hz.İsanın

duaları da onun Allaha olan təslimiyyətinin və malik olduğu güclü Allah qorxusunun ən səmimi və sadə əlamətlərindədir. İncildə bildirildiyinə görə, Hz.İsa həm şükr etmək, həm də istəyini çatdırmaq məqsədilə Rəbbimizə dua edib. O, istəklərini yerinə yetirə biləcək yeganə gücün və mütləq Qüdrətin Allah olduğunu bilirdi.

"Bir az irəli getdi, **yerə üzüqoylu döşəndi və dua etdi...**" ("Matta İncili", 26/39).

"Xalqa əmr etdi ki, ot üzərində otursunlar. Beş çöreklə iki balığı götürdü, **göyə baxaraq Allaha şükr duası etdi...**" ("Matta İncili", 14/19).

"Və xalqı buraxdıqdan sonra, **dua etmək üçün tək-tənha dağa çıxdı.** Axşam düşdükdə orada tək idi" ("Matta İncili", 14/23).

"Səhər gün doğmazdan əvvəl İsa qalxdı və çıxıb tənha bir yerə getdi. Orada **dua etməyə başladı**" ("Mark İncili", 1/35).

"Onları yola salandan sonra dağa, **dua etməyə getdi**" ("Mark İncili", 6/46).

"İsa şagirdlərinə dedi: "**Mən dua edərkən**, siz burada oturun"" ("Mark İncili", 14/32).

"O günlərdə **İsa dua etmək üçün** dağa çıxdı, bütün gecəni **Allaha dua ilə keçirdi**" ("Luka İncili", 6/12).

**"İsa bir yerdə dua edirdi. Bitirdiyi zaman şagirdlərindən biri ona dedi: "Ya Rəbb! Yəhya öz şagirdlərinə öyrətdiyi kimi, Sən də bizə dua etməyi öyrət""** ("Luka İncili", 11/1).

"...Amma mən sənin üçün **dua etdim** ki, imanın azalmasın; sən də bir zaman dönüb öz qardaşlarına qüvvət ver" ("Luka İncili", 22/32).

Hz.İsanın Rəbbimizin ən gözəl sifətlərini anaraq etdiyi səmimi duası Qur'anın bir ayəsində belə bildirilir:

**"Məryəm oğlu İsa dedi: "Ya Allah, ey bizim Rəbbimiz! Bizə göydən bir süfrə nazil et ki, o həm bizim,**

**həm də bizdən sonra gələnlər üçün bir bayram və Səndən bir möcüzə olsun. Bizə ruzi ver, Sən ruzi verənlərin ən yaxşısısan!"" ("Maidə" surəsi, 114).**

Allah Hz.İsanın bu duasını qəbul edib və belə buyurub:

**"Allah buyurdu: "Mən onu sizə, əlbəttə, nazil edərəm. Lakin ondan sonra sizlərdən kim küfrə düşərsə, ona aləmlərdə olanlardan heç kəsə verməyəcəyim bir əzab verərəm!"" ("Maidə" surəsi, 115).**

Hz.İsa Allaha dua edərək Ondan bir süfrə göndərməsini istəyib. Allah Hz.İsanın bu duasını qəbul edərək Onun istəyini yerinə yetirib. Ancaq yaddan çıxarılmamalıdır ki, Hz.İsanın bu möcüzəni yerinə yetirəcək müstəqil və xüsusi bir gücü yoxdur. O, Allahın sonsuz yaratma gücünü insanlara göstərməsində elçilik vəzifəsini icra edən çox mübarək bir bəndədir.

## Hz.İsa İncildə "Allahın elçisi" adlandırılıb

Üçləmə etiqadının əsasında Hz.İsanın Allahın hökm və əmrlərini təbliğ edən bir elçi və ya başqa peyğəmbərlər kimi Allahın göndərdiyi bir bəndə kimi deyil, "Allahın oğlu" (bundan Allaha sığınırıq) şəklində görmək düşüncəsi dayanır. Halbuki İncildə Hz.İsanın Allahın vəhyini təbliğ edən, insanları iman gətirməyə və Allaha təslim olmağa dəvət edən bir elçi olduğu xəbər verilir. Hz.İsa da "göndərilmiş bir elçi" olduğunu öz təbliğatında həmişə ifadə edib. Hz.İsanın Allahın söylədiyi *"Mən onlara Sənin sözünü çatdırdım"* ("Yəhya İncili", 17/14) sözü diqqəti xüsusilə cəlb edir. O da Hz.Süleyman, Hz.Musa, Hz.Davud, Hz.Muhəmməd (s.ə.v.) kimi bir peyğəmbərdir, Allahın əmr və buyruqlarını təbliğ edən elçidir. Həmçinin bir İncil ayəsində Hz.Musanın

*"Allahınız Rəbb sizə qardaşlarınızdan mənim kimi bir peyğəmbər çıxaracaq"* ("Həvarilərin işləri", 7/37) deyə söylədiyi xəbər verilir. Hz.İsanın peyğəmbərliyini təsdiq edən İncil ifadələrindən bəziləri bu cürdür:

"Məni sevməyən sözlərimə riayət etməz və eşitdiyiniz söz mənim deyil, **məni göndərən Allahındır**" ("Yəhya İncili", 14/24).

**"Əgər Rəbbimin işlərini görmürəmsə, mənə iman etməyin. Amma görürəmsə, mənə iman etmirsinizsə də o işlərə iman edin**" ("Yəhya İncili", 10/37-38).

"İsanın göstərdiyi möcüzəni görən xalq: "Doğrudan da dünyaya gəlməli olan **peyğəmbər** budur", - dedi" ("Yəhya İncili", 6/14).

"Həmin adam Allahın və bütün xalqın önündə **əməldə və sözdə qüdrətli peyğəmbərdi**" ("Luka İncili", 24/19).

"**...Çünki məni göndərəni tanımırlar**" ("Yəhya İncili", 15/21).

**"Allah hər birinizi öz pis əməllərinizdən döndərməklə sizi mübarək etsin deyə, Öz qulunu ortaya çıxardıb əvvəlcədən sizin yanınıza göndərdi"** ("Həvarilərin işləri", 3/26).

**"Əbədi həyat o deməkdir ki, Səni, vahid həqiqi Allahı və göndərdiyin İsa Məsihi tanısınlar. Mən Səni yer üzündə ucaltdım. Sənin Mənə icra etmək üçün tapşırdığın işi yerinə yetirdim. Dünyadan mənə verdiyini adamlara Sənin adını açıqladım. Sənin idilər, onları Mənə verdin və Sənin sözünə riayət etdilər. İndi bilirlər ki, mənə verdiyin hər şey Səndəndir. Çünki mənə bildirdiyin sözləri onlara bildirdim və onlar qəbul etdilər. Səndən çıxıb gəldiyimi də həqiqətən anladılar və məni Sənin göndərdiyinə iman etdilər"** ("Yəhya İncili", 17/3-8).

**"Sizə doğrusunu, doğrusunu deyirəm: mənim göndərdiyim kimsəni qəbul edən məni qəbul edər və**

**məni qəbul edən məni göndərəni qəbul edər**" ("Yəhya İncili", 13/20).
"**...Mən özüm özlüyümdən gəlmədim, amma məni göndərən haqqdır. Və siz Onu tanımırsınız. Mən Onu tanıyıram, çünki Ondanam və məni O göndərdi**" ("Yəhya İncili", 7/28-29).
"**İsa onlara dedi: "Başqa yaxın qəsəbələrə gedək ki, oralarda da təbliğ edim, çünki mən buna görə gəlmişəm**"" ("Mark İncili", 1/38).
"İsa dedi: "Allahın tələb etdiyi iş budur: **Onun göndərdiyi adama iman edəsiniz**"" ("Yəhya İncili", 6/29).
"**Allahın göndərdiyi kimsə Allahın kəlamlarını söylər...**" ("Yəhya İncili", 3/34).
"**...Məni göndərən Haqqdır və mən Ondan eşitdiklərimi dünyaya söyləyirəm**" ("Yəhya İncili", 8/26).
"...İsa onlara: "Məndə elə yemək vardır ki, onu siz bilməzsiniz", - dedi. Buna görə də şagirdlər bir-birilərinə: "Kimsə ona yemək gətiribmi?" - deyirdilər. İsa onlara dedi: "**Mənim yeməyim məni göndərənin iradəsini yeritmək və Onun işini tamamlamaqdır**", - dedi" ("Yəhya İncili", 4/31-34).

## Hz.İsanın apardığı təbliğatın əsası Allaha iman və qulluqdur

Üçləmə etiqadına görə, xristianlığın əsas şərti Hz.İsaya iman gətirməkdir və üçləməyə inanmayan bir adam həqiqi xristian deyil. Halbuki İncildə bu iddiaları puça çıxaran çox aydın ifadələr var. Xüsusilə də Hz.İsanın təbliğatı insanları yalnız Allaha iman gətirməyə dəvət etmək üzərində qurulub. Hz.İsa ətrafındakı insanların suallarını, şübhələrini, tərəddüdlərini onları Allaha təslim olmağa dəvət edərək aradan qaldırır.

"İsa ona belə dedi: "Belə yazılmışdır ki, **Allahın olan Rəbbə səcdə qıl və yalnız Ona qulluq et**"" ("Luka İncili", 4/8).
"Sizə doğrusunu deyirəm: Mənim sözümü dinləyib **məni göndərənə iman edənin əbədi həyatı vardır** və məhkum edilməz, lakin ölümdən həyata keçmişdir" ("Yəhya İncili", 5/24).
**"Heç kim iki ağaya qulluq edə bilməz. Çünki ya birinə nifrət edəcək, digərini isə sevəcək, ya da birinə bağlı qalacaq, digərinə isə xor baxacaqdır. Siz həm Allaha, həm də pula qulluq edə bilməzsiniz"** ("Matta İncili", 6/24).
"İsa ona dedi: "**Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla və bütün düşüncənlə sev**"" ("Matta İncili", 22/37).
"Din alimlərindən biri gəlib onların mübahisələrini dinlədi. Və İsanın onlara yaxşı cavab verdiyini görəndə: "Əmrlərin ən birincisi hansıdır?" - deyə soruşdu. İsa da cavab verdi: "Əmrlərin ən birincisi: "Dinlə ey İsrail! Allahımız Rəbb, bir olan Rəbbdir. Və **Allahın olan Rəbbi bütün ürəyinlə, bütün canınla, bütün düşüncənlə və bütün qüvvətinlə sev"".** İkincisi buna bənzərdir: "Qonşunu özün kimi sev. Bunlardan daha böyük əmr yoxdur". Din alimi ona dedi: "Lap yaxşı, müəllim! Doğru dedin ki, Allah birdir və Ondan başqası yoxdur"" ("Mark İncili", 12/28-32).
"Bundan sonra daşı qaldırdılar. İsa da gözlərini yuxarıya qaldırıb dedi: "**Ey Rəbb, məni eşitdiyin üçün sənə minnətdaram. Əlbəttə, məni daim eşidəcəyini bilirdim, amma bunu ətrafımda duran xalq üçün söylədim ki, məni Sənin göndərdiyinə iman etsinlər**"" ("Yəhya İncili", 11/41-42).
"İsa yüksək səslə dedi: "**Mənə iman edən, mənə deyil, məni göndərənə iman edər.** Və məni görən, məni

göndərəni görür. Mən dünyaya nur olaraq gəldim ki, Mənə iman edən heç kimsə zülmətdə qalmasın. Və kim sözlərimi eşidib inanmazsa, ona mən hökm etmərəm, çünki dünyaya hökm etməyə gəlməmişəm, ancaq dünyanı xilas etməyə gəlmişəm. Məni rədd edib, sözlərimi qəbul etməyənə hökm edən bir şey vardır: Son gündə ona hökm edəcək olan, söylədiyim sözdür. Çünki mən özümdən söyləmədim; məni göndlərən Allahın Özü nə deyəcəyimi və nə söyləyəcəyimi mənə əmr etdi. Və bilirəm ki, Onun əmri əbədi həyat deməkdir. Söylədiyim şeyləri Allah mənə necə dedisə, eləcə də söyləyirəm"" ("Yəhya İncili", 12/44-50).

Yuxarıdakı İncil ayələrindən də göründüyü kimi, Hz.İsa bütün başqa peyğəmbərlər kimi Allaha bütün ürəyi ilə təslim olan mübarək bir bəndədir. O, insanlara Allahın vəhyini çatdırıb, onlara Allaha Onu bir və tək qəbul edərək iman gətirməyə dəvət edib. Dünyada yaşadığı dövrdə çox çətinliklərə məruz qalıb. Hz.İsa öz təbliğatını apararkən ona mane olmağa çalışan çoxsaylı din əleyhdarlarının olmasına baxmayaraq çox üstün səbr göstərərək Allahın dinini başa salmağa davam edib. Şiddətli Allah qorxusu ilə son ana kimi insanları bütün kainatın yaradanı olan Allaha iman gətirməyə və Ona qulluq etməyə çağırıb. Bütün bunlar Hz.İsanın Allahın oğlu deyil, xalqına Allahdan müYdələr gətirən, insanları axirət günü ilə bağlı xəbərdar edən, gözəl əxlaqa dəvət edib hər cür mənfilikdən xilas olmaları üçün onları imana çağıran bir peyğəmbər olduğunu ortaya qoyur. Təkcə Hz.İsa deyil, bu müqəddəs insanın nəsihətlərinə qulaq asan və onun ardınca gedən ilk möminlər də Hz.İsa kimi muvahhid (Allahı tək olaraq qəbul edənlər) idilər. Məruz qaldıqları təzyiqlər onları qətiyyən bezdirməyib, Allahı bir olaraq qəbul edənlər Hz.İsanın yolundan heç bir şəkildə dönməyiblər. Bu adamlar nəsranilərdir.

## Hz.İsanın dəvətinə tabe olan səmimi xristianlar: Nəsranilər

Hz.İsa özündən sonra sadiq möminlər icması qoyub getdi. Əhdi-Cədidə görə, Hz.İsanın seçdiyi on iki həvari, Hz.İsanın ailəsi və Hz.İsaya iman gətirən digər yəhudilərdən ibarət olan bu icma başqaları tərəfindən "nəsranilər" (nazareans) adlandırılıb.[11] Bu ifadənin İncildə Hz.İsa barədə işlədilən "Nasıralı İsa" sözündən törədiyi yaxud da bu ifadə ilə eyni mənbədən gəldiyi qəbul edilir.

Nəsranilər Əhdi-Ətiqə və Hz.Musanın hökmlərinə tabe olmağa davam edir, onun gətirdiyi etiqadın əmr və qadağalarına tabe olurdular. Nəsraniləri başqa yəhudilərdən fərqləndirən ən mühüm amil isə onların Hz.İsanın gətirdiyi yeni dinə inanmaları, onu bir peyğəmbər və Məsih olaraq qəbul etmələri idi. Onlar Hz.İsanın daha əvvəllər Hz.Musa tərəfindən xəbər verilən[12] və Allahın yəhudiləri düzgün yola yönəldib dinlərini batil etiqadlardan təmizləmək üçün göndərdiyi peyğəmbər olduğuna iman gətirirdilər. Nəsranilər Hz.İsanın Allahın dərgahına yüksəldilməsindən sonra onun gətirdiyi xəbərdarlığı yaymaq üçün bütün imkanları ilə mübarizə apardılar. Əhdi-Cədidin İncillərdən sonra ən mühüm kitabı qəbul edilən "Həvarilərin işləri" bu məsələ haqqında əhəmiyyətli məlumatlar verir.

### *Nəsranilərin ismarıcı*

"Həvarilərin işləri"ndə yazıldığına görə, Hz.İsanın şagirdləri peyğəmbərlərinin Allah dərgahına yüksəldilməsindən sonra çox ağır təzyiqlərlə üzləşdilər. Dövrün yəhudi din adamları onları azğın məzhəb kimi qəbul edir və əllərindən gələn qədər susdurmaq və səhnədən silmək istəyirdilər. Onlar romalıların nəzərində də təhlükəli idilər. Ancaq

təzyiqlər və qınaqlar onları bezdirmədi. Bunun ən böyük sirri isə şübhəsiz ki, Allaha olan inamları idi. Bu inam onlara böyük səbr, birlik və qardaşlıq da qazandırmışdı. "Həvarilərin işləri"ndə bu məsələ belə izah edilir:

"Bütün iman edənlər bir yerdə idilər və hər şeyləri müştərək idi. Mallarını və mülklərini satıb hər kəsə ehtiyacına görə paylayırdılar. Hər gün birlikdə məbədə getməkdə davam edərək, evdə çörək bölüb, sevinclə və ürək sadəliyi ilə Allaha həmd edərək yemək yeyirdilər. Bütün xalqın rəğbətini qazanırdılar. Rəbb də xilas edilənləri gündən günə onların arasına əlavə edirdi" ("Həvarilərin işləri", 2/44-47).

Nəsranilərin arasındakı bərabərlik və fədakarlıq başqa yerdə belə bildirilir:

"İman edənlərin cəminin isə bir ürək və bir canı var idi və heç biri özünün olan şeylər üçün "Mənimdir", - demirdi. Çünki hər şey onlar üçün ümumi idi... Allah hamısına böyük lütflər yağdırdı. Onların aralarında ehtiyacı olan bir kimsə yox idi. Ona görə ki, torpaq və mülk sahibi olanların hamısı bunları satıb, satılmış şeylərin pulunu gətirərək həvarilərin sərəncamına verirdilər. Bu da hər birinə ehtiyacına görə paylanırdı. Məsələn, Kiprdə anadan olmuş Levili Yusif (həvarilər ona Barnaba ləqəbini verdilər ki, bu da Təsəlli Oğlu deməkdir) də malik olduğu torpağı satdı və pulunu gətirib həvarilərin sərəncamına verdi" ("Həvarilərin işləri", 4/32-37).

Bu cür böyük bir daxili intizama malik olan nəsranilər Hz.İsanın təbliğini başqa yəhudilərə çatdırmağa davam etdilər. Hz.İsanı tanıdarkən də onun Allahın yəhudilərə göndərdiyi sonuncu peyğəmbər olduğunu söyləyirdilər. Həvari Peterin Süleyman məbədindəki bir qrup yəhudiyə xitabən etdiyi çıxış "Həvarilərin işləri"ndə belə qeyd edilir:

"İndi, ey qardaşlar, bilirəm ki, rəisləriniz kimi siz də bunu bilməyərək etdiniz... Beləliklə, günahlarınızın silinməsi üçün tövbə edin və Allaha qaydın ki, Rəbbin hüzurundan yenilənmə fürsətləri gəlsin; və sizin üçün əvvəlcədən təyin olunan İsanı, yəni Məsihi göndərsin. Allahın qədimdən bəri Öz müqəddəs peyğəmbərlərinin ağzı ilə söylədiyi kimi, hər şeyin yenilənəcəyi vaxta qədər, İsa göydə qalmalıdır. Musa belə demişdi: "Allahınız Rəbb sizə qardaşlarınız arasından mənim kimi bir peyğəmbər çıxardacaq; hər işdə sizə nə söylərsə onu dinləyərsiniz. Və vaxt olacaq ki, o peyğəmbəri dinləməyən hər adam Allahın xalqından ayrılıb yox ediləcəkdir".
Şəmuel və ondan sonrakılar da daxil olmaqla bütün peyğəmbərlər nə danışdılarsa, bu günləri qabaqcadan xəbər verdilər. Siz peyğəmbərlərin varisləri, həmçinin Allahın atalarınızla kəsdiyi əhdi-peymanın varislərinsiniz. Rəbb İbrahimə belə demişdi: "Yerin bütün xalqları sənin nəslin sayəsində mübarək olacaqlar". Allah hər birinizi öz pis əməllərinizdən döndərməklə sizi mübarək etsin deyə, qulunu ortaya çıxardıb, əvvəlcə sizin yanınıza göndərdi" ("Həvarilərin işləri", 3/17-26).

Bu ifadələrdə Peter **Hz.İsadan "Allahın qulu" deyə bəhs edir və onun bir peyğəmbər** olduğunu vurğulayır. **O, Hz.İsanın Hz.Musa tərəfindən xəbər verilən bir peyğəmbər olduğunu insanlara çatdırır və onun sözlərində "Allahın oğlu" ifadəsi öz əksini tapmır.** Burada həmçinin üçləmə etiqadından və ya Hz.İsanın adına çıxarılan tanrılıq sifətindən (bu ifadədən Allaha sığınırıq) də söhbət açılmır.

***<u>Nəsranilərə göstərilən təzyiqlər</u>***

"Həvarilərin işləri"ndə bəhs edildiyinə görə, o dövrün yəhudi din adamları nəsranilərin təsirindən narahat olmağa

başlamışdı. Onların təbliği ətrafa yayıldıqca bu narahatçılıq da artırdı. Həm yəhudi din adamları, həm də onlar tərəfindən qızışdırılan Roma rəhbərləri onları "siyasi yöndən" təhlükəli bir qrup sayıb hədəfə götürdü. Tarixi mənbələrə görə, nəsranilərə qarşı həyata keçirilən təzyiq siyasəti getdikcə gücləndi. Onlar bir neçə dəfə həbs edildilər, qamçılandılar və Hz.İsanın adını dillərinə gətirməmək barədə ciddi xəbərdarlıqlar aldılar. Nəsranilərin tutulması və cəzalandırılması halları eramızın 48-49-cu illərində xeyli artdı. Axırda nəsranilərin başçısı eramızın 62-65-ci illərində tutularaq öldürüldü. Nəsranilərin başqa yəhudilərlə, xüsusilə də qabaqcıl din adamları ilə (səddukilər və fəriseylər) razılaşa bilməməsinin səbəbi İncil mətnlərinə görə, bu din adamlarının "**nəsildən-nəslə keçən ənənələrlə Allahın sözünü təsirsiz saymaları**" idi ("Mark İncili", 7/13).

Əhdi-Cədidə görə, Hz.İsanın yaxın ailəsinin və həvarilərinin rəhbərliyi ilə yaşayan bu camaatın əsas xüsusiyyəti "bir və tək olan Allaha" inanmaları idi. **Nəsranilər üçün Hz.İsa Allahın elçisi idi. Üçləmə inancı isə onlar üçün heç nə ifadə etmirdi.** Onlar üçün vacib olan məsələ Hz.İsanın gətirdiyi ismarıc idi. Həmçinin nəsrani yazılarında - məsələn, Əhdi-Cədiddəki "Yaqubun məktubu"nda - həmişə Allaha imana çağırılır və daha çox iman məsələlərinin üzərində dayanılır.

**48-49-cu illərdə** Yəhudanın romalı valisi çox sayda nəsranini çarmıxa çəkmişdi. Romaya qarşı baş verən bütün üsyanlarda nəsranilərin də iştirak etməsi fikri qəbul olunurdu. Təzyiq 50-ci illərdə də davam etdi. Nəsrani qrupları 65-ci ildə Qüdsdən çıxdı və Mesopotamiyaya tərəf köçdülər.

### *"Azğınlar" və ebionlar*

Nəsranilər II əsrdən etibarən kilsə rəhbərlərinin yazılarında "azğın" məzhəb kimi qeyd edilməyə başladılar. Kil-

sənin nüfuzlu adamlarından biri olan Yustin Martyr (Castin Martir) 150-ci ildə qələmə aldığı bir yazıda Hz.İsanı Məsih kimi tanıyan, ancaq onu yenə də adi insan sayan, yəni "Tanrının oğlu" (bundan Allaha sığınırıq) kimi qəbul etməyən bir məzhəbdən bəhs etmişdi. Martyr bu məsələni də vurğulamışdı; bu insanlar üçləməni müdafiə edən qruplar tərəfindən pislənirdi və iki tərəfin arası da çox pis idi.[13]

Bundan təxminən yarım əsr sonra isə katolik rahib İrenaeus "Adversus Haereses" ("Azğınlara cavablar") adlı bəyanat yaydı. İrenaeusun ən çox təhqir etdiyi "azğın"ların başında "Ebionim" kimi qeyd etdiyi bir camaat gəlirdi. "Ebionim" sözü ibrani dilindəki "ebion" sözünün cəmi idi və "kasıblar" mənasına gəlirdi.

İrenaeusa görə, ebionlar camaatının "azğın" olmasının səbəbi isə Hz.İsanın adi insan olması ilə bağlı etiqadları idi. Yenə İrenaeusa görə, onlar yəhudi hökmlərinin bütün qaydalarına həssaslıqla tabe olur, digər tərəfdən dörd İncildən ancaq "Matta İncili"ni qəbul edirdilər.[14] Yazılı mənbələrdə bəhs edilən ebionların nəsranilər olmsaı aydınlaşır. Kilsə rəhbərləri "ebion" və "nəsrani" sözlərindən həmişə eyni camaatı ifadə etmək üçün istifadə ediblər. Məsələn, IV əsrin axırlarında Epiphanius (Epifanius) adlı bir kilsə yazarı bir yazısında "nəsrani" və "ebion" sözlərini eyni mənada və eyni camaatı ifadə etmək üçün sinonim kimi işlədirdi. Epiphaniusa görə, **bu qrupun "azğınlığı" Hz.İsanın "tanrı" olduğunu rədd etmələrindən və onu sadə bir insan kimi tanımalarından qaynaqlanırdı.** Epiphanius bu adamların kilsənin təsdiq etdiyi Əhdi-Cədid kitablarından yox, bu kitabların "fərqli variantlarından" istifadə etdiklərini də vurğulayırdı.[15]

Ebionların Hz.İsanı bir insan kimi qəbul etməsi, onun adına tanrılıq nisbət etməməsi 2003-cü il dekabr ayının 22-də ***"Time"*** Yurnalında dərc edilən ***"The Lost Gospels"*** ("İtmiş İncillər") sərlövhəli bir məqalədə belə vurğulanırdı:

"Ebionlar Hz.İsaya inanır, ancaq (tədqiqatçı) Ehrmanın bildirdiyinə görə, "onu müqəddəs yəhudi kitabında vəd edildiyi kimi "yəhudilərə göndərilən yəhudi Məsihi"" kimi qəbul edirdilər. Ebionların inandığı Hz.İsa üçləmənin bir hissəsi deyildi. Onun bir insan olduğunu və özünəməxsus cəhətinin yəhudi şəriətini təkmilləşdirmək olması fikrini müdafiə edirdilər".[16]

Qüdsdən ayrılan nəsranilər Suriya tərəfə köç etdilər və sonrakı bir neçə əsr ərzində Mesopotamiyada yaşamağa davam etdilər. Ancaq nəsranilər bir icma olaraq bu bölgədə yaşasa da nəsrani təlimləri getdikcə yayıldı və daha uzaq coğrafiyalara çatdı. Romanın Katolik kilsəsinin təsirinin gəlib çatmadığı bölgələrdə xristianlığın ən azı ilk dörd əsrində nəsrani inancına sahib olan müxtəlif xristian məzhəbləri ortaya çıxdı. Nəsrani təliminə sahib çıxan yaxud da ən azı bu təlimdən təsirlənən adıçəkilən müxalif xristian cərəyanlarının ən məşhuru əvvəlki hissələrdə üzərində dayandığımız İskəndəriyyə yepiskopu Ariusun adı ilə xatırlanan "ariusçuluq" hərəkatı idi.

# İNCİL MÜƏLLİFLƏRİ HZ.İSANIN HƏYATINA ŞAHİD OLMAYIB

Xristian dini haqqında kifayət qədər məlumatı olmayan adamlar İncil mətnlərinin Hz.İsa ilə eyni dövrdə yazıldığını və tamamilə Hz.İsanın sözlərinə əsaslandığını zənn edirlər. Halbuki bu, düz deyil. İncil Hz.İsadan çox-çox sonralar yazılı mətn halına gətirilib. **"Mark İncili"nin eramızın 70-ci, "Matta İncili"nin 80-ci, "Luka İncili"nin 90-cı ilində, "Yəhya İncili"nin isə 90-100-cü illər arasında yazıldığı güman edilir.** Başqa İncil mətnləri də eyni dövrlərdə yazılıb. Həmin dövrdə mövcud olan çoxlu İncillərin əsasında müştərək bir kitabın ərsəyə gətirilməsi isə İznik məclisi zamanı baş verib.

Hz.İsanın həyatı haqqında müraciət edə biləcəyimiz əsas xristian mənbələri bu mübarək insanın Allahın dərgahına yüksəldilməsindən təxminən 30-35 il sonra yazılmağa başlanan və Əhdi-Cədidin ilk dörd kitabını təşkil edən 4 İncil və digər Əhdi-Cədid mətnləridir.

Tarixi mənbələrdən və İncildəki ifadələrdən də aydın olduğu kimi, ilk xristianlar Hz.İsanın Allahın dərgahına yüksəldilməsindən sonra Hz.İsanın sözlərini və əməllərini şifahi şəkildə başqalarına çatdırmağa çalışıblar. Tədqiqatçıların fikrincə, ilk xristianların içində olduqları şərtlərə görə Hz.İsanın sözlərinə yeni mənalar əlavə etməsi, Hz.İsanı qəbul etməyən yəhudi din adamları və romalılarla mübahisə edərkən şifahi şəkildə çatdırılan məlumatları müxtəlif dəyişikliklərlə söyləməsi ehtimal olunur. Buna görə də ilk xristianlar Məsih inamını saxlamaq, Hz.İsaya olan imanı gücləndirmək, xristianlığı sürətlə yaymaq və təzyiqlərin xalqda yaratdığı ümidsizliyi aradan qaldırmaq istəyirdilər. Buna görə də Hz.İsanın sözlərini və əməllərini izah edərək yeni

bir şövq və həyəcan mənbəyi yaratmağı qarşılarına məqsəd qoyurdular. Halbuki bunu yalnız Allahın sözlərini və Hz.İsanın hikmətli təbliğini insanlara çatdıraraq edə bilərdilər. Ancaq bu, belə olmayıb, Allahın vəhyi sonradan dəyişdirilib və Hz.İsanın sözləri çox yanlış şəkillərdə təfsir edilərək əslindən uzaqlaşdırılıb. Bu mərhələdə Hz.İsaya göstərilən hörmətin səhv izah edilməsi və nəticədə onu tanrılaşdırmaq (bundan Allaha sığınırıq) kimi yanlışlığa səbəb olması mümkündür. Bu fikir hazırda Qərb tədqiqatçıları tərəfindən də bütövlükdə qəbul edilir.[17] Vaxt ötür, həvarilər də bir-bir dünyalarını dəyişirdilər. Bəzi xristianlar Hz.İsanın təbliğinin yox olmasının qarşısını almaq üçün Hz.İsanın sözlərini və etdiklərini yaddaşlarında qaldığı qədərincə bir-birinə əlavə edərək İncil mətnlərini birləşdirməyə cəhd etmiş ola bilərlər.[18]

Rudolf Bultman XX əsrin tanınmış Əhdi-Cədid mütəxəssislərindən biridir. Bultman əsərlərində İncillərin yazılması ilə bağlı müxtəlif fikirlər söyləyir. Bultmann "**Sinoptik İncillərin (Matta, Mark və Luka İncillərinin) Hz.İsanın həyatının bir-birini davam etdirən rəvayətlərini ortaya qoymaq üçün İncil müəllifləri tərəfindən bir-birinə əlavə edilərək sistemsiz şəkildə bir yerə yığılmaqla meydana gətirildiyini**" bildirir. Ancaq Bultmana görə, "**fərqli cəmiyyətlərdə həmin cəmiyyətləri təşkil edən fərdlərin ehtiyaclarına görə təkrarlanan bu sözlər müxtəlif formalara gəldiklərindən bir cəmiyyətdən başqa cəmiyyətə, hətta bir cəmiyyətin öz arasında da bir-birindən fərqli olduğunu göstərirdi**" və "**Hz.İsanın sözləri və hərəkətləri insanlar tərəfindən fərqli məqsədlər üçün istifadə edildiklərinə görə müxtəlif şəkillər qazanmışdı".** Məsələn, ilkin dövrlərdə bəzən insanlara edilən vəəzdə və ya nəsihət etmək üçün, bəzən də cəmiyyətdə fərdlərin tabe olmaları lazım gələn əxlaq qaydaları kimi işlədilib. Bultman şifahi ənənənin bir nəticəsi kimi Hz.İsanın sözlərinin və hərəkətlərinin ilk xristianlar

tərəfindən qismən dəyişdirildiyini bu cür ifadə edir. Bundan başqa, İncil mətnlərində şəxsən ilk xristianlar tərəfindən ortaya atılmış və Hz.İsanın adına çıxılan sözlərin də olduğunu iddia edir,[19] Hz.İsanın özünü "Allahın oğlu" adlandırdığını düşünmür. Ona görə bu sifət Hz.İsadan sonra "**tanrıların oğulları kimi təqdim edilən ilahi şəxslər, sirr dinlərində ibadət edilən oğul tanrılar və qnostik mifologiyada mövcud olan xilaskar fiqur**" motivlərindən təsirlənərək təkmilləşdirilib və böyük bir səhv olaraq Hz.İsanın adına qoşulub.[20]

Dolayısı ilə bu gün Qərbdəki tədqiqatçıların böyük bir hissəsi tərəfindən qəbul edilən həqiqət **İncillərin Hz.İsanın sözlərinin qüsursuz bir şəkildə bir yerə yığılması ilə meydana gələn bir kitab olmasıdır. Onların qənaətincə, İncillər Hz.İsadan sonra onun sözlərinin, etdiklərinin onun özündən sonra ortaya çıxan şərtlər daxilində bir yerə gətirilməsi ilə araya-ərsəyə gələn mətnlərdir.**

## İncillərin müəllifləri

İncillər hazırda Mark, Matta, Luka və Yəhya kimi müəlliflərin adları ilə tanınsa da onlar adsız şəkildə yazılıblar. Bu müəlliflərin həqiqətən İncilləri yazıb-yazmadığı bilinmir. İncillər ancaq II əsrin ikinci yarısından sonra bugünkü adları ilə çağırılmağa və tanınmağa başlanıb. Matta və Yəhya Hz.İsanın həqiqi həvarisi kimi qəbul edildiyi halda Mark Pavelin ardıcılı, Luka da Pavelin tələbələrindən biri hesab olunur. Yəni İncilin müəllifləri həqiqətən də həyatda yaşamış şəxslərdir, ancaq İncilləri onların yazıb-yazmaması ilə bağlı əlimizdə heç bir dəlil yoxdur.[21] Tanınmış Müqəddəs Kitab tədqiqatçılarından olan E.P.Sanders *"The Historical Figure of Yesus"* ("İsanın tarixi şəxsiyyəti") adlı kitabında İncillərin yazılması məsələsini bu cür açıqlayır:

"**Mövcud sübutlar göstərir ki, İncillər ikinci əsrin ikinci yarısına kimi adsız qalıblar...** Malik olduğumuz İncillər ikinci əsrin ilk yarısında zikr edildi. Lakin həmişə anonim kimi... Təxminən 180-ci ildə qəfildən adlar müəyyənləşdi. **Bu vaxt çoxlu sayda İncil mövcud idi. Bizim malik olduğumuz kimi dörd dənə İncil deyildi və xristianlar hansının əsas olduğunu müəyyənləşdirmək məcburiyyətində idilər.** Bu, çox vacib bir məsələ idi. Çox fərqli fikir ayrılıqları vardı. Kimin qazandığını isə bilirik: bu dörd İncilin - nə az, nə çox - Hz.İsanın mötəbər qeydləri olduğunu düşünən xristianlar qazanıblar".[22]

Sanders başqa bir məqaləsində "adsız" kimi yazılan İncillərin adlandırılma mərhələsini belə qeyd edir:

"**II əsrin ortalarında saysız İncil nüsxəsi var idi.** Xristian dininin səlahiyyətli şəxsləri bunlardan hansılarının səhih olması məsələsində bir qərar vermək üçün onları adlandırmağa başlayıblar. Beləliklə, günümüzdə kilsə tərəfindən səhih qəbul edilən dörd İncilə Mark, Matta, Luka və Yəhya adları verilib".[23]

*"From Yesus to Christ, The Origins of the New Testament, Images of Yesus"* ("İsadan Məsihə, Əhdi-Cədidin mənbələri, İsanın imicləri") adlı kitabın müəllifi Paula Fredriksen bu məsələni belə xülasə edir:

"Hz.İsanın hazırda yunan dilində olan bəzi sözləri toplanmış və hazırda itkin olan bir sənəd halına gətirilmişdi. Bu sənədə dövrümüzün tədqiqatçıları Q adını verirlər. Şifahi ənənələr isə - möcüzələr, məsəllər, əfsanələr və s. - müxtəlif xristian cəmiyyətləri tərəfindən bir yerə toplanıb, əlavələr edilərək böyüyüb və əldən-ələ gəzib. Bunlardan bir qismi adsız yəhudi olmayan xristianlar tərəfindən 70-ci illərdə yazıya köçürüldü. Bu adamlar yazıçı deyildilər və meydana bir əsər

gətirmədilər. Ancaq danışılan hekayələri yazdılar. Bunun nəticəsində də Mark İncili araya-ərsəyə gəldi".[24]

Fredriksenin diqqət yönəltdiyi başqa bir məsələ isə İncillərdə istifadə edilən dil məsələsi idi. Fredriksen bunları söyləyir:

"Hz.İsa arami dilində danışırdı və təbliğini də arami dilində danışan yəhudilərə, fələstinlilərə və köçərilərə edirdi. Ancaq İncillərin yayılmasında rol oynayan adamların dilləri yunan dili idi. **Hz.İsanın şifahi təbliği və bütün etdikləri yunan dilinə yenə şifahi şəkildə tərcümə edilirdi. Bu tərcümələrin səhih və etibarlı olmasına əmin olmaq isə mümkün deyildi.** Şifahi mənbələrlə bağlı aparılan psixoloYi və antropoloYi tədqiqatlar bu mənbələrin tarixi baxımdan etibarlı olmaqdan çox uzaq olduğunu ortaya qoyur. Başqasına çatdırılma zamanı səhvin olmaması mümkün deyil. Çünki öyrənən də, ötürən də insandır. Əgər bu məlumatlar yazılmamışdan əvvəl bir çox adamlar tərəfindən ağızdan-ağıza ötürüləərək yazan adama gəlib çatıbsa, hər həlqədə fərqli əlavələr, düzəlişlər və dəyişikliklər də olub. **Nəticə etibarilə Hz.İsa ilə bağlı şifahi şəkildə ötürülən məlumatlar bizə İncildə həqiqətən söylənənlər və həmin dövrdə həqiqətən baş verənlər haqqında bir məlumat verir.** Amma eyni zamanda bu da ötürmə zamanı dəyişikliklərin ola biləcəyini qəbul etməyimizi zəruri edir".[25]

Başqa bir Kitabi-Müqəddəs tədqiqatçısı Yohn Dominic Crossan (Con Dominik Krossan) *"The Birth of Christianity, Discovering what happened in the years immediately after the execution of Yesus"* ("Xristianlığın ortaya çıxması, Hz.İsanın ifasından dərhal sonrakı illərdə olanları kəşf etmək") adlı çox əhəmiyyətli çalışmasında İncil müəllifləri haqqında bunları bildirir:

"İncillərdən Hz.İsa haqqında həqiqi məlumatın mənbəyi kimi necə istifadə edə bilərik? **İncillərdəki hər bir söz həmin müəlliflərin səsləridir. Onların arxasında da Hz.İsa haqqında danışan cəmiyyətdən adları bilinməyən adamlar var. Bu səslərin içində də Hz.İsanın sözlərindən və davranışlarından izlər mövcuddur.** Hz.İsa haqqında doğru məlumatları toplamaq üçün iki çətin mərhələni keçmək lazımdır. Bunlardan birinci onlardan hansılarının Hz.İsaya məxsus olduğunu tapmaqdır. İkinci addım isə bu məlumatları I əsrdəki yəhudi dünyasının tarixi quruluşu içinə yerləşdirməkdir".[26]

**Hz.İsanın izah etdiklərinin şifahi şəkli artıq tamamilə yox olub.** Deyilən cümlələr öz quruluşu etibarilə müvəqqətidir və çox qısa müddət yaşayır. Onlar yalnız qulaq asanların yaddaşında yaşayır və tam şəkildə yada düşməsi yalnız hafizəyə bağlıdır... Yazılı ənənələr də dəyişikliyə məruz qalır və inkişaf edir. Bu, bizi İncilləri həqiqətən də surəti çıxarılmış, üzü köçürülmüş şifahi bir şərh kimi qəbul etməkdən çəkindirir: ənənə mətn halında yazılarkən təhrif edilmiş ola bilər. Həmçinin bu təhriflər təkcə Sinoptik müəllifləri ilə də bitmir...[27]

**Nə İncil müəllifləri, nə də Əhdi-Cədidin başqa hissələrini yazanlar təsvir etdikləri hadisələrin şəxsən şahidləri deyillər. İncil müəllifləri Hz.İsadan sonra bir neçə onillik boyunca nəsildən-nəslə ötürülən şifahi və yazılı ənənəni bir mətn halına gətirən insanlardır.** Bu məqsədlə əsrlərdir ki, bu mətnlərin üzərində tədqiqatlar aparan müxtəlif mütəxəssislər İncil mətnlərinin hazırkı şəkil almasında həddən artıq müxtəlif səbəblərin rol oynadığına diqqət yetirmişlər. Bu təsir bir məqalədə belə izah edilir:

"Hz.İsanın ilk əldən oriYinal xatirələri **(1)** xristianların öz dini rəhbərlərini ucaltmaq üçün onu cahanşümul

xüsusiyyətli dindar bir şəxsiyyət halına gətirmək səyləri ilə; **(2)** qələmə alındıqları dövrün bütpərəst tanrı motivləri ilə; **(3)** gentile (yəhudi olmayan) əsilli xristianların meydana gətirdiyi ilk kilsənin ayrıldığı mərkəzi yəhudiliyə qarşı çıxması ilə; **(4)** şəxsən xristian icmasının fərqli cərəyanları içində ixtilafa səbəb olan diskussiyalarla; **(5)** və Hz.İsanın həyatında cərəyan edən hadisələrin Əhdi-Ətiq peyğəmbərlərinin verdikləri sözlərin yerinə yetirilməsi və beləliklə də onun Əhdi-Ətiq peyğəmbərliyinin tamamlayıcısı kimi təqdim edilməsi ilə müxtəlif şəkillərdə mühafizə edilib, təmizlənib, inkişaf etdirilib, ucaldılıb və qismən də məhv edilib... **Bundan başqa, İncillər həm yəhudilərin təzyiqlərinə, həm də Roma imperiyasının zülmlərinə qarşı məhv olmamaq mübarizəsi aparan ilk kilsə tərəfindən yazıldığı üçün və düşdükləri vəziyyətə görə içindəkilər şəxsən Hz.İsanın özü və etdikləri olmayıb; ilk kilsənin müxalifləri ilə mübarizəsinə uyğun olaraq Hz.İsanın sözlərinin və əməllərinin izahıdır.** İncillərin təqdim etdiyi məlumatların Hz.İsanın tərcümeyi-halını yazmaq üçün kifayət etmədiyi görünür. Buna görədir ki, Hz.İsanın mövqe və statusunu araşdırarkən dörd İncilin izah edilməsində, imanları, fikirləri, qənaətləri, əvvəlcədən qəbul edilmiş mənfi fikirləri və mübahisələri, öz əksini həm İncillərdə, həm də Əhdi-Cədidin başqa kitablarında tapan ilk xristian cəmiyyətlərin mövcud həyatlarını nəzərə almaq məcburiyyətindəyik... **Yenə Hz.İsanın mövqeyini araşdırarkən bunu da yaddan çıxarmamalıyıq ki, əsas təməl olan İncillər Hz.İsadan 40-60 il sonra, onun həyatında cərəyan edən əsl hadisələrdən olduqca fərqli bir şəraitdə, yenə onun ana dili olan arami dilində deyil, yunan dilində yazılıb...** Qısası, İncillər Hz.İsanın dediklərinə və etdiklərinə şəxsən şa-

hid olan Hz.İsanın öz həvariləri tərəfindən deyil, daha sonrakı dövrdə xristian olan insanlar tərəfindən, zaman etibarilə ortaya çıxan yeni vəziyyətlərə uyğun olaraq bir yerə toplanan kitablardır. **Yəni İncillər Hz.İsanın sözləri və əməlləri ilə bağlı ağızdan eşidilən ilk rəvayətlərə deyil, ikinci, hətta üçüncü şəxslərdən eşidilənlərə əsaslanır**.[28]

Yazıda qeyd edilən bu tarixi həqiqətlər çox əhəmiyyətlidir. İncil mətnlərini müqayisə edərək araşdıran bitərəf tədqiqatçılar da eyni nüansa diqqəti cəlb edirlər: dörd İncil bir-birindən olduqca fərqlidir.

## Dörd İncil arasındakı fərqlər

Matta, Mark, Luka və Yəhya ardıcıllığı ilə qeyd edilən dörd İncil müştərək şəkildə qəbul olunmuş fikrə görə, 65-100-cü illər arasında yazılıb. Hətta bəzi tədqiqatçılar 75-115-ci illər kimi başqa tarixləri də qeyd edirlər.[29] Bunun mənası isə bu kitabların ən tezinin Hz.İsanın Allahın dərgahına yüksədilməsindən təxminən 30 il sonra yazılmasıdır.

Yuxarıda da qeyd etdiyimiz kimi, tədqiqatçılar bu qədər gec bir tarixdə yazılan kitabların Hz.İsanın həyatını və apardığı təbliğatı tam əks etdirə biləcəyinə inanmırlar. Onların üzərində dayandığı cəhət isə İncili yazan insanların Hz.İsanı olduğu kimi deyil, öz beyinlərində təsəvvür etdikləri kimi təsvir etmiş olması ehtimalıdır.

Dörd İncilin ilk üçü, yəni Matta, Mark və Luka bir-birinə çox oxşayır və böyük ölçüdə paraleldirlər. Buna görə də onlar xristian ənənəsində "Sinoptik İncillər" kimi tanınırlar (sinoptik "eyni gözdən" deməkdir və üç İncilin ortaq baxış bucağını ifadə edir). Bunların arasında tarix baxımından ən tez yazılanı Əhdi-Cədiddə ikinci yerə qoyulmasına baxmayaraq Markın İncilidir. Matta və Lukanın öz İncillərini

yazarkən Markdan bir mənbə kimi istifadə etmələri, ancaq onların bu mətnə bəzi əlavələrinin olduğu qəbul edilir.

Dördüncü İncil olan Yəhya İncili isə sinoptiklərdən çox kəskin şəkildə fərqlənir. Yəhya İncilində bəhs edilən bəzi hadisələr sinoptiklərdə yoxdur və ya əksinə. Daha sonra, Yəhyanın qeyd etdiyi bir hadisə sinoptiklərdə tamamilə fərqli tərzdə təqdim olunur. Hətta sinoptik İncillərinin öz aralarında da ziddiyyətlər var.

Əhdi-Cədidin araşdırmaçıları dörd İncilin bir-birindən fərqli mövzuların üzərində dayanmalarına, yazan adamların üslublarının mətnlərdə inikas etməsinə və dörd İncilin özündə çox sayda tarixi ziddiyyətləri daşımasına işarə edərək İncillərdəki hər fəslin həqiqətən də Hz.İsanın sözü kimi qəbul edilməsinin mümkün olmadığını vurğulayırlar. Bu iddiaya görə, Matta, Mark, Luka və Yəhya tərəfindən qələmə alınan 4 fərqli İncil müxtəlif məqsədlər üçün yazılmışdır. Xristian tədqiqatçılar İncil mətnlərini onların üslublarına uyğun olaraq bu şəkildə təqdim edirlər:

Matta yəhudilərə uyğun yazılıb və buna görə də Hz.İsadan "İbrahim və Davud oğlu kral Məsih" şəklində bəhs edir.

Markın İncili yunanlara uyğun yazılıb və buna görə də ümumiyyətlə güc, iqtidar və xidmət məsələləri üzərində dayanır. Burada Hz.İsadan "Böyük işlər görən Tanrının qulu" şəklində bəhs edilir.

Luka bunlardan kənarda qalanlara şamil edilərək yazılıb. Buna görə də Hz.İsanın üstün əxlaqı və insani cəhətləri üzərində dayanılıb. Burada Hz.İsadan "İnsanların dostu olan Adəmin oğlu" kimi söhbət açılır.

Yəhya İncili digər üç kitabdan sonra yazılıb. Bu kitab o dövrdə ortaya çıxan etirazlara və suallara cavab vermək məqsədilə qələmə alınıb. Buna görə də Hz.İsanın möcüzəvi yönlərini əsas götürüb. "Allahın oğlu" (bundan Allaha sığınırıq) şəklindəki ifadələr daha çox bu

kitabda mövcuddur. Burada Hz.İsadan "Göylərdən gələn" şəklində bəhs edilir.[30]

Tarixi baxımdan İncillərin ən tez yazılanı olan Mark İncili, ən gec yazılanı isə Yəhyanın İncilidir və onların arasında böyük fərqlər var. Əgər Markın və Yəhyanın şərhləri tarixi bir qeyd kimi qəbul edilərsə, bu fərqlər asanlıqla açıqlana bilər. Çünki ortada eyni hadisənin iki fərqli insan tərəfindən qələmə alınan iki fərqli təsviri var. Bu təsvirlərin biri hadisədən **40-45 il,** digəri isə təxminən **60-65 il sonra** yazılıb.

İncillər arasındakı fərqlər qarşısında bəzi xristianlar "xırda fərqlərə baxmayaraq nəticədə eyni hadisədən bəhs edilir" kimi açıqlamalar verir. Ancaq əhəmiyyətli olan da elə bu fərqlərdir. Çünki bu fərqlər Əhdi-Cədidin müəlliflərinin yazdıqları mətnləri normal, insani yollarla qələmə aldıqlarını ortaya qoyur: Hz.İsa haqqında bəzi şifahi söhbətləri eşidib, sonra da öz mədəniyyətlərinin, etiqadlarının, məlumatlarının yaxud da əvvəlcədən qəbul edilmiş fikirlərinin təsiri ilə İncilləri yazıblar. Dolayısı ilə **bu mətnlər "insani"dirlər, "ilahi" deyillər. Buna görə də bunları "içində haqlı məqamların olması ehtimal olunan tarixi mənbələr" kimi qəbul etmək lazımdır.**

Xristian inancına görə, İncil mətnləri fərqli insanlar tərəfindən qələmə alınıb, amma bu adamlar "Tanrının ilhamı" ilə yazmışlar. Buna görə də Əhdi-Cədiddə mövcud olan mətnlərin hamısının hər bir sətrinin doğru olduğu qəbul edilir. Ancaq İncillər arasındakı ziddiyyətlər bunun mümkün olmadığını göstərir və bu kitabların tamamilə vəhyə əsaslanması fikrini rədd edir. Eyni bir hadisədən fərqli şəkillərdə bəhs edilməsi isə bu şərhlərin insan yaddaşının, insan zehninin, əvvəlcədən beyinə həkk olunmuş fikir və təsəvvürlərin məhsulu olduğunu göstərir.

Xristian mənbələrinə nəzər yetirəndə Əhdi-Cədidin dörd İncilindəki bu fərqli izahların "bir-birini tamamlayan

fəsillər" kimi təqdim edilməsinə çalışıldığını görürük. Bu məntiqə görə, hər İncil "Hz.İsanın fərqli bir tərəfinin" görülməsini təmin edir. Halbuki bu, səhvdir. Ortada dörd fərqli mətn və dörd fərqli izah var, çünki bu mətnləri yazan adamların Hz.İsa haqqındakı düşüncə və fikirləri də fərqlidir. Dövrümüzün Müqəddəs Kitab tədqiqatçılarına görə, həmin adamlar Hz.İsa haqqındakı əsl məlumatlardan, hətta Hz.İsaya verilən həqiqi İncildən bir mənbə kimi yararlanmış, ancaq bu vəhyi öz inamlarına görə izah etmiş, yenidən formalaşdırmış, yaxud da əlavələrlə genişləndirmişlər. Bu tədqiqatçıların arasında mühüm bir yerə sahib olan Yohn Dominic Crossan (Con Dominik Krossan) Richard G.Watts (Riçard Uotts) ilə birlikdə yazdığı *"Who is Yesus? Answers to Your Questions About the Historical Yesus"* ("Hz.İsa kimdir? Tarixi İsa haqqındakı suallarınıza cavablar") adlı əsərində İncil mətnləri arasındakı fərqlər haqqında bunları qeyd edir:

> "Əslində problemin əsasında dörd İncilə malik olmağımız dayanır. Çünki bir neçə fərqli versiya içindəki müəyyən məsələləri və ya aforizmləri yaxud hekayələri oxuyanda onların arasındakı uyğunsuzluqları nəzərdən qaçıra bilmərik. İlk baxışda bunu demək məsələsində ağlımız çaşır: "Şahidlər eyni şeyləri fərqli şəkillərdə xatırlayırlar". Ancaq aydın məsələdir ki, onlar Matta və Luka İncillərini yazanda qarşılarında Mark İncilinin (Əhdi-Cədid İncillərinin ilki) nüsxələri olurdu. Yəni **Hz.İsa haqqındakı hekayələr məsələsində Matta və Luka müstəqil mənbələr deyildilər, ancaq Markın versiyalarıdır.** Bu isə o demək olur ki, bu versiyalar fərdi şəkildə İncil müəlliflərinin dini görüşlərini (teologiyalarını) əks etdirir. Başqa ifadə ilə desək, **hər bir İncil bioqrafiyadan daha çox Hz.İsanın məqsədli bir yorumudur...** Matta, Mark, Luka və Yəhya arasındakı bütün fərqlərlə başqa mövcud olan çox İn-

cillə (Q (Q) İncili, Əziz Tomas İncili...) birlikdə aydın şəkildə problemimiz var. Hər bir İncil Hz.İsanı başa düşməyin xüsusi bir yoludur. Əcaba, tarixi həqiqətlərə nə dərəcədə yaxındır?"[31]

Yuxarıdakı sitatda da bildirildiyi kimi, başqa vacib bir həqiqət dörd İncilin əslində daha çox saydakı İncil nüsxələrinin içindən seçilmiş kitablar olmasıdır. **Tomas İncili, Məryəm İncili, Peter İncili, Yəqub və Tomasın uşaqlıq İncilləri, Yəqubun gizli İncili, Eaqerton İncili, Oxyrhynchus İncili kimi bu fərqli İncillər özündə Hz.İsa haqqında fərqli məlumat və izahları ehtiva edir.** Tədqiqatçılar bütün bu İncillərin əslində bir oriYinal - amma itkin düşmüş - mətndən gəldiyini düşünürlər. Buna alman dilindəki "quelle" ("mənbə") sözündən istifadə edərək "Q İncili" deyilir.

İlk xristian cəmiyyəti və İncili ilk dəfə toplayanlar Hz.İsanın sözlərini bir yerə yığarkən içində olduqları vəziyyətə, siyasi təzyiqlərə və mövcud şərtlərə uyğun yeni izahlar vermiş, müxtəlif azaltma və əlavələrlə həqiqi mesaYdan uzaqlaşmışlar. Bu gün İncillə bağlı tədqiqat aparan tarixçilər bu məsələdə həmfikirdilər. Paula Frederiksen Əhdi-Cədid yazılarının qələmə alındığı dövrü bu cür xülasə edir:

**"Əhdi-Cədid yazılarının qələmə alındığı dövr şifahi izahlardan yazılı izahlara, arami dilindən yunan dilinə, dövrün axırından dövrün ortasına, yəhudilərdən yəhudi olmayanlara, Cəlilədən Yəhudaya və oradan da imperatorluğa keçidlərin yaşandığı bir dövrdür".[32]**

İncil mətnlərinin meydana gəlməsi haqqında çoxlu tədqiqatlar aparılıb və müxtəlif kitablar yazılıb. Bu tədqiqatçıların böyük əksəriyyəti isə yuxarıda qeyd etdiyimiz fikirləri bölüşür. Yəni onlar İncil mətnlərinin kim tərəfindən yazıldığının bilinmədiyini, bu mətnlərin birbaşa Hz.İsanın sözləri olub-olmaması məsələsində qəti söz söyləməyin mümkün olmadığını və həmin İncil müəlliflərinin Hz.İsa ilə

eyni dövrdə yaşamadığını söyləyirlər. Məsələn, Prinston Universitetinin (ABŞ) ilahiyyat bölümündən Elaine Pagels (Elayn Peygels) "Matta, Mark, Luka və Yəhya olaraq adlandırdığımız İncilləri kimin yazdığı haqqında demək olar ki, heç bir məlumata malik deyilik"[33] deyir. *"Who Wrote the Gospels?"* ("İncilləri kim yazdı?") kitabının müəllifi Randel McCraw Helms (Randel MakKrou Helms) "Markın Hz.İsanın müasiri olan heç kimi tanımadığını"[34] söyləyir.

***"U.S.Newc & World Report"*** Yurnalının 1990-cı il 10 dekabr tarixli sayında Yefferü L.Sheler (Cefri Şeler) imzası ilə *"Who Wrote the Bible?"* ("İncili kim yazdı?") sərlövhəli bir araşdırma dosyesi dərc edilmişdi. Bir çox Müqəddəs Kitab tədqiqatçısı ilə görüşən Şelerə görə, "mütəxəssislər Müqəddəs Kitabın tamamilə insan əməyinin məhsulu olduğu, müəlliflərinin kimliyinin əbədi olaraq itirildiyi və çalışmalarının əsrlərdir tərcümə və düzəlişlərlə silindiyi nəticəsinə gəliblər".[35] Şelerin İncilin yazılması ilə bağlı fikirləri bu cürdür:

> **"Hal-hazırda İncilləri əslində Matta, Mark, Luka və Yəhyanın yazdığına inanan çox az sayda Müqəddəs Kitab mütəxəssisi var - liberal şübhəçilərdən qatı Evangelistlərə kimi...** Mətnlərin müəllifləri heç bir yerdə özlərinin kimliklərini vermir, yaxud da açıq-aydın Hz.İsanı tanıdıqlarını, ya da onunla səyahət etdiklərini iddia etmirlər... Bəzi mütəxəssislər Hz.İsanın ölümündən sonrakı 100 il içində çoxsaylı dəyişikliklərin meydana gəldiyini, buna görə heç kimin İncillərin doğruluğuna və ya etibarlılığına - xüsusilə də müəlliflərin Hz.İsanın özünə istinad etdikləri sözlərin - qəti surətdə əmin olmağını mümkün ola bilməyəcəyini ifadə edirlər".[36]

Şeler öz yazısında bir çox ilahiyyatçıların fikirlərinə yer verir. Məsələn, Weston (Ueston) ilahiyyat fakültəsindən Yerome Neyrey (Ceromi Neyri) "Üstündə dayanılması la-

zım gələn əsas məsələ bizim İncillərin kimlər tərəfindən yazılmasını həqiqətən də bilməməyimizdir"[37] deyir. 1996-cı il aprel ayının 8-də "Time" Yurnalında da bu məsələyə geniş yer ayrılıb. Yurnalda fikirlərini açıqlayan "The Gospel Truth" ("İncil həqiqəti") adlı kitabın müəllifi David Van Biema bunları deyir:

> **"Əksər mütəxəssisin qəti şəkildə qəbul etdiyi məsələ İncillərin həvarilərin deyil, onların adı bilinməyən tərəfdarlarının (ya da tərəfdarlarının tərəfdarlarının) yazdığı mətnlər olmasıdır. Onların hər biri Hz.İsanın həyatı ilə bağlı fərqli tablo təqdim etmişdir. Bu mətnlərin ən tezi Hz.İsanın çarmıxa çəkilməsindən təxminən 40 il sonra yazılıb".**[38] *(Qeyd edək ki, Hz.İsa çarmıxa çəkilməyib).*

fessor E.P.Sanders İncillərin oriYinaldan niyə uzaqlaşdığını belə açıqlayır:

> "İlk xristianlar Hz.İsanın həyatının hekayəsini yazmayıblar. Onlar daha çox bundan istifadə etmişlər və buna görə də şəxsi fəsillər, yəni onun sözləri və qəhrəmanlıqları haqqındakı qısa fəsillər qorundu. Bu fəsillər sonradan redaktorlar və müəlliflər tərəfindən inkişaf etdirildi və düzəldildi. Bu da o deməkdir ki, Hz.İsanın sözləri və əməlləri ilə bağlı ən yaxın mahiyyətə heç vaxt əmin ola bilmərik.
> * Bəzi materiallar təftiş edilib, bəziləri də ilk xristianlar tərəfindən formalaşdırılıb.
> * İncillər anonim şəkildə yazılıblar".[39]

## Dördüncü İncil

Dördüncü İncil yunanların xristianların dini etiqadına təsirləri ilə bağlı araşdırma aparan tədqiqatçılar üçün çox mühüm dəlildir. Bu işlə məşğul olan alimlərin əksəriyyəti Əhdi-Cədiddə sayca dördüncü olan və xristianlar tərəfin-

dən "Yəhya İncili" adlandırılan İncili sadəcə olaraq "Dördüncü İncil" kimi təqdim etməyə üstünlük verir. Çünki bu İncilin həvari Yəhya tərəfindən yazılması iddiası əksər araşdırmaçılar tərəfindən qəbul edilmir.

**Dördüncü İncilin müəllifinin Hz.İsanın kimliyi haqqındakı şərhləri və üslubu çox fərqlidir, onun qeyd etdiyi söz və hadisələr də fərqlidir. Sinoptiklərə görə, onlar daha fəlsəfi, daha simvolik və daha mistikdir.** Əhdi-Cədiddəki ziddiyyətlərin çoxu da əslində sinoptiklərlə Dördüncü İncil arasındakı ziddiyyətlərdir. fessor E.P.Sanders də *"The Historical Figure of Yesus"* ("Hz.İsanın tarixi portreti") adlı əsərində Sinoptik İncillər və Yəhyanın İncili arasındakı fərqli cəhətlərin üzərində dayanır. Sanders Hz.İsanın həyatından bəzi mühüm hadisələri nümunə kimi verərək bu hadisələrin Sinoptik İncilləri ilə Yəhya İncilində bir-birindən çox fərqli şəkillərdə təqdim edildiyinə diqqət çəkir. Sanders "ikisindən birini qəbul etmək məcburiyyətindəyik" deyir və öz fikirlərini bu sözlərlə tamamlayır:

> "...Amma başqa bir variantın da üzərində dayanmalıyıq. **Bəlkə də müəlliflərin heç biri nəyin nə vaxt qeyd ediləcəyini bilmirdi. Böyük ehtimalla onların əlində bir neçə qarışıq məlumat varmış və onlar da bu məlumatlar əsasında inandırıcı hekayətlər tərtib ediblər. Bu hekayələrə də elə özləri yeni əlavələr ediblər".**[40]

Maurice Casey (Maurisi Keysi) "The Origins and Development of New Testament Christology" ("Əhdi-Cədid xristologiyasının mənbələri və inkişafı") adlı çox əhəmiyyətli tədqiqat əsərində bu şərhi verir:

> "Yəhya İncilində Hz.İsanın "Tanrının oğlu" ifadəsinin 23 dəfə işlədildiyini görmək olar. Mark İncilində isə bundan cəmi bircə dəfə istifadə edilib. Əgər Hz.İsa bu ifadəni Yəhyanın qeyd etdiyi qədər çox işlətsəydi, dərin iman sahibi olan xristianlar da Sinoptik İncillərdə

bu ifadəni bir neçə dəfə təkrar edərdilər... Halbuki Sinoptik İncillərdə bununla bağlı dəlillər yoxdur. **Əgər "oğul" ifadəsi Hz.İsanın öz müqəddəsliyini ifadə etmək üçün işlətdiyi əsas ifadə olsaydı, həvarilər də bu sözü tez-tez işlədərdilər, bu söz Lukada çox yerdə bildirilər və Luka da onların hamısını kağıza köçürərdi".**[41]

Casey Yəhya İncilində mövcud olan və üçləmə etiqadının əsasını təşkil edən bəzi ifadələrin nəyə görə Sinoptik İncillərdə olmadığını araşdırır. Onun gəldiyi nəticə isə belədir: əgər Hz.İsanın "Allahın oğlu" olması iddiası və ona əsaslanan üçləmə etiqadı həqiqətən də xristianlığın təməli olsaydı, Hz.İsanın sözlərində, təbliğində bu məsələ haqqında daha çox dəlil mövcud olmalı idi. Halbuki Sinoptik İncillərdə üçləmə etiqadının əsaslarını tapmaq mümkün deyil. Bunun əvəzində "bəşər, insan oğlu" ifadəsi həm Sinoptik İncillərdə, həm də Yəhya İncilində o qədər çox yerdə qeyd edilir ki, buradan Hz.İsanın məhz həmin ifadəni işlətmiş ola biləcəyi aydın olur (ən doğrusunu Allah bilir). "Allahın oğlu" kəlməsinin Hz.İsa tərəfindən işlədilmədiyini ifadə edən İncil tədqiqatçıları "insan oğlu" ifadəsi ilə bağlı tamamilə əks fikirdədirlər.

Yəhya İncilinin diqqəti cəlb edən başqa bir cəhəti onun yunan fəlsəfəsi ilə bağlılığıdır. İncil tədqiqatçılarından biri olan Yames Still (Ceyms Stil) *"The Gospel of Yohn the Hellenization of Yesus"* ("Yəhya İncili və İsanın yunanlaşdırılması") adlı çox mühüm və maraqlı məqaləsində bu məsələ ilə bağlı aşağıdakıları bildirir:

"Yəhya İncili ikinci əsrin əvvəllərində xristian yunanlar üçün yazılıb. Bu yeni möminlər daha təhsilli və daha zəngin adamlar idi. Onlar şəhərlərində yaşayan diaspora yəhudilərinə yuxarıdan aşağı baxır, bunun əvəzində isə Roma rəhbərliyi tərəfindən etibar və etimada layiq görülürdülər. **Buna görə də Yəhya İncili-**

**nin müəllifi Sinoptik İncillərdə mövcud olan və Hz.İsanı yəhudilərin Məsihi şəklində təqdim edən fəsilləri oradan çıxardı... Beləliklə də fövqəlbəşər bir İsa obrazı ortaya çıxarıldı.** Əvvəlki Sinoptik İncillər Hz.İsanın yəhudilərin Məsihi, Hz.Davudun nəslindən gələn adam və İsraili xilas edəcək şəxs olduğunu vurğulamışdılar. Yəhya İncilinin müəllifi isə yunanlı xristianları razı salmayan bütün bu yəhudi anlayışlarını yox etdi, Hz.İsanın Fələstin və Hz.Davud nəsli ilə bağlı olan şəcərəsini sildi".[42]

Yames Stillin digər şərhləri belədir:

**"Bu gün tanıdığımız Hz.İsanı ortaya çıxaran yunan fəlsəfəsinin təsirlərini Yəhya İncilində çox aydın şəkildə görürük. Bu, tam mənası ilə yunanlaşdırılmış və Tanrı ilə bərabər kimi göstərilən bir Hz.İsa portretidir.** Yəhya İncilinin qarışıq və mistik üslubunun bircə məqsədi vardır: Hz.İsanın Tanrının özü olması (bundan Allaha sığınırıq) mesaYını verə bilmək".[43]

Sinoptik İncillərdə Hz.İsaya tanrılıq dərəcəsi verən fəsillər həm çox az, həm də mübahisəlidir. Ancaq Stillin də qeyd etdiyi kimi, bu səhv inam Yəhya İncilində bütün mətnə aydın şəkildə hakimdir. Yames Still eyni məqaləsində Dördüncü İncildə Hz.İsanı tanrılaşdırmaq üçün göstərilən bütün cəhdlərdən belə bəhs edir:

"Burada (Yəhya İncilində) Hz.İsanın anadan olması məsələsi yoxdur, bizə "hər şeyin başlanğıcında" Hz.İsanın Tanrı ilə birlikdə mövcud olmasından söhbət açılır. Çünki bu İncilin müəllifi Hz.İsanın anadan olmasından bəhs etməyin,-bu doğuluş nə qədər fövqəladə bir doğuluş olsa da,-əzəldən mövcud olan Oğul Tanrı düşüncəsinə uyğun gəlməyəcəyi qənaətindədir. Hz.İsanın Mark İncilində gördüyümüz bəşəri zəiflikləri və adi insani ehtiyacları Yəhya İncilində qətiyyən mövcud deyil... **Çünki Yəhya İncilinin yazıldığı dövr**

**olan birinci əsrin axırlarında Hz.İsa haqqındakı mövcud təsəvvürlər onu bir yunan tanrısı halına gətirmişdi".**[44] (bundan Allaha sığınırıq).

## İncil mətnlərində "Ata-Oğul" ifadələrinin işlədilməsi

Bu iki ifadədən İncil mətnlərində istifadə olunması məsələsini incələməmişdən əvvəl bildiririk ki, sonsuz güc və qüdrət sahibi olan Uca Rəbbimizi bu fəsildə bəhs edilən batil inancı ifadə etmək üçün işlədəcəyimiz "üçləmə etiqadını müdafiə edən şəxslərə məxsus hörmətə uyğun olmayan hər cür ifadədən" uzaq tuturuq.

Dörd İncilin ən erkəni sayılan Mark İncilinə nəzər yetirəndə "Ata və oğul" ifadələrinin burada çox zəif vurğu ilə işlədildiyini görürük. Markın mətnində Allahı ifadə etmək üçün yalnız dörd dəfə "Ata" sözü işlədilir. Bunların da üçü Hz.İsa tərəfindən deyil, digər yəhudilər tərəfindən tələffüz edilir. Buna görə də Mark İncilinə arxalanaraq üçləməyə guya dəstək tapmaq mümkün deyil. Həmçinin qeyd olunmalıdır ki, Mark İncilində Hz.İsa onun tanrılaşdırılmasına səbəb ola biləcək hətta ən kiçik bir ifadəyə də qarşı çıxır:

**"Nə üçün məni Tanrı adlandırırsan? Allahdan başqa tanrı yoxdur"** ("Mark İncili", 10/17-18).

Mark İncilindən 10-15 il sonra yazılan Matta İncilində bu rəqəm aydın şəkildə çoxalır. Bu İncildə Allah barədə işlədilən "Ata" ifadəsi düz 50 dəfə qeyd edilir. Bunların 28-i yəhudilərə xitabən işlədilir, yəni onlar "Atanıza dua edin", "Atanızı sevin" kimi ümumi ifadələrdir. Yerdə qalan 22-si isə Hz.İsanın dilindən "Atam" şəklində işlədilir. Vurğunun bu ifadənin üzərinə salınması çox diqqətçəkici şəkildə çoxalıb.

Matta İncili ilə eyni dövrdə yazıldığı qəbul edilən Luka İncilində yenə buna yaxın bir vurğu var. Həmin İncildə

"Ata" sözü 18 dəfə işlədilir. Bunların 12-si Hz.İsanın özü ilə bağlıdır, yəni Hz.İsanın "Ata" deyə başlayan duaları və ya "Atam" deyə başlayan sözləridir.

Dördüncü İncildə isə Hz.İsanı tanrılaşdırma mənasında "Allahın oğlu" sayan inanc çox aydın və dəqiq şəkildə ifadə edilir. Yəhya İncilində Allahı ifadə etmək üçün 122 dəfə "Ata" kəlməsi işlədilir ki, bunların da üçü istisna olmaqla hamısı Hz.İsaya aiddir. Digər tərəfdən, Hz.İsa üçün 17 dəfə "oğul" sifətindən istifadə edilir. Dörd dəfə də Hz.İsa üçün xüsusilə "Tanrının əziz-xələf oğlu" (bu ifadələrdən Allaha sığınırıq) deyilir.

İncillərin yazılma tarixi Hz.İsanın Allah dərgahına yüksəldilməsindən uzaqlaşdıqca onu Allaha "Ata" deyə səslənən bir şəxs kimi göstərmək səyləri də artıb güclənir. Başqa sözlə, Hz.İsanın guya "Allahın oğlu" olması şəklindəki inanc hər yeni yazılan İncildə özünə bir az da böyük yer tapıb. Yəhya İncilində isə bu meyl daha güclüdür. Bu isə zaman ötüb getdikcə təhriflərin artmasının bir əlamətidir. Uca Rəbbimizi bütün bu bənzətmələrdən uca tuturuq.

# XRİSTİANLARIN BU ƏSASSIZ İDDİANI ORTAYA ATMASININ SƏBƏBİ NƏ OLA BİLƏR?

Üçləmə inancı ortaya çıxdığı illərdən bu günədək demək olar ki, hər dövrdə böyük mübahisələrə səbəb olub və bu mübahisələr XVIII əsrdən etibarən daha geniş sahələrə yayılıb. Bu illərdə başlayan Müqəddəs-Kitab tədqiqatları insanları əvvəlcə üçləmə inancının nəyə görə İncildə aydın şəkildə yer almadığını, sonra da onun hansı şəraitdə ortaya çıxdığını araşdırmağa istiqamətləndirib. **Hal-hazırda da müxtəlif ilahiyyatçılar, alimlər, tədqiqatçılar, yazarlar və müstəqil xristian cərəyanları üçləmə və kəffarə etiqadı başda olmaqla bir çox ənənəvi xristian inanclarını rədd edirlər.** Sonrakı fəsillərin birində nümunələrini araşdıracağımız bu şəxslərin və cərəyanların bir qismi üçləmə etiqadının qarşısında dayanan ariusçuların anlayışını qoruyub saxlayır, fikirlərini isə Müqəddəs-Kitabla və ilk xristianlıqdan qalma əsərlərlə bağlı araşdırmalarla əsaslandırırlar.

Hz.İsadan bir neçə əsr sonra təşkil olunmuş İznik və Kadıköy məclislərində verilən qərarların ardınca üçləmə inancı xristianlığın əsası halına gətirilib, bu böyük səhvə inanmamaq isə imansızlıq kimi qəbul edilib. Buna görə də üçləmə inancının Allaha bir və tək olaraq iman gətirənlərin düşüncəsinə zidd bir təlim olduğuna inanan, **üçləmənin İncillərdə yer almadığını deyib buna əsaslanan yaxud da bu məsələdə şübhəsi olan insanlar ya susdurulub, ya da zorla təslim ediliblər.** Theodore Zahn (Teodor Zan) özünün *"Articles of Apostolic Creed"* ("Həvari inanclarının maddələri") adlı əsərində "Bizim eranın 180-210-cu illəri arasında "Bir və tək olaraq Allaha iman" sözünün əvvəlinə "Ata" sö-

zünün əlavə edildiyini" söyləyir. Zan bu vəziyyətin əvvəllər bir çox kilsə rəhbərlərinin etirazı ilə qarşılandığını və bu rəhbərlərin "həyata keçirilən işlərin müqəddəs mətnlərdə olmayan inanclar törətmək olduğunu" söylədiklərini bildirir.[45] Özünün İncilə dair araşdırmaları ilə tanınan Duncan Heaster (Danken Hester) isə 1988-ci ildə üçləmə mövzusu ilə bağlı bir polemikada öz fikirlərini belə ifadə etmişdir:

> **"Üçləmə bizə qavranılması mümkün olmayan bir Tanrı etiqadı təqdim edir.** Və bu inanc Tanrının açıq və başadüşülən sözləri ilə tamamilə ziddiyyət təşkil edir. Hər hansı biriniz Allahın eyni anda "həm üç, həm də bir" olması iddiasını başa düşə bilərsinizmi? Və ya "doğulmamışdan əvvəl də mövcud olan bir oğul" inancı ağlınıza batırmı? Mən üçləmə etiqadının Allahın sözündə heç bir şəkildə yer almadığını söyləyirəm. İncildə "üçləmə" ifadəsi bircə dəfə də qeyd edilmir. **Hamımız çox yaxşı bilirik ki, bu inanc xristianlığa III əsrdə əlavə edilib...** "Tanrı" sözü İncildə 1300 dəfə qeyd edilir və bu İncil mətnlərinin heç bir yerində "Tanrı" ifadəsi altında nə çoxluq, nə də üçləmə nəzərdə tutulmur, buna heç işarə də edilmir, hətta tam əksinə, Allahın bir olduğu ifadə edilir... Üçləmə tərəfdarlarının haqqında bəhs etdiyi etiqad heç Əhdi-Ətiq mətnlərində də mövcud deyil".[46]

Heasterin bu sözləri çox aydın və birmənalıdır və hazırda onunla eyni fikirdə olan xeyli tədqiqatçı var. Məsələn, Yohn Hick (Con Hik) *"The Rainbow of Faiths"* ("İnancların göy qurşağı") adlı əsərində bu nəticələrə gəlir (aşağıdakı sitatlarda yer alan ifadələrdən Allaha sığınırıq):

> **1.** Son dövrlərdə aparılmış tədqiqatlara nəzər yetirəndə Hz.İsanın "özünün Tanrı və ya Müqəddəs üçləmənin ikinci şəxsi olan Tanrının oğlu" olduğunu öyrətmədiyini görürük. O bu inancın tam əksinə olaraq in-

sanlara həmişə özünün bir "insan oğlu" olduğunu öyrədib.

**2.** Xristian dini üzrə səlahiyyətli şəxslər və xristian ilahiyyatçıları Hz.İsanın həm tam bir Tanrı, həm də tam bir bəşər olması ilə bağlı ənənəvi xristian inancını başadüşülən tərzdə izah edə bilmirlər.

**3.** İnkarnasiya inancı xristianlığın başqa dini ənənələrlə və onların mənsubları ilə olan əlaqələrinə nəticələrinin aradan qaldırılması mümkün olmayan böyük zərərlər vurur. Çünki bu inanc xristianlığın başqa dinlərdən üstün olduğuna eyham edir.[47]

Burada bir məqamı da xüsusi vurğulamaq lazımdır. Bizim **bu kitabdakı məqsədimiz nə üçləmə etiqadını ilk dəfə ortaya atan şəxsləri, nə də üçləmə etiqadına inanan səmimi xristianları mühakimə etmək deyil. Məqsədimiz üçləmə etiqadı haqqındakı həqiqətləri Qur'an ayələrinin işığında ortaya qoymaq və bu etiqadın ortaya atılmasının mümkün səbəblərini müəyyən etməkdir.** Unutmaq olmaz ki, həqiqi müsəlmanlar Allahın göndərdiyi bütün elçilərə və kitablara iman gətirir, xristianların etiqad və dəyərlərinə hörmətlə yanaşırlar. Allaha ürəkdən iman gətirən, Allahdan qorxan, Allaha daxildən gələn səmimi bir sevgi ilə bağlanan və Onun müqəddəs elçisi Hz.İsaya dərin hörmət bəsləyən bütün xristianlara qarşı müsəlmanlar da böyük məhəbbət bəsləyir, onlarla xoş rəftar edir, onlara dostcasına və xoş niyyətlərlə yanaşırlar.

Üçləmə etiqadının ortaya atılmasında bədniyyət və mənfəətpərəst şəxslərin ola biləcəyi kimi xoş niyyətə sahib olub da zaman ötdükcə fərqində olmadan doğru yoldan sapınan insanların olması da mümkündür. Əvvəllər fərqli şəkillərdə ifadə edilən sözügedən etiqadın zaman keçdikcə dəyişdirilməsi, təhriflərə məruz qalması mümkündür. Üçləməyə oxşar iddiaları dəstəkləyən və onların qəbul edilməsində rol oynayan şəxs və cəmiyyətlərin də mütləq bir-bi-

rindən fərqli düşüncələri olub. Bəziləri Hz.İsanın üstün əxlaqını daha da qabartmaq məqsədilə, digərləri məcazi ifadələri səhv şərh edərək, başqaları mövcud siyasi və mədəni şəraitin təsirinə məruz qalaraq, bir başqaları da xristianlığın daha böyük sürətlə yayılmasını təmin etmək məqsədilə bu cür iddiaları öz aləmlərində səmimi niyyətlə dəstəkləmiş ola bilərlər. Buna görə də üçləmə iddiasını rədd edərkən onu da nəzərə almaq lazımdır ki, ilk xristianlar həmin dövrün tarixi, siyasi və mədəni şərtlərinin təsiri altına düşərək, yaxud da üzləşdikləri çətinlik və təzyiqlərin mənfi təsirlərinə məruz qalaraq səhv edə bilərdilər. Bu fəsildə üçləmə iddiasının ortaya atılmasında rol oynadığı güman edilən ehtimali səbəblər ortaya qoyulacaq.

**Qeyd:** *Bu fəsildə xristianların yanlış etiqadlarını ifadə etmək məqsədilə işlədiləcək hər cür batil ifadədən Allaha sığınır və Onu bunlardan uzaq tuturuq. Mübarək peyğəmbər Hz.İsanın da bütün bu bənzətmələrdən uzaq olduğunu bir daha ifadə etmək istəyirik.*

## İncildə "Oğul" sözündən üçləməni dəstəkləmək məqsədilə istifadə edilməyib

Üçləmə etiqadının əsasında Hz.İsanın "Allahın oğlu" olması (bundan Allaha sığınırıq) ilə bağlı səhv inanc dayanır. Halbuki xristianlığın yarandığı ilk illərdə və daha əvvəlki dövrlərdə "oğul" ifadəsinin necə və hansı məqsədlə işlədilməsi məsələsi tədqiq ediləndə ortaya çox fərqli bir mənzərə çıxır.

"Oğul" sözü İncildə Hz.İsa üçün 4 fərqli şəkildə işlədilir: Məryəmin oğlu, Davudun oğlu, insan oğlu (bəşər övladı), Allahın oğlu.

"Məryəmin oğlu" ifadəsi Hz.İsanın Hz.Məryəm tərəfindən dünyaya gətirildiyini, "Davudun oğlu" ifadəsi isə

Hz.İsanın İncilə görə Hz.Davudun nəslindən gəldiyini bildirir.

"İnsan oğlu" ifadəsi həm Hz.İsanın özünü necə tanıtmasının, həm də ətrafındakı adamların ona necə nəzər yetirməsinin aydınlaşdırılması baxımından çox əhəmiyyətlidir. Çünki İncil mətnlərində bu sözdən "Məsih" və "Allahın oğlu" ifadələri ilə müqayisədə daha çox istifadə edilir. "İnsan oğlu" kəlməsi yəhudi ilahiyyatına məxsus bir ifadədir və o, Əhdi-Ətiqdə, -xüsusilə də Məzmurlarda,-həddindən artıq çox işlədilib. Bu kəlmə həqiqətən də insanları ifadə edir və çox vərdiş edilmiş bir kəlmədir. Məsələn, Hezeikel peyğəmbərdən bəhs edilərkən **90 dəfə "insan oğlu"** ifadəsi işlədilib və o, insanlara ölümlü bir bəşər kimi tanıdılıb.

Bu ifadənin arami dilindəki qarşılığı olan "bar nash(a)" Hz.İsa dövründə də hər kəs üçün işlədilirdi, ancaq İncildəki "insan oğlu" ifadəsi yəhudilərin müqəddəs kitablarındakı kimi hər kəs üçün işlədilməyib, ondan yalnız Hz.İsaya işarə edən bir ünvan şəklində bir neçə dəfə istifadə olunub.[48] "İnsan oğlu" ifadəsi Matta, Mark və Lukada 69, Yəhya İncilində isə 13 dəfə zikr edilir. Təkcə bir yerdə bütün bəşəri ifadə etmək üçün istifadə olunur ("İbranilərə məktub", 2/6-8). Bu ifadə həm Hz.İsa üçün, həm də Hz.İsa tərəfindən bir neçə dəfə və "mən" mənasında işlədilib. Həmin İncil fəsillərindən bəziləri bunlardır:

> "Hamı da Allahın əzəmətinə təəccübləndi. Və hamı İsanın etdiyi bütün işlərə heyrətlənərkən, o öz şagirdlərinə dedi: "Bu sözlər sizin qulaqlarınızda qalsın", -dedi. "İnsan oğlu insanların əlinə təslim ediləcək"" ("Lukanın İncili", 9/43-44).
>
> "...Yunis Nineviya əhalisinə necə əlamət oldusa, insan oğlu da bu nəsil üçün elə əlamət olacaqdır" ("Lukanın İncili", 11/30).

"...Budur, Yerusəlimə qalxırıq və insan oğlu üçün peyğəmbərlər vasitəsi ilə yazılanların hamısı icra olunacaqdır..." ("Lukanın İncili", 18/31).

"İnsan oğlu doğrudan da qabaqcadan müəyyən edilmiş yoldan gedir. Amma vay o adamın halına ki, insan oğlu onun vasitəsi ilə ələ verilir" ("Lukanın İncili", 22/22).

"İsa hələ danışmaqda ikən bir izdiham göründü. Və onların qabağında on ikilərdən Yəhuda adlı birisi gəlirdi. O, İsanı öpmək üçün yaxınlaşdı. İsa isə ona dedi: "Yəhuda! İnsan oğlunu öpüşləmi satırsan?"" ("Lukanın İncili", 22/47-48).

Yuxarıda da bildirdiyimiz kimi, "insan oğlu" ifadəsi ilk xristianlar tərəfindən "bəşər" mənasında işlədilirdi. Çünki əksəriyyəti yəhudi olan ilk xristianlar bu ifadəni həmişə bu mənada işlədiblər və bu ifadəyə "bəşər"dən başqa bir məna əlavə edilməyib. Əhdi-Ətiqdəki ifadələr da bu fikri dəstəkləyir və Hz.İsanın Allahın yaratdığı, Allahın mərhəmətinə möhtac bir bəşər olduğunu ortaya qoyur.

İncildə qeyd edilən "Allahın oğlu" ifadələri isə üçləmə inancı tərəfdarlarının "istinad nöqtələri"ndən birini təşkil edir. Ancaq bu şərh xristian dünyasında əsrlər boyunca böyük mübahisələr doğurub və həmin mübahisələr bu günə qədər də gəlib çatıb. Çünki yəhudi mədəniyyətini dərindən bilən, Hz.İsanın yaşadığı dövrdə xalqın istifadə etdiyi dilin xüsusiyyətlərini araşdıran hər bir tədqiqatçı bu ifadənin məcazi bir məna daşıdığını bildirib. Məsələ ilə bağlı geniş yayılan qənaət belədir: **"Allahın oğlu" kəlməsi yəhudi cəmiyyətində geniş yayılan və nüfuzlu şəxslər üçün tez-tez işlədilən məcazi bir ifadə forması idi".**

1977-ci ildə aralarında anqlikan ilahiyyatçılarının da olduğu 7 nəfər İncil mütəxəssisi *"The Myth of God Incarnate"* (""Tanrı insan şəklini aldı" əfsanəsi") adlı bir kitab nəşr et-

dirdi. Bu kitabın çox böyük təsiri oldu. Redaktor Yohn Hick ön sözdə bunları qeyd edirdi:

"Bu kitabın müəllifləri XX əsrin bu son dövründə din sahəsində böyük bir inkişafın baş verməsinin vacibliyi məsələsində həmfikirdirlər. Bu ehtiyac hər şeydən əvvəl xristianlığın mənşəyi ilə bağlı məlumatların çoxalmasından qaynaqlanır. Bundan başqa, bu ehtiyac Hz.İsanın Allah tərəfindən xüsusi bir vəzifə və müqəddəs məqsədlə göndərilən bir insan olduğunu qəbul etməyə əsaslanır. **Və bu ehtiyac Hz.İsanın Allahın inkarnasiyası (insan şəklini alması) və üçləmə etiqadının ikinci şəxsi olması ilə bağlı inancın Hz.İsanın bizim üçün ifadə etdiklərinin lirik və mifoloYi bir ifadə forması olmasını qəbul etməyə əsaslanır.**[49]

Yohn Hickin öz kitabında müxtəlif dəlillərə əsaslanmaqla üzərində dayandığı həqiqət "Tanrının oğlu" ifadəsinin tamamilə Hz.İsadan sonra ortaya atılan bir inanc olması və Hz.İsanın heç vaxt belə bir inancı təbliğ etməməsidir.[50]

"Hz.İsa daha sonra yaşayan xristianların düşündükləri kimi özü haqqında heç vaxt tanrılıq iddiasında olmayıb. O, özünü heç vaxt Tanrı, Tanrının oğlu və yaxud da inkarnasiyası kimi görmürdü... Hz.İsanın özü haqqında bu fikirdə olmasını düşünmək əsla mümkün deyil. Həmçinin o bu məsələ ilə bağlı fikri inkar kimi qəbul edib: ona məxsus olduğu söylənən bu söz bunu açıq-aşkar ortaya qoyur: "Nə üçün məni Tanrı adlandırırsan? Allahdan başqa tanrı yoxdur" ("Mark İncili", 10/17-18). Təbii ki, Hz.İsanın nəyi deyib-deməməsi ilə bağlı qəti söz söyləmək mümkün deyil. Ancaq mövcud dəlillər tarixçilərin Hz.İsanın belə bir iddiada olmadığını yekdilliklə qəbul etməsini təmin edib".[51]

Yəhudilərin çox geniş şəkildə istifadə etdiyi "Allahın oğlu" ifadəsi məcazi olaraq "Allaha məxsus" mənasına gə-

lirdi. Bu fikrə görə, bir nəfərə "Allahın oğlu" deyiləndə həmin adamın Allaha yaxın olmasının, onun Allaha könüldən xidmət etməsinin və Allahın razı olacağı bir həyat yaşamasının ifadə edilməsinə çalışılırdı. Həmin adamın Allaha oxşar və ya bərabər statusa malik olması yaxud da tanrılıq xüsusiyyəti daşıması (bundan Allaha sığınırıq) heç bir halda nəzərdə tutulmurdu. Həmçinin yəhudilikdə də belə bir etiqadın yeri yoxdur.

Dolayısı ilə ilk xristianların da bu ifadə ilə Hz.İsaya bəslədikləri hörməti və onun Allaha yaxın edilmiş mübarək bir qulu olmasına dair qəti inamlarını ifadə etmək istəmələri mümkündür. Həmçinin bir çox xristian ilahiyyatçıları da "Hz.İsa üçün işlədilən "Allahın oğlu" ifadəsinin Hz.İsanın tərəfdarları tərəfindən onu şərəfləndirmək və ucaltmaq məqsədilə işlədildiyini söyləyərək həmin sözün məcazi mənaya gəldiyini" vurğulayırlar.

"Oğul" ifadəsi əslində ibrani dilində mövcud olan xüsusi bir deyim forması idi və o, başqa anlayışlarla birlikdə də işlədilirdi. Bir insanın bir şeyin "oğlu" kimi qeyd edilməsi onun həmin şeylə yaxın əlaqəsinin olması mənasına gəlirdi. «The Catholic Encyclopedia» ("Katolik ensiklopediyası") bu məsələ ilə bağlı aşağıdakıları yazır:

> "Samilər (yəhudilər və ərəblər) arasında "oğul" sözü yaxınlığı və yaxın əlaqəni yaxud da xüsusi bağlılığı ifadə etmək üçün istifadə edilirdi. Məsələn, "gücün oğlu" qəhrəman bir döyüşçü demək idi; "pisliyin oğlu" pis bir adam; "qürurun oğlu" təkəbbürlü adam; "mal-mülkün oğlu" imkanlı adam; "fidyənin oğlu" əsir; "ildırımın oğlu" çox sürətli uçan quş; "ölümün oğlu" öləcəyi gözlənilən adam; "yayın oğlu" ox; "Belilalın oğlu" lənətlənmiş bir adam mənasına gəlirdi. "Peyğəmbərlərin oğlu" kəlməsindən həmin peyğəmbərlərə tabe olan insanları tanıtmaq üçün istifadə olunurdu. "Tanrının oğlu" sifəti isə Əhdi-Ətiqdə Allahla yaxın əlaqəsi olan-

lar üçün işlədilir, mələklər yaxud da sadəcə dindar insanlar "Tanrının oğlu" kimi qeyd edilirdilər".[52]

Türkiyənin 19 May Universitetinin ilahiyyat fakültəsinin dosenti dr.Mahmud Aydın Yohn Hick-in bu məsələ ilə bağlı fikirlərini belə izah edir:

"...Belə bir ifadə Hz.İsanın gəldiyi dövrdə çox işlədilən və camaat arasında mühüm şəxslər haqqında tez-tez işlədilən bir ifadə forması idi. Dolayısı ilə Hz.İsanın həvariləri də bu ifadəni, yəni "Allah oğlu" sifətini qəbul edərək onu asanlıqla öz rəhbərləri, yəni Hz.İsa üçün işlədiblər. Buna görə də Hz.İsa eynilə Davudun nəslindən gələn krallar və yəhudi cəmiyyətində yaşayan, din və əxlaq baxımından son dərəcə nüfuzlu sayılan şəxsiyyətlər kimi "Allahın oğlu" adlandırılıb. Hickin fikrinə görə, yəhudi düşüncəsində "Allahın oğlu" sifəti verilən krallar və nüfuzlu adamlar sözün hərfi mənasında heç vaxt Allahın oğulları sayılmayıblar. Ancaq onlar malik olduqları xüsusiyyətlərə uyğun olaraq sadəcə ucaldılmaq məqsədilə Allahın oğulları kimi şərəfləndiriliblər. Yəni sözügedən bu sifət yəhudi düşüncəsində heç vaxt hərfi mənada işlədilməyib. "Allahın oğlu" ifadəsi yəhudi tarixi boyunca yalnız insanlar haqqında işlədilib. Məsələn, Məsih sülalə krallarının Allahın oğlu kimi qəbul edildiyi Hz.Davud sülaləsindən gəlməsi lazım sayılan dünyəvi bir kral olaraq qəbul edilirdi... Hz.İsanın tərəfdarları da mövcud olan bu təbirləri çox rahatlıqla onun üçün də işlədiblər. Hz.İsanın ilahi xüsusiyyətlərə sahib bir varlıq kimi qəbul edilməsi ilk növbədə onun yaşadığı mədəniyyətin bir nəticəsidir. Buna görə də Hz.İsanın gəldiyi dövrdə bəzi mühüm özəlliklərə malik olan insanlar məcazi mənada ilahi xüsusiyyətlərə malik "Allah oğlu" kimi təqdim edilir və tanınırdı".[53]

Mahmud Aydın Yohn Hickin bu məsələ ilə bağlı fikirlərinə geniş yer ayırandan sonra "Allahın oğlu" ifadəsindən istifadə edilməsi haqqında bunları bildirir:

> "Nə Hz.İsanın şəxsən özü tanrı olduğunu iddia etməyib, nə onun həvariləri onun tanrılığını, nə də tanrıya məxsus xüsusiyyətlərə malik olduğunu bildirməyiblər. Əksinə, Hz.İsanın tanrı olması fikri ilk xristian cəmiyyəti arasında ortaya çıxıb və zaman ötdükcə sistemləşdirilərək ehkam halına gətirilib. Bu ehkam ilahi oğulluq ifadələrinin dövr keçdikcə yəhudilərin işlətdiyi mənadan uzaqlaşıb Ellin Roma mədəniyyətinə uyğun şəkildə işlədilməsi nəticəsində ortaya çıxıb".[54]

Əhdi-Cədid araşdırmaçılarından biri, ilk xristianlığın mənbələri ilə bağlı müxtəlif əsərlərin müəllifi olan P.M.Casey (Keysi) isə "Hz.İsa onun xüsusi və çox dindar bir adam olduğunu düşünənlər tərəfindən Tanrının oğlu adlandırılmış ola bilər" deyir.[55] Caseyin üzərində ayrıca dayandığı başqa bir məsələ isə yəhudi ənənəsində fərdlərin və cəmiyyətin nəzərində mühüm sayılan şəxs və hadisələrin mifoloYi və məcazi anlayışlarla ifadə edilməsi faktıdır.[56]

Yəhudi etiqadlarında mövcud olan "Məsih" anlayışına görə sadəcə bir kral olan Məsih Hz.Davudun nəslindən gələcəkdi. Hz.Davudun nəslindən gələn krallar da "Krallıq məqamına təyin edilmiş mənasında Tanrının oğulları olaraq" qəbul edilirdilər...[57] Hz.İsaya "Məsih" kimi iman gətirən adamlar da bu inamın bir davamı kimi onu eyni ifadə ilə adlandırmış ola bilərlər.

f.E.P.Sanders də "The Historical Figure of Yesus" ("Hz.İsanın tarixi portreti") adlı əsərində "Allahın oğlu" ifadəsinin yəhudi cəmiyyətində heç vaxt sözün hərfi mənasında işlədilmədiyinə diqqət çəkir. Sanders yəhudilər arasında işlədilən "Allahın oğulları" ifadəsinin qadın və kişiləri də əhatə edən mənəvi bir anlamı ifadə etdiyini söyləyir: "Bu, yəhudilər üçün məcazi bir mənanı ifadə edir və Allaha olan

bağlılığı göstərir".[58] E.P.Sanders "Allahın oğlu" ifadəsinin ilk xristianlar tərəfindən işlədilməsini bu cür şərh edir:

> "...İlk xristianlar Hz.İsa barədə "Allahın oğlu" ifadəsini işlətdilər, ancaq onlar onun yarıinsan-yarıtanrı olduğunu düşünmürdülər. Onlar "Allahın oğlu" sözünü yüksək bir vəzifə hesab etmişdilər... Hz.İsanın ilk tərəfdarları onu "Allahın oğlu" deyə çağıranda daha mücərrəd bir vəziyyəti, məsələn, çox vacib bir işi yerinə yetirə bilməsi üçün onu seçən Allahla xüsusi bir əlaqənin olması kimi vəziyyəti ifadə etmək istəmiş ola bilərlər. Yəhudi olmayan xristianlar isə bu dini ilk dəfə qəbul edəndə "Allahın oğlu" ifadəsini Makedoniyalı İsgəndərlə bağlı hekayələrin yaxud da elə öz mifologiya və əfsanələrinin işığında başa düşmüş ola bilərlər..."[59]

Sandersin də ifadə etdiyi kimi, Hz.İsanın təbliğinin yəhudilərdən yəhudi olmayanlara, yəni bütpərəst romalılara ötürülməsi ilə birlikdə məcazi mənada işlədilən bu kəlmənin anlamı dəyişməyə və o, Hz.İsanın "tanrı" olmasını ifadə edən bir mənada istifadə edilməyə başlanıb. Bununla da ilk xristianlar tərəfindən Məsih kimi tanınan və tamamilə bəşəri təbiətə malik bir şəxsiyyət olaraq qəbul edilən Hz.İsa tanrı kimi xatırlanıb (bundan Allaha sığınırıq). William C.Varner (Uilyam) bir məqaləsində bu ifadənin xristianlar tərəfindən necə başa düşüldüyünü belə araşdırır:

> "İncildə Hz.İsaya iman gətirən hər bir kəsin "Allahın oğlu" şəklində tanıdılması inkaredilməz bir həqiqətdir ("Yəhya İncili", 1/12). Elə isə mənim "Allahın oğlu" olmağımla Hz.İsanın "Allahın oğlu" olmasında necə fərq ola bilər? "Allahın oğlu" kəlməsi Hz.İsanın həqiqətən də tanrılığının bir ifadəsidir, yoxsa xristianlar İncildə nəzərdə tutulanlardan daha artığını oxuyurlar? Bu suala cavab verə bilmək üçün xristianlıq mesaYını ilk dinləyənlərin və ilk oxuyanların bu ifadəni necə başa

düşdüklərini araşdırmaq lazımdır. Bəs bu adamlar kimlərdir? Ümumi mənada götürsək, onlar yəhudilər və yəhudi olmayanlar idi. Hər iki qrup da "Allahın oğlu" ifadəsini I əsrin dilçilik səviyyəsi və mədəni şəraitində həmişə işlədirdi".[60]

Üçləmə tərəfdarları İncildə qeyd olunan "oğul" ifadəsini "ucaltmaq, şərəfləndirmək və hörmət etmək" mənasında şərh etməyi qəbul etmirlər. Halbuki sözügedən məfhum İncilin əksər yerlərində açıq-aşkar bu mənada işlədilib. Məsələn, "Tanrının oğulları" ifadəsi Allaha iman gətirən və Hz.İsanın yolu ilə gedən bütün səmimi iman sahibləri haqqında işlədilir:

"Mən isə sizə deyirəm: **Düşmənlərinizi sevin, sizə lənət oxuyanlara xeyir-dua verin, sizə nifrət edənlərə yaxşılıq edin, sizə əziyyət verib, təqib edənlər üçün dua edin ki, siz göylərdə olan Rəbbinizin oğulları olasınız.** Çünki O, Öz günəşinə əmr edir ki, pis və yaxşı adamların üzərinə doğsun; və saleh olanlarla olmayanların üzərinə yağışlar göndərir.

Çünki əgər sizi sevənləri sevərsinizsə, sizə nə mükafat olacaq? Vergi yığanlar da belə etmirlərmi? Və yalnız qardaşlarınızı salamlayarsınızsa, xüsusi bir şey edirsinizmi? Bütpərəstlər də elə etmirlərmi? Beləliklə, səmavi Rəbbiniz kamil olduğu kimi siz də kamil olun" («Matta İncili», 5/44-48).

"**Allahın Ruhu ilə idarə olunanların hamısı Allahın oğullarıdır**" ("Pavelin romalılara məktubu", 8/14).

"Hər şeyə qadir olan Rəbb deyir: "**Mən sizə Allah olacağam, siz də Mənim oğullarım və qızlarım olacaqsınız**"" ("Pavelin korinflilərə ikinci məktubu", 6/18).

"...Mükafatınız böyük olacaqdır və siz Haqq-Təalanın oğulları olacaqsınız. Çünki O, nankorlara və pis adamlara qarşı da xeyirxahdır" ("Lukanın İncili", 6/35).

Yuxarıdakı nümunələrdən də göründüyü kimi, "Allahın oğulları" ifadəsi İncil ayələrində çox yerdə işlədilib. Burada işlədilən ifadələrdəki məna isə yəhudi mədəniyyətindəki məna ilə eynidir: Allaha dost olan, Allaha yaxınlaşmaq üçün səy göstərən, Allahın qanunlarına uyğun olaraq yaşayan insanlar... Luka İncilində həmçinin Hz.Adəmdən də *"Allahın oğlu idi"* ("Luka İncili", 3/38) şəklində bəhs edilir. İncildə olduğu kimi Əhdi-Ətiqdə də "Allahın oğlu" ifadəsi bir neçə yerdə işlədilib. Məsələn, Əhdi-Ətiqdə İsrail milləti üçün "oğul" təbirindən istifadə olunur:

**"İsrail uşaq olarkən onu sevdim və oğlumu Misirdən çağırdım"** ("Hoşea", 11/1).

Başqa bir Tövrat ayəsində eyni ifadə mələkləri tərif etmək üçün işlədilib:

**"Və Allah oğulları Rəbbin qarşısında özlərini təqdim etməyə gəldikləri gün aydın oldu ki, onların arasında şeytan da gəldi"** ("Əyyub", 1/6).

"Çıxış" fəslinin 6-cı hissəsinin başlanğıcında "Allahın oğulları" ifadəsi ilə yer üzündə çoxalan insanlar tərif edilir. Bununla bağlı digər ayələr isə belədir (sitatlardakı ifadələrdən Allaha sığınırıq):

**"Və Firona deyəcəksən: Rəbb belə deyir: "İsrail oğlum, ilkimdir""** ("Çıxış", 4/22).

**"Ağlayaraq gələcəklər. Yalvardıqca onlara yol göstərəcək, onları sulu vadilərin yanında, çaşmayacaqları düzgün yolla yeridəcəyəm, çünki Mən İsrailə Rəbbəm, Əfraim də ilk oğlumdur" ("Yeremya", 31/9).**

**"Fərmanı elan edəcəyəm; Rəbb mənə (Davud) dedi: "Sən Mənim oğlumsan, Mən səni bu gün yaratdım""** ("Məzmurlar", 2/7).

Tövratda Hz.Süleyman haqqında da "Allahın oğlu" ifadəsi işlədilir. Müvafiq parçalar belədir:

**"Və baş verəcək ki, günlərin dolub atalarınla birlikdə olmaq üzrə getdiyin zaman səndən sonra oğulla-**

**rından olacaq züryətini saxlayacağam və onun hakimiyyətini gücləndirəcəyəm. O, Mənə ev inşa edəcək və Mən onun taxtını əbədi olaraq qüvvətləndirəcəyəm. Mən ona Rəbb olacağam və o, Mənə oğul olacaq. Və səndən əvvəl olandan köməyimi geri qaytardığım kimi ondan geri almayacağam. Və onu Öz evimdə və Öz səltənətimdə həmişə saxlayacağam və onun taxtı əbədiyyən güclənəcəkdir"** ("Birinci Tarixlər", 17/11-14).

"Allahın oğlu" adı altında qeyd edilən bu mübarək insan Hz.Davudun oğullarından biri olan Hz.Süleymandır.

**"(Və Davud oğlu Süleymana dedi:) "...Sənə bir oğul doğacaq, o, barış adamı olacaq və ona ətrafındakı bütün düşmənlərindən rahatlıq verəcəyəm. Çünki onun adı Süleyman olacaq. Və onun günlərində İsrailə salamatçılıq və əmin-amanlıq verəcəyəm. Mənim adıma ev inşa edən o, olacaq və o, Mənə oğul olacaq və Mən ona Rəbb olacağam. İsrail üzərində hakimiyyətinin taxtını əbədi olaraq gücləndirəcəyəm. İndi oğlum, Rəbb səninlə birlikdə olsun və işin yaxşı getsin və Allahın - Rəbbin evini sənin haqqında söylədiyi kimi et!""** ("Birinci Tarixlər", 22/9-11).

Yenə eyni hissədə belə buyrulur:

**"Bütün oğullarımdan (çünki Rəbb mənə çox oğul verdi) Rəbbin İsrail üzərində səltənətin taxtına oturmaq üçün oğlum Süleymanı seçdi. Və mənə dedi: "Oğlun Süleyman, evimi və həyətlərimi o, tikəcək, çünki onu Özümə oğul seçdim və Mən ona Rəbb olacağam. Və əgər bu gün olduğu kimi əmrlərimi və hökmlərimi yerinə yetirmək üçün sabitqədəm olarsa, onun hakimiyyətini əbədi olaraq gücləndirəcəyəm""** ("Birinci Tarixlər", 28/5-7).

Yuxarıdakı bütün açıqlamalar yəhudi ənənəsində "Allahın oğlu" ifadəsinin "Allahı özünə dost qəbul etmiş səmi-

mi və təqva sahibi" bəndələr barədə işlədildiyini bütün aydınlığı ilə göstərir. Dolayısı ilə bu ifadə Hz.İsa üçün də eyni məqsədlə işlədilib. Bu ifadə eynilə Hz.Süleyman və Hz.Adəmlə bağlı açıqlamalarda da olduğu kimi yəhudi ənənələrindən qaynaqlanan məcazi bir söz birləşməsidir. Bu ifadə yəhudi mədəniyyəti ilə tərbiyələnib yetişən, Tövratdan xəbərdar olan və Hz.İsaya tabe olana kimi yəhudiliyin əsaslarını tətbiq edən ilk xristianlar tərəfindən də hörməti, təqvanı və Allaha yaxınlığı ifadə etmək üçün seçilmişdi.

"Allahın oğlu" ifadəsinin üçləmə etiqadına bir istinad nöqtəsi və təməl ola bilməyəcəyini göstərən başqa bir dəlil isə İncildə Allahın adının qeyd edilməsi ilə bağlıdır. Antony Buzzard (Entoni Byuzard) İncildə Allahın adının nə şəkildə işlədildiyini *"Who is Yesus? Do the creeds tell the truth about him?"* ("Hz.İsa kimdir? Etiqadlar bizə onunla bağlı həqiqəti söyləyirmi?") sərlövhəli məqaləsində bunları bildirir:

> "Tanrı sözü Müqəddəs Kitabda minlərlə dəfə ismin tək halında olan şəxs əvəzlikləri ilə ifadə edilir: Mən, Mənə, Məni, Sən, Sənə, O, Ona, Onu... Bir nəfər bu əvəzliklərin 11.000 dəfə qeyd edildiyini hesablayıb. Bütün dillərdəki əvəzliklər üç şəxsi deyil, tək şəxsləri ifadə edir. Bizə Allahın üç deyil, bir varlıq olduğunu anladan minlərlə ayə var. Əhdi-Cədiddəki Allah adının "Allahın üç şəxsdə olduğu" mənasına gəldiyini sübut edə biləcək heç bir yer yoxdur. Buna görə də Müqəddəs Kitabdakı Allah adı heç vaxt üçləmə prinsipindəki Allah mənasına gəlmir".[61]

Bu fəsildə də vurğuladığımız kimi, "oğul" ifadəsi yəhudi mədəniyyətində çox geniş istifadə edilən və tanrılıq mənasına gəlməyən bir ifadədir. Dolayısı ilə yəhudi etiqadlarına görə, Hz.İsanın "Allahın oğlu" olduğunu fikirləşərək bu ifadəni işlədənlər, bu müqəddəs peyğəmbərin Allahla eyni gücə sahib olduğunu iddia edənlər (bundan Allaha sı-

ğınırıq) çox böyük səhv edirlər. İslam dinində də bu ifadədən Hz.İsaya tanrılıq nisbət edərək istifadə edənlər Qur'an ayələrində çox yerdə tənbeh olunur və onlara xəbərdarlıq edilir. Bu sözlər Allah dərgahında çox böyük günahdır. Rəbbimiz "Maidə" surəsində belə buyurur:

> **""Allah Məryəm oğlu Məsihdir", - deyənlər, şübhəsiz ki, kafir oldular. Onlara de: "Əgər Allah Məryəm oğlu Məsihi, anasını və yer üzündə olanların hamısını məhv etmək istəsə, bu işdə kim ona bir şeylə mane ola bilər? Göylərin, yerlərin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir. O, istədiyini yaradar. Allah hər şeyə qadirdir!" ("Maidə" surəsi, 17).**

## İncildə "Ata" sözünün işlədilməsi

İncildə tez-tez işlədilən və üçləmə etiqadını müdafiə edən xristian ilahiyyatçıları tərəfindən mühüm bir dəlil kimi qəbul edilmiş ifadələrdən biri "Ata" sözüdür (xristianların yanlış etiqadlarını əks etdirmək məqsədilə işlədilən hər cür ifadədən Allaha sığınırıq). Halbuki bu ifadə də yenə "oğul" sözü kimi məcazi mənada işlədilib. İncildə bu kəlmənin təkcə Hz.İsa tərəfindən deyil, iman sahibi olan, Allahdan qorxan, Allaha dua edib Ondan kömək istəyən bütün insanlar tərəfindən də işlədilməsinin şahidi olmaq mümkündür. "Ata" ifadəsi ilə Allahın bu insanların tək sahibi, tək dostu və himayədarı olması ifadə edilir. Burada üçləmə inancını dəstəkləyən heç bir məna yoxdur.

Bu ifadələrdən bəziləri belədir:

"**...Ata məndən üstündür**" ("Yəhyanın İncili", 14/28).

"**Siz göylərdə olan Atanızın oğulları olasınız.** Çünki O Öz günəşinə əmr edir ki, pis və yaxşı adamların üzərinə doğsun və saleh olanlarla olmayanların üzərinə yağışlar göndərir" («Matta İncili», 5/45).

"...Qardaşlarımın yanına get və onlara söylə: **Mənim Atamın və sizin Atanızın, mənim Allahımın və sizin Allahınızın yanına qalxıram"** ("Yəhyanın İncili", 20/17).

**"O zaman salehlər Atalarının səltənətində günəş kimi parlayacaqlar..."** («Matta İncili», 13/43).

**"Sən isə dua etdiyin zaman öz otağına gir və qapını bağlayaraq, gizlində olan Atana dua et; gizlini görən Atan sənə açıqcasına əvəzini verəcəkdir"** («Matta İncili», 6/6).

**"Atanız sizin nələrə ehtiyacınız olduğunu siz Ondan diləmədən əvvəl bilir"** («Matta İncili», 6/8).

**"...Səmavi Atanız da bütün bu şeylərə ehtiyac duyduğunuzu bilir.** Lakin əvvəlcə Allahın səltənətini və Onun salehliyini axtarın və bunların hamısı sizə əlavə olaraq veriləcəkdir" («Matta İncili», 6/32-33).

"Qoy sizin nurunuz insanların qarşısında elə parlasın ki, xeyirxah işlərinizi görsünlər **və Göylərdəki Atanıza həmd etsinlər"** («Matta İncili», 5/16).

"Ehtayatlı olun, insanlara **özünüzü göstərmək üçün yaxşılıq etməyin; yoxsa səmavi Atanızdan mükafat almazsınız"** («Matta İncili», 6/1).

"Buna görə siz belə dua edin: **"Ey göylərdə olan Atamız, adın müqəddəs tutulsun""** («Matta İncili», 6/1).

"Çünki insanların təqsirlərini bağışlasanız, **səmavi Atanız sizi də bağışlar"** («Matta İncili», 6/1).

**"Atanız necə mərhəmətli isə siz də elə mərhəmətli olun"** ("Lukanın İncili", 6/36).

İncildən sitat gətirilən yuxarıdakı ayələr diqqətlə tədqiq ediləndə Allahı qeyd etmək məqsədilə işlədilən "Ata" sözünün hörmət mənasına gəldiyi, bunu işlədən insana fövqəlbəşər bir status vermədiyi və onun bütün insanlar üçün qüvvədə olduğu aydın olur. Bu ifadə ilə Hz.İsa ilə Allah arasındakı xüsusi bir əlaqə ifadə edilməyib, Allaha təslim

olub Onun razı olacağı şəkildə yaşayan bütün insanlara xitab edilib. Həmçinin bu gün də xristianlar öz dualarına çox vaxt "Ata" deyə başlayırlar. Hz.İsanın İncillərdə qeyd edilən buna oxşar duaları da fərqli şəkildə yozulmamalıdır. Ancaq yenidən vurğulamaq lazımdır ki, bu açıqlamalar Hz.İsanın tanrı olduğunu söyləmək məqsədilə "Ata" ifadəsini işlədən insanların səhvini aradan qaldırmır. Onların bu əməlləri Allahın yanında çox böyük xətadır və Qur'an ayələrində bu adamların vəziyyəti belə xəbər verilir:

> **"Şübhəsiz ki: "Allah Məryəm oğlu Məsihdir!" - deyənlər kafir oldular. Halbuki Məsih belə demişdi: "Ey İsrail oğulları! Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin! Allaha şərik qoşana Allah, şübhəsiz ki, cənnəti haram edər. Onun düşəcəyi yer cəhənnəmdir. Zalımların heç bir köməkçisi yoxdur!"" ("Maidə" surəsi, 72)**

Müqəddəs Kitabda qeyd edilən müxtəlif ifadələrdə Rəbbimizin sonsuz güc və qüdrəti, Onun bütün nöqsan və qüsurlardan uzaq olması bütün aydınlığı ilə vurğulanır. Yohn Hick bu məsələni bir müsahibəsində belə ifadə edir:

> "Klassik xristian ilahiyyatı Hz.İsanın vəfatından uzun bir müddət sonra təkmilləşdirildi. Müasir tarixi-tənqidi Əhdi-Cədid tədqiqatları bizi əlimizdə olan Əhdi-Cədid mətnlərində Hz.İsanın adına çıxılan sözlərin hansılarını həqiqətən də Hz.İsanın söyləyə biləcəyi məsələsində bilgiləndirməyə çalışır... (İncillərdə qeyd edilən) "Ata" ifadəsinin literal (sözün hərfi mənasında) şəkildə başa düşülməsi mümkün deyil. Həmçinin Hz.İsanın "Tanrının oğlu" olması ifadəsini də hərfi mənada başa düşə bilmərik. Əhdi-Ətiqdə "Tanrının ifadəsi" çox yerdə qeyd edilir. Məsələn, Adəm Tanrının oğludur, mələklər Tanrının oğlanlarıdır, İsraik hökmdarları Tanrının oğullarıdır və nəhayət, İsrail milləti bir tam halında Tanrının oğullarıdır. Açıq gö-

rünür ki, bu ifadələrdəki "Ata" və "oğul" qavramları hərfi mənanı ifadə etmir, ancaq Tanrı-insan əlaqəsinin metaforik mənasını simvolizə edir. Əlavə edək ki, bu ifadələri hərfi mənada başa düşməyə çalışmaq yəhudilikdə böyük günah sayılır. Hz.İsanın dövründə bu cür metaforik ifadələr mövcud idi. Hər hansı bir Tanrıya özünü həsr etmiş hər hansı bir adamın metaforik mənada "Tanrının oğlu" kimi ifadə edilməsi həmin dövrdəki ümumi dini mənada işlədilənlərin bir hissəsi kimi qəbul edilə bilər. Qısası, "oğul" ifadəsi Tanrıya yaxınlığın rəmzi bir ifadəsi olur. Başa düşdüyüm qədər müsəlmanları narahat edən məsələ bu ifadənin hərfi mənada başa düşülməsidir. Eynilə bir xristian olaraq mən də bu cür hərfi mənadan narahat olduğumu bildirməliyəm".[62]

İncildə məcazi mənalarda başa düşülməsi lazım gələn çoxsaylı açıqlamalar var. "Allahın oğulları" ifadəsi də bunlardan biridir:

"...Dirilmə oğulları olduqlarından onlar **Allahın oğullarıdır**" ("Lukanın İncili", 20/36).

"Onu qəbul edənlərin hamısına, Onun adına iman edənlərə isə **Allahın oğulları** olmaq haqqını verdi" ("Yəhyanın İncili", 1/12).

"O, bu sözləri özündə demədi, lakin o il baş kahin olduğu üçün peyğəmbərlik edib, qabaqcadan xəbər verdi ki, İsa xalq uğrunda və yalnız xalq uğrunda deyil, **Allahın pərən-pərən salınmış övladlarını** da bir yerə toplamaq naminə öləcəklər" ("Yəhyanın İncili", 11/51-52).

"Elə həmin ruh bizdəki ruha şəhadət edir ki, biz **Allahın övladlarıyıq.** Və əgər övladıyıqsa, deməli, **Allahın varisləriyik;** və əgər Məsihlə bərabər izzət qazanmaq üçün Onunla iztirab çəkiriksə, Məsihin həmvarisləriyik" ("Pavelin romalılara məktubu", 8/16-17).

"Çünki xilqət **Allahın oğullarının** zühurunu böyük həsrətlə gözləyir" ("Pavelin romalılara məktubu", 8/19).

"Hər şeyi şikayətsiz və etirazsız icra edin ki, siz əyri və pozğun nəsil arasında nöqsansız və saf, **Allahın qüsursuz övladları** olasınız..." ("Pavelin filipililərə məktubu", 2/14-16).

"Görün Ata bizə necə bir məhəbbət göstərmişdir ki, Allahın övladları adlanaq və biz doğrudan da eləyik! Dünya bizi ona görə tanımır ki, Onu tanımamışdır. Sevimlilərim, indi biz **Allahın övladlarıyıq,** amma nə olacağımız hələ izhar olunmamışdır..." ("Yəhyanın birinci məktubu", 3/1-2).

"Kimin **Allahın övladı**, kimin də şeytanın övladı olduğu bundan bəlli olur: saleh iş görməyən, Allahdan deyildir, öz qardaşını sevməyən də həmçinin" ("Yəhyanın birinci məktubu", 3/10).

"Biz **Allahın övladlarını** sevdiyimizi, Allahın sevib, Onun əmrlərinə riayət edərkən bilirik" ("Yəhyanın birinci məktubu", 5/2).

Burada qeyd edilən nə "Ata", nə də "oğul" ifadəsi ilə insanlara tanrılıq keyfiyyəti verilməyib (bundan Allaha sığınırıq). Bu, aşkar bir məsələdir. Allaha itaət edən, Allaha sadiq, Allahı özünə dost seçən və ancaq Allahı razı etmək üçün yaşayan insanlar İncil açıqlamalarında "Allahın oğulları" şəklində ifadə ediliblər. İnsanlar Allaha yəhudi ənənəsindən gələn bu cür ifadələrin işlədilməsinin bir nəticəsi kimi sevgi və hörmət əlaməti olaraq "Ata" deyə yalvarıblar. Bu məcazi sözlər yəhudi dininin əsası olan *"Qulaq as, ey İsrail! Rəbb bizim Allahımızdır və Rəbb təkdir"* ("Təsniyə", 6/4) hökmünün gətirdiyi tövhid inamı ilə aydın olur.

## "Allah bütün insanların sahibidir"

**mənasında işlədilə bilər**

Hz.İsanın həvariləri və ilk xristianlar Hz.İsanın təlimindən keçib dərin iman, çox üstün əxlaq sahibi və Hz.İsanın Allah yolundakı köməkçiləri idilər. Buna görə də onlar başlarına gələn hər bir hadisəni, Hz.İsanın təbliğini dərin imanları ilə izah edirdilər. Onlar Allahın sonsuz güc və qüdrət sahibi olduğunu, bütün kainatın yeganə Maliki olduğunu, Allah istəməsə, heç bir şeyin var olmayacağını, heç kimin heç nəyə güc çatdıra bilməyəcəyini çox yaxşı bilirdilər. Buna görə də sahib olduqları dərin iman nəticəsində Hz.İsa üçün "Allahın oğlu" ifadəsini işlədərkən eyni cür fikirləşə bilərdilər. Onlar bütün ataların, bütün anaların və bütün oğulların Rəbbimiz tərəfindən yaradıldığını və hamısının sahibinin Allah olduğunu bildirmək istəmiş ola bilərdilər. Yaddan çıxarmaq olmaz ki, ana və ata bir övladın yaradılması üçün Allahın səbəb etdiyi vasitələrdir. Həqiqətdə isə kainatdakı bütün varlıqları yaradan yeganə güc aləmlərin Rəbbi olan Uca və Qadir Allahdır. Bu mənada bütün analar, bütün atalar, bütün oğullar Allaha məxsusdur. Hazırda üstündə oturduğumuz kreslo və ya stul əşya, içində olduğumuz bina, şəhərlər, ölkələr, millətlər yalnız Allaha aiddir. Bir çay varsa, o da Allahın çayıdır. Allahın dənizi, Allahın məscidi, Allahın kilsəsi, Allahın bulağıdır... Dolayısı ilə bütün oğullar da Allaha məxsusdur. Rəbbimiz bir insanı yaratmaq üçün bir anaya, bir ataya və ya başqa bir səbəbə ehtiyacı yoxdur. Onun bircə dəfə "Ol!" deməsi bəs edir. Bütün fiziki, bioloYi, kimyəvi qanunları yaradan yeganə güc Rəbbimizdir. Deməli, bir insanın yaradılması üçün "olmalı olduğu düşünülən" bütün qanunları və səbəbləri də Rəbbimiz yaradıb. Hz.Məryəmi də, kainatda gəlib-getmiş bütün anaları da, anaların doğuş sistemlərini yaradan da sonsuz güc və qüdrət sahibi olan Allahdır. Hər doğuş hadisəsini meydana gətirən Allahdır. Ananı da, atanı da yara-

dan Allahdır. Rəbbimiz hər cür qüsur, nöqsan və ehtiyacdan uzaqdır. Ayələrdə belə bildirilir:

**"Sizə qulaq, göz və ürək verən Odur. Siz çox az şükr edirsiniz. Sizləri yer üzündə yaradıb törədən Odur. Siz Onun hüzuruna cəm ediləcəksiniz. Dirildən də, öldürən də Odur. Gecə və gündüzün bir-birinin ardınca gedib-gəlməsi də Onun əmrilədir. Məgər dərk etmirsiniz?" ("Muminun" surəsi, 78-80).**

**"Sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan yaradan, sonra uşaq olaraq çıxardan, sonra kamillik çağına çatasınız, daha sonra qocalasınız deyə yaşadan Odur. İçərinizdə daha əvvəl öldürülənlər də var. Bütün bunlar müəyyən bir vaxta yetişəsiniz və, bəlkə, düşünüb anlayasınız deyə edilir. Dirildən də, öldürən də Odur. O bir işi qərara aldıqda ona ancaq: "Ol!" -deyər, o da dərhal olar" ("Mumin" surəsi, 67-68).**

**"Güldürən də ağladan da Odur! Öldürən də, dirildən də Odur! Hər bir cifti erkək və dişi yaradan Odur - Bir qətrə nütfədən axıb tökülərkən... Yenidən diriltmək də Ona aiddir!" ("Nəcm" surəsi, 43-47).**

"Şuəra" surəsində isə Hz.İbrahimin belə dua etdiyi xəbər verilir:

**"Məni yaradan və məni doğru yola yönəldən Odur! Məni yedirdən də, içirdən də Odur! Xəstələndiyim zaman mənə yalnız O şəfa verir. Məni öldürəcək, sonra dirildəcək Odur. Və qiyamət günü xətamı bağışlayacağına ümid etdiyim də Odur!" ("Şuəra" surəsi, 78-82).**

Yuxarıdakı ayələrin mahiyyətinə uyğun düşünəndə xristian məfhumları da məna qazanacaq. Hz.İsa, Hz.Musa, Hz.Salih, Hz.Nuh, Hz.Hud və Hz.Muhəmməd (s.ə.v.) Allaha məxsus olan bəndələrdir. Çünki bütün peyğəmbərlər Allahındır. Ayələrdə yəhudilərin Hz.Üzeyir haqqında "Alla-

hın oğludur" dedikləri bildirilir. Yəhudilər də, Hz.Üzeyir də Allaha aid olan bəndələrdir. Rəbbimiz anası, atası olmadığı halda Hz.Adəmi torpaqdan yaradıb. Mələkləri yaradan da aləmlərin Rəbbi olan Allahdır. Hz.Yəhyanın möcüzəvi şəkildə dünyaya gətirən də Allahdır. Bunun əksini söyləmək çox böyük yanlışlıq olardı. Təkcə Hz.İsa deyil, hər ana, hər ata, hər övlad Allahındır. Xristianlar da əvvəllər "Allahın oğlu" ifadəsini bu mənada işlətmiş ola bilərlər. Xristianlara məxsus olan bir internet saytında buna uyğun bir açıqlama qeyd olunur:

"Hz.İsa "Allahın oğludur" deyərkən onun əsla fiziki mənada bir oğul olmasından bəhs etmirik. Biz ancaq Hz.İsanın Allahdan gəldiyini söyləyirik... "Oğul" gündəlik işlətdiyimiz sözlərdə də tez-tez işlədilir. Əksər dillərdə bu söz fiziki mənada bir əlaqəni ifadə etmək üçün istifadə olunmur. Məsələn, tələbələr üçün "elmin övladları" şəklində bir məsəl var. Vətəndaşlar "ölkələrinin övladları"dır. Misirə "Nilin oğlu" deyilir. Bir ərəb "səhranın övladı" kimi qeyd edilir. Qur'anda "Bəqərə" surəsində də "yol oğlu" ifadəsi işlədilir. Təfsirçilər bu ifadənin "səyyah" mənasına gəldiyini bildirirlər. Buradan da aydın olduğu kimi, "Allahın oğlu" sözü insanların başa düşdüyü bir mənada qohumluq əlaqələrini ifadə etməyə bilər".[63]

Bəzi xristianlar "Allahın oğlu" ifadəsinin bir təcəlla kimi qəbul edilməli olduğunu söyləyirlər. Bu, başadüşülən bir açıqlamadır və Rəbbimizin Qur'an ayələrində bildirdiyi həqiqətlərə də uyğun gəlir.

Allah bütün kainatı yoxdan yaradan, bütün kainatda mütləq hakimiyyət sahibi olandır. Göylərin və yerin sahibidir. Allah bizə bizdən yaxındır. Rəbbimiz "Əraf" surəsində belə buyurur:

**"Musaya vəd etdiyimiz vaxt kəlib çatanda Rəbbi onunla danışdı. Musa: "Ey Rəbbim! Özünü mənə**

**göstər. Sənə baxım!" -dedi. Allah: "Sən Məni əsla görə bilməzsən. Lakin dağa bax. Əgər o yerində dura bilsə, sən də Məni görə bilərsən", -buyurdu. Rəbbi dağa təcəlli etdikdə onu parça-parça etdi. Musa da bayılıb düşdü. Ayılandan sonra isə: "Sən pak və müqəddəssən! Sənə tövbə etdim. Mən iman gətirənlərin birincisiyəm!" - dedi" ("Əraf" surəsi, 143).**

Ayədə qeyd edilən "təcəlla etdikdə" ifadəsi "zahir olmaq, ortaya çıxmaq, ifadə edilmək..." kimi mənalara gəlir. Əlmalılı Hamdi Yazır bu ayəni öz təfsirində belə açıqlayır:

"Rəbbi ona dedi ki, Məni qətiyyən görə bilməyəcəksən, lakin dağa bax. Əgər o, yerində dura bilsə, sən də Məni görə bilərsən". Rəbbi dağa təcəlla etdikdə, ki, bu, izafi təcəlladır, yəni Zatındakı bütün əzəməti və mütləq qüdrəti ilə deyil, əzəmətindən və qüdrətindən bir ləmha ortaya çıxması, əmr və iradəsindən bir hissənin dağa dəyməsi ilə onu parça-parça etdi. Həmzə, Kisai, Xələfi Aşir qiraətlərində oxunduğuna görə, "dümdüz etdi", yəni dağ getdi, yeri dümdüz oldu, sanki hürgücsüz dəvə kimi oldu... Qeyd edilən bu təcəlla ilə iki hadisə baş verdi: biri dağın parçalanıb xırdalanması, digəri də Hz.Musanın bayılıb yerə yıxılması. Demək ki, Hz.Musa dağa olan nisbi bir təcəllaya da tab gətirməyib bayıldı, tam və mütləq varlığı təcəlla etsəydi, bütün dünya və bütün kainat bir anda məhv olardı. "Sən Məni əsla görə bilməzsən" buyruğunun əsas hikməti də bu ola bilər..."[64]

Başqa bir ayədə isə belə buyrulur:

**"Biz onu Tur dağının sağ tərəfindən çağırdıq və gizli söyləmək üçün Özümüzə yaxınlaşdırdıq" ("Məryəm" surəsi, 52).**

**"Musa onun yanına yetişdikdə belə bir nida gəldi: "Ya Musa!" ("Taha" surəsi, 11).**

**"Ora gəlib çatdıqda vadinin sağ tərəfində olan mübarək yerdəki ağacdan belə bir nida gəldi: "Ya Musa! Aləmlərin Rəbbi olan Allah Mənəm!" ("Qəsəs" surəsi, 30).**

Başqa bir Qur'an ayəsində Rəbbimiz belə buyurur:

**"Allahdan başqa heç bir tanrı yoxdur. Əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə vermişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!" ("Bəqərə" surəsi, 255).**

İncil açıqlamalarından da gördüyümüz kimi, Hz.İsa söhbət etdiyi bütün insanları Allaha iman gətirməyə dəvət edirdi. Müşriklərin bütün suallarına çox gözəl misallarla və məntiqlə cavab verirdi. Məsələyə bu yöndən baxanda "Allahın oğlu" ifadəsinin həmin dövrün insanları arasında geniş yayılmış bütpərəst üslub qarşısında işlədilən xüsusi bir açıqlama olması da mümkündür. İnsanlara hər şeyin sahibinin, bütün insanların tək dostunun və himayədarının Allah olduğunu başa salmaq istəyən bir iman yiyəsi "Mən atamın deyil, Allahın oğluyam" şəklində bir söz demiş ola bilər. Bu ifadə qarşıdakı adamın inkarçı üslubunu, bütlərinə dəyər verib kömək istəyən üslubunu aradan qaldırmaq üçün işlədilmiş ola bilər. Ən doğrusunu əlbəttə ki, Allah bilir.

## "Allahın kəlməsi" məfhumunun mənası

Hz.İsanı tanrılaşdıran etiqadın çürük dayaqlarından biri Yəhya İncilinin girişindəki "kəlam" ("söz", "loqos") açıq-

lamasıdır. Bu fəsildə Hz.İsanın Allahın Sözü olduğu və Allahla birlikdə sonsuzdan bəri mövcud olduğu iddia edilir:

"Əzəldən Kəlam mövcuddur; Kəlam Allahla birlikdə idi və Kəlam Allah idi. O əzəldən Allahla olub. Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərin heç biri Onsuz yaranmadı. Həyat Onda olub, həyat isə insanların nuru olub. Nur qaranlıqda parlayır və qaranlıq onu dərk etməmişdir" ("Yəhya İncili", 1/1-5).

Bu ayələrin ardınca isə "Kəlam bəşər olub lütf və həqiqətlə dolu olaraq aramızda yaşadı; biz də Onun izzətini, Atanın vahid oğlunun izzətini gördük" ("Yəhya İncili", 1/14) deyə bildirilir. Qısası, Hz.İsanın "Allahın kəlamı" olması bildirilir. Bundan məharətlə istifadə edənlər onu tanrılaşdırırlar (Allaha sığınırıq). Halbuki Yəhya İncilindəki bu ifadələr bir həqiqətin səhv izah edilməsinə əsaslanır. Qur'anda belə bildirilir:

**"Ey kitab əhli! Öz dininizdə həddi aşmayın! Allah barəsində yalnız haqqı deyin. Həqiqətən, Məryəm oğlu İsa Məsih ancaq Allahın peyğəmbəri, Məryəmə çatdırdığı bir kəlam və Onun tərəfindən olan bir ruhdur. Allaha və peyğəmbərlərinə iman gətirin. "Üçdür" deməyin. Bunlara son qoyun, bu sizin üçün daha yaxşı olar. Həqiqətən, Allah tək bir tanrıdır. Övladı olmaqdan kənardır. Göylərdə və yerdə nə varsa, Onundur. Allahın vəkil olması bəs edər!" ("Nisa" surəsi, 171).**

Yəhya İncilindəki səhv "Kəlam Tanrı idi" ifadəsindədir. Allahın sözü ilə Allahın Zatını bir-birinə bərabər kimi göstərən bu ifadə çox böyük yanlışlıqdır. Uca Rəbbimizi bu cür ifadələrdən uzaq tuturuq.

Məsələ "kəlam" (söz, loqos) ifadəsinin izahı ilə bağlıdır. Və bu məfhum xristianlıqdan əsrlərlə əvvəl yunan filosofları tərəfindən işlədilib. B.e.ə. VI əsrdə yaşayan Heraklitus kainatda insan ağlı kimi təsirli bir zehnin olduğunu id-

dia edərək bunu "loqos" adlandırıb. B.e.ə. IV və III əsrlərdə yaşayan Stoacılar isə "loqos"u "Tanrı, təbiət və kainatın ruhu" kimi mənalarda işlədiblər.[65]

Yunan dilində və yunanlara xitabən yazıldığı açıq-aşkar aydın olan Yəhya İncilinin "loqos" məfhumu ilə başlaması və bu ifadənin yunan fəlsəfəsindəki mənası ilə qeyd edilməsi isə əlbəttə ki, sadəcə bir təsadüf deyil. Britaniya Ensiklopediyasında "Yəhya İncilinin müəllifi ellinist (yunan mədəniyyətinə söykənən) dünyadakı oxucular tərəfindən asanlıqla tanınan bir ifadədən istifadə edərək Məsihin xilaskar xüsusiyyətini vurğulamaq istəyib" deyilir.[66] Başqa sözlə, Yəhya İncilinin müəllifi "Hz.İsa Allahın kəlamıdır" həqiqətini qədim yunan fəlsəfəsi ilə qarışdıraraq bundan yanlış bir məna çıxarıb.

## Mütəşabih ifadələrin səhv yozulması

İncil tədqiqatçılarının üzərində xüsusi dayandığı məsələlərdən biri də İncildə qeyd edilən ifadələrin birbaşa mənaları ilə deyil, məcazi mənada başa düşülməsidir. Məsələyə bu aspektdən baxanda qeyd edilən ifadələrin fərqli mənalara gəldiyini görmək olar. Qur'anda da çoxsaylı mütəşabih *(zahiri mənası nəzərdə tutulmayan və həqiqətlərin təşbih və təmsil yolu ilə bəyan edilməsi zamanı istifadə olunan ifadələr)* ayələr var. Həmçinin əksər xristian tədqiqatçıları bu izahları verərkən Qur'an ayələrində qeyd edilən ifadələrlə İncildə olan bəzi ifadələr arasında əlaqə qurmağa çalışırlar. Carlos Madrigal (Karlos Madriqal) *"Üç Tanrımı, tək Tanrımı? Tövhiddə təslis"* adlı kitabında bunları bildirir:

> "Tanrı Özünü tanıdarkən insanların asan başa düşəcəyi rəmzi ifadələr işlədir. Buna "insan bənzəməsi" (antropomorfik) terminlər deyilir. Müqəddəs Kitabda da, Qur'anda da Tanrıdan bəhs etmək üçün "üz, əllər" və s. fiziki sifətlər işlədilir. "Ona bənzər heç bir şey yox-

dur" ("Şura" surəsi, 11) ifadəsi bir həqiqəti bildirir. Amma bunu Tanrının Özünün Onu başa düşməyimiz üçün işlətdiyi oxşatmalarla qarışdırmamaq lazımdır. Qur'anda da "Allahın əli", "Allahın ovcu", "Allahın gözləri" kimi ifadələrə rast gəlirik... Bu ifadələri bir məcaz kimi başa düşməkdə heç kim çətinlik çəkməz. Elə isə "Ata" və ya "oğul" ifadələrini məcaz kimi qəbul etməyəcəyikmi? Tanrıya nisbət edilən insana məxsus ifadələr bizə həqiqi bir təsvir deyil, yalnız işarə və təlqinlər verir. Buna görə də bunlar təsviredici təşbehlər deyil. Heç kimin Tanrını fiziki bir məna verərək Onu bir şeyə oxşatmağa haqqı yoxdur (bu, bütpərəstlik olardı)... Amma bunun müqabilində O, özünü uyğun bildiyi rəmzə oxşada bilər. Tanrı hər şeyi sevgi ilə yaratdı. O, hər şeyin mənbəyidir. Hər şeyin Onun sevgisi ilə yaradıldığını bildirmək üçün "Ata" ifadəsi çox gözəl bir sözdür".66

Bu şərh İncildə işlədilən məcazi ifadələrin başa düşülməsi baxımından çox əhəmiyyətlidir. Rəbbimiz Qur'an haqqında belə buyurur: "**...Biz Qur'anı sənə hər şeyi izah etmək üçün, müsəlmanlara da bir hidayət, mərhəmət və müYdə olaraq nazil etdik!**" ("Nəhl" surəsi, 89). "Ənam" surəsində isə "**...Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna cəm ediləcəkdir**" ("Ənam" surəsi, 38) şəklində buyrulur. Qur'anda hər şey ən mükəmməl, ən hikmətli və əsaslı şəkildə açıqlanıb. Rəbbimiz bəzi ayələrdə bizə müxtəlif mütəşabih və məcazi ifadələrlə də yol göstərir. Ayələrdə belə buyrulur:

*"Allahın əli"*

**"Sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş olurlar. Allahın əli onların əllərinin üstündədir. Kim**

əhdini pozsa, ancaq öz əleyhinə pozmuş olar..." ("Fəth" surəsi, 10).
"...De: "Həqiqətən, nemət Allahın əlindədir və onu istədiyi şəxsə bəxş edər. Allahın (rəhməti) genişdir, biləndir!"" ("Ali-İmran" surəsi, 73).
"Yəhudilərə dedilər: "Allahın əli bağlıdır!" Bu dedikləri sözə görə onların öz əlləri bağlandı və lənətə gəldilər. Xeyr, Allahın iki əli açıqdır. İstədiyi kimi ehsan edər..." ("Maidə" surəsi, 64).
"Kitab əhli bilsin ki, onlar Alahın lütfünə heç bir vəchlə mane ola bilməzlər. Şübhəsiz ki, lütf Allahın əlindədir, onu istədiyinə bəxş edər. Allah çox böyük lütf sahibidir!" ("Hədid" surəsi, 29).

*"Allahın ovcu"*

"Onlar Allahı lazımınca qiymətləndirmədilər. Halbuki qiyamət günü yer bütünlüklə Onun ovcunun içində olacaq, göylər isə Onun sağ əli ilə bükülləcəkdir. Allah Ona aid etdikləri sifətlərdən tamamilə uzaq və ucadır!" ("Zumər" surəsi, 67).

*"Allahın üzü"*

"Və Allahla yanaşı başqa heç bir tanrıya ibadət etmə. Allahdan başqa heç bir tanrı yoxdur. Onun üzündən başqa hər şey məhvə məhkumdur. Hökm Onundur. Siz məhz Onun hüzuruna qaytarılacaqsınız!" ("Qəsəs" surəsi, 88).
"(Yer) üzündə olan hər kəs fanidir. Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin üzü baqidir" ("Rəhman" surəsi, 26-27).

**"Şərq də, Qərb də Allahındır. Hansı tərəfə yönəlsəniz Allahın üzü oradadır. Şübhəsiz ki, Allah genişdir, biləndir!" ("Bəqərə" surəsi, 115).**

"Ənfal" surəsində isə belə buyrulur:

**<u>"Onları siz öldürmədiniz, Allah öldürdü. Atdığın zaman sən atmadın, Allah atdı.</u> Allah bununla möminləri yaxşı bir imtahandan keçirtdi. Allah eşidəndir, biləndir!" ("Ənfal" surəsi, 17).**

Bu ayə ilə sonsuz güc və qüdrət sahibi olan Rəbbimizin bütün əmr, hökm və işləri, Onun bütün hadisələri meydana gətirən yeganə güc olduğu bildirilib. Allah istəməsə, insanın heç bir şeyə güc çatdırması, heç bir hərəkət etməsi, ağzını açıb danışa bilməsi mümkün deyil. Allah insanların bütün əməllərini, bütün danışdıqlarını və bütün fikirləşdiklərini bilir. Heç bir insan onu yaradan Rəbbimizdən asılı olmadan bir gücə və iradəyə malik ola bilməz. Allah "İnsan" surəsində "**Allah istəməsə, siz istəyə bilməzsiniz**" ("İnsan" surəsi, 30) şəklində buyurur. Bu ayələrdə bildirilən ifadələrin hər biri Allahı insanlara tanıdır.

## Hz.İsanın çox üstün bir bəndə olduğunu, Allaha yaxınlığını vurğulamaq məqsədilə işlədilə bilər

Həvarilər və ilk xristianlar Hz.İsanın Allaha olan bağlılığına, səmimiyyətinə, dərin imanına, səbrinə, cəsarətinə, Allahın vəhyini tətbiq edərkən qərarlı olmasına, Allahın lütfü ilə həyata keçirdiyi möcüzələrə və üstün əxlaqına şahid olublar. Hz.İsanın anadan olmasından Allah dərgahına yüksədilməsinə kimi həyatının hər dövrü çox böyük möcüzələrlə doludur. Hz.Məryəmin hamilə qalması və Hz.İsanın dünyaya gəlməsi, körpə olarkən danışıb təbliğat aparması, xəstələri sağaltması, ölüləri diriltməsi, Allah dərgahına yüksəldilməsi onun nə qədər dəyərli və fövqəladə bir mə-

qama sahib olduğunu göstərir. İncildə çox geniş şəkildə qeyd edilən bu məsələlər öz təsdiqini Qur'an ayələri ilə də tapır. Rəbbimiz Hz.İsanın, anası Hz.Məryəmin və İmran ailəsinin seçilmiş şəxslər olduğunu bildirir.

İlk xristianların Hz.İsadan bəhs edərkən göstərdiyi coşğunluq bir çox xristian ilahiyyatçıları tərəfindən qeyd edilib. Əhdi-Cədid mütəxəssislərindən biri olan Yohn Marsh (Con Marş) *"Yesus in his Lifetime"* ("Hz.İsanın həyatı") adlı əsərində "Hz.İsanın ilk ardıcıllarının "Allahın oğlu" sifətindən onun Allah tərəfindən çox xüsusi bir vəzifə üçün seçildiyini və buna görə də Allahla çox xüsusi bir bağlantısının olduğunu bildirmək üçün istifadə etdiklərini"[67] vurğulayır. E.P.Sanders isə Hz.İsanın "Allahın oğullarının olduğu bir millətin arasında xüsusi vəzifə üçün seçilən bir Allah oğlu" olduğunu bildirir.[68]

Paul Knitter (Pol Nitter) *"No Other Name"* ("Başqa adı yoxdu") adlı kitabında bu üslubdan belə söhbət açır:

> "Əhdi-Cədid müəllifləri Hz.İsadan bəhs edərkən analitik filosofların, çılğın xarakterli möminlərin, alimlərin deyil, sevgi ilə dolu olan adamların dilindən istifadə edirlər. Krister Stendalın təkidlə üzərində dayandığı məsələ bunun "dini dil", yəni "sevgi, şəfqət dili" olmasıdır. Xristianlar Hz.İsanı "tək" kimi tərif edərkən metafizik bir prinsipi nəzərdə tutmur, Hz.İsa ilə fərdi insani əlaqə yaratmağa və ona olan bağlılıqlarının təfərrüatlarını göstərməyə çalışırdılar. Xristian ifadələri başa düşüldüyü və işlədildiyi kimi ancaq kilsənin sevgi dilidir. Qəlbin və beynin dilləri şübhəsiz ki, bir-birinə zidd deyil, lakin hər ikisi də fərqlidir. Və bu fərqlərə hörmət göstərilməlidir. Eyni zamanda Hz.İsanın "Allahın oğlu", hətta "tək oğlu" ("Yəhya İncili", 1/14) olduğunu ifadə edən bir mətn də fərqli məna ifadə edəcəkdir. Onların əsas niyyəti...Hz.İsanı eşidənlərin onu nüfuzlu bir şəxs kimi ciddi qəbul etmələrini təmin

etmək idi. Bu mətnlərdəki ifadələr...Hz.İsanın da Allahın etibarlı vəhyi olduğunu ifadə etmək üçün idi. Yunan dilində Uios tou Theou ("Allahın oğlu") tərcümə ediləndə ingilis dilindəki "the" artikli üzərində təkidlə durmarıq. OriYinal yunan dilində "The" yoxdur və dolayısı ilə ifadə eyni zamanda "Allahın bir oğlu" kimi tərcümə edilə bilər. "Allahın malik olduğu tək övlad" ifadəsinin sifət halı ibrani dilində işlədilməsinə görə "ilk dünyaya gələn" yaxud da "sevgili" kimi tərcümə edilə bilər. Buralarda Allahın vasitəçisi şəklində ayrı-seçkilik deyil, etibarlı olmağın nəzərdə tutulduğu başa düşülür".[69]

Üçləmə tərəfdarlarının bu israrının arxasında Hz.İsaya aid edilən üstün məqama kölgə salmaq qorxusunun olması ehtimalı var. Halbuki üçləmə inancı olmadan da Hz.İsanın nə qədər üstün və xeyirli bir insan olduğu qeyd edilə bilər. Qur'an ayələrində Hz.İsanın möcüzələri, onun Allah dərgahına yüksəldilməsi ətraflı şəkildə qeyd edilir, onun və ailəsinin aləmlərə üstün edildiyi bildirilir. Hz.İsa Qur'anda "şanı uca, şərəfli və hörmətəlayiq" şəklində tanıdılır:

**"Mələklər dedilər: "Ya Məryəm! Həqiqətən, Allah Öz tərəfindən bir kəlmə ilə sənə müYdə verir. Onun adı Məryəm oğlu İsa Məsihdir ki, dünyada və axirətdə şanı uca, şərəfli və Allaha yaxın olanlardandır" ("Ali-İmran" surəsi, 45).**

## Xristianlığın daha tez yayılmasını təmin etmək məqsədilə işlədilə bilər

Hz.İsa din əxlaqını yaymağa başladığı mühitdə çox böyük çətinliklərlə qarşı-qarşıya idi. Yəhudi xalqı arasında dini insanlara müxtəlif şəkillərdə çatdıran səddukilər, fərisilər, zelotlar, essenilər kimi bir çox məzhəblər var idi və

onlar, xüsusilə də ilk üçü fərqli yanlışlıqlar içində idi. Hz.Musanın gətirdiyi haqq dindən uzaqlaşılmış, batil ənənələr və müxtəlif inamlar ortaya çıxarılmışdı. Bunlardan əlavə, bütpərəst Ellin mədəniyyəti də insanlar arasında geniş yayılmışdı. Bu mədəniyyətin təsiri altında olan bəzi yəhudilər isə malik olduqları tövhid inancından geri çəkilərək bəzi bütpərəst etiqadları qəbul etməyə başlamışdılar.

Hz.İsa bütün bu xurafatları bir kənara ataraq İsrail oğullarını saf və səmimi bir imana dəvət etdi. Özlərinin oturuşmuş sistemlərini qorumağın tərəfdarı olan bütün din adamları Hz.İsanın təbliğ etdiyi haqq dindən ciddi şəkildə narahat olurdular. Çünki Hz.İsa insanlara Allah qorxusunu, Allahı sevməyi məsləhət görür, dinə sonradan əlavə edilən batil qaydalardan və eqoist, lovğa, ədabaz ibadət üsullarından əl çəkməyin vacibliyini söyləyirdi.

Hz.İsanın Allah dərgahına yüksəldilməsindən sonra da bu mübarək insanın tələbələri onun nəsihət və xəbərdarlıqlarının yayılması üçün bütün imkanlardan istifadə etdilər. Kənd-kənd, qəsəbə-qəsəbə gəzən xristianlar hər cür çətinlik və məhrumiyyət qarşısında çox üstün dözümlülük göstərir və insanlara Allahın varlığını və Hz.İsanın Allahın elçisi olduğunu çatdırırdılar. Xristianlıq da qısa dövr ərzində çox geniş əraziyə yayıldı. Bütpərəst Roma imperatorluğunun bütün təzyiqlərinə və işgəncələrinə baxmayaraq insanlar axın-axın Hz.İsanın gətirdiyi haqq dinə gəlirdilər. Ancaq bu yeni dinə daxil olanların bir hissəsi beyinlərinə həkk olunmuş bütpərəst ənənələrindən də əl çəkə bilmirdi. Batil "Allahın oğlu" məfhumu da belə bir şəraitdə ortaya çıxdı və ya əvvəllər işlədildiyi mənadan uzaqlaşdırıldı.

E.P.Sanders *"The Historical Figure of Yesus"* ("Hz.İsanın tarixi portreti") adlı əsərində ilk xristianların Hz.İsanın təbliğini yaymaq üsullarını belə şərh edir:

"Başqalarını razı salmağa çalışarkən həvarilər bəzən Hz.İsanın söylədiyi və etdiyi hərəkətlərlə bağlı heka-

yələr danışmış ola bilərlər. İlk illərdə bu materiallar böyük ehtimalla yazılmamış, yalnız şifahi şəkildə ötürülmüşdü. Həvarilər Hz.İsanın həyatındakı hadisələrdən bəhs edərkən həmin vaxt mühüm olan nüansları misallarla izah etmək istəmişdilər... Həvarilər yeni tərəfdarlar qazanmaqla yanaşı həm bir-birlərinə, həm də getdikcə çoxalan yeni dindaşlarına Hz.İsanın həyatında baş verən hadisələri xatırlayaraq öyrətmişdilər. Bəzən də Hz.İsanı qəbul etməyən yəhudi müəllimlərlə mübahisə etmişdilər. Bu mübahisələr də Hz.İsa ilə bağlı materialın işlədildiyi üçüncü bir ehtivanı təmin etmişdir".[70]

Hz.İsanın yaşadığı dövrdə olduğu kimi Hz.İsadan sonra da xristianlığa etiraz edən çoxsaylı adamlar və qruplar olub. Hz.İsanın Allah dərgahına yüksəldilməsindən sonra həvarilərin səyləri ilə xristianlığın sürətlə yayılması onlarda böyük narazılığa səbəb olmuşdu. Buna görə də həmin qruplar müxtəlif əsassız iddialarla çıxış etmiş və xristianlığın yayılmasının qarşısını almaq üçün müxtəlif cəhdlər göstərmiş ola bilərlər. Paul Knitter öz kitabında ilk xristianların hansı şərtlər daxilində yaşaması məsələsinin üzərində dayanır. Knitter onların "həyatda qalmaq" və "öz cəmiyyətlərinin mövcudluğunu davam etdirə bilmək" üçün fərqli bir metod axtarıb tapdıqlarını vurğulayır:

"Ənənəvi kilsə anlayışının ortaya çıxdığı tarixi əlaqə ilə bağlı üzərində diqqətlə dayanılmalı olan başqa bir məsələ də xristianların həm geniş yəhudi cəmiyyəti, həm də təhdidedici Roma imperatorluğu tərkibində azlıq vəziyyətində olması idi. Mədəni və dini çoxluq bu günümüzdə olandan çox fərqli şəkildə başa düşülürdü. Həmin dövrdə xristianlar iki böyük təhlükə ilə qarşı-qarşıya idilər: onlar ya çoxluq təşkil edən qruplar tərəfindən məhv ediləcək, ya da dini ənənələrini onlarınkı ilə qarışdırıb fərqli quruluşa malik olacaqdı-

lar. Xristianların özlərini bu təhlükələrdən qorumaq üçün öz kimliklərini aydın şəkildə müəyyənləşdirməsi və tamamilə inamlarına bağlanması lazım gəlirdi. Bunu da öz inancları ilə, xüsusilə də Hz.İsaya münasibətdə güclənən inamları ilə həyata keçirdilər. Bu doktrinal ifadələr "həyatda sağ qalmaq ifadələri" kimi qeyd edilə bilər. Və bu həmçinin öz cəmiyyətlərinin davamlılığını təmin etmək üçün ortaya atılıb. İlk xristianlar Hz.İsanı mütləq ifadələrlə tanıdaraq, onu tək və yeganə xilaskar elan edərək bütün rəqiblərindən və müxaliflərindən fərqli bir kimlik qazandılar. Bu dilin ortaya çıxardığı güclü bağlılıq onlara zülmlər və lağ edənlər qarşısında böyük güc vermişdi... Bu dil metafizik bir mənadan da çox əxlaqi dil idi və Hz.İsanın bütün əsrlər üçün qüvvədə olan şəxsiyyətini tanıtmaqdan da çox cəmiyyətdəki şəxsiyyətini tanıtmaq məqsədi daşıyırdı".[71]

## Mövcud siyasi və mədəni şəraitin təsiri

Üçləmə etiqadının təşəkkül tapması və ortaya çıxması ilə bağlı araşdırmalarda üzərində dayanılan başqa bir məsələ isə həmin dövrün siyasi və mədəni şəraitidir. Əvvəl də qeyd etdiyimiz kimi, Hz.İsanın yaşadığı dövrdə cəmiyyət həm yəhudi, həm də yunan mədəniyyətinin təsiri altında idi. Ağ dəniz tamamilə Roma imperatorluğunun hakimiyyəti altında idi. Roma böyük hərbi işğallarla öz sərhədlərini genişləndirmiş və Ağ dənizi daxili göl halına gətirmişdi. İmperatorluq hərbi sahədə olduğu qədər də mədəniyyət sahəsində ən güclü dövrlərindən birini yaşayırdı və qədim yunan mədəniyyətinin mədəni irsini özünə götürərək onu müəyyən əlavələrlə daha da təkmilləşdirmişdi. "Ellinizm" adlandırılan bu cərəyan din də daxil olmaqla həyatın bütün sahələrinə hakim idi. Romalılar özlərini başqa cəmiyyətlər-

dən çox-çox üstün sayır və öz həyat tərzlərini işğal etdikləri torpaqlarda da yaymağa çalışırdılar.

Romanın dini Ağ dəniz sahillərində yaşayan bütün xalqlarda olduğu kimi çoxtanrılı bir din idi. Yunan əfsanəsinin xəyali tanrıları müxtəlif adlarla Roma mifologiyasında da işlədilirdi. Onlar ən böyüyü Yupiter adlandırılan və heykəllərlə simvollaşdırılan çoxsaylı bütlərə sitayiş edirdilər. Bəzi Roma imperatorları isə özlərini də bu saxta tanrıların arasına daxil edən qanunlar çıxarmışdılar. Digər tərəfdən, yunan dini və bu etiqada məxsus saxta tanrılar da geniş yayılmışdı: Zevs, Hermes, Venus kimi yunan bütlərinin heykəlləri şəhərlərin meydanlarında yerləşdirilmişdi. Sitayiş edilən bütlər bunlarla bitmirdi. Hər şəhərdə, hər məhəllədə, hətta hər evdə irili-xırdalı müxtəlif bütlər, onlara məxsus heykəllər, şəkillər, xüsusi sitayiş və qurban yerləri vardı. Roma rəhbərləri öz hakimiyyətlərini yaymaq məsələsində bu çoxtanrılı dinlərdən bir vasitə kimi istifadə edirdilər. Roma idarəçiləri onların hakimiyyətini təhdid etməyənə kimi heç kimin dininə qarışmır, əksinə, xalqda bu azğın etiqadlara qarşı onları təşviq etməklə maraq oyandırır, hər tərəfdə məbədlər, qurban yerləri, heykəllər inşa etdirirdilər. Onların fikrinə görə, din guya kütlələrə sədaqəti təlqin etməyin və onlara nəzarət etməyin bir yolu, mücərrəd və dünya ilə birbaşa əlaqəsi olmayan bir sahəyə aid idi.

Romalılar başqa bir mədəniyyətlə qarşılaşanda həmin xalqda öz saxta tanrılarının oxşarlarını axtarır və bununla da özlərinə üstünlük təmin edəcək üçün bir əlaqə yaratmağa çalışırdılar. Buna görə də romalılar bir və tək Allaha iman gətirən yəhudilərə xüsusilə də IV Antiok Epifanesin dövründə Zevs adlı baş tanrılarını azğın şəkildə qəbul etdirməyə çalışıblar, ancaq bu cəhdlər onların arasında böyük iğtişaşlara səbəb olub. Dindar yəhudilər müqəddəs torpaqları mənən murdarlayan bu Roma bütlərinə qarşı qəti etirazlarını bildirib və romalıların öz bütpərəst etiqadlarını

yaymaq səylərinə şiddətlə qarşı çıxıblar. Ancaq yunan mədəniyyətinin təsiri yəhudi xalqı üzərində yenə də çox dərin izlər buraxıb.

Hz.İsa da Ellin mədəniyyətinin təsiri altında olan bu yəhudi xalqı arasında təbliğat aparıb. Həvarilər və ilk xristianlar eyni cəmiyyətdə böyüyüb və həyatlarının hər sahəsində Ellin mədəniyyəti ilə yanaşı olublar. E.P.Sanders "Yesus in Historical Context" ("Tarixi kontekstdə Hz.İsa") sərlövhəli məqaləsində Ellin mədəniyyətinin Hz.İsanın yaşadığı Cəlilə bölgəsindəki təsirlərini incələyir. Məqaləsində bir çox alimlərin fikirlərinə də geniş yer ayıran Sanders bunları bildirir:

> "Mövcud şərhlərə görə, Cəlilə şəhərləşmə prosesini keçirmiş, kosmopolit və rifah içində olan bir yer idi. Burton Mack-ın (Barton Mak) fikrincə, Cəlilə əslində Ellin mədəniyyətinin bir rəmzi idi... Cəlilə camaatı qonşu qəsəbəyə gedəndə yunan oyunlarını və filosoflarını izləyib qulaq asa bilirdi. Tətillərdə Suriyadakı böyük şəhərlərə gedir və yunan mədəniyyətinin içinə girə bilirdilər. Onların Ellin mədəniyyətinin təsirinə məruz qalmasında Roma da böyük rol oynayırdı. Cəlilədə çoxlu sayda romalı əsgər, həmçinin romalı məmurlar, rəsmi nümayəndələr var idi... Təkcə teatrlar deyil, Sepphorisdə Avqusta və Romaya həsr edilmiş bütpərəst bir məbəd vardı. Kəndlilər bütpərəstlərə aid mərasimlərdə qurban kimi kəsilmək üçün heyvanlar yetişdirirdilər".[72]

Yunan mədəniyyəti mifologiyaya əsaslanan bir mədəniyyət idi. Danışıqlarda, işlədilən sözlərdə məcazi ifadələrə, əfsanəvi hekayələrə çox tez-tez rast gəlmək olardı. Əfsanələrlə həqiqi həyat sanki bir-birinə qarışmışdı. Hz.İsa haqqında işlədilən "Allahın oğlu" ifadəsini tədqiq edən Müqəddəs Kitab mütəxəssisləri də yunan mədəniyyətinin bu ifadənin şüurlara yerləşməsindəki təsirinə diqqət çəkirlər. Yu-

nan mifologiyası "tanrıları" insanlarla yoldaşlıq edən, axırda da onlarla birlikdə yeni nəsillər dünyaya gətirən varlıqlar kimi təsəvvür edirdi. Məsələn, Makedoniyalı İsgəndər Zevsin oğlu kimi qəbul edilirdi. Sanders yunan mədəniyyətinin həmin dövrdə imperatorluğun sərhədləri daxilində geniş yayıldığını bildirir və buna görə də Hz.İsa barədə "Allahın oğlu" (bundan Allaha sığınırıq) ifadəsinin işlədilməsinin bu təsirin ucbatından daha çox yayıldığını ifadə edir.[73] Həmçinin tədqiqatçılar tərəfindən qədim Yunanıstandakı Zevs-Hera-Apollo üçlüyü ilə üçləmə etiqadı arasında bir çox paralellər aparılır. Üçləmə etiqadı bütpərəst cəmiyyətlərdə çox geniş yayılmışdı. Xüsusilə də yunan mədəniyyətinin çoxlu "ata tanrı" və "oğul tanrı"ları vardı. Platon bu üçləməni düstur halına gətirərək "tanrıları"nın "loqos" (söz, kəlam) adlı bir oğlunun və "sophos" (müdriklik) deyə bir qızının olduğunu iddia etmişdi. Platona görə, tanrı, loqos və sophos bir "üçləmə"ni təşkil edirdilər. Xristianlıq üçləmə inancını və bu gün malik olduğu bir sıra etiqad və icra metodlarını sözügedən yunan mədəniyyətindən yaxud da başqa bütpərəst mədəniyyətlərdən götürdü. Buna görə də getdikcə Hz.İsanın gətirdiyi təmiz dindən ayrıldı, Hz.Musanın şəriətinin əsası olan "Tək Tanrı" etiqadından uzaqlaşdı.

"From Yesus to Christ, The Origins of the New Testament, Images of Yesus" ("İsadan Məsihə, Əhdi-Cədidin mənbələri, İsanın şəkilləri") kitabının müəllifi Paula Fredriksen İncillərin və bu müqəddəs kitabların yazıldığı cəmiyyətlərin yunan mahiyyətli olduqlarını vurğulayandan sonra belə bir şərh verir:

> "Xristianlıq Ellin dünyasında ortaya çıxmışdı... İncillərdə işlədilən dil də yazan şəxslərin öz vərdiş etdikləri dilin üzərində qurulmuşdu. Bu dil bütpərəst ənənələrini, Ellin inanclarını əks etdirirdi. Buna görə də Hz.İsa üçün "Tanrı", "Xilaskar", "Tanrının oğlu" və "loqos" kimi ifadələr işlədirdilər. Bundan başqa, istifadə

edilən "Davudun oğlu", "İnsan oğlu", "Tanrının hakimiyyəti" və "Məsih" kimi məfhumlar isə İncil müəllifləri üçün çox da tanış deyildi. Bu ifadələr İncilləri yazan adamlar tərəfindən Hz.İsanın yaşadığı Fələstin torpaqlarındakı mövcud mədəniyyətdən götürülmüşdü".[74]

Dr.Paul R.Eddy (Pol R.Edi) də *"Was Early Christianity Corrupted by Hellenism?"* ("İlk xristianlıq ellinizm tərəfindən təhrif edildimi?") sərlövhəli məqaləsində bu nəticəyə gəlir:

"Babilə kimi uzanan qədim dünya boyunca üçlü qruplaşmalarla bütpərəst tanrılara sitayiş etmək ənənəsi yayılmışdı. Bu təsir Hz.İsadan əvvəlki və sonrakı əsrlərdə Misirdə, Yunanıstanda və Romada da artıqlaması ilə müşahidə edilirdi. Həvarilərin ölümündən sonra bu cür bütpərəst etiqadlar xristianlığı işğal etməyə başladı... Plato üçləməni hazırkı şəklində öyrətməsə də onun fəlsəfəsi bu doktrina üçün hazırlıq rolunu oynayırdı".[75]

Oscar Cullmann (Oskar Kalmann) da *"The Christology of the New Testament"* ("Əhdi-Cədidin Hz.İsa teologiyası") adlı mühüm araşdırmasında "Allahın oğlu" ifadəsindən İncil dövründə Şərqdə və Ellin mədəniyyətində necə istifadə olunması məsələsini ətraflı şəkildə tədqiq edir. Xüsusilə də Misirdə, Babildə və Assuriyada hökmdarların müqəddəs şəxslər kimi qəbul edildiklərini və onların "Allahın oğlu" adlandırıldıqlarını bildirir. Cullmann diqqətimizi yunan dinlərində müqəddəs güclərinin olmasına inanılan hər bir insan barədə "Allahın oğlu" ifadəsini işlədilməsinə cəlb edir.[76] Hz.İsanın göstərdiyi möcüzələr isə onun xalq tərəfindən bu cür tanıdılmasına kifayət edir. Varner Hz.İsanın təbliği ilə qarşılaşan gentilelərin *(Müqəddəs Kitabda yəhudi olmayanlar üçün işlədilən bir ifadədir, Hz.İsa dövründəki romalılar üçün işlədilirdi)* baxışlarının bu fikirlər çərçivəsində forma-

laşdığını söyləyir və belə davam edir (buradakı ifadələrdən Allaha sığınırıq):

> "Onların "Allahın oğlu" fikirləri çoxtanrılı düşüncə üzərində qurulmuşdu. Buna görə də bu fikirlərini Hz.İsa və həvarilərinin təktanrılı inanclarına döndərmələri olduqca çətin idi. Şərq və Ellin düşüncələrinin hakim olduğu, dolayısı ilə hökmdarların və başqa müqəddəs adamların "Allahın oğlu" adlandırıldığı bu bölgədə Hz.İsa da "Allahın oğlu" elan edildi".[77]

## Bütpərəst etiqadların insanları tanrılaşdırmaq meylləri

Roma imperatorluğunun sərhədləri daxilində yaşayan bütpərəst xalqların dinlərindəki əsas xüsusiyyətlərdən biri insan-tanrı anlayışı ilə bağlı idi. Zevs, Hermes, Venus, Yupiter kimi xəyali Roma və yunan tanrıları insanlar kimi təsvir edilirdilər. Bu tanrıların heykəlləri məbədlərin mərkəzində yaxud da böyük şəhərlərin meydanlarında yerləşirdi. Bütpərəstlər xəyallarının məhsulu olan bu tanrılarını "əllə tutulan, gözlə görünən" varlıqlar kimi təsəvvür edir, həmin tanrıların insan cildinə girərək onlara görünməsini də təbii bir hadisə kimi qəbul edirdilər.

Bütpərəstlərdəki bu insan-tanrı anlayışı o qədər açıq idi ki, özünü "kəramət" sahibi kimi göstərən və dini məsələlərdə vəz edən insanlar bu "məqama" asanlıqla yiyələnə bilirdilər. Əhdi-Cədidin "Həvarilərin işləri" kitabında bu məsələ ilə bağlı maraqlı misallar var. Bu misallara görə, Pavel və Barnaba indiki Konya şəhəri (Türkiyə) yaxınlığındakı Listra adlanan yerdə xəstə bir adamı müalicə etdilər. Xalq da onların tanrı hesab etdi:

> "Pavelin nə etdiyi görən xalq, səsini yüksəldib Lrkayoniya dilində "Tanrılar insan surətində yanımıza eniblər!", - dedilər. Barnabanı Zevs, Pavelin isə baş natiq olduğu üçün Hermes adlandırdılar. Şəhərin önündə

yerləşən Zevs məbədinin kahin, şəhər qapısının önünə öküzlər və çələnglər gətirib, xalqla bərabər qurban kəsmək istəyirdi" ("Həvarilərin işləri", 14/11-13).

Oxşar bir hadisə Maltada baş verib. Pavellə söhbət edən bütpərəstlər onun zəhərli olduğunu güman etdikləri bir ilan tərəfindən çalınıb ölmədiyini görəndə yenə insan-tanrı fikrinə gəlmişdilər:

"Onlar Pafelin bədəninin şişməsini və yaxud ölü kimi qəflətən yerə yıxılmasını gözləyirdilər; amma çox gözlədikdən sonra ona zərərli bir şey olmadığını gördükdə fikirlərini dəyişdirib: "O, bir tanrıdır", - dedilər" ("Həvarilərin işləri", 28/6).

Hz.İsanın ardıcılları öz dinlərini məhz belə bir düşüncə tərzinə malik olan insanlar arasında yaymağa çalışır, bu adamlara möcüzələr göstərən, xəstələri sağaldan, ölüləri diriltdən bir Məsihdən bəhs edirdilər. Bu adamlar da Allahın üstün möcüzələr verdiyi bu müqəddəs elçisinin Zevs yaxud Hermes kimi bir "tanrı" olduğuna inanırdılar.

Həmçinin Allah Qur’anda üçləmə tərəfdarlarının "**Məsih Allahın oğludur**" şəkilli ifadələrindən bəhs edərkən "**Onların ağzında gəzən bu sözlər daha öncə küfr edənlərin sözlərinə bənzəyir**" ("Tövbə" surəsi, 30) xəbərini verir. Yəni xristianlar bu sözləri onlardan əvvəl bu anlayışlara sahib olan bəzi inkarçı xalqlardan götürmüşdülər.

# İZNİK MƏCLİSİNDƏN BU GÜNƏ QƏDƏRKİ ÜÇLƏMƏ ƏLEYHDARI OLAN XRİSTİANLAR

Üçləmə etiqadı əsrlər boyunca xristian dünyasında bir çox insanlar, qruplar və məzhəblər tərəfindən qəbul edilmədi. Bəzi qruplar bu etiqadın tamamilə əleyhinə oldular, digərləri də bu səhv inancın bəzi məqamlarını rədd etdilər. Üçləmə inancını rədd edən qruplar tarixin hər dövründə böyük təzyiqlərə məruz qaldılar. Onlar öz torpaqlarından sürgün edildilər, diri-diri yandırıldılar, işgəncələrlə öldürüldülər. Ancaq bu təzyiqlərin heç biri onları tarix səhnəsindən tamam silməyə kifayət etmədi. Üçləmə əleyhdarlarının böyük əksəriyyəti öz etiqadlarına sadiq qaldı və "Allah birdir, təkdir" deməkdən çəkinmədi. Kitabın əvvəlki fəsillərində qeyd etdiyimiz ariusçular sözügedən "anti-triniteryen" (üçləmə əleyhdarı) xristianların qabaqcılları idi. Bundan sonra da ariusçuların ardınca gedən çoxlu sayda qruplar ortaya çıxdı.

## Anti-triniteryenlər

Ariusdan sonra ortaya çıxan anti-triniteryen cərəyanlarından biri İrlandiyada qurulan Kelt kilsəsi idi ("Celtic Church of Ireland"). Bu kilsə Avropa qitəsindən tamamilə təcrid edilmiş bir vəziyyətdə, "ariusçuluq" xəttində quruldu və inkişaf etdi. Üçləmə etiqadı Katolik kilsəsinin İrlandiya Kelt kilsəsini rəsmi şəkildə öz hakimiyyəti altına saldığı **644-cüilədək** İrlandiyaya yad idi.

İrlandiya kilsəsinin nəsrani təlimi ilə paralelliyini göstərən mühüm bir xüsusiyyəti vardı: yəhudi mənbələrinə

olan sədaqət. Kelt kilsəsi "Hz.İsanın yəhudi hökmlərinə həssaslıqla tabe olduğuna" inanır, buna görə də Əhdi-Ətiqə böyük dəyər verirdi.[78] Bu meyl o qədər güclü idi ki, o, kilsə Roma hakimiyyətinin hegemonluğu altına düşəndən sonra da davam etdi. **754-cü ildə** bəzi katolik rahiblər "İrlandiyalı rahiblərin kilsənin müqəddəs mətnlərinə əhəmiyyət vermədiklərini, kilsə rəhbərlərinin yazılarını rədd etdiklərini və konsillərin (məclislərin) qərarlarını əsas götürmədiklərini" bildirərək bu vəziyyətlə bağlı şikayət edirdilər.[79] Ancaq Kelt kilsəsinin bu müqaviməti də qısa bir müddətdən sonra zəifləyib tamam kəsildi. Bununla da Katolik kilsəsi dördüncü əsrdə başlayan yeni bir mərhələdə "səhv yola düşən"ləri "düz yola" qaytarırdı. Halbuki "düz yola" qaytarılan cərəyanlar Hz.İsanı tanrılaşdıran batil təlimləri rədd edir, bir və tək olaraq Allaha iman gətirməyi təbliğ edirdilər. Katolik kilsəsi bu gedişlə Qərb dünyasının ən böyük söz sahibinə çevrildi.

## Pravoslavlar (ortodokslar) və protestantlar

Katolik kilsəsinin hökmranlığı IX əsrdə kilsənin özünün daxilində baş verən parçalanma ilə sarsıldı. Uzun müddətdən bəri Roma kilsəsi ilə ixtilafda olan Şərq kilsələri - bunlar İstanbul, Qüds, Antakya və İsgəndəriyyə patriarxlarına bağlı idilər - Roma Katolik kilsəsindən qəti şəkildə ayrıldılar. Roma kilsəsi ilə Şərq kilsələri arasındakı bu ziddiyyət və parçalanmanın əslində siyasi xarakterli mənşəyi vardı və Roma imperatorluğunun Şərqi və Qərbi Roma imperatorluğu şəklində iki yerə ayrılmasından sonra ortaya çıxmışdı. Əsrlər boyunca hər iki tərəf arasında müxtəlif fikir ayrılıqları və anlaşılmazlıqlar olmuşdu. Sonda Roma kilsəsinin Müqəddəs Roma Cermen imperatorluğunu müqəddəs hesab etməsi nəticəsində iki tərəf arasındakı əlaqələr tamamilə kəsildi. Tərəflər arasındakı mövcud fərqli cəhətlər-

dən özünü ən qabarıq şəkildə göstərən fərq Roma kilsəsinin müqəddəs dil kimi latın dilindən, Şərq kilsələrinin isə yunan dilindən istifadə etmələri idi.

Şərq kilsələri və ya digər adları ilə desək, ortodoksal (pravoslav) kilsələr Romadan ayrılandan sonra öz aralarında bir iyerarxiya yarada bilmədilər. İstanbuldakı patriarxiat həmişə daha üstün kimi görünürdü, amma digərləri öz daxillərində müstəqil idilər. Zaman ötdükcə yeni qopmalar oldu və milli kilsələr meydana gəldi. Erməni, rumın, bolqar, serb, rus kimi xalqlar müxtəlif dövrlərdə öz milli kilsələrini qurdular.

Katolik kilsəsi isə başqa heç bir əsaslı parçalanmaya məruz qalmadan XVI əsrə kimi Avropadakı hegemonluğunu qorudu. **1520-ci ildə** Almaniyada səhnəyə çıxan Martin Lüter adlı bir rahib bu hegemonluğu sarsıdan şəxs oldu. Əvvəlcə Lüterin, sonra da Kelvin və Zwingli (Zvinqli) kimi rahiblərin rəhbərliyi altında inkişaf edən protestant cərəyanı Roma kilsəsinin və Papanın avtoritetinə qarşı böyük bir üsyan idi. Üsyan böyük olduğu qədər həm də qanlı idi. Avropa bir əsrdən də çox müddət ərzində katoliklərlə protestantların bitib-qurtarmaq bilməyən savaşlarına səhnə oldu. "Dini savaşlar" kimi görünən bu müharibələrin arxasında isə yenə də siyasi məqsədlər, Papa hakimiyyətinin boyunduruğu altında yaşamağı və ona vergi ödəməyi istəməyən şahzadələrlə bu hegemonluğu itirmək istəməyən dairələrin maddi mənfəətə bağlı olan qarşıdurma və ziddiyyətləri dayanırdı. İki tərəf arasındakı ən qanlı toqquşma 1618-ci ildən 1648-ci ilə kimi fasiləsiz surətdə davam edən və buna görə də tarixə "Otuzillik müharibələr" kimi düşən döyüşlər idi. Avropa əhalisinin üçdə birindən də çoxunun ölümü ilə nəticələnən bu qanlı mərhələdən sonra iki tərəf arasında davamlı bir razılaşma təmin edildi. Otuzillik müharibələrin sonunda imzalanmış məşhur Vestfaliya sülhü ilə təmin edi-

lən tarazlıq həmin gündən bu günə kimi elə də çox dəyişməyib.

Protestantlar Papanın avtoritetinin rədd edərkən onun əvəzinə başqa avtoritet irəli sürməmişdilər. Buna görə də protestantlıq katolik xristianlıqdakı iyerarxiyanın əksinə olaraq çox dağınıq və "liberal" bir din şəklində inkişaf etdi. Demək olar ki, hər ölkə özünə milli bir kilsə qurdu. Bununla yanaşı çoxsaylı fərqli məzhəb və cərəyanlar da ortaya çıxdı. Buna görə də hazırda protestantlığın yüzlərlə növü və yüzlərlə fərqli protestant kilsəsi var. Bunların əksər hissəsi də Şimali Avropada və ABŞ-da fəaliyyət göstərir.

Protestantlığın ortaya çıxması üçləmə əleyhdarı olan cərəyanlar üçün də əhəmiyyətli idi. Qeyd etdiyimiz kimi, protestantlar özlərini Katolik kilsəsinin hegemonluğundan qurtardılar. Bu, həm iyerarxik, həm də təməl xristianlıq inancları baxımından böyük azadlıq demək idi. testantlar Müqəddəs Kitabı artıq özləri sərbəst oxuyur və özləri onu yenidən təfsir edirdilər. Bunun nəticəsində bəzi protestantlar,-onların çox az hissəsi olsa da,-çox mühüm bir həqiqəti dərk etdilər: Katolik kilsəsinin təməlini təşkil edən üçləmənin Əhdi-Cədiddə heç bir əsası yoxdur. Hətta bəzi ayələrin bu inancı təkzib etməsi faktı ortada idi. Bu ayələrdə Allahın "bir və tək" olduğu qeyd edilir, "üçlü birlik" etiqadına isə Əhdi-Cədidin əsas məntiqində yer verilmirdi. Bəzi protestantlar,-onların əslində çox az hissəsi,-bu nəticəyə gələrək üçləməni rədd etdilər. Beləliklə, uniteryen (birləməçi) kilsələr ortaya çıxdı.

## "Tövhidi müdafiə edən" xristianlar

testant islahatından sonra xristianlar Əhdi-Cədidi katolik inanclarından asılı olmadan sərbəst şəkildə oxumağa başladılar. Bunun yekununda da İtaliyada üçləmənin yanlışlığı nəticəsinə inanan ilk xristian cərəyanı ortaya çıxdı.

Əsası Lelio Socianus (1525-1562) və onun əmisi oğlu Fausto Socianus (1539-1604) tərəfindən qoyulan bu cərəyan qurucularının adı ilə sosianizm (socianism) kimi tanındı. Sosianistlər gizli toplantılar yolu ilə yayılırdılar. «The Catholic Encyclopedia» bu cərəyanın etiqadını belə şərh edir:

> "(Sosianistlərə görə), üçləmə adlı bir şey yox idi. Hz.İsa Rəbblə və ya Müqəddəs Ruhla eyni cövhərdən (dolayısı ilə Tanrı) deyildi... Onun ölümü və işgəncələrə məruz qalması insanları xilas etmək üçün deyildi".[80]

Sosianistlər müxtəlif təzyiqlərə məruz qaldılar. Çox keçmədən kilsə onları aforoz etdi. Fausto Socianus "Allahdan vəhy alan Hz.İsa həyatının müqəddəsliyi ilə əlbəttə ki, başqa insanlardan fərqli olmalıdır. O, ilahi görünüşə və ilahi ilhama malik idi, amma qətiyyən bir yaradan deyildi. Bənzərsiz bir qabiliyyətlə zinətləndirilərək insanlığa bir vəzifə məqsədilə göndərilmişdi" deyirdi.[81] Üçləməni rədd edən Socianus Allahın Zatının bir olduğunu deyir, üç varlıqdan bəhs etməyin ağıldankənar olacağı fikrini dəstəkləyirdi. Sosianizm təlimi İngiltərəyə qələr gedib çıxdı. Ancaq bu məsələ kilsəni çox narahat edirdi. Bu narahatçılıq Norveç Yepiskoplar Birliyi tərəfindən belə ifadə edilmişdi:

> "Xristianlığı məhv etmək qorxusu yaradan anti-təslisçilər və yeni ariusçular tərəfindən azdırılmış Socian xristianların düşüncələrini yoldan çıxarır".[82]

Eyni dövrdə sosianistlərə oxşar fikirlər yayan, xüsusilə üçləmə etiqadına radikal şəkildə qarşı çıxan cenevrəli Michael Servetus (Mişel Servetus) fikirlərinə görə Kalvin tərəfindən dirəyə bağlanıb yandırılaraq edam edildi. O, yandırılarkən üçləmə əleyhinə yazdığı kitab da sinəsindən asılmışdı. Servetus xristianlığın İznik məclisində dəyişdirildiyini söyləmiş və bu təhriflərdən xilas olmaq üçün İznik məclisindən əvvəlki mənbələrə qayıdılmasının vacibliyini yazmışdı. 1638-ci ildə sosianistlərə qarşı hücumlar başlandı.

Onların Rokoudakı kolleci bağlandı və tövhidi qəbul etmiş bir çox insan diri-diri yandırıldı.

Sosianistlərin irsini təhvil alan uniteryen (tövhidçi) cərəyanı isə XVI əsrin axırlarında Transilvaniyada ortaya çıxdı və sonra da başda Polşa olmaqla Avropanın dörd bir tərəfinə yayıldı. Uniteryen kilsəsinə məxsus olan internet saytında uniteryen cərəyanının ortaya çıxması belə bildirilir:

> "İlk dövrün xristianları Hz.İsa haqqında fərqli inanclara malik idilər. Bunların arasında Hz.İsanın tanrı olmadığı etiqadı da var idi. Ancaq Ata-Oğul və Müqəddəs Ruhla qeyd edilən üçləmə doktrinası zorla qəbul etdirilərkən bundan kənarda qalan başqa inanc sahibləri "azğın" elan edildilər. XVI əsr xristian humanistləri İncili diqqətlə tədqiq etdilər və müqəddəs mətnlərdə üçləməni tapa bilmədilər. İncillərə görə, Hz.İsanın da təsdiq etdiyi kimi, onlar da Tanrının bir və tək olduğunu qəbul edib təsdiqlədilər. Bundan sonra da uniteryen adını aldılar. Uniteryenlər qarşılaşdıqları amansız və əzazil ortodoksal basqısına və zülmünə qarşı, yəni öz rasional fikirlərinə uyğun şəkildə kilsələr qurdular və din məsələsində vəzlər verdilər. Hamının din azadlığını dəstəkləyəcək şəkildə hərəkət etdilər. İman Tanrının bir hədiyyəsi (neməti) olduğu üçün heç kim seçmədiyi bir dinə daxil olması üçün məcbur edilməməli idi".[83]

Polyak uniteryen rahiblərin nəşr etdirdikləri və tək Tanrı fikrinin xüsusi şəkildə vurğulandığı Racovan Catechism adlı sənəd bu cərəyanın ən mühüm mənbələrindən biri halına gəldi. Bu sənəddə kəffarə inamı rədd edilirdi. Racovan Catechism adlı sənəddə bunlar bildirilirdi:

> "İsa Məsihə tanrılıq "bəxş" edənlərin fikri ancaq adi məntiqə zidd olmaqla qalmaz, o, həmçinin Müqəddəs Kitablara da ziddir. Eyni zamanda təkcə Atanın deyil, oğlun və Müqəddəs Ruhun tək bir Tanrı olan üç fərqli

varlıq olduğuna inananlar da böyük səhvə yol verirlər. Tanrı...mütləq şəkildə təkdir və buna görə üç müstəqil varlıq kimi yeni bir Tanrı açıqlaması ilə gələnlər bu əsasla tam ziddiyyət təşkil edirlər... İznik məclisinə kimi davam edən müddət ərzində və həmin dövrdə yaşayanların yazılarına görə, məclisdən bir müddət sonraya kimi Ata həqiqi Tanrı kimi bilinir və qəbul edilirdi. Bu fikrə qarşı çıxanlar isə azğın kimi dəyərləndirilirdi..."[84]

Uniteryenlər XVIII-XIX əsrlərdə xüsusilə də anqlo-sakson dünyasında təsirli oldular. Əvvəlcə İngiltərədə, sonra da ABŞ-da uniteryen kilsələri quruldu. Təkcə xristianların deyil, bütün insanların Allaha iman gətirəcəkləri təqdirdə qurtulacaqlarına inanan bu insanlar özlərini universalist kimi tanıtdılar. Bir-birindən asılı olmadan inkişaf edən uniteryen və universalist kilsələri 1961-ci ildə birləşdilər. "The New Catholic Encyclopedia" uniteryen kilsələrin müştərək etiqadlarını belə xülasə edir:

"Hz.İsa (uniteryenlərə görə), Tanrının yeganə Oğlu və Xilaskar deyil, amma yəhudi peyğəmbərləri ənənəsində mövcud olan bir dini rəhbərdir. Dolayısı ilə "Hz.İsa ilə bağlı din" (yəni ənənəvi xristianlıq) "Hz.İsanın dini" ilə dəyişdirilməlidir. Müqəddəs Kitab ağıl və elm işığında tədqiq edilməli və qəti şəkildə dəyişilməz bir mənbə kimi yox, insan yazısı olan bir əsər kimi qəbul olunmalıdır".[85]

Qısası, Hz.İsa uniteryenizmdə həqiqətdə olduğu kimi, yəni bir yəhudi peyğəmbəri kimi qəbul edilir, Əhdi-Cədiddə onun barəsində işlədilən "oğul" ifadəsi məcazi mənada başa düşülür. Allahın bir və tək olduğu həqiqəti təsdiq edilir. Uniteryenlərin etiqad əsasları bir internet səhifəsində belə tərif edilir:

"Uniteryenlərin etiqadının əsasları Tanrının birliyindən, Tanrını və insanları sevməkdən, əbədi bir həyata

inanmaqdan ibarətdir... Hz.İsanın xatirəsinə hörmət göstərir, ancaq onun "tanrılığını" rədd edir və "səhvsiz" olduğunu qəbul etmirlər. Xristian müqəddəs kitablarını insan təcrübəsinin bir sənədi kimi görür, lakin onların müəllifləri insan olduğu üçün səhv edə biləcəklərini düşünürlər... Tanrının hər dövrdə insanlara doğru yol göstərmək üçün peyğəmbərlər göndərdiyini qəbul edirlər. İsa Məsihi də bunların ən üstünü kimi qəbul edirlər..."[86]

Uniteryenlərin Hz.İsa haqqındakı fikirləri öz internet səhifələrində belə ifadə edilir:

"O (Hz.İsa), bir çox uniteryen üçün bir yolgöstərən idi və hələ də elədir... Biz Hz.İsanın insan kimi həyatını və təlimlərini yəhudi peyğəmbərlər və alimlər ənənəsinin bir davamı kimi başa düşürük. O bu ənənəni nə dağıtdı, nə də tərk etdi".[87]

Uniteryenlər ənənəvi xristian etiqadının bir hissəsini rədd edir, inanclarını gözəl əxlaq, ağıl, sağlam düşüncə və Allahın birliyi üzərində qururlar. Onlar öz saytlarında dini inanclarını belə ifadə edirlər:

"Biz ən əvvəl Allahın birliyinə, tək və ancaq bir tək Allah olduğuna inanırıq. Hər hansı bir insan faydasız fəlsəfə ilə bizim beynimizi qarışdırmasın deyə bu həqiqətə sonsuz əhəmiyyət veririk və özümüzü diqqətli olmaq məcburiyyətində qoyuruq. Tək bir olan Allahın olduğu məsələsi bizə olduqca aydın görünür. Bizim başa düşdüyümüz şey bir tək varlıq, tək bir ağıl, tək bir fiziki varlıq, tək bir ağıllı vəkil olmasıdır ki, O da heç bir şeydən ortaya çıxmamışdır, sərhədsiz mükəmməlliyə malikdir və hakimiyyət yalnız Ona məxsusdur. Biz üçləmə doktrinasına qarşı çıxırıq..."[88]

Ancaq bunu da bildirmək lazımdır ki, bu gün uniteryenizm adı altında müdafiə edilən fikirlərin bir qismi də özündə Allaha və Onun vəhyinə imanla uyğun gəlməyəcək

bəzi ünsürləri ehtiva edir. Bəzi uniteryenlər dini hökm və ibadətlərin ortadan qalxdığı bir növ "humanist din" anlayışına malikdir. Bəziləri heç bir möcüzəni qəbul etmirlər. Məsələn, Hz.İsanın atasız anadan olduğunu və göstərdiyi möcüzələri də rədd edirlər. Bu da Haqqdan başqa cür azmaqdır. Bu kitabda da uniteryenlərdən Hz.İsa dövründəki həqiqi xristianlığı təmsil edən bir icma kimi bəhs edilmir, ancaq uniteryenlərin üçləmə və kəffarə kimi inancları ilə bağlı fikirləri qeyd edilir. Üçləməni müdafiə edən cəmiyyətlərin arasında belə bir cərəyanın olması əlbəttə ki, çox vacibdir, lakin bu cür qrupların Qur'an ayələri ilə ziddiyyət təşkil edən batil etiqadlara malik olması faktı da əsla yaddan çıxarılmamalıdır.

## Tövhidə inanan bir xristian: Servetus

**Arius** kimi üçləmə əleyhdarı olduğu üçün bəzilərinin böyük etirazına tuş gələn xristian ilahiyyatçılarından biri Michael Servetus-dur (Mişel Servetus) (1511-1553). Servetus əsrlərdən bəri kilsə tərəfindən öyrədilən bir çox məsələnin İncildə olmadığını bildirirdi. Servetus bu fikirlərini bütün dünyaya elan etməyə qərar verəndə iyirmi yaşlarında idi. Onun "De Trinitatis erroribus libri vii" ("Təslisin səhvləri") və "Dialogorum de Trinitate libri ii" ("Təslisə dair iki dialoq") adlı kitabları Avropada çox böyük səs-küyə səbəb oldu. O günə kimi heç kim bu cür cəsarətli bir kitab yaza bilməmişdi. Servetus Antakya təliminə bağlı ilk həvarilərin yolunu davam etdirdiyini söyləyirdi. Kilsə bu kitablarından sonra Servetusu ölkədən-ölkəyə sürgün etdi. Servetus adını dəyişdirdi, amma fikirlərini heç vaxt dəyişmədi. Buna görə də 1553-cü il yanvarın 26-da Cenevrədə yandırılaraq öldürüldü.

Servetusun başqa bir xüsusiyyəti də onun İslam dininə bəslədiyi sevgi və maraq hissi idi. Yazılarında İslam di-

nindəki güclü tövhid inamına, Hz.Muhəmmədin (s.ə.v.) sözlərinə çox yer ayıran Servetus işgəncələrə məruz qalmasına səbəb olan "Təslisin səhvləri" kitabında üçləmənin ağla uyğun olmadığını belə vurğulayırdı:

> "...Çox cəfəng olan bu üçləmə ənənəsi yalnız Allahı tanıyan müsəlmanlara çox gülməli gəlir. Yəhudilər də bizim xəyala bağlılığımızdan hürkürlər. Üçləmə haqqındakı düşüncələrimizə gülür və onu küfr hesab edirlər... Təkcə müsəlmanlar və ibranilər deyil, hətta tarla heyvanları da halımıza gülür, heyvanlar bizim axmaqvari xəyalımızı başa düşməlidir, çünki Rəbbin bütün varlıqları bir və tək olan Allahı qəbul etmişdir".[89]

Servetusun yazdıqları və danışdıqları onun insanlıqdan kənar şəkildə öldürülməsinə səbəb oldu. Ancaq hazırda o, hələ də bir çox insan tərəfindən xristian dünyasında "Müasir tövhidçiliyin qurucusu" kimi qəbul edilir.

## Yəhova şahidləri

Xristian dünyasında üçləmə inancını rədd edən bir sıra cərəyanlardan biri də Yəhova şahidləridir. Yəhova şahidləri ənənəvi xristianlıqla bir çox məsələdə uzlaşma içində olsa da üçləməni rədd etmələri səbəbilə xristian sayılmırlar. Halbuki Yəhova şahidlərinin yəhudiliyin və xristianlığın dini və mədəni təlimlərindən ortaya çıxdığı tamamilə aydın olan məsələdir.

Yəhova şahidlərinə görə, xristianlıqdakı təslis etiqadı Müqəddəs Kitabda mövcud olan bir inanc deyil. Onlar: "Əgər insanlar bir təslis etiqadına əvvəlcədən malik olmadığı halda Müqəddəs Kitabı (Tövratı və İncili) əvvəldən axıra kimi oxusalar, heç cürə belə bir fikrə rast gələ bilməyəcəklər" deyirlər.

Kitab boyunca üzərində dayandığımız kimi, bir çoxları təslis inancının xristianlığa Hz.İsadan sonra əlavə edildiyi fikrini müdafiə edirlər. Yəhova şahidləri bir Tanrı anlayışı yönündən yəhudilərə oxşarlığı olsa da Hz.İsa haqqındakı inamları onları yəhudilikdən qoparır. Yəhova şahidləri onların həqiqi xristian olduqlarını, digərlərinin isə səhv etdiklərini vurğulayaraq belə deyirlər:

> "Tanrı haqqında Müqəddəs Kitabın təlimi və onun hədəfləri açıq, asan başa düşülən və ağlabatandır, lakin xristianlıqda kilsələrin təlimləri belə deyil, daha pisi də odur ki, onlar Müqəddəs Kitaba ziddirlər. Xristianlıq aləminin üçləmə inancı Tanrını bir Tanrıda üç anlaşılmaz şey kimi təsvir edir, lakin bu təlim Müqəddəs Kitabda yoxdur".[90]

Yəhova şahidlərinin 2001-ci il statistik məlumatlarına görə, təxminən 6 milyon Yəhova şahidi yaşayır.

## Uniteryen cərəyanının güclənməsində İslam dininin təsiri

Uniteryen kilsəsinin güclənməsi prosesini araşdıranda qarşımıza çox qəribə bir məqam çıxdı. Bu məqam Osmanlı imperatorluğunun bu cərəyanın güclənməsindəki təsiri ilə bağlıdır.

Bundan əvvəlki fəsildə də vurğuladığımız kimi, XVI-XVII əsrlərdə Osmanlı torpağı olan Transilvaniya tövhid etiqadının çox gücləndiyi bir bölgə olmuşdu. Florida uniteryen kilsəsinin rahibi Yack Donova-nın (Cek Donovan) *"Islam, US and Yeats' Dilemma"* ("İslam, Amerika və Yeats dilemması") sərlövhəli vəzində bu məsələ belə vurğulanır:

> "Polşa, Macarıstan və Transilvaniyadakı bəzi islahatçı protestant xristianlar bir inanc əsası olaraq "Allah birdir" deməyə başladılar: "Başqa tanrılar yoxdur, Allah vardır". Xristianlıqdakı ümumi etiqada zidd olan bu

düşüncə həmin günlərdə ortaya çıxmışdı. Ölümə meydan oxuyan bu ifadə haradan qaynaqlanmışdı? - testantlıq 1520-ci və 1530-cu illərdə çox yeni və üçləmə əleyhdarı ikən müsəlman Osmanlı imperatorluğu Xorvatiya, Macarıstan və Transilvaniyanı fəth etmişdi".[91]

Osmanlı torpaqlarında xristianlığın içindən çıxmış bu tövhid inancını əsas götürən cərəyanın güclənməsinin səbəbi əksər tarixçi və uniteryen din xadimi tərəfindən də təsdiq edildiyi kimi, İslam dininin gətirdiyi xoşməramlılıq mühiti ilə bağlı idi. "North Unitarian Universalist" ("Şimali Ümumdünya Uniteryen Kilsəsi") kilsəsindən olan Susan Ritchie (Süzen Raytç) *"The mise of Postmodernism for Unitarian Universalist Theology"* ("Postmodernizmin ümumdünya uniteryen ilahiyyatına vədləri") başlıqlı vəzində bu mühiti belə səciyyələndirir:

"Çoxlu sayda bitərəf beynəlxalq tarixçi osmanlıların siyasi himayədarlığının protestantlığın inkişafına şərait yaratdığını qəbul etməklə kifayətlənmir, həmçinin Osmanlı rəhbərliyinin yerli ənənələrə və dinlərə münasibətdəki xoş rəftarına bağlı olaraq bəzi təsirlərə malik olduğunu da qəbul edir".[92]

İslam dinindəki güclü tövhid inancı üçləmə etiqadını rədd edən xristianlar üçün çox böyük bir güvənc və istinad yeri idi. Onlar fikir azadlığının hakim olduğu Osmanlı torpaqlarında öz fikirlərini rahat şəkildə ifadə edə bildilər, öz kilsələrini yaratdılar və xristian tövhid ənənəsini çox gücləndirdilər.

İslam dini ilə uniteryen kilsəsi arasındakı əlaqələr neçə əsrdir ki, tədqiqatçıların böyük marağına səbəb olub. Məsələn, Alexander Sandor Unghvary-nin (Aleksandr Şandor Unqvari) *"The Hungarian testant Reformation in the Sixteenth Century under the Ottoman Impact"* ("XVI əsrdə Osmanlı təsiri altındakı macar protestant islahatları") adlı kitabında bu məsələ araşdırılır. Unghvary əvvəlki səhifələrdə qeyd etdiyimiz tövhid etiqadının müdafiəçisi olan Servetusun İs-

lam dininə verdiyi əhəmiyyətin üzərində dayanır.[93] Mathurin Veyssiere de la Croze (Maturin Veyssie de la Kroze) də sosianizmlə İslamın əlaqəsini əsas götürdüyü əsərində Transilvaniya uniteryenlərinin uniteryenizm və Qur'anda öyrədilən Allahın birliyi ideyası arasında bir oxşarlıq olduğunu qəbul etdiklərini iddia edir.[94]

Uniteryen din xadimi Yack Donovan isə özünün bir vəzində bu məsələlərə diqqəti belə cəlb edirdi:

> "İki İslam təlimi daha geniş yayılmış və böyük marağa səbəb olmuşdur. Birincisi, hər gün məscid minarələrindən camaata oxunan azandakı "Allah birdir, başqa tanrılar yoxdur, Allah vardır, Allahdan başqa tanrı yoxdur" ifadələri idi. Və ikincisi, Qur'anın çox aydın bir məsələsi olan və Hz. Muhəmmədin xüsusilə vurğuladığı məqam "bütün dinlərə göstərilən xoş münasibət"dir, çünki hər din Allaha bir cavabdır... Bu təlimlər Hz.İsanın İncilinə uyğunlaşdırılanda XVI əsr uniteryenizmini əldə edərsiniz. Mənim tezisim ənənəmizin İslama 450 illik bir borcunun olmasıdır... XVII və XVIII əsrlərdə yaşamış avropalı sosianistlər İslamı xristian kilsəsindəki dini mövhumatçılığın əksəriyyətini düzəldən "xalis monoteizm" ("təktanrılıq") şəklində təriflənməkdən çəkinməmişdilər. Andrew Ramsey (Endryü Ramsey) 1727-ci ildə sosianizmdən "ideal İslam"dan təsirlənən möhtəşəm bir din kimi bəhs edib. Henry Stubbe, Yohn Toland, Arthur Bury, William Feke və Stephen Nye (Henri Stabb, Con Toland, Artur Böri, Uilyam Feke və Stefan Nay) də İslama qarşı müsbət fikirdə olan sosianist müəlliflər idilər. Bu müəlliflər nəzəri İslamı, -xüsusilə də anqlikan ortodoksalizmində narahatçılığa səbəb kimi gördükləri ən qədim xristianlıqdan sapmaları,-maarifləndirmə yolu kimi görmüşdülər".[95]

Toronto uniteryen kilsəsindən olan Mark D.Morrison-Reed (Mark D.Morrison-Rid) isə *"The Islamic Connection"*

("İslami əlaqə") başlıqlı vəzində İslam dinindən belə bəhs edir:

"Houston Smith (Hyuston Smit) "İslamın gətirdiyi yeniliyin bütləri dini mühitdən yığışdırmaq və hamı üçün görünməyən yeganə bir İlahi Varlıq olan Allaha bağlanmaq olduğunu" yazmışdı. İslam xristianlıqdan fərqli olaraq şübhəyə yer qoymayacaq dərəcədə təktanrılıdır və yəhudilikdən fərqli olaraq tək bir xalqla məhdudlaşmayıb. İslam dinini bizimki ilə bağlamağa bu nöqtədən başlaya bilərik: Allahın birliyini dərketmə məsələsində müştərək tarixi əsasları paylaşdığımızı qəbul etmək.

Xristianlıqla İslam arasında mədəniyyət amili baxımından bir körpü yaranmasını təmin edən faktor orta əsrlərdəki İslamın xoşməramlılığıdır. Bu ispan intibahı bizim intellektual atamız olduğunu iddia etdiyimiz bir şəxsə - Michael Servetusa təsir etmişdi. Servetus 1511-ci ildə Şimali İspaniyada anadan olmuşdu. Servetusun həyatına təsir edən bəzi məqamları bilsək də onun fikirlərinin necə inkişaf etdiyini və ya "Təslisin səhvi" adlı kitabını 1531-ci ildə çap etdirməsində təkanverici faktorun nə olduğunu tam şəkildə bilmirik... İslam Qərbdə Servetusun fikirlərinin yüksəlməsinə təsir edən siyasi və intellektual şərtləri meydana gətirərkən uniteryenizmin Avropanın qərbində yayılmasını və inkişafını təmin edən siyasi zəmini də formalaşdırmışdı... Bir mənada biz İslama çox şey borcluyuq. İslama əcnəbi və dərkedilməz bir şey kimi münasibət bəsləməyə son qoymalıyıq. Əksinə, təkcə tarixi baxımdan əlaqəli olduğumuzu deyil, həmçinin bəzi müştərək dəyərləri də paylaşdığımızı dərk etməyin vaxtıdır".[96]

Müxtəlif uniteryen kilsələrində din xadimlərinin verdiyi bu açıqlamalar İslam torpaqlarında mövcud olan xoşməramlılığı, müsbət vəziyyəti və bu iki haqq dinin malik olduğu müştərək dəyərləri göstərir.

# NƏTİCƏ

Kitab boyunca ortaya qoyduğumuz həqiqət Hz.İsanın gətirdiyi dinin "**Allaha bir və tək şəklində iman gətirən haqq din**" olmasıdır. Ancaq bu mübarək insanın təbliği onun Allah dərgahına yüksəldilməsindən sonra dəyişdirilib, həqiqi xristianlığın yerinə "üçləmə və kəffarə kimi" batil fəlsəfələri əsas götürən yeni bir inam meydana gətirilib. Və bu inam insanlara "heç fikirləşmədən, mühakimə etmədən, araşdırmadan" qəbul edilməsi vacib olan "mütləq bir qanun" kimi təqdim edilib.

Ancaq insanlar məclislərdə "səs çoxluğu" ilə qəbul edilən bu səhv etiqadları artıq saf-çürük və mühakimə etməyə başlayıblar. Keçmişdə üçləmə etiqadı haqqında şübhələrini söyləyənlər inkvizisiya məhkəmələrinə çıxarılıb edam cəzalarına məhkum edildikləri halda bu mübahisələr artıq indi cinayət işi olmaqdan xeyli uzaqdır. Əsrlər boyunca barəsində danışılmayan və mübahisə mövzusu olmayan üçləmə etiqadının xristianların müqəddəs mətnlərində mövcud olmaması, bu inamın xristianlığa Hz.İsadan 3 əsr sonra əlavə edilməsi imkan düşdükcə dilə gətirilməyə başlanıb. Kitabda da nümunələrini gördüyümüz müxtəlif ilahiyyatçılar, müəlliflər, tədqiqatçılar insanlara həqiqi xristianlığı başa salırlar. Üçləmə inancını rədd edən müxtəlif müstəqil kilsələr də dünyanın dörd bir tərəfində insanlara üçləmə etiqadı haqqındakı həqiqətləri vəz edir. Bu proseslərin son dövrlərdə də sürətlənməsinin isə çox mühüm bir səbəbi var: xristianlığın bütün səhv inanclardan təmizlənərək öz mahiyyətinə qayıdacağı vaxt yaxınlaşıb.

İçində yaşadığımız axırzaman bütün iman sahibləri üçün çox mübarək və müYdəli bir dövrdür. **Çünki Rəbbimiz iki min ildən sonra axırzamanda elçisini yenidən dünyaya göndərəcəyi ilə müYdələyib. Bu elçi Hz.İsadır.** Bu, xüsusilə də xristianlar üçün çox əhəmiyyətli bir müYdədir. Çünki iki min ildən bu günədək öz təməlindən uzaqla-

şan xristianlığı özünə qaytara biləcək yeganə şəxs Hz.İsadır.

Qur'an ayələrində Hz.İsanın yer üzünə ikinci dəfə gəlişi bizə müxtəlif əlamətlərlə bildirilir. Peyğəmbərimizin (s.ə.v.) də "**Allaha and olsun ki, əlbəttə və əlbəttə, Məryəm oğlu İsa gələcəkdir, həm adil bir hakim, həm də ədalətli bir hökmdar olaraq gələcək...**" ("Səhihi Müslim bi şərhin-Nəvəvi", 2-ci cild, s.192) kimi bir çox hədisində Hz.İsanın gələndə edəcəklərindən və həmin dövrün xüsusiyyətlərindən müxtəlif nümunələrlə bəhs edilir. Hədislərdə bildirildiyinə görə, Hz.İsa gələndə xristianlığı əvvəlki vəziyyətinə qaytarandan sonra dünyada hakim olan inkarçı sistemi aradan qaldıracaq və bundan sonra insanlar axın-axın din əxlaqına uyğun yaşamağa başlayacaqlar. Həqiqi din əxlaqına uyğun yaşanması insanlara həm mənən, həm də maddi cəhətdən səadət və əmin-amanlıq gətirəcəkdir. Dünyadakı bütün xaos, iğtişaş və qarşıdurmalar bitəcək, bütün ziddiyyət və anlaşılmazlıqların hamısı sülh yolu ilə həll ediləcək. Əxlaqi tənəzzüldən irəli gələn narahatlıq, təşviş və qorxular öz yerini əmin-amanlığa, təhlükəsizliyə və dincliyə buraxacaqdır. Ədalət bütün dünyada hakim olacaq, insanlar dünyanın hansı yerinə getsələr, orada yalnız gözəllik, zənginlik, rifah və bərəkətlə qarşılaşacaqlar.

Bütün iman gətirənlər kimi bizim də arzumuz odur ki, Rəbbimiz bizi Hz.İsa ilə rastlaşma şərəfinə nail etsin və onun gəlişindən əvvəlki dövr olan bu zamanda mübarək qonağımızı qarşılamaq üçün ən gözəl hazırlığı yerinə yetirməyimizi bizə nəsib etsin.

Arzumuz xristianların da İncildə "**...Sizdən göyə aparılan bu İsa göyə qalxdığını necə gördünüzsə, eyni cür geri qayıdacaqdır**" ("Həvarilərin işləri", 1/11) şəklində xəbər verilən bu müYdə ilə sevinmələri və üçləmə yanlışlığını dərk edib Allaha üz tutmalarıdır.

# İQTİBASLAR

1. Erwin Roy Gane, «The Arian or Anti-Trinitarian Views Presented in Seventh-day Adventist Literature and the Ellen G. White Answer»; httr://www.sdanet.org
2. The New Catholic Encycloredia, XIV cild, səh.295, httr://www.triumrhrro.com
3. Muhammed Ataur Rahim and Ahmad Thomson, "Yesus Prophet of Islam", Revised Edition, Ta-Na Publishers Ltd, noyabr 1996-cı il, London, səh.93
4. Fazal Ahmad, "Arius: The Trinity Controversy in the Church", The Review of Religions, Londra, sentyabr 1996-cı il.
5.Athanas., Hist.Tr.; P Yohnson. "History of Christianity", Pelican Books 1976, səh. 89.
6. Fazal Ahmad, "Arius: The Trinity Controversy in the Church", The Review of Religions.
7. "The First Council of Nicaea", The Catholic Encyclopedia, copyright c 1913 by the Encyclopedia Press, Inc. Electronic version copyright c 1996 by New Advent, Inc. http://www.newadvent.org
8. Michael Baigent, Richard Leigh, Henry Lincoln, The Mssianic Legacy, Corgi Books, London, 1991. s. 66
9. Prof.Dr.Mehmet Aydın, "Müslümanların hristiyanlara karşı yazdığı reddiyeler ve Tartışma konuları", Türkiye Diyanet Vakfı nəşriyyatı, Ankara-1998, səh.96.
10. Mahmut Aydın, "İsa Tanrı mı, İnsan mı?", Dinler Arası Diyalog Bağlamında İsa-Mesihin Konumu Sorunu, İz yayıncılık, səh.47.
11. "Nəsrani" ifadəsi Əhdi-Cədidin "Həvarilərin İşləri" kitabında qeyd edilir. Burada yəhudilər Hz.İsanın tələbələrini ifadə etmək üçün "nəsrani təriqəti" ifadəsini işlədirlər (24:5). Bu ifadə həmin dövrə aid olan yəhudi və xristian mənbələrində də qeyd edilir.
12. Tövratda Hz.Musanın belə dediyi yazılıb: "Allahınız olan Rəbb sizə, öz qardaşlarınızın arasından mənim kimi bir peyğəmbər çıxaracaq. Onun sizə söyləyəcəyi hər sözü qulaq asın. Həmin peyğəmbərə qulaq asmayan hər kəs Tanrının xalqından qoparılıb məhv ediləcəkdir" ("Təsniyə", 18/15).

13. Michael Baigent, Richard Leigh, Nenry Lincoln, "The Messianic Legacy", s.136
14. Irenaeus, Adversus Naereses, 1:26; Michael Baigent, Richard Leigh, Nenry Lincoln, "The Messianic Legacy", s. 136.
15. Erirhanius. Contra Octoaginta Naereses, xxx, s. 45; Michael Baigent, Richard Leigh, Nenry Lincoln, The Messianic Legacy, s. 137
16. David van Biema, The Lost Gosrels, Time, 22 dekabr 2003.
17. Mahmut Aydın, Yahudi bir peygamberden Gentile Tanrıya: İsanın tanrısallaşdırılma süreci, İslamiyat III (2000), 4-cü sayı, səh.51
18. E.P.Sanders, "The Nistorical Figure of Yesus", Penguin Books, İngiltərə, səh. 58-59
19. Mahmut Aydın, "Tarihsel İsa, İmanın Mesihinden Tarihin İsasına", Ankara Okulu Yayınları, Ankara, 2002, səh. 47-48. Rudolf Bultman, "Nistory of the Synortic Tradition", s.127.
20. Mahmut Aydın, "Tarihsel İsa, İmanın Mesihinden Tarihin İsasına", səh. 51; Rudolf Bultman, "Theology of the New Testament", I, səh. 51.
21. E.P.Sanders, "The Nistorical Figure of Yesus", səh. 63.
22. E.P.Sanders, "The Nistorical Figure of Yesus", səh. 63.
23. E.P.Sanders, "The Nistorical Figure of Yesus", səh. 64.
24. Paula Fredriksen, "From Yesus to Christ, The Origins of the New Testament, Images of Yesus", Second Edition, Yale University Press, s. 3.
25. Paula Fredriksen, "From Yesus to Christ, The Origins of the New Testament, Images of Yesus", s. 5.
26. Marcus Y.Borg, "The Nistorical Study of Yesus and Christian Origins", s. 144. Yohn Dominic Crossan, "The Birth of Christianity, Discovering what harrened in the years immediately after the execution of Yesus", Narrer San Fransisco, 1998, s.140
27. Barry, W.Nenaut, "Oral Tradition and the Gosrels", ss. 295, 296-297, 299, 304. Yohn Dominic Crossan, "The Birth of Christianity, Discovering what harrened in the years immediately after the execution of Yesus", NarrerSanFransisco, 1998, s.403
28. Mahmut Aydın, "Yahudi bir peygamberden Gentile Tanrıya: İsanın tanrısallaşdırılma süreci", İslamiyat III (2000), 4-cü sayı, səh.51

29. Məsələn, bax: Nugh Schonfield. The Passover Plot. A New Interrretation of the Life and Death of Yesus. Element Books Limited, London, 1996. s. 259
30. Lütfi Ekinci, Yohn Gilchrist. "Evet, Kitabı Mukaddes Tanrı Sözüdür: Kitap Ehlinden sorulara yanıtlar", MüYde yayıncılık, İstanbul, 1993. s. 240. http://isamesih.org
31. Yohn Dominic Crossan & Richard G. Watts, Who is Yesus? Answers to Your Questions About the Nistorical Yesus, Westminster Yohn Knox Press, London, 1996, s. 3-4
32. Paula Fredriksen, From Yesus to Christ, The Origins of the New Testament, Images of Yesus, s. 8
33. Yim Walker, "Did A Nistorical Yesus Exist", http://freethought.mbdoyo.com
34. Yim Walker, "Did A Nistorical Yesus Exist", http://freethought.mbdoyo.com/didyesusexist.html
35. Yim Walker, "Did A Nistorical Yesus Exist", http://freethought.mbdoyo.com/didyesusexist.html
36. Yim Walker, "Did A Nistorical Yesus Exist", http://freethought.mbdoyo.com/didyesusexist.html
37.Did A Nistorical Yesus Exist, Yim Walker, http://freethought.mbdoyo.com/didyesusexist.html
38. Time, 8 aprel 1996. http://freethought.mbdoyo.com/didyesusexist.html
39. E.P.Sanders, The Nistorical Figure of Yesus, s. 57
40.E.P.Sanders, The Historical Figure of Yesus, s. 69
41.Maurice Casey, From Yewish Prorhet to Gentile God, The Origins and Develorment of New Testament Christology, Yames Clarke and Co. Ltd., Cambridge, 1991, s. 25
42. Yames Still, "The Gosrel of Yohn and the Hellenization of Yesus". http://www.sullivan-county.com/
43. Yames Still, "The Gosrel of Yohn and the Hellenization of Yesus", http://www.sullivan-county.com/news/mine/yohn_gosrel.htm
44. Yames Still, "The Gosrel of Yohn and the Hellenization of Yesus", http://www.sullivan-county.com/news/mine/yohn_gosrel.htm
45. Thedore Zahn, The Articles of Arostles' Creed, 1899, s. 33-37

46. Duncan Neaster, Yesus Christ and the Trinity, What Does the Bible Say? The Transcrirt of A Debate, 1988, http://www.carelinks.net/books/dh/dbb/1-1.htm
47.Mahmut Aydın, "İsa Tanrı mı, İnsan mı?", Dinler Arası Diyalog Bağlamında İsa-Mesihin Konumu Sorunu, İz yayıncılık, səh.118; Yohn Hick, The Rainbow of Faiths, s. 95-99
48. Maurice Casey, From Yewish Prorhet to Gentile God, The Origins and Develorment of New Testament Christology, s.47
49. Yohn Hick, The Metarhor of God Incarnate, Christology in a Pluralistic Age, Westminster/ Yohn Knox Press, 1993, Ön söz
50. Yohn Hick, The Metarhor of God Incarnate, Christology in a Pluralistic Age, s.2
51. Yohn Hick, The Metarhor of God Incarnate, Christology in a Pluralistic Age, s. 27
52. "Son of God". The Catholic Encyclopedia, copyright c 1913 by the Encyclopedia Press, Inc. Electronic version copyright c 1996 by New Advent, Inc. http://www.newadvent.org/cathen/14142b.htm
53. Mahmut Aydın, "İsa Tanrı mı, İnsan mı?", Dinler Arası Diyalog Bağlamında İsa-Mesihin Konumu Sorunu, İz yayıncılık, səh.123; Yohn Hick, Yesus and the World Religions, s.175
54. Mahmut Aydın, "İsa Tanrı mı, İnsan mı?", Dinler Arası Diyalog Bağlamında İsa-Mesihin Konumu Sorunu, İz yayıncılık, səh.123; Yohn Hick, Yesus and the World Religions, s.176
55. Maurice Casey, From Yewish Prorhet to Gentile God, The Origins and Develorment of New Testament Christology, s.46
56. Maurice Casey, From Yewish Prorhet to Gentile God, The Origins and Develorment of New Testament Christology, s.52
57. Mahmut Aydın, Yahudi bir peygamberden Gentile Tanrıya: İsanın tanrısallaşdırılma süreci, İslamiyat III (2000), 4-cü sayı, səh.68
58. E.P.Sanders, The Historical Figure of Yesus, s. 243
59. E.P.Sanders, The Historical Figure of Yesus, s. 244-245
60. William C.Varner, "Yesus the Son of God", http://www.foigm.org/IMG/sonofgod.htm
61. Anthony Buzzard, "Who is Yesus? Do the creeds tell us the truth about him?" http://www.mindsrring.com/~anthonybuzzard/yesus.htm

62. "İslamiyat" Yurnalı, 15 avqust 2003, Abdullah Şahinin Yohn Hick-lə müsahibəsi, http://www.islamiyatdergisi.com/b0704.asr
63. Archrriest Zachariah Butrus, "God is one in the Noly Trinity", http://www.the-good-way.com/eng/article/a06.htm#3.2
64. Kurani-Kurim Tefsiri, Elmalılı Muhammed Hamdi Yazır, http://www.kuranikerim.com/telmalili/araf.htm
65. Encyclopedia Britannica, Ultimate Reference Suite DVD 2004, "Logos"
66. Carlos Madrigal, "Üç Tanrı mı Tek Tanrı mı? Tevhitte Teslis", Bütün Dünya Kitaplığı, 2002, s. 29-31
67. Yohn Marsh, Yesus in his Lifetime, Sidgwick and Yackson Published, s. 44-46
68. E.P.Sanders, The Nistorical Figure of Yesus, s. 245
69. Paul F.Knitter, No Other Name? A Critical Survey of Christian Attitudes Toward the World Religions, American Society of Missiology Series, No. 7, Orbis Books, New York, 2003, s.185
70. E.P.Sanders, The Historical Figure of Yesus, s.58
71. Paul F.Knitter, No Other Name? A Critical Survey of Christian Attitudes Toward the World Religions, s. 184
72. E.P.Sanders, Yesus in Historical Context, http://theologytoday.rtsem.edu/oct1993/v50-3-article8.htm
73. E.P.Sanders, The Historical Figure of Yesus, s.161
74. Paula Fredriksen, From Yesus to Christ, The Origins of the New Testament, Images of Yesus, s.18
75. Dr.Paul R.Eddy, Was Early Christianity Corrurted by 'Hellenism'?, http://www.xmark.com/focus/Pages/hellenism.html
76. William C.Varner, "Yesus the Son of God", http://www.foigm.org/IMG/sonofgod.htm
77. William C.Varner, "Yesus the Son of God", http://www.foigm.org/IMG/sonofgod.htm
78. Michael Baigent, Richard Leigh, Henry Lincoln, The Messianic Legacy, s.157
79. Leslie Hardinge. The Celtic Church in Britain. S.P.C.K. for the Church Historical Society, London, 1972. s. 37

80."Socinianism". The Catholic Encyclopedia, coryright c 1913 by the Encyclopedia Press, Inc. Electronic version coryright c 1996 by New Advent, Inc. (http://www.newadvent.org/cathen/14113a.htm)
81. "Bir İslam Peygamberi, Hz.İsa", Muhammed Ataur Rahim, III nəşr, İnsan yayınları, səh.140.
82. "Bir İslam Peygamberi, Hz.İsa", Muhammed Ataur Rahim, səh.139; Anti-Trinitarian Biograrhies, A. Wallace, Introduction, s. 79.
83. Unitarian Community Victoria, http://www.anzua.org/ucv/
84. Muhammed Ata'ur Rahim and Ahmad Thomson, Yesus Prophet of Islam, s. 187-188
85. "Unitarians". The New Catholic Encyclopedia, http://www.newadvent.org/cathen/15154b.htm
86. "Unitaryenizm", http://dunyadinleri.com/unitaryen.html
87. Unitarian Community Victoria, http://www.anzua.org/ucv/
88. Unitarian Christianity, William Ellery Channing, http://www.uuchristian.org/channing/unitarianchristianity.htm
89. Muhammed Ata'ur Rahim and Ahmad Thomson, Yesus Prophet of Islam, s. 167
90. Yəhova Şahidləri rəsmi internet (Web) səhifəsi "Christendom Nas Betrayed God and the Bible", http://www.watchtower.org/library/rr/index.htm
91. Yack Donovan, "Islam, US, and Yeats' Dilemma", http://www.uuf.org/Sermon01/011104sIslam,Us,and Yeats'Dilemma.htm
92. Susan Ritchie, The Promise of Postmodernism for Unitarian Universalist Theology, Yournal of Liberal Religion Summer 2002, http://www.nuuc.org/academic.html
93. Susan Ritchie, The Promise of Postmodernism for Unitarian Universalist Theology, http://www.nuuc.org/academic.html
94. Susan Ritchie, The Promise of Postmodernism for Unitarian Universalist Theology, http://www.nuuc.org/academic.html
95.Yack Donovan, "Islam, US, and Yeats' Dilemma", http://www.uuf.org/Sermon01/011104sIslam,Us,andYeats'Dilemma.htm
96.Mark D.Morrison-Reed, The Islamic Connection, http://www.firstunitariantoronto.org/Sermons/Th_%20Islamic_Connection.htm